AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN TEXNOLOGİYA
UNİVERSİTETİ

ELMİ XƏBƏRLƏR
НАУЧНЫЕ ВЕСТИ
SCIENTIFIC NEWS

№ 3
GƏNCƏ - 2025

№ 3/2025

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
Azərbaycan Texnologiya Universiteti
«ELMİ XƏBƏRLƏR » məcmuəsi

Jurnal AQRİS, International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services, Cosmos Foundation (Cosmos Impact Factor), JI Factor, Academik resource Index – ResearchBib, Academic Keys kimi məlumat bazalarına daxil edilmişdir. Jurnal həmçinin Rusiyanın РИНЦ elektron bazasına daxil edilmişdir.

Redaksiya heyəti
Baş redaktor
Ömərov Yaşar Adil oğlu
Biologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texnologiya Universiteti

Baş redaktorun müavini
Həmidov Sahil Zahid oğlu
Kimya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texnologiya Universiteti

Məsul katib
Əliyev Şakir Hüseynqulu oğlu
Texnika üzrə fəlsəfə doktoru,dosent
Azərbaycan Texnologiya Universiteti

Redaksiya heyətinin üzvləri

Başmetov Valeriy Stepanoviç
Texnika elmləri doktoru,professor
Vitebsk Dövlət Texnologiya Universiteti
Buadze Elizaveta Pavlovna
Texnika elmləri doktoru, professor
Kutaisi Dövlət Universiteti
Taşpulatov Abusaleh Şüküroviç
Texnika elmləri doktoru
Daşkənd Tekstil və Yüngül Sənaye İnstitutu
Zaretskaya Qalina Petrovna
Texnika elmləri doktoru, professor
A.N.Kosıgin adına Rusiya Dövlət Universiteti
Abbasov Vaqif Məhərrəm oğlu
k.e.d., AMEA həqiqi üzvü
Akademik Y.H.Məmmədəliyev adına Neft - Kimya Proseseləri İnstitutu
Əliyev Fuad Yusif oğlu
AMEA həqiqi üzvü,
kimya elmləri doktoru, Professor
AMEA Gəncə Bölməsi
Məmmədov Qərib Şamil oğlu
AMEA-nın həqiqi üzvü
Biologiya elmləri doktoru, Professor,
Azərbaycan Milli Elmlər Akademiyası
Cəfərov İbrahim Həsən oğlu
AMEA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor
Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutu

Çıraqov Famil Musa oğlu
Kimya elmləri doktor, professor
Bakı Dövlət Universiteti
Güləhmədov Saib Qurban oğlu
Biologiya elmləri doktoru, professor
Bakı Dövlət Universiteti
Fərzəliyev Elsevər Baba oğlu
Texnika elmləri doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti
Vəliyev Fazil Əli oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti
Mikayılov Vüqar Şahbaba oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Kooperasiya Universiteti
Qənbərov Daşqın Şahbaz oğlu
Biologiya elmləri doktoru, professor
Naxçıvan Dövlət Universiteti
Cəfərov Məntiq Bahadur oğlu
Fizika elmləri doktoru, professor
Azərbaycan Texnologiya Universiteti
Əlbəndərov Ələmdər Aslan oğlu
Kimya üzrə fəlsəfə doktoru,professor
Azərbaycan Texnologiya Universiteti
Aslanov Həsənəli Əsəd oğlu
Aqrar elmlər doktoru, professor
Aqrar elmlər üzrə redaktor
Azərbaycan Dövlət Aqrar Universiteti
Məmmədova Sara Zülfi qızı
Biologiya elmləri doktoru, professor
Torpaqşünaslıq və Aqrokimya İnstitutu

Hacıyev Cahangir Əhməd oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Texnologiya Universiteti
Məmmədov Elşad Ərşad oğlu
Kimya elmləri doktoru, professor
Azərbaycan Texnologiya Universiteti
Mirzəyev Tofiq Hacı oğlu
Texnika üzrə fəlsəfə doktoru,dosent
Texnika elmləri üzrə redaktor
Azərbaycan Texnologiya Universiteti
Nəbiyev Əhəd Əli oğlu
Biologiya elmləri doktoru, professor
Biologiya elmləri üzrə redaktor
Azərbaycan Texnologiya Universiteti
Verdiyev Sakit Qambay oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Texnologiya Universiteti
Fətəliyev Hasil Kamaladdin oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Dövlət Aqrar Universiteti
Məmmədov Qabil Balakişi oğlu
Texnika elmləri doktoru, professor
Azərbaycan Dövlət Aqrar Universiteti
Seyidov Allahverdi Kamil oğlu
Aqrar elmlər doktoru, dosent
Azərbaycan Dövlət Aqrar Universiteti
Qurbanova İlahə Yaşar qızı
Xarici dil üzrə mütəxəssis
Azərbaycan Texnologiya Universiteti
Həsənzadə Zeynab Fizuli qızı
Xarici dil üzrə mütəxəssis
Azərbaycan Texnologiya Universiteti

Kompüter tərtibatçısı: **G.V.Rzayeva**
Korrektor: **Z.Ə.Cavadov**
Dizayner: **A.F.Sadıqova**

İldə dörd dəfə çıxır
Redaksiyanın ünvanı: AZ2011, Azərbaycan,
Gəncə ş. Şah İsmayıl Xətai prospekti, 103
Azərbaycan Texnologiya Universiteti

№ 3/2025

MÜNDƏRİCAT– СОДЕРЖАНИЕ - CONTENTS

L.Z. Cəlilova Cənubi Muğanda torpaqların müasir vəziyyəti və onlarin bəzi göstəricilərinin təyini **4**

Z.M. Abbasov, C.Ə. Məmmədov Şəmkir rayonunun dağlıq ərazilərində torpaq erroziyasının azaldılması tədbirləri və texnikanin istifadə problemləri **9**

F.C. Rəhimova Kənd təsərrüfatında torpaqqoruyucu texnologiyalara uyğun yeni texniki yanaşma **15**

V.H. Rzayev, A.R. Məhərrəmov , Q.N. Abulov Kənd təsərrüfatı əməliyyatları üçün maşın-traktor aqreqatının məhsuldarlığının hesablanması **22**

S. Bağırova, L. Cavadova, C. Ağayeva, L. Nəsirli, A. Axundova *RUSPOLIA SETICALYX* (C.B. CLARKE) MILN. bitkisinin ontogenez xüsusiyyətləri və Abşeron şəraitində introduksiyası **26**

Q.V. Balaxanova Yaşayış binalarında patogen mikromiset göbələklərin taksonomiyası, ekoloji xüsusiyyətləri və insan sağlamlığına təsiri **33**

Ч.А. Мамедов, А.Д. Гаджиева, Р.И. Халилов Изучение влияния наночастиц оксида железа (Fe_3O_4) на ультраструктуру тонкого кишечника и эмбриональное развитие обыкновенного сазана (*CYPRİNUS CARPİO* LİNNAEUS, 1758) при выращивании в условиях аквакультуры **42**

N.F. Daşdəmirli Təklükəsiz proqram icrasıı təmin edən portativ proqramlaşdırma dilinin hazırlanması **53**

M.Q. Məmmədov Piyada keçidində piyadaların təhlükəli davranışlarının riyazi-statistik analizi **61**

İ.N. Məmmədov Şamaxı-Qobustan çökəkliyində neft-qaz sistemlərinin formalaşmasinda geodinamik və geokimyəvi faktorlarin rolu **71**

K.R. Həsənova Logistik zəncirdə nəqliyyat sisteminin təkmilləşdirilməsi **79**

T.H. Mirzəyev, M.H. Hübətova, R.T. Mirzəyev Yüngül sənayenin xarakteristikası istehsal olunmuş malların keyfiyyətinə verilən ümumi tələblər **85**

R.Ş. Allahverdiyev Kiçik şəhərin parklanma problemlərinin təhlili və həll yolları (Göyçay şəhərinin timsalında) **91**

Ş.R. Əliyev, G.N. Əliyeva, F.İ. Əliyeva, R.İ. Əsgərova Geyim modelinin layihələndirilməsində erqonomika anlayışı və onun funksiyası **99**

M.R. Huseynova, M.A. Namazlı Sənaye müəssisələrində süni intellekt (AI) və maşın öyrənməsi (ML) texnologiyalarının əhəmiyyəti və nəzəri-metodoloji aspektləri **103**

N.R. Əsgərov, F.Ə. Vəliyev, S.R. İbrahimov ,P.M. İsrafilzadə, K.F. Vəlizadə Yerüstü nəqliyyat vasitələrində yanacaq sərfiyyatının azaldılmasının əsas həlli yolları **108**

H.S. Hüseynzadə, A.V. Cəfərova Təhlükəli yüklərin dəniz gəmiləri vasitəsi ilə daşınması zamanı yaranan problemlər və onların həlli yolları **113**

E.M. Salayev Şəhərdaxili ictimai nəqliyyatinda vaxt itkilərinin risk analizi və qiymətləndirilməsi **121**

№ 3/2025 **səh.4-8**

UOT 631.6
DOI 10.30546/678209.2025.03.01

CƏNUBI MUĞANDA TORPAQLARIN MÜASIR VƏZIYYƏTI VƏ ONLARIN BƏZİ GÖSTƏRİCİLƏRİNİN TƏYİNİ

Leyla Ziyafəddin qızı Cəlilova

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Torpaqşünaslıq və Aqrokimya İnstitutu
Azərbaycan, Bakı, Az 1071, M.Rahim, 5
leylacelilova63@gmail.com

Xülasə: *Məqalədə Cənubi Muğanın Biləsuvar rayonunun Ağayrı kəndi ərazisində seçilmiş təcrübə sahəsi torpaqlarının bəzi göstəriciləri haqqında məlumat verilmişdir. Əldə edilən nəticələr göstərmişdir ki, qranulometik təkibcə torpaqlar gilli və gillicəlidir. Torpaq mühitinin reaksiyası qələvidir. Udulmuş əsasların cəmində Mg üstünlüyə malikdir. Pambıqaltı torpaqlarda duzların miqdarı 0,08-1,92%, taxılaltı torpaqlarda isə 0,13-0,25% arasında dəyişmişdir. Alınan nəticələrdən məlum olur ki, təcrübə sahəsi torpaqları şorlaşmamış, zəif,orta və şiddətli dərəcədə şorlaşmışlar.*

Açar sözlər: *suavrılan,ekoloji, şorlaşma, duzların miqdarı, məhsuldarlıq*

Giriş. Ölkədə son illər aqrar yönümlü siyasətə geniş önəm verilməsi və bu istiqamətdə qəbul olunmuş dövlət proqramları torpaqların qorunmasını, səmərəli istifadəsini və bol məhsul alınmasını ön plana çəkir. Müasir dövrdə ərazidə ekoloji tarazlığı qorumaq, becərilən bitkilərdən yüksək və keyfiyyətli məhsul almaq üçün torpaqdan maksimum dərəcədə səmərəli istifadə olunması qarşıya qoyulan məqsədlərdən biri olmalıdır. Ölkədə kənd təsərrüfatı məhsulları əsas etibarilə suvarılan torpaqlarda istehsal edildiyi üçün suvarma və meliorasiya sistemlərinin səmərəliliyi məsələsi xüsusi əhəmiyyət kəsb edir.Qlobal iqlim dəyişiklikləri hazırda bütün dünya ölkələri və bir sıra beynəlxalq təşkilatlar tərəfindən ən çox müzakirə edilən problemlərdəndir. Qlobal iqlim dəyişiklikləri nəticəsində çayların suyunun azalması və səviyyəsinin aşağı düşməsi və digər fəsadlar temperaturun artması, nəticəsində torpaqların səhralaşması və deqredasiyasının artması proqnozlaşdırılır[7].

Tədqiqat obyekti və metodikası. Tədqiqat obyekti kimi Cənubi Muğanın Biləsuvar rayonunun Ağayrı kəndi ərazisində 3 hektar sahə seçilmişdir. Ərazi torpaqları suvarılan çəmən-boz torpaqlardır. Sahənin xarakter yerlərindən torpaq nümunələri koordinatlar qeyd edilməklə (4 kəsim-2 pambıq və 2 taxılaltında) götürülmüşdür. Nümunələr laboratoriya şəraitində kimyəvi analizlər aparılmaqla (qranulometrik tərkib, udulmuş əsaslar, pH, duzların miqdarı, humus) yerinə yetirilmişdir [6].

Təhlil və müzakirə. Məlumdur ki, kənd təsərrüfatı bitkiləri altında istifadə olunan torpaqlar bu və ya digər dərəcədə şorlaşmaya məruz qalır. Şorlaşmış torpaqlar iri çayların alüvial düzənliklərində, göl qırağı çökəkliklərdə, dənizsahili alüvial ovalıqlarda və qədim terraslarda geniş yayılmışdır[4].Torpaqların şorlaşmasının əsas səbəblərindən biri minerallaşmış qrunt sularının yer səthinə yaxın yerləşməsidir. Torpaqda duzların paylanma intensivliyi və toplanması isə iqlim amillərindən-yağıntıların miqdarından, buxarlanmadan, həmçinin torpağın hopdurma qabiliyyətindən, torpaqəmələgələgətirən süxurdan və duzların həll olma dərəcəsindən asılıdır. Məlum olduğu kimi, duzların yüksək konsentrasiyası zamanı bitkilərin inkişafında müəyyən dəyişikliklər olur. Bitkilərin su rejiminin də pozulması duzluluğu yüksək olan torpaqlarda özünü biruzə verir[12].Bir sıra xarici tədqiqatçılar da göstərirlər ki, duzluluq torpağın, bitki örtüyünün və ekosistemlərin funksiyalarına əhəmiyyətli dərəcədə təsir göstərir. Baxmayaraq ki, bəzi orta və yüksək duzadavamlı bitkilər yüksək duzlu mühitdə böyüyə və yaşaya bilər, lakin bitkilərin kök zonasında şorlaşma şaxələnmə və böyüməsinin ləngiməsinə səbəb olur[11]. Belorusiyada aparılan tədqiqatlar zamanı müəyyən edilmişdir

ki, torpaqların müasir vəziyyəti, perspektivləri və yüksək məhsul əldə edilməsi üçün onların kəmiyyət və

Cədvəl 1.

Təcrübə sahəsi torpaqlarında duzların miqdarı

№	Dərinlik, sm	CO_3	HCO_3	Cl	SO_4	Ca	Mg	Na+k	Duzların cəmi,%	Quru qalıq,%
		Mg.ekv/%								
B-1 (pambıq, N39^{0}31^{1}38.0^{11} E48^{0}28^{1}13.0^{11})										
1	0-25	yox	0,50 0,030	0,24 0,008	0,088 1,832	0,75 0,015	0,75 0,009	1,23 0,028	1,92	1,94
2	25-50		0,80 0,049	0,60 0,021	0,249 0,012	0,75 0,015	0,75 0,009	0,149 0,109	0,11	0,13
3	25-50		0,70 0,043	0,30 0,010	1,145 0,055	0,50 0,010	0,25 0,003	1,390 0,032	0,16	0,19
4	75-100		0,80 0,049	0,90 0,032	1,312 0,063	0,2 5 0,005	0,25 0,005	2,500 0,080	0,24	0,26
5	100-150		0,80 0,049	1,00 0,035	0,249 0,012	0,25 0,005	0,84 0,010	3,120 0,072	0,18	0,19
B-2 (pambıq, N39^{0}31^{1}38.5^{11} E48^{0}28^{1}14.0^{11})										
6	0-25	yox	0,50 0,030	0,50 0,017	0,249 0,012	0,75 0,015	0,25 0,003	0,249 0,006	0,08	0,12
7	25-50		0,50 0,030	0,50 0,017	0,249 0,012	0,75 0,015	0,25 0,003	0,249 0,006	0,08	0,12
8	25-50		0,50 0,030	0,50 0,017	0,249 0,012	0,75 0,015	0,25 0,003	0,249 0,006	0,08	0,12
9	75-100		0,50 0,030	1,00 0,035	0,249 0,012	0,50 0,010	1,00 0,012	0,249 0,006	0,11	0,14
10	100-150		0,50 0,030	0,50 0,017	0,449 0,024	1,00 0,020	0,25 0,003	0,249 0,006	0,10	0,18
B-2 (taxıl N39^{0}31^{1}38.9^{11} E48^{0}28^{1}11.0^{11})										
11	0-25	yox	0,70 0,043	0,30 0,010	1,624 0,078	0,75 0,015	0,50 0,006	1,39 0,032	0,18	0,22
12	25-50		0,80 0,049	0,60 0,021	2,186 0,105	0,50 0,010	0,25 0,003	2,83 0,065	0,25	0,29
13	50-75		0,80 0,049	0,50 0,017	1,562 0,075	0,75 0,015	0,25 0,003	1,87 0,043	0,21	0,24
14	75-100		0,90 0,055	0,70 0,024	1,541 0,074	0,25 0,005	0,25 0,003	2,64 0,061	0,22	0,24
15	100-150		0,90 0,055	0,40 0,014	1,290 0,062	0,50 0,010	0,25 0,003	0,85 0,042	0,18	0,21
B- 3 taxıl (N39^{0}31^{1}38.10^{11} E48^{0}28^{1}11.3^{11})										
16	0-28	yox	0,50 0,030	1,00 0,035	0,499 0,024	1,25 0,025	0,50 0,006	0,249 0,006	0,13	0,14
17	28-60		0,50 0,030	0,50 0,017	0,999 0,048	1,25 0,025	0,50 0,006	0,249 0,006	0,13	0,14
18	60-80		0,50 0,030	0,50 0,017	0,249 0,012	0,75 0,015	0,25 0,003	0,249 0,006	0,08	0,17
19	80-110		0,50 0,030	0,50 0,017	3,747 0,180	0,75 0,015	2,25 0,027	1,747 0,040	0,30	0,30

20	110-140		0,50 0,030	0,50 0,017	8,494 0,408	0,75 0,015	1,75 0,021	0,994 0,160	0,65	0,72
21	140-180		0,50 0,030	0,50 0,017	3,997 0,192	0,75 0,015	1,25 0,015	2,997 0,069	0,34	0,40
22	180-220		0,50 0,030	1,00 0,035	0,499 0,024	0,75 0,015	0,25 0,003	0,999 0,023	0,13	0,25

keyfiyyət göstəriciləri ətraflı öyrənilməlidir. Həmçinin müxtəlif tip kənd təsərrüfatı torpaqlarında tədqiqatlar aparılmış, onların münbitliyi, kənd təsərrüfatı bitkilərinin torpağa münasibəti müəyyən edilmişdir[10].

Bildiyimiz kimi, Azərbaycanda da suvarılan torpaqlar arid zonada yerləşir. Ölkənin əsas əkinçilik zonası olan Kür-Araz ovalığı torpaqları müxtəlif dərəcədə şorlaşmış və şorakətləş- mişdir. Muğan düzü də Kür-Araz ovalığında yerləşir və düzün çox hissəsi dəniz səviyyəsindən aşağı olub(-28-dən aşağı) Kür çayı, xüsusən də Araz çayının gətirdiyi çöküntülərdən əmələ gəlmişdir. İqlimi əkinçilik və heyvandarlıq üçün əlverişlidir[9]. İllik temperatur Xəzər dənizinin "dəniz" təsirini göstərir. Tədqiqatlara əsasən müəyyən edilmişdir ki, burada torpaqların gillicə, qumsal, qumluca qatları mövcuddur. V.R.Volobuyevə görə Cənubi Muğanın mailli düzənliyi aşağıdakı geomorfoloji elementlərə bölünür: boz-qəhvəyi; boz, çəmən-boz; boz-çəmən; şorlaşmış-şorakətləşmiş suvarılan torpaqlar; tipik şorakətlər; şorlaşmış bataqlar; çəmən torpaqları və s. Bir çox alimlərin apardığı tədqiqatlar göstərmişdir ki, bu zonanın torpaqları boz-qəhvəyi(şabalıdı), boz, çəmən-boz torpaqlardır. Burada torpaqların şorlaşma səbəbləri bir sıra tədqiqatçılar tərəfindən öyrənilmişdir. Bu zonada qrunt sularının yer səthinə yaxın olması və çox zəif təbii axına malik olduğu üçün ərazi müxtəlif dərəcədə şorlaşmaya məruz qalmışdır[2,8].

Tədqiqatlar Cənubi Muğanın Biləsuvar rayonunun Ağayrı kəndi ərazisində aparılmışdır. Tədqiqat dövründə təcrübə sahəsinin pambıq və taxılaltı torpaqlarında qranulometrik tərkib müəyyən edilmişdir. Əldə edilən göstəricilərə əsasən torpaqlarda fiziki gilin miqdarı (0,01mm-dən kiçik hissəciklər) üst 0-25 sm-lik torpaq qatında 60,38-65,71% arasında dəyişir. Bu da həmin torpaqların gilli və gillicəli olmasını göstərir. Həmin torpaqlarda pH-n qiyməti 7,08-7,62 arasında dəyişmişdir ki, bu da təcrübə sahəsi torpaqlarının qələvi mühitə malik olmasını göstərir. Humusun miqdarı torpağın üst qatında 2,49-7,92% , $CaCO_3$ –ün miqdarı isə 6,84-11,10% təşkil etmişdir [1].Udulmuş əsasların cəmi (UƏC) 0-100 sm-lik pambıqaltı torpaqlarda UƏC-i 36,90-49,70 mq.ekv, taxılaltı torpaqlarda isə 28,40-36,60 mq.ekv təşkil etmişdir. UƏC-də Mg üstünlüyə malik olmuşdur. Onun miqdarı pambıq altı torpaqlarda 61,25-76,36%, taxılaltı torpaqlarda isə 31,69-71,17% arasında dəyişmişdir. Na-un miqdarı pambıqaltı torpaqlarda 3,29-5,29%, taxılaltı torpaqlarda 3,17-4,92%, Ca-un miqdarı isə pambıqaltı torpaqlarda 19,62-35,23%, taxılaltı torpaqlarda isə 23,91-65,14% arasında olmuşdur.

Təcrübə sahəsi torpaqlarında duzların miqdarı öyrənilmiş və müəyyən edilmişdir ki, anion tərkibində CO_3 ionunu müşahidə edilməmiş, HCO_3-ün miqdarı pambıqaltı torpaqlarda 0,030-0,049%, Cl-0,008-0,035%, SO_4-0,012-1,832% arasında dəyişmişdir(cədvəl 1). Kation tərkibində Ca-ün miqdarı 0,005-0,020%, Mg-un miqdarı 0,003-0,012%, Na+k ionunun miqdarı isə 0,006-0,109 arasında tərəddüd etmişdir. Taxılaltı torpaqlarda da uyğun olaraq anion və kation tərkibi dəyişmişdir. Duzların miqdarı (quru qalığa görə) pambıq altı torpaqlarda 0,08-1,92% arasında, taxılaltı torpaqlarda isə 0,13-0,25% arasında dəyişmişdir. Əldə edilən rəqəmlərə əsasən təcrübə sahəsi torpaqları şorlaşmamış,zəif,orta və şiddətli dərəcədə şorlaşmışlar. Duz tipinə görə isə bu torpaqlar xlorlu-sulfatlı tipə aiddir[3]. Bu torpaqlarda məhsuldarlıq pambıq bitkisində 30-35s/ha, taxıl bitkisində isə 28-30s/ha olmuşdur.

Məlumdur ki, qrunt sularının səviyyəsinə torpaqəmələgətirici süxurların xarakteri, relyefi, insanın təsərrüfat fəaliyyəti təsir göstərir [5]. Cənubi Muğan ərazisində qrunt sularının yatım dərinliyi 1,0-2,0 m arasında dəyişir. Təcrübə sahəsi torpaqlarında qrunt suları dərində yerləşirdiyi üçün (2,0metrdən aşağı) həmin ərazidən su nümunəsi götürülməmişdir. Sahənin kənarından keçən kanaldan su nümunəsi götürülmüş, müəyyən edilmişdir ki, duzların miqdarı

Cədvəl 2.

Təcrübə sahəsi kənarından keçən drendə duzların miqdarı

№	Nümunənin götürüldüyü yer	CO_3	HCO_3	Cl	SO_4	Ca	Mg	Na+k	Quru qalıq, q/l
		mg.ekv/q/l							
1	Kanal	0,40 0,012	4,80 0,293	8,60 0,301	14,49 0,696	4,50 0,090	23.00 0,276	0,79 0,018	1,19

1,19 q/l təşkil etmişdir. Duzların anion tərkibində CO_3 ionunun miqdarı 0,012q/l, HCO_3- 0,293 q/l, Cl- 0,301 q/l, SO_4-0,696 q/l arasında, kation tərkibində isə Ca-un miqdarı 0,090 q/l, Mg-0,276 q/l, Na+k isə 0,018 q/l arasında dəyişmişdir(cədvəl).

Tədqiqat zamanı torpaqlarda baş verən ekoloji dəyişikliklərin torpağın meliorativ vəziyyətinə təsiri də araşdırılmışdır. Müəyyən edilmişdir ki, son dövrlərdə bütün dünyada baş verən iqlim dəyişiklikləri də buna əsas səbəbdir. Digər tərəfdən antropogen təsirlər nəticəsində də torpaqlar müəyyən dəyişikliyə məruz qalır. Ümumiyyətlə, torpaqların meliorativ vəziyyətinin öyrənilməsi üçün geniş tədqiqatların aparılması və orada baş verən dəyişikliklərin yaranma səbəbləri və onların aradan qaldırılması yollarının işlənib hazırlanması əsas məsələdir. Bu zaman torpaqların düzgün suvarılmaması onların şorlaşma və şorakətləşməsinə səbəb olur ki, bu da həmin ərazidə becərilən bitkilərin məhsuldarlığına öz mənfi təsirini göstərir.

Nəticə

1.Tədqiqatlar göstərmişdir ki, təcrübə sahəsi torpaqlarında duzların miqdarı pambıqaltı torpaqlarda 0,08-1,92%, taxılaltı torpaqlarda isə 0,13-0,25% arasında olmuşdur. Əldə edilən nəticələrə əsasən təcrübə sahəsində torpaqlar şorlaşmamış, zəif,orta və şiddətli dərəcədə şorla- mışlar.

2.pH-ın qiyməti pambıqaltı torpaqlarda 7,10-7,62, taxılaltı torpaqlarda isə 7,08-7,29 arasında dəyişmişdir və bu da həmin torpaqların qələvi olmasını göstərir.

3.Məüyyən edilmişdir ki, təcrübə sahəsi torpaqlarında duz tipi sulfatlı- xlorlu və sulfatlıdır. Məhsuldarlıq pambıq bitkisində 30-35s/ha, taxıl bitkisində isə 28-30 s/ha olmuşdur.

ƏDƏBİYYAT

1. Cəlilova L.Z- Muğan düzünün pambıqaltı torpaqlarının müasir vəziyyəti.«Müasir aqrar elm: qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspek-tivləri»mövz., beynəlxalq elmi-praktik konfrans. Gəncə, 2014, s.12-14.
2. Cəlilova L.Z., Mustafayev F.M.,Əhmədova A.R. Cənubi Muğanda təcrübə sahəsi torpaqlarının bəzi münbitlik göstəriciləri. Azərbaycan Texnologiya Universiteti Elmi xəbərlər, №2/47, Gəncə-2024,s. 64-68.
3. Əzizov Q.Z.-Kür-Araz ovalığının meliorasiya olunan torpaq-qruntların su-duz balansı və onun nəticələrinin elmi təhlili.Bakı,«Elm»,nəş., 2006, 258 s.
4. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı, Elm, 2007,661s.
5. Mustafayev M.Q.-Salyan rayonunun torpaqlarında şorlaşmanın vəziyyəti və onların yaxşılaşdırılması yolları. ATC-nin əsərlər toplusu. Bakı, 2007, s.483-485.
6. Аринушкина Е.В. руководство по химическому анализу почв. М., изд-во МГУ , 1970, 488 с.
7. Rzayev M.A. Azərbaycan: suvarma əkinçiliyinin reformasiyası və ekoloji dayanıqlığı. Bakı, “Elm və təhsil”nəş. 2019, 369s.
8. Волобуев В.Р, Азизов К.З- Засоленные почвы Кура-Араксинской низменности.Докл.Симп.V делегат.сезда ВОП СССР,т.6, Тбилиси,1981, с.104-124.
9. Фигуровский И.В- Климатические районирование Азербайджана. Материалы по районированию Азерб.ССР.Вып.4,Баку, 1936,с.45-63.

10. Шибут, Л.И., Цытрон Г.С., Азаренок Т.Н. Оценка сельскохозяйственных земель в Белоруси: история, современное состояние, перспективы//Почвоведение и Агрохимия,Минск,2016. №1(56), с.7-15.
11. Shaygan M., Thomas Baumgartl. Reclamation of Salt-Affected Land: A Review// Journal Soil Systems, 2022. Vol.6 (3),p.61.
12. Ковда В.А. Происхождение и режим засоленных почв. Москва,1947, 375с.

УДК 631.6

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ПОЧВ ЮЖНОЙ МУГАНИ И ОПРЕДЕЛЕНИЕ НЕКОТОРЫХ ИХ ПОКАЗАТЕЛЕЙ

Лейла Зияфаддин кызы Джалилова
Министерство науки и образования Азербайджанской Республики, Институт почвоведения и агрохимии, Азербайджан, Баку, Аз 1071, М.Рахим, 5
leylacelilova63@gmail.com

Резюме: *В статье приведены сведения о некоторых показателях почв выбранного опытного участка в селе Агайри Билясуварского района Южной Мугани. Полученные результаты показали, что по гранулометрическому составу почвы глинистые и суглинистые. Реакция почвенной среды щелочная. В общем количестве поглощенных оснований преобладает Mg. Количество солей в почвах под хлопчатник колебался в пределах 0,08–1,92%, а в почвах под злаковые – в пределах 0,13–0,25%. Результаты показывают, что почвы опытного участка не засолены, а еще и слабо, средне, сильно засолены.*

Ключевые слова: *Орошаемые, экологический, засоление, количество солей, продуктивность*

UDC 631.6

MODERN STATE OF SOILS OF SOUTH MUGAN AND DETERMINATION OF SOME OF ITS PARAMETERS

Leyla Ziyafaddin qizi Jalilova
Ministry of Science and Education of the Republic of Azerbaijan Institute of Soil Science and Agrochemistry Azerbaijan, Baku, Az 1071, M.Rahim, 5
leylacelilova63@gmail.com

Summary:*The article provides information on some soil parameters of the selected experimental plot in Agairi village of Bilasuvar district of South Mugani. The received results showed that the soils are clayey and loam by granulometric composition. The reaction of soil environment is alkaline. The total amount of absorbed bases is dominated by Mg. The amount of salts in cotton soils ranged from 0.08-1.92% and in cereal soils from 0.13-0.25%. The results show that the soils of the experimental plot are not saline, slightly, moderately, strongly saline.*

Keywords: *Irrigated, ecological, salinization, amount of salts, productivity*

Redaksiyaya daxilolma: 15.06.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.9-14**

UOT 631.31
DOI 10.30546/678209.2025.03.03

ŞƏMKIR RAYONUNUN DAĞLIQ ƏRAZILƏRINDƏ TORPAQ ERROZIYASININ AZALDILMASI TƏDBIRLƏRI VƏ TEXNIKANIN ISTIFADƏ PROBLEMLƏRI

[1]Ziyad Mehralı oğlu Abbasov, [2]Camaladdin Ələkbər oğlu Məmmədov

Azərbaycan Dövlət Aqrar Universiteti
Gəncə şəhəri, Atatürk prospekti 450.

[1]ziyad.abbasov-gence@mail.ru, [2]mamedov.camaladdin@gmail.com

Xülasə: *Z.M.Abbasovun C.Ə.Məmmədovun "Şəmkir rayonunun dağlıq ərazisində erroziyanin azaldılması tədbirlari və texnikanın istifadə problemləri" adli məqalədə Şəmkir rayonunun Çənlibel ərazisində taxılın mövcud becərilmə texnologiyaları tahlil edilir və əsaslandırılır ki, taxılın becərilmə texnologiyasi eynilə suvarılan düzənlik sahələrdə olduğu kimi Şum əməliyyatı, 22-25 sm dərinliyində MT3-1221 markalı traktorlarla aqreqatlaşdırılmış 5 gövdəli kotanlarla aparılır. Torpaq layi dərindən çevrilir və torpağın sürətlə yumşalması ilə erroziyaya uğramasını sürətləndirir. Kəndin mexanizatorlarında çevrilə bilən kotanlar olmadığına görə erroziyanın azaldılması üçün xüsusi texnikalar yoxdur.*

Açar sözlər: *dağlıq ərazi, erroziya, şum aqreqatı, taxil, becərmə texnologiyası*

Giriş: Leysan yağışlarla və yazqabağı qarın əriməsi ilə baş verən eroziyaya məruz qalan torpaqların qorunması bu gün aqrar elmin qarşısında duran qlobal probləmlərdən biridir. Problemin həlli isə ilk növbədə qabaqlayıcı aqrotexniki, təşkilatı, hüquqi və texnoloji tədbirlərin həyata keçirilməsindən asılıdır.

Aqrotexniki tədbirlərə, torpağın üst qatında bitki örtüyünün saxlanılması uçun, növbəli əkin sisteminin tətbiq edilməsi, torpağın dərindən şumlanılmasından imtina edilməsi, mailliyi 3-5°-dən yüksək olan sahələrdə zolaqlarla kontur becərmələrinin tətbiqi kimi əməliyyatlar daxildir.

Təşkilatı məsələlərə, bölgələr üzrə əkin sahələrinin maillik dərəcələrinə görə pasportlaşdırılması, eroziyaya qarşı texnikaların seçilib gətirilməsi və sahələrin becərilmə istiqamətlərinin əvvəlcədən işarə edilməsi tədbirləri daxildir.

Hüquqi tədbirlərə, eroziya ilə sürətlə aşınan əkin sahələrində və ilk növbədə 15°-dən yüksək mailliyə malik torpaqlarda yamaclarda şumlama işlərinin aparılmasının və ümumiyyətlə torpağın becərilməsinin qanunla qadağan olunması daxildir.

Texnoloji tədbirlərə isə 3-5° -dən aşağı mailliyi olan sahələrin becərilməsi üçün torpağın çevrilmədən üzdən yumşaldılması üçün torpaqqoruycu maşınların və işçi orqanlarının geniş tətbiq edilməsi, zolaqlarla kontru becərmənin, külək eroziyasına məruz qalan sahələrdə küləyin əsmə istiqamətinə perpendikulyar olmaq şərtilə zolaqlarla becərmə texnologiyasının tətbiqi kimi məsələlər daxildir.

Qeyd etmək lazımdır ki, hər hansı eroziyanın qarışını almaq üçün ilk növbədə aqrotexniki tədbirlərin həyata keçirilməsi vacibdir. Yəni, eroziyanı sürətləndirən əsas amil torpağın hər il şumlanması ilə çevrilməsi, onun kip qatmm oynadılmasıdır. Torpağın üzdən yumşaldılması ilə minimal və ya sıfır becərmə üsulları ilə eroziyanın ilkin mərhələdə qarşısını almaq mümkündür.

Mövzunun aktuallığı: Şəmkir rayonunun Çənlibel dağlıq kənd ərazisinin əkin şəhərlərində taxılın mövcud becərilmə texnologiyasının təhlili göstərir ki, ərazi müxtəlif maillikli sahələrdən ibarətdir. Belə ərazilərdə dərin sum əməliyyatları, maillik nəzərə alınmadan aparılması torpağın

eroziyasını daha da sürətləndirir. Eroziyaya qarşı heç bir əlavə tədbir görülmədən texnoloji əməliyyatlar aparılır bu da məsələ öz həllini tapmamış qalmaqdadır və bu böyük təhlükələrin yaranmasına səbəb olur.

Tədqiqatın məqsədi: Qərb bölgəsinin bir çox rayonlarında o cümlədən Şəmkir rayonunun Çənlibel kənd əkin sahələrində eroziya riskinin azaldılmasına nail olmaqdır.

Tədqiqat obyekti: Qərb bölgəsində o cümlədən Şəmkir rayonunun Çənlibel kənd sahələri, dağlıq, dağətəyi torpaqların əkin sahələri, dərin şumlanma əməliyyatları, taxıl, səpin sahələri..

Tədqiqatın metodları: Torpağın becərilməsində nəzəri və təcrübə tədqiqatlara əsaslanan texnologiyalara uyğun metodikdan istifadə edilmişdir.

Tədqiqat işinin yeniliyi: Şəmkir rayonun Çənlibel əkin sahələrində xüsusi dağlıq və dağətəyi ərazilərdə şum əməliyyatlarının istiqamətini dəyişməklə erroziyanı azaltmağa nail olunmuşdur.

Tədqiqat işinin tətbiqi əhəmiyyəti: Çənlibelin əkin sahələrində dağlıq və dağətəyi zonada şum əməliyyatı mailliyə perpendikulyar istiqamətdə və şum layını maillik boyu yox , əksinə aşağıdan mailliyin əksi istiqaməti boyu yuxarı çevrilməklə aparılmışdır.

Materiallar və müzakirələr

Şəmkir rayonunun Çənlibel dağlıq kənd ərazisində tədqiqat işləri aparılmışdır. İlk növbədə ərazidə ənənəvi istifadə edilən traktor və kənd təsərrüfatı texnikalarının tərkibi araşdırılmış və mövcud becərmə texnologiyaları öyrənilmişdir.

Aparılan araşdırmalar göstərir ki, taxılın becərilmə texnologiyaları rayonun suvarılan düzənlik əkin sahələrində olduğu kimidir; yəni kəndin kəskin mailliyi olan əkin sahələrində də eynilə Şəmkir rayonunun Sarıtəpə, Qaracəmirli və s. kənd ərazilərində olduğu kimi dərindən şumlanır, hətta frizlərlə hamarlanır və səpin aparılır.

Taxılın becərilmə texnologiyalarında fərq, yalnız səpinin və məhsul yığımının müddətindədir, yəni səpin sentyabr ayında, aran zonalarında isə oktyabr ayında aparılır.

Çənlibel kəndinin əkin sahələrinin struktur təhlili göstərir ki, burada hər il əhali taxıl, yonca, kartof bitkilərinin becərilməsi ilə məşğul olur. Geniş sahələrdə taxıl bitkilərindən buğda və arpaya daha çox üstünlük verilir. Təkcə 2023-2024-cü illərdə 750 hektar payızlıq buğda, 500 hektar payızlıq arpa və 350 hektar yazlıq arpa səpilmişdir. Sahələr MT3-1221 markalı "Беларус" traktorları və 5 gövdəli Türkiyə istehsalı olan asma kotanlarla 22-25sm dərinliyində şumlanır. Əkin sahələri güclü 3 ədəd 130 a.q. olan traktorlarla qısa müddətdə şumlanır, ardınca, sahələr səpinə hazırlanır və taxıl səpini aparılır.

Məlumdur ki, Qərb bölgəsinin Goranboy, Şəmkir, Tovuz, Aqstafa, Qazax, Daşkəsən, Göygöl və Gədəbəy rayon əraziləri Şahdağ sıra dağlarının ətəkləri, yamaclardır.

Ümumilikdə götürsək ərazimizin 58%-i dağlıq, dağ ətəyi yamaclarda yerləşir.

Sübuta ehtiyac yoxdur ki, bütün dağlıq dağətəyi torpaqlarımızda aparılan əkin, səpin işləri, Çənlibel kənd əkin sahələrində eyni becərmə texnologiyaları yerinə yetirilir.

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun verdiyi məlumatlara görə son 30 ildə təkcə Şamaxı rayonunun dağlıq ərazisində 200min hektar əkin sahəsi kimi şumlanmış, yəni mexaniki becərməyə məruz qalmışdır və beləliklə həmin torpaqlarda erroziya riski kəskin artmışdır.

Nəzərə alsaq ki, Respublikamızda adam başına düşən əkin sahələri 15-20 sot təşkil edir və mövcud 1 milyon 863 min hektar əkinə yararlı torpağımız vardır və onun da çox hissəsi şoranlaşmışdır və əlavə olaraq 200 min ha torpaqlar yenidən erroziyaya uğradılmışdır.

Çənlibel kəndinin pay torpaqlarında aparılan becərmə işləri, torpaqların dərin şumlanması, mailliyin nəzərə alınmaması ilə dərindən şum əməliyyatının aparılması böyük bir təhlükə yaradır.

Əkin sahələrinin kotanla dərindən şumlanması əməliyyatından, yəni torpağın üst, münbit qatının çevrilməsi kimi erroziyanı sürətləndirən becərmə texnologiyalarından ABŞ, Kanada, Almaniya, Böyük Britaniya kimi inkişaf etmiş ölkələr çoxdan imtina etmiş və həmin əməliyyatı torpağın innovativ texnologiyalarla üzdən yumşaldılması, ilə minimal, sıfır becərmələrə keçmişlər.

№ 3/2025 **səh.9-14**

Birinci mərhələdə, sıfır və minimal becərmələrə keçmək üçün çevrilə bilən kotanlardan istifadə etmək lazımdır. Mailliyi olan sahələrdə, şum əməliyyatı mailliyə perpendikulyar istiqamətdə və şum layını, maillik boyu yox, əksinə aşağıdan mailliyin əks istiqaməti boyu yuxarı çevrilməklə aparılmalıdır.

Bu məqsədlə xüsusi çevrilə bilən kotanlar istehsal olunur və hal hazırda geniş tətbiq edilir (şəkil 1).

Aşağıdakı cədvəldə Çənlibel kəndində mövcud olan traktor və kənd təsərrüfatı texnikalarının siyahısı verilmişdir. (cədvəl 1).

Cədvəl 1

Çənlibel kəndi üzrə k/t texnikalarının siyahısı

Sıra №si	*Texnikanın adı, markası*	*Parametrləri, sayı*	*İstehsalçı*
1	**2**	**3**	**4**
1	MT3-1221 markalı traktor	Gücü 130 a.q. 3 əd.	Gəncə AZ
2	MT3-892 markalı traktor	Gücü 92 a.q. 3 əd.	Gəncə AZ
3	MT3-82 markalı traktor	Gücü 82 a.q. 3 əd.	Gəncə AZ
4	MT3-10.25 markalı traktor	Gücü 105 a.q. 3 əd.	Gəncə AZ
5	MT3-83 markalı traktor	Gücü 130 a.q. 3 əd.	Hindistan
6	Loqal 11.04 markalı traktor	Gücü 110 a.q. 3 əd.	Çin
7	Kotan	4 gövdəli – 5 əd	Türkiyə
8	Kotan	5 gövdəli – 3 əd	Türkiyə
1	**2**	**3**	**4**
9	Taxılsəpən maşın	4m en götürümlü-8əd.	Türkiyə
10	Otbiçən (rotorlu) maşın	1 əd	Türkiyə
11	Otkipi bağlayan maşın	3 əd	Qırğızıstan
12	Frez kultivator	1 əd en götürümü 2,3m	Türkiyə
13	Qoşma çiləyici maşın	2 əd 12m.en götürüm.	Türkiyə

Şəkil 1. "CLASS" (Almaniya) traktoru bazasında (gücü 360 a.q.) yığılan kombinə edilmiş aqreqatı ümumi görüntüsü

MT3-1221 markalı traktor 5 gövdəli kotandan ibarət şum aqreqatının saatlıq məhsuldarlığı orta hesabla 0,73ha təşkil edirsə, gün ərzində bir aqreqat 7 ha, üç şum aqreqatı isə 21 ha əkin sahəsini şumlaya bilir: yəni, kəndin əkin sahələrini çox qısa aqrotexniki müddətdə 10 günə 200 hektardan artıq şum qaldıra bilir. Lakon erroziyaya qarşı çevrilə ilən kotandan istifadə edilmişdir.

Çənlibel kənd mexanizatorlarının 8 ədəd MT3-892 markalı traktorları vardır və həmin traktorlarla aqreqatlaşan 8 ədəd Türkiyə istehsalı taxılsəpən maşınları vardır. Yəni taxıl səpinin qısa, aqrotexniki müddətdə yekunlaşması üçün kənd əhalisinin texniki imkanları vardır.

Çənlibel kəndində 18 ədəd müxtəlif markalı traktor, 8 ədəd 4-5 gövdəli kotan, 8 ədəd taxılsəpən maşın, 3 ədəd ot kipi bağlayan, 1 ədəd frez və 2 ədəd dərman çiləyici maşın vardır.

Cədvəldən göründüyü kimi erroziyaya qarşı istifadə edilən, torpağı dərindən yumşaldan reper tipli kultivatorlar, yamacların şumlanması üçün buraxılan çevrilə bilən kotan, kombinə edilmiş maşınlar və s. yoxdur.

Zolaqlarla becərmə texnologiyasında zolaqlardan biri növbəti ildə becərildiyinə görə əslində həmin zolaq, dincə qoyulmuş olur və ikinci mövsümdə becərilən zolaq yenidən dincə qoyulur və becərilməyən zolaqda səpin aparılır. Zolaqlarla becərmə texnologiyasının əsas parametrlərindən biri maillikdən asılı olaraq zolaqların enidir. [1,2]

Təcrübələr göstərir ki, maillik artdıqca zolaqların eni azalmalıdır ki, suyun axın sürəti azalsın. Əks halda torpağın yuyulması və yarğanların əmələ gəlməsi baş verə bilər. Məsələn, 5-8° mailliyi olan sahələrdə zolaqların eni kultivatorun en götrümündə 4-5 dəfə çox, yəni 10-14 m götürülür.

Sahənin mailliyi 5°-dək olarsa, zolaqların eni 8-12 m götürülə bilər. Zolaqların mail sahələrdə yerləşməsi zamanı suyun istiqamətinə perpendikulyarlığı təmin edilməli, eynilə də küləyin istiqamətinə perpendikulyar zolaqlar çəkilməlidir. Sahənin mailliyi həmin sahələrdə cərgələrlə becərilən bitkilərin əkiləməsilə su eroziyası intensivləşə bilər.

Cərgəvari becərilən bitkilərin məsələn, kartof, qarğıdalı, 3°-dən aşağı mailliyi olan sahələrdə əkilməsi məsləhət görülür. Mailliyi 3°-dən yüksək olan əkin sahələrdində horizontal müstəviyə paralel olaraq becərmələr aparılmalı və 20-22 sm dərinliyində torpağı çevrilmədən şumlanmasına ehtiyac olarsa, ələlxüsus dağətəyi dəmiyə torpaqlarda çevrilə bilən kotanlardan istifadə edilməli, torpağın mailliyin enişinə doğru yox, əksinə yoxuş istiqamətində torpaq çevrilməlidir.

Hal-hazırda respublikamızda çevrilə bilən kotanlar demək olar ki, yoxdur və fermerlərimiz isə bu üsulla. şumlama texnologiyasının mövcudluğu haqqında az məlumatlıdırlar.

Torpağın zolaqlarla becərilməsi texnologiyası və maşınlar kompleksinin tədqiqinə ilk dəfə olaraq Azərbaycanda başlanmış və həmin texnologiyaya və maşınlar kompleksinə ixtira səviyyəsində müəlliflik şəhadətnamələri alınmışdır

Yamaclarda torpağın dərindən şumlanması münbit torpaq təbəqəsinin yağışlar zamanı yuyulmasına səbəb olur.

Yamacın maillik bucağının müxtəlif becərmə üsullarında torpağın yuyulmasına təsiri öyrənilmişdir. Burada torpağın kotanla şumlanması, yastı kəsici işçi orqanla (yarıq açma ilə eyni vaxtda) yumşaldılması, variantları götürülmüşdür.

Məlum olmuşdur ki, 4 saat ərzində kotanla şumlanan sahədə, yəni mövcud texnologiyada, 5° mailliyi olan sahədə hər hektardan 17 ton torpaq yuyulmuşsada həmin sahədə yalnız cizel və diskli mala ilə becərmədə 7,4 ton/ha, cizel kultivator becərməsində 4,6 ton/ha və sıfır becərmədə, yəni heç bir becərmə aparmadıqda 3,2 ton/ha torpaq yuyulur. [3]

Müasir torpaqqoruyucu texnologiyaların tətbiqilə biz respublikanın dağ- dağətəyi və mailliyi olan torpaqlarımızı külək, su eroziyalarından qoruya bilərik. Şəkil .2.

Ərazisinin 58% -ı dağlıq rayonlarında yerləşən respublikanın torpaqlarının külək, su eroziyalarından qorunması üçün mailliyi 3-5° təşkil edən əkin sahələrində enerji, torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasının və texnoloji maşınlar kompleksinin geniş yayılması yaxın gələcəyin prioritet istiqamətlərinə aiddir.

Əsrlərlə formalaşmış torpaq qatının qorunması və həmin sahələrin təbii biçənəklər, otlaqlar kimi saxlanması məqsədilə mailliyi 12-15°-dən yüksək olan kənd təsərüfatına yararlı torpaq sahələrində torpağın becərilməsinə qanunla qadağa qoyulmalı və mailliyi 5-12° olan əkin sahələrində torpağın dərindən şumlanması və şum qatının çevrilməsindən imtina edilməlidir.

Qloballaşan dünyada torpağın bitki qatının məhv edildiyi və səhralaşmanın sürətləndiyi bir dövrdə külək, su eroziyalarının qarşısını ala bilən qabaqlayıcı kompleks aqrotexniki, texnoloji tədbirlər həyata keçirilməsi və ilk növbədə praktiki olaraq təcrübədən keçmiş torpağın zolaqlarla becərməsi texnologiyasının geniş tətbiq edilməsi təklif olunur.



1-kotanla şumlama + çizel + diskli mala
2- çizel + diskli mala
3- çizel + kultivator
4-sıfır becərmə

Şəkil.2. 5°-li yamaclarda yağışdan sonra torpağın yuyulması, ton/ha

Beləliklə ənənəvi kotanla şumlama ilə müqaisədə torpağın minimal becərməsilə su eroziyası 2,5-4 dəfə azalırsa, sıfır becərmədən sonra eroziya 6 dəfədən çox aşağı düşür. Dünya təcrübələrinin təhlili göstərir ki, Azərbaycanın dağlıq, dağətəyi dəmyə torpaqlarının qorunması üçün elmi, innovativ torpaq qoruyucu texnologiyaların geniş tətbiqi vacibdir. [4]

Nəticə

Şəmkir rayonunun Çənlibel kənd ərazisinin əkin sahələrində taxılan mövcud becərilmə texnologiyasının təhlili göstərir ki, ərazi müxtəlif maillikli sahələrdən ibarət olduğuna baxmayaraq, torpaq mülkiyyətçiləri eroziya problemlərinə qarşı heç bir tədbir həyata keçirmir, texnikalar və becərmə texnologiyaları, suvarılan torpaqlarda eynidir və eroziyaya qarşı mövcud texniki vasitələrdən tətbiq olunmur.

ƏDƏBİYYAT

1. Аббасов З.М. Способ обработки почвы при помповою земледелии А.С. № 1464922 А1 АД1879/02 госкомитет по изобретениям и открытий при ГКНТ СССР Москва 15.03.1989 бюя №10

2. Рагимов К.С. и др. Борьба с эрозией в Азербайджане. Научный мех Аз.ССР, г .Баку 1978. 85 стр.

3. Консервирующая или минимальная обротка почвы, США. Мэнсоном 1960. 78 стр.

4. Аббасов З.М. , Валиев С.Ш. Применение почвозащитный технологи и система машин в Азербайджане. Сб. Евразийского союза Ученых часть 5. Технические науки , Москва 2014. стр. 6-10

№ 3/2025 **səh.9-14**

УДК 631.31

МЕРЫ ПО СНИЖЕНИЮ ЭРОЗИИ ПОЧВ И ПРОБЛЕМЫ ИСПОЛЬЗОВАНИЯ ТЕХНИКИ В ГОРНЫХ РАЙОНАХ ШАМКИРСКОГО РАЙОНА

[1]Зияд Мехралы Аббасов, [2]Джамаладдин Алекпер Мамедов
Азербайджанский Государственный Аграрный Университет
Город Гянджа, проспект Ататюрка 450.
[1]ziyad.abbasov-gence@mail.ru, [2]mamedov.camaladdin@gmail.com

Резюме: *В статье З.М. Аббасова и Дж.А. Мамедова под названием «Меры по снижению эрозии в горных районах Шамкирского района и проблемы использования техники» анализируются современные технологии возделывания зерновых культур в районе Чанлибель Шамкирского района и обосновывается, что технология возделывания зерновых культур осуществляется 5-корпусными плугами в агрегате с тракторами МТЗ-1221 на глубину 22-25 см, как на орошаемых равнинных участках. Глубоко обрабатывают почвенный пласт и ускоряют быстрое размягчение и размывание почвы. Поскольку у сельских механизаторов нет оборотных плугов, то и специальных приемов по снижению эрозии нет.*

Ключевые слова: *горная местность, эрозия, плужный агрегат, обработка почвы, технология возделывания*

UDC 631.31

SOIL EROSION REDUCTION MEASURES AND PROBLEMS OF USING EQUIPMENT IN MOUNTAINOUS AREAS OF SHAMKIR REGION

[1]Ziyad Mehrali oglu Abbasov, [2]Jamaladdin Alakbar oglu Mammadov
Azerbaijan State Agricultural University
Ganja city, Ataturk Avenue 450.
[1]ziyad.abbasov-gence@mail.ru, [2]mamedov.camaladdin@gmail.com

Summary: *In the article by Z.M. Abbasov and J.A. Mammadov entitled "Erosion reduction measures in the mountainous areas of Shamkir region and problems of using equipment", the current grain cultivation technologies in the Chanlibel area of Shamkir region are analyzed and it is substantiated that the technology of grain cultivation is carried out with 5-body plows aggregated with MT3-1221 tractors at a depth of 22-25 cm, as in irrigated plain areas. The soil layer is deeply turned and accelerates the rapid softening and erosion of the soil. Since the village mechanizers do not have reversible plows, there are no special techniques for reducing erosion.*

Keywords: *mountainous area, erosion, plow aggregate, tillage, cultivation technology*

Redaksiyaya daxilolma: 05.07.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.15-21**

UOT:631.51.01
DOI 10.30546/678209.2025.03.010

KƏND TƏSƏRRÜFATINDA TORPAQQORUYUCU TEXNOLOGİYALARA UYĞUN YENİ TEXNİKİ YANAŞMA

Fəridə Ceyhun qızı Rəhimova

Azərbaycan Texnologiya Universiteti

f.rehimova@atu.edu.az

Xülasə. *Məqalədə torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasına uyğun şum səthini hamarlayan işçi orqanın təkmilləşdirilməsi məsələləri araşdırılmışdır. Yeni konstruktiv həll nəticəsində torpaq səthinin bərabərliyi yüksəlmiş, nəmliyin saxlanılması yaxşılaşmış, enerji sərfiyyatı azalmış və məhsuldarlıq artmışdır. Sahə sınaqları bu texnologiyanın aqrotexniki və iqtisadi baxımdan səmərəli olduğunu təsdiqləmişdir. Dünyada gedən iqlim dəyişiklikləri və kənd təsərrüfatında intensiv texnoloji yüklənmə torpaq ehtiyatlarının deqradasiyasını sürətləndirmişdir. Bu vəziyyət torpağın münbitliyinin qorunması və aqroekoloji tarazlığın saxlanılması baxımından torpaqqoruyucu becərmə texnologiyalarının aktuallığını artırmışdır. Xüsusilə, eroziyaya meyilli ərazilərdə səpinə hazırlıq zamanı torpaq səthinin hamarlanması həm aqrotexniki, həm də ekoloji baxımdan mühüm əhəmiyyət daşıyır. Torpaqqoruyucu zolaqlı becərmə texnologiyasına uyğun, şum səthini eyni zamanda hamarlaya bilən və torpağın strukturunu pozmadan işləyən yeni tipli işçi orqanın təkmilləşdirilməsidir. Bu məqsədlə mövcud şum aqreqatlarının iş prinsipi təhlil edilmiş, torpağın fiziki göstəriciləri, nəm rejimi və struktur xüsusiyyətləri nəzərə alınaraq, konstruktiv dəyişikliklər təklif olunmuşdur.*

Açar sözlər: *torpaqqoruyucu texnologiya, işçi orqan, şum səthi, enerji sərfiyyatı, eroziya, traktor.*

Giriş. Müasir dövrdə kənd təsərrüfatı torpaqlarının məhsuldarlığının azalması, deqradasiya və eroziya proseslərinin intensivləşməsi qlobal problemlərdən biri kimi qiymətləndirilir. Ənənəvi becərmə texnologiyalarının təbii şərait nəzərə alınmadan tətbiqi torpaq strukturlarına zərər vurur, su və külək eroziyasına qarşı dayanıqlığı azaldır, nəticədə həm məhsuldarlıq aşağı düşür, həm də enerji və resurs itkiləri artır.

Azərbaycanın kənd təsərrüfatı istehsalında dayanıqlı inkişafın təmin olunması və ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün torpaqqoruyucu texnologiyaların tətbiqi xüsusi aktuallıq daşıyır. Bu texnologiyalardan biri olan zolaqlarla becərmə üsulu, eroziya riskini azaltmaq, torpağın su-fiziki göstəricilərini qorumaq və aqroekoloji tarazlığı təmin etmək baxımından əhəmiyyətlidir. Lakin mövcud şum aqreqatları bu texnologiyanın tələblərinə tam cavab vermir, şum səthində dalğalı və qeyri-bərabər strukturlar formalaşdırır ki, bu da səpin və digər aqrotexniki proseslərin keyfiyyətini azaldır.

Bu baxımdan, şum səthini həm bərabərləşdirən, həm də torpağın struktur və rütubət xüsusiyyətlərini qoruyan yeni tipli işçi orqanların hazırlanması mühüm elmi-praktiki məsələyə çevrilmişdir.

Hər yeni texnologiyada bütün tədbirlər kənd təsərrüfat bitkilərinin becərilməsi üçün, artırılmasına və sabitləşməsinə yönəldilməlidir. Münbit torpaqlar elə səviyyədə qaldırılmalıdır ki, mədəni bitki daim qida maddələri və rütubətlə təmin olunsun ki, şumlama zamanı şırımlar aqreqatın hərəkəti boyunca düzülür [1,3].

Mühəndis elmi inkişaf etdikcə adıgedən göstəricilər də onunla eyni vaxtda inkişaf etmiş, İKT, avtomatlaşdırılma vasitələri ilə təchiz olunaraq, müasir mərhələyə çatmışdır.

№ 3/2025 səh.15-21

əgər yuxarıda qeyd olunanlara müasir mexanizmlərin tətbiqi ilə həyata keçirilən əməliyyatların keyfiyyət göstəricilərinin, həmçinin məhsuldarlığının yüksəldilməsindəki rolunu da əlavə etsək, onda qarşıya qoyulan məsələnin yeni avtomatlaşdırılmış intiqal mexanizminin yaradılmasının aktuallığı daha qabarıq görünər.

Son illərdə torpaqqoruyucu texnologiyalar sahəsində aparılan tədqiqatlar göstərir ki, torpaq səthinin vəziyyəti və becərmə keyfiyyəti birbaşa istifadə olunan texnikanın konstruktiv xüsusiyyətlərindən asılıdır. Ədəbiyyatlarda vurğulanır ki, şum səthinin dalğalı quruluşu məhsuldarlığın azalmasına, enerji sərfiyyatının artmasına və əlavə torpaq emalı əməliyyatlarına səbəb olur.

Zolaqlarla becərmə texnologiyası torpaqqoruyucu texnologiya olaraq, eyni bir sahədə növbəli əkin sisteminə imkan yaradır, traktor aqreqatının bir gedişində iki texnoloji əməliyyatın, yəni şumlama ilə eyni vaxtda torpağın səpinqabağı malalanmasını təmin edir. Kotanın üzərinə quraşdırılan tərtibat həm iqtisadi, həm də aqrotexniki cəhətdən səmərəlidir. Iqtisadi cəhətdən fermer malalama əməliyyatına sərf olunan vəsaitə qənaət etmiş olur, torpağın tapdalanaraq strukturunun, münbitliyinin qorunması baxımdan traktor aqreqatının sahədə gedişlərinin sayını azaldır, torpağın tapdalanmasını və sıxılmasını azaltmış olur.

Bu üsulun əsas üstünlüklərindən biri odur ki, külək və su erroziyanın qarşısı şumlanmayan zolaqlarla alınmış və ya zəifləmiş olur.

Şumlama səthini zolaqlı şumlama ilə eyni vaxtda hamarlamaq üçün şum üçün eksperimental qurğular çərçivədən, üfüqi uzununa eninə çarpayılardan, ona möhkəm birləşdirilmiş rəflərdən və möhkəmləndirici çubuqlardan, konstruksiyalı işçi gövdədən və montaj mötərizəsindən ibarətdir. Düzləşdirici üfüqi və müstəvi tənzimləmə mexanizminə malikdir.

Yerli və xarici alimlərin araşdırmaları göstərir ki:

Torpaqqoruyucu sistemlərdə işçi orqanların konstruksiyası həlledici faktordur;

Şum səthinin hamarlanması eroziyanın qarşısını alır və məhsuldarlığa müsbət təsir göstərir;

Eyni aqreqatda bir neçə əməliyyatın birləşdirilməsi həm aqrotexniki, həm də iqtisadi baxımdan daha səmərəlidir;

Vibrasiya və tənzimlənən işçi orqanların tətbiqi torpağın yapışmasını azaldır, yanacaq sərfini aşağı salır və texnikanın işini yüngülləşdirir.

Ümumilikdə, mövcud yanaşmalar yeni nəsil, yerli şəraitə uyğun və enerjiyə qənaət edən işçi orqanların işlənməsinin zəruriliyini təsdiqləyir [5,6].

Tədqiqatın obyekti və metodikası. Tədqiqatın obyekti – torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasında istifadə edilən şum aqreqatlarının konstruksiyası və onların işçi orqanlarıdır. Əsas məqsəd – şum səthini eyni zamanda hamarlaya bilən işçi orqanın texniki göstəricilərinin təkmilləşdirilməsi və aqrotexniki baxımdan səmərəliliyinin artırılmasıdır.

Metodika olaraq, tədqiqatda "analitik ümumiləşdirmə, sahə sınaqları, riyazi modelləşdirmə və müqayisəli analiz üsullarından" istifadə olunmuşdur. Sahə şəraitində aparılmış sınaqlar nəticəsində torpağın fiziki göstəriciləri, səth hamarlığı, nəmliyə təsir və aqreqatın enerji sərfi qiymətləndirilmişdir.

Ilkin şumlama ən çox enerji tələb edən istehsal əməliyyatıdır. Şumlama enerji xərclərinin 40%-ə qədərini təşkil edir. Bu əməliyyatın müsbət və mənfi tərəfləri var. Şumlama torpağın fiziki xassələrinin yaxşılaşdırılması ilə yanaşı, eroziyanın məhvinə gətirib çıxarır və nəmliyi azaldır.

Buna görə də hər il onun üst təbəqəsinin yuyulmasına səbəb olan ənənəvi əkin texnologiyasından imtina etməyin vaxtı gəldi. Şumlama səthinin hamarlanması adətən ayrıca texnoloji əməliyyat kimi aparılır. Bununla belə, perspektivli hesab edilmir, çünki traktorun bir keçidində hər iki əməliyyatı birləşdirmək mümkündür - şumlama və hamarlama. Bu zaman yanacaq sərfiyyatı azalır, traktorun gücündən rasional istifadə edilir və şumlama səthi daha hamar olur, çünki şumlanandan sonra düyünlər boşaldılır, eyni zamanda rütubəti saxlayır.

Hər yeni texnologiyada bütün tədbirlər kənd təsərrüfat bitkilərinin becərilməsi üçün, artırılmasına və sabitləşməsinə yönəldilməlidir. Münbit torpaqlar elə səviyyədə qaldırılmalıdır ki, mədəni bitki daim qida maddələri və rütubətlə təmin olunsun ki, şumlama zamanı şırımlar aqreqatın hərəkəti boyunca

№ 3/2025 səh.15-21

düzülür. Buna görə də, birinci təbəqəni keçdikdən sonra, torpaq təbəqəni birinci şırımlığa çevrilir. Bu halda tədricən hamarlanır, qalan təbəqə isə yerin yuxarı qatında 12-15 sm dərinliyə qədər düzəldilir.

Kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün mexanikləşdirilmiş texnologiyalar yükdaşıma xərclərini azaltmaq və mexanikləşdirmə səviyyəsini artırmaq istiqamətində hazırlanmış, lakin torpağın məhv edilməsini əhəmiyyətli dərəcədə azaltmaq, münbitliyi artırmaq və qorumaq, enerji və resursları azaltmaq, habelə ekoloji cəhətdən təmizlənmə istiqamətində adekvat inkişaf əldə etməmişdir. Bu problemləri həll etmədən müasir intensiv kənd təsərrüfatı istehsalını təsəvvür etmək mümkün deyil.

Struktur cəhətdən sadə qurğular və ya işçi orqanları yaratmaqla bir neçə texnoloji əməliyyatın bir prosesdə birləşdirilməsi müasir kənd təsərrüfatı istehsalının inkişafının əsas tendensiyasıdır.

Təklif olunan işçi orqanın effektivliyini müəyyənləşdirmək üçün sahə şəraitində kompleks sınaqlar həyata keçirilmişdir. Sınaqlar torpaqqoruyucu becərmə texnologiyasının tətbiq olunduğu yamaclı sahələrdə aparılmış, nəticələr həm mövcud texnika ilə, həm də təkmilləşdirilmiş konstruksiya ilə müqayisəli şəkildə qiymətləndirilmişdir.

Tədqiqatın əsas məqsədi – zolaqlarla becərmə texnologiyasına uyğun olaraq şum səthini eyni zamanda hamarlayan işçi orqanın yeni konstruktiv həllini hazırlamaq və sahə şəraitində səmərəliliyini qiymətləndirməkdir. Tədqiqat zamanı həm riyazi modelləşdirmə, həm də sahə şəraitində eksperimental sınaqlar aparılmış, əldə olunan nəticələr təhlil olunaraq yeni işçi orqanın texniki və aqrotexniki üstünlükləri müəyyən edilmişdir. Təklif olunan konstruksiyanın tətbiqi sayəsində şum səthi daha bərabər olur, torpaqda nəmliyin saxlanması təmin olunur, əlavə hamarlayıcı əməliyyata ehtiyac qalmır. Bu isə texnoloji prosesin sadələşdirilməsinə və iqtisadi səmərənin yüksəlməsinə səbəb olur [2,4].

Tədqiqatın nəticələrinin müzakirəsi və təhlili. Təkmilləşdirilmiş işçi orqan tətbiq edildikdə, torpaq səthində "bərabərlik və struktur sabitliyi" müşahidə olunmuş, səpin öncəsi hazırlıq mərhələsində əlavə hamarlayıcı aqreqatlara ehtiyac azalmışdır. Əldə olunan nəticələr göstərir ki, torpağın səthində rütubətin saxlanması 14%-ə qədər yaxşılaşmış, texniki keçidlər 1.4 dəfə azalmışdır.

Zolaqlarla becərmə texnologiyası, yalnız külək eroziyasına qarşı yox, eyni zamanda mürəkkəb relyefli, dağətəyi və düzənliklərdə leysan yağış, əriyən qar suları ilə su erroziyasının qarşısının alınmasında da tətbiq edilə bilər.

Zolaqlarla becərmə texnologiyasında zolaqlardan biri növbəti ildə becərildiyinə görə əslində həmin zolaq, dincə qoyulmuş olur və ikinci mövsümdə becərilən zolaq yenidən dincə qoyulur. Zolaqlarla becərmə texnologiyasının əsas parametrlərindən biri maillikdən asılı olaraq zolaqların enidir.

Təcrübələrin nəticələrinin təhlili göstərir ki, yalnız şum əməliyyatının azaldılması hesabına, yəni hər il torpağın 25-27 sm üst qatının çevrilməməsi hesabına eroziya 19 ton/ha-dan 7,4 ton/ha yəni 11,6 ton/ha azaldılmışdır. Deməli, qabaqcıl dünya təcrübələrinin Azərbaycanın dağlıq, dağətəyi əkin sahələrində tətbiqilə ilbəil torpağın eroziyasını kəskin sürətdə azaltmaq olar.

Tədqiqat analitik, eksperimental və sahə müşahidələri əsasında aparılmışdır. Təklif olunan konstruksiya üzrə texniki və texnoloji göstəricilər həm nəzəri modelləşdirmə, həm də sahə şəraitində praktiki sınaqlar vasitəsilə qiymətləndirilmişdir. Eyni zamanda analoji qurğularla müqayisəli təhlil aparılmışdır.

Təhlil göstərir ki, yeni konstruksiyalı orqanlar həm torpağın qorunmasını, həm də məhsuldarlığın sabitləşməsini təmin edir. Müqayisəli analizlər əsasında sübut olunmuşdur ki, işçi orqanın tətbiqi əməyin səmərəliliyini artırır və aqrotexniki normativlərə uyğun nəticə verir.Tədqiqatın nəticələri əsasında elmi yenilik olaraq şum səthini hamarlayan işçi orqanın konstruksiyası təqdim edilmiş, onun kənd təsərrüfatında praktik tətbiq imkanları göstərilmişdir. Təklif olunan texnologiyanın aqroekosistemlərdə dayanıqlı becərmə sisteminin qurulmasına xidmət edəcəyi qənaətinə gəlinmişdir [8,9].

Elmi yenilik. Tədqiqat nəticəsində:

- Torpaqqoruyucu zolaqlı becərməyə uyğun «yeni tipli işçi orqan konstruksiyası» hazırlanmışdır;

№ 3/2025 səh.15-21

- Bu orqan vasitəsilə "şum və səth hamarlama əməliyyatları birləşdirilmiş", vaxt və enerji qənaətinə nail olunmuşdur;

- İşçi orqanın forması, bucaqları və ölçüləri riyazi modellərlə optimallaşdırılmışdır;
- Sahə sınaqları ilə "aqrofiziki və aqrotexniki göstəricilərin yaxşılaşması" sübut olunmuşdur.

Tərəfimdən aparılan nəzəri və təcrübi tədqiqatlar nəticəsində ixtira, faydalı model, sənaye nümunəsi səviyyəsində işlənmiş intiqal mexanizmlərinə-müxtəlif növ ötürücülərə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyindən patentlər alınmış, analoji işlər müvəffəqiyyətlə davam etdirilir.

Belə qurğulardan biri-yamaclarda şum səthinin hamarlanması üçün nəzərdə tutulmuşdur.

Məsələnin aktuallığını nəzərə alaraq kənd təsərrüfatında müasir tələblərə cavab verən keyfiyyətli, traktorun bir gedişində hər iki əməliyyatı birləşdirmək mümkün olan - şumlama və hamarlama, daha yüksək məhsuldarlığı və məhsuldarlıq xüsusiyyətlərini uzun zaman saxlamağa qadir, yanacaq sərfiyyatını azaldır, traktorun gücündən rasional istifadə edilir və şumlama səthi daha hamar olur, çünki şumlanandan sonra düyünlər boşaldılır, eyni zamanda rütubəti saxlayır.

Bu texnologiyanın-şum səthini hamarlayan təkmilləşdirilmiş işçi orqanın torpaqqoruyucu becərmə sistemində tətbiqi aşağıdakı elmi və praktiki yenilikləri gətirir:

1.Aqrotexniki proseslərin birləşdirilməsi

- Şumla paralel səth hamarlanması təmin edilir -bu əlavə aqreqata və keçidə ehtiyacı aradan qaldırır;
- Vaxt, yanacaq və əmək sərfi azalır, texnoloji proses optimallaşır.

2.Torpağın strukturunun və nəmliyinin qorunması

- Torpaq səthi hamar olduğu üçün eroziya riski azalır, nəm torpaqda daha uzun müddət saxlanılır;
- Bu da bitki inkişafı və məhsuldarlıq baxımından müsbət təsir göstərir.

3.Aqreqatın texniki səmərəliliyinin artması

- Yeni işçi orqan daha az enerji sərfi ilə işləyir;
- Konstruksiyası sadə və yerli istehsalata uyğundur, təmir və xidmət xərcləri aşağıdır.

4.Elmi yenilik

- Yeni model əvvəlki şum aqreqatları ilə müqayisədə çoxfunksiyalıdır;
- Onun parametrləri riyazi modellərlə optimallaşdırılıb, sınaqlarla sübut olunub.

5.Ekoloji üstünlüklər

- Torpağın üst qatının dağılmasının qarşısını alır;
- Uzunmüddətli torpaq çünbitliyinin qorunmasına töhfə verir.

Praktiki əhəmiyyəti. Təklif edilən işçi orqan fermer təsərrüfatlarında və iri kənd təsərrüfatı müəssisələrində geniş tətbiq oluna bilər. Onun sadə konstruksiyası və yerli imkanlarla istehsal edilə bilməsi onun praktik tətbiqini asanlaşdırır.

Əlavə aqreqatlardan istifadəyə ehtiyacın azalması nəticəsində əmək və yanacaq sərfi azalır, torpağın strukturunun qorunması isə məhsuldarlığı artırır. Tətbiqi nəticəsində torpaq eroziyası riski azalır, bu da uzunmüddətli təsərrüfat sabitliyi yaradır.

Məlum olduğu kimi məqalədə müvafiq olaraq yamaclardan şum səthini hamarlayan üçün böyük iqtisadi, istismar və texnoloji göstəricilərlə malik qurğu işlənmiş, parametrləri nəzəri əsaslandırılmışdır. Qeyd olunan qurğunun iqtisadi səmərəliliyinin hesablanmasında məqsəd onun daha böyük texnoloji və iqtisadi imkanlara malik olması, quruluşunun sadə, istismarının asan olmasıdır.

İqtisadi səmərəsi. Yeni işçi orqanın tətbiqi nəticəsində:

- Texnikanın işləmə müddəti qısalır — zaman itkisi azalır;
- Yanacağa qənaət edilir — təxminən 10–12% sərf azaldılır;
- Əmək məhsuldarlığı artır — əkin və becərmə mərhələlərində 1 keçidlə iş yekunlaşır;

- Sahənin məhsuldarlığı artır — nəmliyin qorunması sayəsində 8–10% məhsul artımı müşahidə olunur.

Kotanın üzərinə quraşdırılan tərtibat həm iqtisadi, həm də aqrotexniki cəhətdən səmərəlidir. Iqtisadi cəhətdən fermer malalama əməliyyatına sərf olunan vəsaitə qənaət etmiş olur, torpağın tapdalanaraq strukturunun, münbitliyinin qorunması baxımdan traktor aqreqatının sahədə gedişlərinin sayını azaldır, torpağın tapdalanmasını və sıxılmasını azaltmış olur.

Bu göstəricilər texnoloji modernləşmənin ekonomik effektivliyini təsdiq edir.

Qeyd edilənlərlə yanaşı əlavə iqtisadi səmərənin əldə olunmasında yamaclarda şum səthini hamarlayan qurğudan istifadə zamanı əldə olunan materialdan istifadə olunarkən hər hektarda orta hesabla 50%-ə qədər gübrəyə qənaət olunması, artıq bitkilərin seyrədilməsinə çəkilən xərclərin aradan qaldırılması səpindən əvvəl toxumların isladılmasına çəkilən xərclərin aradan qaldırılması, torpaqdakı mineral və üzvi qida ehtiyatlarından bitkilərin məqsədyönlü istifadəsinə imkan yaradılması, kənd təsərrüfatı bitkilərinin becərilməsində əməliyyatların mexaniləşdirmə faizlərinin yüksəlməsi və işçi qüvvəsinə qənaət edilməsi də xüsusilə qeyd olunmalıdır [7,10] .

Tədqiqatlar nəticəsində şumun səthini hamarlayan işçi orqanın parametrləri dəqiqləşdirilmiş, aqreqatın hərəkəti istiqamətində münasibətdə işçi orqanın hücum bucağının rasional (səmərəli) qiyməti tapılmışdır. Hücum bucağından asılı olaraq torpağın parçalanma dərəcəsi öyrənilir.

Tədqiqatlar göstərir ki, hücum bucağı və sürət artdıqca torpağın parçalanması onun strukturunun pisləşməsinə səbəb olur, yəni torpağın həddən artıq parçalanması tozun yaranmasına səbəb olur [9].

Nəticə. Beləliklə, tədqiqat nəticəsində torpaqqoruyucu becərmə texnologiyasına uyğun təkmilləşdirilmiş işçi orqan hazırlanmış və onun kənd təsərrüfatında tətbiqi mümkünlüyü sübut edilmişdir. Konstruksiyanın sadəliyi, aqrotexniki tələblərə cavab verməsi və yüksək səmərəliliyi onun geniş tətbiqinə zəmin yaradır.

Bu yanaşma torpağın münbitliyinin qorunması, nəm rejiminin saxlanması və məhsuldarlığın artırılması istiqamətində mühüm addımdır. Gələcəkdə bu texnologiyanın müxtəlif torpaq-iqlim şəraitlərində də sınanması məqsədəuyğundur. Aparılmış tədqiqatlar göstərdi ki, təkmilləşdirilmiş işçi orqan torpaqqoruyucu zolaqlarla becərmə texnologiyası üçün həm elmi, həm də praktiki baxımdan səmərəli texniki vasitədir. Onun tətbiqi nəticəsində:

şum səthinin bərabərliyi əhəmiyyətli dərəcədə artır;
torpağın struktur və rütubət göstəriciləri qorunur;
enerji sərfiyyatı azalır, əməyə qənaət olunur;
eroziya riski aşağı salınır;
məhsuldarlıq yüksəlir.

Bu nəticələr yeni texnologiyanın Azərbaycan kənd təsərrüfatında geniş tətbiqi üçün mühüm perspektivlər açır.

ƏDƏBİYYAT

1. Abbasov Z.M., Bostan bitkilərinin zolaqlarla becərilməsi texnologiyası və maşınlar kompleksinin nəzəri və eksperimental əsasları, doktorluq dissertasiyası, Gəncə, 2009.
2. Abbasov Z.M, F.C.Rəhimova, Ş.M.Babayev və b. Yamaclarda şum səthini hamarlayan qurğu (Azərbaycan Respublikası Patent və Əmtəə Nişanları Mərkəzi, Patent, Faydalı model: ***A01B 15/04*** (2006.01). Bülleten № 10; Bakı 2022.
3. Abbasov Z.M, F.C.Rəhimova. Zolaqlarla becərmə texnlogiyasında şum səthini hamarlayan işçi orqanın tədqiqi. AMEA-Gəncə bölməsi 2019, №4(78), s.165-169.
4. F.C.Rəhimova.Torpaqqoruyucu Zolaqlarla becərmə texnlogiyasının və texniki vasitənin tədqiqi, Aşıq Ələsgərin anadan olmasının 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans. Türkiyə,Kars. Səh..308-311.

5. Ş.M.Babayev, F.C.Rəhimova. Yamaclarda şum səthini hamarlayan qurğunun avtomatlaşdırılmış intiqal mexanizminin işlənməsi SCIENTIFIC WORK International scientific journal. Impact Factor 1.790. Bakı,2022.səh.155-159.
6. Arina Mixailova, jurnal Aqroinvestor, Moskva, 2 iyul 2021, s.1-27
7. Аббасов З.М., Валиев С.Ш. Применение почвозащитной технологии и система машин в Азербайджане. Сб. Научных работ Евроазийского союза Ученых, часть 5, Технические науки, Москва, 2014, стр 6-10
8. А.С.14644922. СССР, МНИ A01B79/02, Способ обработка почвы при полослвой земледелии// Аббасов.З.М. (СССР) №4190161/30-15 заявлено 09.02.87: опубл. 15.03.89. Бюл. №10.
9. З.М.Аббасов,Ф.Дж.Рагимова,Полосовое возделывание сельскохоз-яйственных культур. UTECA,Elmi xəbərlər,Gəncə 2018.səh.61-64.
10. Аббасов З.М, Рагимова Ф.Дж,.Теоретический анализ процесса пахоты при полосовой технологии. ЕВРАЗИЙСКИЙ СОЮЗ УЧЕНЫХ (ЕСУ) Ежемесячный научный журнал № 5 (62) / 2019 1 часть, ст 62-65.

УДК:631.51.01

НОВЫЙ ТЕХНИЧЕСКИЙ ПОДХОД К ПОЧВОСОХРАНЯЮЩИМ ТЕХНОЛОГИЯМ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

Фарида Джейхун Рахимова
Азербайджанский Технологический Университет
f.rehimova@atu.edu.az

Резюме. *В статье рассматриваются вопросы совершенствования рабочего органа, выравнивающего поверхность плуга по технологии обработки почвы с почвозащитными полосами. В результате нового конструктивного решения повысилась ровность поверхности почвы, улучшилось влагосохранение, снизились энергозатраты и возросла производительность. Полевые испытания подтвердили агротехническую и экономическую эффективность данной технологии. Изменение климата в мире и интенсивная техногенная нагрузка в сельском хозяйстве ускорили деградацию почвенных ресурсов. Это обстоятельство повысило актуальность почвозащитных технологий обработки почвы с точки зрения сохранения плодородия почв и поддержания агроэкологического равновесия. В частности, на территориях, подверженных эрозии, выравнивание поверхности почвы при подготовке к посеву имеет большое значение как с агротехнической, так и с экологической точки зрения. Усовершенствование нового типа рабочего органа, совместимого с почвозащитной полосной технологией обработки почвы, позволяющего одновременно выравнивать поверхность плуга и работать без нарушения структуры почвы. Для этого проанализирован принцип работы существующих пахотных агрегатов и предложены конструктивные изменения, учитывающие физические показатели, режим влажности и структурные особенности почвы.*

Ключевые слова: *почвозащитная технология, рабочий орган, поверхность пахоты, энергозатраты, эрозия, трактор.*

№ 3/2025 **səh.15-21**
UDC:631.51.01

A NEW TECHNICAL APPROACH TO SOIL-CONSERVATION TECHNOLOGIES IN AGRICULTURE

Farida Jeyhun Rahimova
Azerbaijan Technologycal University
f.rehimova@atu.edu.az

Summary. *The article investigates the improvement of a working implement designed to level the plowed surface in strip-tillage (soil-conserving) technologies. As a result of the proposed constructive solution, the uniformity of the soil surface has increased, moisture retention has improved, energy consumption has decreased, and crop productivity has risen. Field trials have demonstrated that the proposed technology is effective both agronomically and economically, contributing to the preservation of soil fertility.*

Global climate change and intensive technological loads in agriculture have accelerated the degradation of soil resources. This situation has heightened the relevance of soil-conserving tillage technologies. In particular, leveling the soil surface during seedbed preparation in erosion-prone areas is of critical importance from both agronomic and ecological perspectives.

The article proposes a new type of working implement compatible with strip-tillage technologies, capable of simultaneously leveling the plowed surface without disturbing soil structure. To this end, the operation principles of existing plow aggregates were analyzed, and constructive modifications were suggested, taking into account the physical properties of the soil, moisture regime, and structural characteristics.

Key words: *conservation tillage, working organ, soil surface, energy efficiency, erosion, tractor.*

Redaksiyaya daxilolma: 17.07.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.22-25**

UOT:631.51.01
DOI 10.30546/678209.2025.03.012

KƏND TƏSƏRRÜFATI ƏMƏLIYYATLARI ÜÇÜN MAŞIN-TRAKTOR AQREQATININ MƏHSULDARLIĞININ HESABLANMASI

[1]Vidadi Həsən oğlu Rzayev, [2]Aydın Rəhim oğlu Məhərrəmov
[3]Qamət Nazim oğlu Abulov

"AQROMEXANİKA"ELMİ-TƏDQİQAT İNSTİTUTU
Gəncə ş. Ə.Əliyev 93
[1]rzayev.v1957@gmail.com, [2]avtozavod2024@gmail.ru
[3]aqromexanika.etigb@mail.ru

Xülasə: *Bu məqalə kənd təsərrüfatı əməliyyatlarının planlaşdırılması, tələb olunan maşın parkının müəyyən edilməsi və texnoloji proseslərin iqtisadi səmərəliliyinin hesablanması üçün kritik göstərici olan maşın-traktor aqreqatının (MTA) məhsuldarlığının hesablama metodologiyasını müzakirə edir. Əsas məhsuldarlıq növləri: nəzəri, texniki və ekspluatasiya nəzərdən keçirilir. Traktor-kotan aqreqatının növbə məhsuldarlığının hesablanması üçün addım-addım alqoritm konkret nümunə ilə təqdim olunur. Məhsuldarlığa təsir edən əsas amillər və onu artırmaq yolları göstərilmişdir.*

Açar sözlər: *maşın-traktor aqreqatı, məhsuldarlıq, hesablama, alətin işci eni, aqreqatın işci sürəti, vaxtdan istifadə əmsalı, kənd təsərrüfatı texnikası.*

Giriş Müasir kənd təsərrüfatı istehsalının səmərəliliyi əsas və köməkçi enerji resurslarının rasional istifadəsi ilə müəyyən edilir. İstənilən maşın-traktor aqreqatının (MTA) əsas istismar və texniki göstəricisi onun vaxt vahidinə görülən iş həcmi (ha/saat, t/saat, m³/saat) kimi müəyyən edilən məhsuldarlığıdır. Dəqiq məhsuldarlıq hesablanması real iş planları yaratmağa, dayanma vaxtını minimuma endirməyə və mexaniki işlərin maya dəyərini azaltmağa imkan verir. Bu tədqiqat əsas əkin əməliyyatları üçün MTA-nın məhsuldarlığının hesablanması üsullarını göstərməyi hədəfləyir.

1. Metodologiya: Məhsuldarlıq növləri və hesablama düsturlari

MTA-nın məhsuldarlığı zaman itkilərinin nəzərə alınma dərəcəsinə əsaslanaraq müəyyn edilir:

1.Nəzəri məhsuldarlıq (Wnəz): Hər hansı bir dönmə, dayanma və ya yenidən yükləmə nəzərə alınmadan ideal şəraitdəki məhsuldarlıq

$$W_{nəz} = 0.1 \text{ x } B \text{ x } V, \text{ burada:}$$

B – alətin işci eni, m;

V – aqreqatın işci sürəti, km/saat;

0.1 – (m · km/saat)-ı ha/saat-a çevirmək üçün ölçü əmsalı.

2.Texniki (Konstruktiv) məhsuldarlıq (Wtex): Əməliyyatın xüsusi şəraitini nəzərə alan, lakin təşkili dayanmaları istisna edən məhsuldarlıq. Əsas hesablanmış dəyərdir.

$$W_{tex} = 0.1 \text{ x } B \text{ x } V \text{ x } \tau, \text{ burada:}$$

τ (tau) – iş vaxtından istifadə əmsalı.

3.Ekspluatasiya (Növbə) məhsuldarlıq ($W_{növbə}$): Bütün hazırlıq və yekun əməliyyatları, texnoloji dayanmaları və fasilələri əhatə edən növbə üzrə faktiki məhsuldarlıq.

$$W_{növbə} = W_{tex} \text{ x } T_{növbə}, \text{ burada:}$$

$T_{növbə}$– iş növbəsinin müddəti, saat.

İş vaxtından istifadə əmsalı (τ) əsas korreksiya əmsalıdır və saf işləmə vaxtının ümumi növbə vaxtına nisbəti kimi hesablanır. Onun dəyəri adətən 0.7-dən 0.9-a qədər dəyişir və sahənin konfiqurasiyası, aqreqatın təşkili və operatorun bacarığından asılıdır.

2. Praktiki hesablama: Kotan aqreqati üçün nümunə

2.1. İlkin məlumatlar:

Traktor: MTZ - 1221

Alət: 4-korpuslu kotan ПЛН 4-35 (bir korpusun eni: 0.35 m)

İşləyən sürət (V): 7 km/saat

İş növbəsinin müddəti ($T_{növbə}$): 10 saat

Hesablanmış vaxtdan istifadə əmsalı (τ): 0.8

2.2. Hesablama addimlari:

Addım 1: Aqreqatın işləyən enini müəyyən edin (B).

B = Korpusların sayı × Bir korpusun eni = 4 × 0.35 m = **1.4 m**.

Addım 2: Saatlıq texniki məhsuldarlığı hesablayın (W_{tex}).

W_{tex} = 0.1 × B × V × τ = 0.1 × 1.4 m × 7 km/saat × 0.8 = **0.78 ha/saat**

Addım 3: Növbə ekspluatasiya məhsuldarlığını müəyyən edin ($W_{növbə}$).

$W_{növbə}$ = W_{tex} × $T_{növbə}$ = 0,78 ha/saat × 10 saat = **7.8 ha/növbə**

Hesablamanın nəticəsi: Təhlil edilən şotan aqreqatının növbə ekspluatasiya məhsuldarlığı **7.8 hektar** təşkil edir.

3. MTA-nın məhsuldarliğina təsir edən amillər

MTA-nın məhsuldarlığı mürəkkəb amillər kompleksindən təsirlənən dəyişkən kəmiyyətdir:

Texniki amillər: Traktorun mühərrik gücü və dartma qüvvəsi; quraşdırılmış alətin dizaynı və işləyən eni; ötürmə qollarının sayı və etibarlılığı.

Texnoloji amillər: Əməliyyat üçün aqrotexniki tələblər (şum dərinliyi, əkin norması), bu da sürət və sürət qolunun seçimini müəyyən edir; torpağın fiziki-mexaniki xassələri (sərtlik, rütubət, daşlılıq).

Ekspluatasiya amillər: Maşın operatorunun ixtisası; MTA-nın tənzimlənməsinin keyfiyyəti və texniki hazırlığı; relyef və sahə sahəsinin konfiqurasiyası.

Təşkili amillər: Cığırın uzunluğu; aqreqatın sahədəki marşrutunun rasional planlaşdırılması; yanacaq doldurma və texniki xidmət məntəqələrinin təşkili, materialların vaxtında çatdırılması və məhsulun ixracı.

4. Müzakirə: MTA məhsuldarliğini artirmaq yollari

W = 0.1 x B x V x τ düsturunun təhlilinə əsaslanaraq, məhsuldarlığı onun üç komponentinə təsir etməklə artırmaq olar:

1. İşləyən eni artırmaq (B): Daha geniş alətlərdən istifadə etmək və ya bir neçə maşını geniş qəbullu aqreqatda birləşdirmək.

2. İşləyən sürəti artırmaq (V): İş keyfiyyətini itirmədən daha yüksək sürətlərdə əməliyyatları yerinə yetirməyə imkan verən güclü müasir traktorlardan istifadə etmək.

3. Vaxtdan istifadə əmsalını artırmaq (τ):

1. Dönmələrin sayını və müddətini minimuma endirmək üçün sahədə hərəkət marşrutunu optimallaşdırmaq (məsələn, "baş tərəfdən dönmə" sxemlərindən istifadə etmək).
2. Orta cığır uzunluğunu artırmaq üçün torpaq sahələrini birləşdirmək.
3. Logistik proseslərin (yanacaq doldurma, boşaltma) fasiləsiz təşkili.

4. Aqrotexniki müddətlərdə işləri yerinə yetirmək üçün lazım olan texnikanın miqdarını aşağıdakı düsturla müəyyən etmək olar.

$$n = S / (W_{növbə} \times D \times \alpha), \text{ burada;}$$

n — aqreqatların sayı, S — sahə (ha),

D — iş günlərinin sayı,

α — aqreqatın (maşının) gün ərzində yüklənmə əmsalı (adətən 0.8 - 0,95).

5. Məhsulların tarladan daşınması üçün nəqliyyat vasitələrinin optimal miqdarının təyin edilməsi.

1) İş günün ünuzunluğu, $T_{iş}$ (saat)

2) Məhsulun daşınma məsafəsi, l_d (km, m)
3) Nəqliyyat vasitəsinin texniki sürəti, V (km/saat)
4) Nəqliyyat vasitəsinin boş gedişləri, t_b (km)
5) Nəqliyyat vasitəsinin yükləmə-boşaltma vaxtı, t_{yb} (saat)
6) Nəqliyyat vasitəsinin yük götürümündən istifadə əmsalı-1,($\gamma_{yə}$)
7) Tarladan daşınan yükün miqdarı, Y_{il} (ton)
8) Nəqliyyat vasitəsinin yük götürümü, q (ton)

Marşrut üzrə vaxt sərfi aşağıdakı düsturla təyin edilir:

$$T_M=T_{iş}-\frac{t_b}{V_t}$$

Dövr vaxtı:

$$t_d=\frac{2l_d}{V_t}+t_{yb}$$

İş günü ərzində bir qoşqunun (NV) dövrlərinin miqdarı

$$Z_d=\frac{T_M}{t_d}.$$

İş günü ərzində bir nəqliyyat vasitəsi ilə daçınan yüklərin miqdarı

$$Q_{dy}=Z_d \times q\gamma_{yə}$$

Nəqliyyat işinin miqdarı:

$$N_{im}=Q_{dy} \times l_d$$

Marşurut üzrə tələb edilən NV-nin miqdarı:

$$N_{vm}=\frac{D_{yi}}{Q_{dy}}=\frac{Y_{il}}{Q_{dy}}$$

Nəticə

Maşın-traktor aqreqatının məhsuldarlığının hesablanması üçün təklif olunan metodologiya əkin işlərinin əksər növləri üçün universaldır. Kotan aqreqatı üçün praktiki hesablama nəzəri düsturun tətbiqini aydın nümayiş etdirir. Dəqiq planlaşdırma üçün, xüsusilə də vaxtdan istifadə əmsalının dəyəri kimi etibarlı ilkin məlumatlardan istifadə etmək lazımdır, bu hər bir konkret təsərrüfat və əməliyyat növü üçün dəqiqləşdirilməlidir. Məhsuldarlığa təsir edən amillərin idarə edilməsi maşın və traktor parkından istifadənin səmərəliliyini əhəmiyyətli dərəcədə artırmağa imkan verir, bu da kənd təsərrüfatı istehsalının maya dəyərini azaltmağa birbaşa təsir edir.

ƏDƏBİYYAT

1. Petrov, K.A. (2018). *Maşın-traktor aqreqatlarının nəzəriyyəsi və hesablanması*. Aqropromnəşr.

2. Sidorov, V.P. (2020). *Kənd təsərrüfatı texnikasının istismar səmərəliliyi*. Kolos.

3.Smith, J., & Jones, M. (2021). *Əməliyyat məlumatlarına əsaslanan sahə texnikasının məhsuldarlığının optimallaşdırılması*. Kənd Təsərrüfatı Mühəndisliyi Jurnalı, 45(2), 112-125.

4.K.H.Fətəliyev, S.Y.Sadıxov N.M.Nuriyev, V.H.Rzayev K.N.İmkani "Respublikanın iqtisadi rayonlarının kənd təsərrüfatı maşınları ilə təmin edilməsi üçün normativlər" Gəncə-2016.

5. Qurban İsaoğlu. "Maşın – traktor parkının istismar və aqrar istehsalatın texniki təminatı." Bakı-2020.

№ 3/2025 **səh.22-25**
УДК 631.51.01

РАСЧЕТ ПРОИЗВОДИТЕЛЬНОСТИ МАШИННО-ТРАКТОРНОГО АГРЕГАТА (МТА) ДЛЯ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ РАБОТ

Видади Гасан оглу Рзаев, Айдын Рагим оглу Магеррамов,
Гамет Назим оглу Абулов
НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ «АГРОМЕХАНИКА»
г. Гянджа, ул. А.Алиева, 93

Резюме *В статье рассматривается методика расчета производительности машинно-тракторного агрегата (МТА), которая является важнейшим показателем для планирования сельскохозяйственных работ, определения потребного парка техники и расчета экономической эффективности технологических процессов. Рассмотрены основные виды производительности: теоретическая, техническая и эксплуатационная. На конкретном примере представлен пошаговый алгоритм расчета сменной производительности тракторно-плужного агрегата. Систематизированы основные факторы, влияющие на производительность, и пути ее повышения.*

Ключевые слова: *машинно-тракторный агрегат, производительность, расчет, ширина захвата орудия, рабочая скорость агрегата, коэффициент использования времени, сельскохозяйственная техника.*

UDC 631.51.01

CALCULATION OF THE PRODUCTIVITY OF THE MACHINE-TRACTOR UNIT (MTU) FOR AGRICULTURAL WORK

Vidadi Hasan oglu Rzayev, Aydin Rahim oglu Magerramov,
Gamet Nazim oglu Abulov,
RESEARCH INSTITUTE "AGROMEKHANIKA"
Ganja city. A.Aliyev 93

.

Summary. *This article discusses the methodology for calculating the productivity of a machine-tractor aggregate (MTA), which is a critical indicator for planning agricultural operations, determining the required machinery park and calculating the economic efficiency of technological processes. The main types of productivity: theoretical, technical and operational are considered. A step-by-step algorithm for calculating the shift productivity of a tractor-plough aggregate is presented with a specific example. The main factors affecting productivity and ways to increase it are systematized.*

Keywords: *machine-tractor unit, productivity, calculation, working width of the tool, working speed of the unit, time utilization factor, agricultural machinery.*

Redaksiyaya daxilolma: 15.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.26-32**

УДК 581.19
DOI 10.30546/678209.2025.03.015

RUSPOLIA SETICALYX (C.B. CLARKE) MILN. BITKISININ ONTOGENEZ XÜSUSIYYƏTLƏRI VƏ ABŞERON ŞƏRAITINDƏ İNTRODUKSIYASI

[1]Samirə Bağırova, [2]Leyla Cavadova, [3]Cəmalə Ağayeva, [4]Lalə Nəsirli, [5]Arzu Axundova

"Dendrologiya Bağı" publik hüquqi şəxs, Azərbaycan, Bakı

[1]samira.baqirova.2013@mail.ru, [2]atayeva-2019@mail.ru, [3]arzuaxundova72@gmail.com, [4]lalenesirli280@gmail.com, [5]agayevacemale96@mail.ru

Xülasə: *Ruspolia seticalyx Milne-Redh. növü üzərində aparılan tədqiqat işinin əsas məqsədi ilk dəfə olaraq növün Abşeronun quraq iqlim şəraitində generativ və vegetativ üsullarla çoxaldılaraq ex situ şəraitində morfoloji və fizioloji xüsusiyyətlərinin kompleks araşdırılması və introduksiyasıdır. Parlaq qırmızı və ya narıncı-qırmızı çiçəklərə malik olan bu dekorativ növün ontogenetik mərhələləri (latent, pregenerativ, yuvenil, virginil, generativ, subsenil və senil) izlənilmiş, estetik göstəricilərinə görə tək və qrup əkinlərində istifadə potensialı tədqiq edilmişdir.*

Abşeron yarımadasının iqlim şəraitində aparılan müşahidələr nəticəsində məlum olmuşdur ki, yetkin fərdlər quraqlıq və yüksək temperatur şəraitinə davamlıdır. Optimal inkişaf üçün humuslu, su keçiriciliyi yüksək torpaqlara üstünlük verir. Tam günəşli şəraitdə maksimal çiçəklənmə müşahidə olunur, kölgəli yerlərdə isə çiçəklənmə zəifləyir və zoğlar etiolasiya olunmuş (zəif inkişaf) formaya keçir. Fosfor tərkibli gübrələrin tətbiqi çiçəklənməni stimullaşdırır, azotlu gübrələrin istifadəsi isə vegetativ kütlənin artımına səbəb olur. Çiçəklərin cari ilin zoğlarında əmələ gəlməsi səbəbindən bitkinin güclü və tez-tez budanması məsləhət görülmür. Toxumla və ya ana bitkinin bölünməsi yolu ilə çoxalır. Çilinglər asanlıqla kök salır və növbəti vegetasiya mövsümündə çiçəklənməyə başlayır. Ruspolia seticalyx Milne-Redh. növünün Abşeron yarımadasında kultivasiyası həm dekorativ, həm də ekoloji cəhətdən perspektivli hesab olunur.

Açar sözlər: *Ruspolia seticalyx Milne-Redh., Abşeron yarımadası, ontogenez, ekoloji adaptasiya, bitki morfologiyası*

Giriş. Müasir dövrdə biomüxtəlifliyin qorunması, nadir və nəsli kəsilmək təhlükəsi olan bitki növlərinin artırılması, habelə ekosistemlərin davamlı inkişafının təmin olunması bütün dünya ölkələrinin qarşısında duran ən mühüm ekoloji və strateji problemlərdən biridir. Azərbaycanda da biomüxtəlifliyin mühafizəsi və onun zənginləşdirilməsi dövlət siyasətinin prioritet istiqamətləri sırasında yer alır, yerli və beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən elmi tədqiqatlar, mübadilə proqramları və konservasiya tədbirləri xüsusi əhəmiyyət daşıyır [1].

Abşeron yarımadası torpaq-iqlim xüsusiyyətlərinə görə mürəkkəb ekoloji şəraitə malikdir. Burada yaşıllaşdırma işlərinin uğurla aparılması üçün əsas şərtlərdən biri mühitə uyğunlaşa bilən, davamlı, dekorativ və uzunömürlü ağac və kol bitkilərinin seçilməsidir. Bu məqsədlə "Dendrologiya Bağı" publik hüquqi şəxsin "Ekologiya və İqlimləşdirmə" laboratoriyası tərəfindən müxtəlif ölkələrin botanika bağları ilə toxum mübadiləsi həyata keçirilir. Sözügedən mübadilə proqramları yalnız yeni növlərin introduksiyasına deyil, həm də onların adaptasiya potensialının, morfoloji və fizioloji xüsusiyyətlərinin öyrənilməsinə imkan yaradır. Aparılan elmi mübadilələr nəticəsində əldə edilən növlərdən biri də *Ruspolia seticalyx* (C.B. Clarke) Milne-Redh.-dır. Bu növ dekorativliyi, ekoloji şəraitə davamlılığı və introduksiya potensialı ilə diqqəti cəlb edir. Onun Abşeron yarımadasının quraq iqlim şəraitində introduksiyası və adaptasiya imkanlarının öyrənilməsi həm elmi, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir [1].

№ 3/2025 **səh.26-32**

Vətəni Afrika olan *Ruspolia seticalyx Acanthaceae* Juss. fəsiləsinə məxsus hündürlüyü 0,5-1,2 m olan, silindrik dik gövdəli, həmişəyaşıl bitkidir. *Ruspolia* Lindau cinsi italyan təbiətşünası Eugenio Ruspolinin (1866–1893) xatirəsinə adlandırılmışdır. Yaşıl yarpaqları bir qədər tüklü, yumurtavari-elliptik, şiş ucludur. Yarpağın uzunluğu 10-18 sm, eni 5-8 sm olub, damarlanması torvaridir. Ümumi çiçək oxunun uzunluğu 5-30 sm-dir. Ağ tüklü ox, aşağıdan yuxarıya ardıcıl olaraq açılan bir neçə hermafrodit çiçəkləri daşıyır. 2-3 sm uzunluğunda çəhrayı-qırmızı borulu çiçəklərin uzunluğu 0,8-1,5 sm, beş elliptik ləçəkdən ibarətdir. Meyvəsi dairəvi və yastı toxumları olan 3-3,5 sm uzunluğunda bir kapsuldur. Kapsullar kəskin uclu, zirvəyə yaxın hissədə zəif dalğalı kənarlı, ensiz avarvari və yastılaşmış quruluşa malikdir. Onlar uzununa yarılaraq bir neçə disk formalı, tünd-qəhvəyi rəngli toxumların ətrafa yayılmasını təmin edir. Toxumlar meyvədaxili qarmaqvari strukturlara bərkidilmiş olur ki, bu da dispersiya (yayılma məsafəsi) prosesində onların bitkidən daha uzaq məsafələrə yayılmasına şərait yaradır [1,4].

Ruspolia seticalyx toxumları Xəzər rayonu Dendrologiya Bağının ərazisinə introduksiya edilmişdir. Ərazi dəniz səviyyəsindən 8,2 m hündürlükdə olub, illik orta temperaturu təxminən 13-15°C-yə bərabər olur. Şaxtalı qış aylarında havanın temperaturu bəzi hallarda -15°C və ya -17°C-ə qədər enir. Axırıncı onillikdə bu hala təsadüf edilməmişdir. Yanvar-fevral aylarında havanın orta temperaturu +3,1-5,5°C olur. Şaxtalı günlər 50 günə qədər davam edir. Qarın qalınlığı il ərzində 3-120 mm olur. İsti yay aylarında havanın orta temperaturu +26,8-28°C, həmin müddətdə havanın maksimum temperaturu isə 40°C-yə çatır. Havanın maksimal temperaturu əsasən iyul-avqust aylarında qeydə alınır. Abşeron yarımadasında yay uzunmüddətli və isti, qış isə mülayim keçir. Yüksək yay temperaturu çox zaman güclü şimal küləklərinin təsiri ilə nisbətən yumşalır. Abşeronda ən isti aylar iyul və avqust, ən soyuq ay isə yanvardır. Havanın orta illik rütubəti 78-82%, isti və quraq yay aylarında isə 30%-ə çatır. Yağıntı əsasən payız-qış aylarında olur və illik miqdarı 193,5 mm təşkil edir. Yaz aylarında əsasən, gücü 30-32 m/dəq olan "Xəzri" küləkləri əsir [2,3], (Cəd. 1).

Cədvəl 1.

Aylar üzrə	Havanın orta temperaturu ^{0}C	Torpağın orta temperaturu ^{0}C	Orta nisbi rütubəti %
yanvar	4,5	5,45	74
fevral	6,3	6,4	72
mart	8,4	10,7	76
aprel	18,7	15.7	53
may	15,35	17,54	61
iyun	29,05	23,4	45
iyul	29,07	25,7	46
avgust	28,04	28,65	58
sentyabr	24,1	22,51	61
oktyabr	18,0	18,39	75
noyabr	11,7	11,45	78

Dendrologiya Bağında 2024-cü il üzrə tədqiq edilmiş orta iqlim göstəriciləri

Yeni növlərin introduksiya edilməsi zamanı dekorativ bitkilərin yaşıllaşdırma işlərində istifadə üsullarının hazırlanması, onların bioekoloji xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi vacibdir. Slovakiyanın “Botanical Garden P.J. Safarik University ” nəbatat bağından mübadilə yolu ilə əldə edilmiş *Ruspolia Seticalyx* (C.B. Clarke) Miln. toxum nümunələri Dendrologiya Bağında qapalı şəraitdə introduksiya edilmişdir [1].

№ 3/2025 **səh.26-32**

1 aprel 2024-cü il tarixində Slovakiyanın Koşice şəhərinin P.J.Safarik Universitetinin Botanika bağından əldə olunmuş toxumlar laboratoriya şəraitində Portable LCD Digital mikroskopu altında tədqiq edilmiş, məlum olmuşdur ki, toxumların uzunluğu 9-10×7-8 mm, solğun sarı, bir səthi hamar,

digər səthi nizamsız qırışıqlıdır. Bir ədəd toxumunun təqribi çəkisi 0,083 q-dır (Şək. 1).

Şəkil 1. Mübadilə yolu ilə əldə olunmuş toxumların əkilməsi

Toxumlar qapalı şəraitdə 5 may 2024-cü il tarixində (temperatur 18^0C, nisbi rütubət 65%) meşə torpağı və humus qarışığı əlavə edilmiş qablara əkilmişdir. Bitkinin ilkin cücərtiləri 12 may 2024-cü ildə əldə olunmuşdur. Növün ontogenezdə inkişafı dövrlər üzrə tədqiq edilmişdir:

Latent dövr (toxumların sakitlik dövrü)- 6 ədəd toxumun çəkisi 0,05 qram, 1 ədəd toxumun təqribi çəkisi isə 0,0083 qram olduğu təyin edilmişdir. Toxumların cücərməsi üçün optimal temperatur 18-22 ^{0}C, nisbi rütubət 65 % -dir (Şək. 2).

Şəkil 2. Növün generativ çoxaldılması

Pregenerativ dövr- Toxumların cücərməsi yerüstüdür. 5 may 2024-cü il tarixində əkini edilmiş *Ruspolia seticalyx* növünün ilkin cücərtiləri bir həftə sonra (168 saat) qeydə alınmışdır. Toxumların cücərmə faizi aşağıdır (≈17 %). Cücərti ləpə altlığı və ləpə yarpaqlarından ibarətdir. Ləpə yarpaqlarının ömrü 32-34 gündür. İlk həqiqi yarpaqlar toxum cücərdikdən 20-25 gün sonra əmələ gəlir. I cüt həqiqi yaşıl yarpaqları tüksüz, yumurtavari-elliptik, şiş uclu, qarşı-qarşıya düzülüşlü, parlaq, üst səthi hamar, 0,9 -1,4 sm uzunluğunda, damarlanması torvaridir. Bu yaş mərhələsi 30 günə qədər davam edir.

Yuvenil yaş mərhələsi (y) - 21-25 gün davam edir, ləpəyarpaqları solur. Tam formalaşmış yarpaqların ölçüsü 1,5±0,3 sm uzunluqda, 0,5±0,03 sm enindədir.

İmmatur yaş mərhələsi (m) - 24-26 gün davam edir, 2-3 cüt həqiqi yarpaqlar formalaşır və sonunda əsas zoğ boy atır. Bu dövrün sonunda cücərtilərin hündürlüyü 5-7 sm-ə çatır.

Virginil mərhələsi (v) - Əsas və yan budaqların fəal boy artması baş verir. Bu mərhələnin sonunda bitkilər 10-11 sm hündürlüyə, çətrinin diametri isə 8-10 sm-ə çatır (Şək. 3).

Şəkil 3. Növün açıq sahəyə köçürülməsi

Mütəmadi şəkildə aparılan biometrik ölçmələr nəticəsində müəyyən edilmişdir ki, növün yarpaq eninin orta göstəricisi 10 sm (təbii arealında 5-8 sm), yarpaq uzunluğu 14 sm (təbii arealında 10-18 sm), bitki boyu isə 0,4 m (təbii arealında 0,5-1,2 m) olmuşdur. 18 iyul 2024-cü il tarixində bitki fərdləri yeni dibçəklərə köçürülərək açıq sahədə yerləşdirilmiş və növ üzərində aparılan elmi tədqiqatlar davam etdirilmişdir (Cəd. 2).

Cədvəl 2.

Növün introduksiya və təbii areal ölçülərinin müqayisəli təhlili

Parametr	Ölçü vahidi	Introduksiya (orta)	Təbii areal		Areal aralığı (orta)	Aralığa düşür	Fərq
			(min)	(max)			
Yarpaq eni	sm	10	5	8	6.5	Xeyr	3.5
Yarpaq uzunluğu	sm	14	10	18	14.0	Bəli	0.0
Bitki boyu	m	0.4	0.5	1.2	0.85	Xeyr	-0.45

Generativ dövr (g) - Yan zoğların inkişafı zamanı çiçək qrupları formalaşır və inkişafı davam edir. Bitkinin orta hündürlüyü 20-22 sm, çətrinin diametri isə 10-13 sm-ə çatır. Ümumi çiçək oxunun uzunluğu 5-30 sm-dir. Ağ tüklü ox, aşağıdan yuxarıya ardıcıl olaraq açılan bir neçə hermafrodit çiçəkləri daşıyır. 2-3 sm uzunluğunda çəhrayı-qırmızı borulu çiçəklərin uzunluğu 0,8-1,5 sm, beş elliptik ləçəkdən ibarətdir. Meyvəsi dairəvi və yastı toxumları olan 3-3,5 sm uzunluğunda bir Şəkil 4. *Ruspolia seticalyx* növününin morfoloji quruluşu

kapsuldur (Şək. 4.).

Subsenil və senil yaş dövrləri - Bu mərhələnin səciyyəvi cəhəti bitkinin üst hissəsindəki yarpaqlar tökülür, alt hissəsindəki yarpaqların saralması müşahidə edilir.

Ana bitkidən generativ dövrdə əldə edilmiş 11 ədəd toxum nümunəsi 2 aprel 2025-ci il tarixində öncəki illərin praktika və metodologiyası nəzərə alınmaqla qapalı şəraitdə yenidən əkini edilmişdir. 2024-cü il ilə müqayisədə əkin vaxtının bir ay əvvəl həyata keçirilməsi səbəbindən temperatur şəraiti dəyişmiş və toxumların cücərməsi müddəti uzanmışdır. Həmçinin, 2025-ci ildə bitki vegetativ üsulla çoxaldılmış, gövdə kəsiyindən yeni bir fərd əldə edilmişdir (Şək. 5).

Şəkil 5. Növün vegetativ və generativ çoxaldılması

12 avqust 2025-ci il tarixində bitki üzərində ölçmə işləri aparılmış və əldə olunmuş göstəricilər müqayisəli təhlil edilmişdir (Cəd. 3).

Cədvəl 3.

Ştil ilə toxum mənşəli cücərti nümunələrin morfometrik göstəricilərinin müqayisəli təhlili

Parametrlər (sm)	Vegetativ (ştil)	Generativ (toxum cücərtisi)	Fərq %-lə
Bitki boyu	5	6	+20,0
Yarpaq uzunluğu	4,0	4,5	+12,5
Yarpaq eni	3,0	2,0	-33,3

Generativ yolla əldə edilmiş cücərtilər vegetativ ştillər ilə müqayisədə ≈20 % daha hündür və yarpaq uzunluğu ≈12,5 % daha böyükdür. Yarpaq eni generativ nümunədə ≈33,3 % daha kiçik olduğundan yarpaqlar daha dar və uzunsov (nisbət 2,25) formaya malikdir. Bu nəticələr generativ çoxalmada erkən inkişaf mərhələsində hündürlüyün artması və yarpaq morfologiyasının incəlməsi ilə səciyyələnən fərqləri göstərir.Əldə edilmiş yetkin fərd 4 may 2025-ci il tarixində açıq sahəyə köçürülmüşdür (Şək. 6).

Şəkil 6. Növün açıq sahəyə köçürülməsi

Əkinin birinci ilində (2024) bitkinin maksimal boy inkişafı 28–30 sm olmuş, 2025-ci ildə isə açıq sahəyə köçürüldükdən sonra yan budaqların sayı artmış, çətirinin sahəsi genişlənmiş və bitkinin boyu 36 sm-ə qədər inkişaf etmişdir (Qraf. 1).



Qrafik 1. *Ruspolia seticalyx*-in 2024 və 2025-ci illərdə inkişaf dinamikası

Aparılan müşahidələrin nəticələri növün Abşeron şəraitində adaptasiya potensialı və çoxalma qabiliyyətinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir (Şək. 7).

Şəkil 7. Növün transplantasiya prosesi

Nəticə. Abşeron yarımadasının iqlim şəraitində aparılan müşahidələr nəticəsində məlum olmuşdur ki, bitkinin inkişaf fazalarının - vegetativ və generativ mərhələlərinin tam şəkildə izlənilməsi mümkündür. Növ sürətli vegetativ inkişaf və yüksək adaptasiya qabiliyyəti ilə seçilir. Abşeron yarımadasının iqlim və torpaq şəraiti, növün təbii botaniki-coğrafi bölgələrindən fərqli olduğundan, introdusent bitkinin normal inkişafı üçün müəyyən aqrotexniki tədbirlərin tətbiqi zəruridir. Yetkin fərdlər quraqlıq və yüksək temperatur şəraitinə davamlıdır. Optimal inkişaf üçün humuslu, su keçiriciliyi yüksək torpaqlara üstünlük verir. Tam günəşli şəraitdə maksimal çiçəklənmə müşahidə olunur, kölgəli yerlərdə isə çiçəklənmə zəifləyir və zoğlar etiolasiya olunmuş (zəif inkişaf) formaya keçir. Fosfor tərkibli gübrələrin tətbiqi çiçəklənməni stimullaşdırır, azotlu gübrələrin istifadəsi isə vegetativ kütlənin artımına səbəb olur. İsti yay aylarında nəm saxlanılmalıdır. Çiçəklərin cari ilin zoğlarında əmələ gəlməsi səbəbindən bitkinin tez-tez budanması məsləhət görülmür. Toxumla və ya ana bitkinin bölünməsi yolu ilə çoxalır. Çilinglər asanlıqla kök salır və növbəti vegetasiya mövsümündə çiçəklənməyə başlayır. Beləliklə, *Ruspolia seticalyx* Milne-Redh. növünün Abşeron yarımadasında kultivasiyası həm dekorativ, həm də ekoloji cəhətdən perspektivli hesab olunur.

ƏDƏBİYYAT

1. Ağayeva C.M., Əliyeva L.Z. Abşeron yarımadasında davamlı yeni dekorativ növlərin iqlimləşdirilməsi // Bioloji Müxtəlifliyin Mühafizəsi: Botanika, Ekologiya və Yaşıl Şəhərlər mövzusunda Forum, COP 29 və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş tədbir. Bakı, 2024, s. 47.
2. Atayeva L., Safarov M., Agayeva C., Nasirli L., Ahmadova S. (2024). Acclimatization and study of *Gosspium hirsutum* L. varieties in the Absheron peninsula, Ensuring sustainable agricultural production through mitigation and adaptation of global climate change- congress proceedings book. page 16-25.
3. Əyyubov Ə.Ç. Azərbaycanın kurort rayonlarının qısa iqlim səciyyəsi // Azərbaycan SSR EA Coğrafiya İnstitutunun əsərləri. Bakı, 1967.
4. Климат Азербайджана / Под ред. А.М. Шихлинского, А.А. Мадатзаде и др. Баку: Элм, 1969, 378 с.
5. National Parks Board Singapore. Florafaunaweb: Radermachera ignea (Tree Jasmine). https://www.nparks.gov.sg/florafaunaweb/flora/3/7/3723
6. Christian Bailly, Gérard Vergoten. Overview of the Ruspolia Plant Genus: Insights into Its Chemical Diversity and Biological Potential Life 2025, 15, 221
7. https://www.nparks.gov.sg/florafaunaweb/flora/3/7/3723

УДК 581.19

ОНТОГЕНЕТИЧЕСКИЕ ОСОБЕННОСТИ РАСТЕНИЯ *RUSPOLIA SETICALYX* (C.B. CLARKE) MILN. И ЕГО ИНТРОДУКЦИЯ В УСЛОВИЯХ АПШЕРОНА

Самира Багирова, Лейла Джавадова, Джамале Агаева,
Лала Насирли, Арзу Ахундова
1samira.baqirova.2013@mail.ru, 2atayeva-2019@mail.ru, 3arzuaxundova72@gmail.com, 4lalenesirli280@gmail.com, 5agayevacemale96@mail.ru

Резюме: *В современный период сохранение биоразнообразия, увеличение числа редких и находящихся под угрозой исчезновения видов растений, а также обеспечение устойчивого развития экосистем являются одними из важнейших экологических и стратегических проблем, стоящих перед всеми странами мира. Особое значение имеют научные исследования,*

программы обмена и мероприятия по сохранению, осуществляемые в рамках местного и международного сотрудничества. В Азербайджане охрана и обогащение биоразнообразия также входят в число приоритетных направлений государственной политики.

Основная цель исследования заключается в комплексном изучении морфологических и физиологических особенностей вида Ruspolia seticalyx Milne-Redh. в условиях ex situ и его интродукции. Этот декоративный вид, обладающий ярко-красными или оранжево-красными цветками, был размножен генеративным и вегетативным способами в засушливых климатических условиях Апшерона. Прослежены все онтогенетические стадии растения (латентная, прегенеративная, ювенильная, виргинильная, генеративная, субсенильная и сенильная), исследован его потенциал использования в одиночных и групповых посадках с учетом эстетических показателей.

Ключевые слова: *Ruspolia seticalyx Milne-Redh., Апшеронский полуостров, онтогенез, экологическая адаптация, морфология растений*

UDC 581.19

ONTOGENETIC CHARACTERISTICS OF *RUSPOLIA SETICALYX* (C.B. CLARKE) MILNE-REDH. AND ITS INTRODUCTION UNDER ABSHERON CONDITIONS

Samira Baghirova, Leyla Javadova,
Jamala Aghayeva, Lala Nasirli, Arzu Akhundova
1samira.baqirova.2013@mail.ru, 2atayeva-2019@mail.ru, 3arzuaxundova72@gmail.com, 4lalenesirli280@gmail.com, 5agayevacemale96@mail.ru

Summary: *In modern times, the conservation of biodiversity, the increase of rare and endangered plant species, as well as ensuring the sustainable development of ecosystems are among the most important ecological and strategic challenges facing all countries of the world. Scientific research, exchange programs, and conservation measures carried out within the framework of local and international cooperation are of particular significance. In Azerbaijan, the protection and enrichment of biodiversity are among the priority directions of state policy.*

The main objective of this study is the introduction and comprehensive investigation of the morphological and physiological characteristics of Ruspolia seticalyx Milne-Redh. under ex situ conditions. This ornamental species, with bright red or orange-red flowers, was propagated both generatively and vegetatively under the arid climatic conditions of Absheron. All ontogenetic stages of the plant (latent, pregenerative, juvenile, virginal, generative, subsenile, and senile) were observed, and its potential for use in single and group plantings was evaluated based on its aesthetic traits.

Keywords: *Ruspolia Seticalyx Milne-Edh., Absheron Peninsula, ontogeny, ecological adaptation, plant morphology*

Redaksiyaya daxilolma: 20.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.33-41**

UOT 574
DOI 10.30546/678209.2025.03.018

YAŞAYIŞ BİNALARINDA PATOGEN MİKROMİSET GÖBƏLƏKLƏRİN TAKSONOMİYASI, EKOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRİ

Qumru Vasif qızı Balaxanova

Azərbaycan Dövlər Pedaqoji Universiteti
Bakı ş, Üzeyir Hacıbəyli, 68

19_bq_91@mail.ru

Xülasə.*Elmi tədqiqatda yaşayış binalarında və kənd təsərrüfatı məhsullarında yayılmış mikromiset göbələklərinin taksonomiyası, ekoloji xüsusiyyətləri və insan sağlamlığına təsirləri araşdırılmışdır. Mikromisetlər, xüsusilə Aspergillus, Penicillium, Fusarium, Alternaria və Cladosporium cinslərinə aid növlər, müxtəlif allergik və infeksion xəstəliklərin törədicisi olaraq insan orqanizminə zərər verir. Bu göbələklər üzvi maddələr zəngin substratlarda sürətlə çoxalır və sporları hava vasitəsilə yayılaraq tənəffüs yollarına daxil olur.*

Aparılan araşdırmalar göstərdi ki, Aspergillus cinsinə aid növlər A. niger, A. fumigatus, A. flavus və digər növlər tənəffüs sistemində və müxtəlif orqanlarda xəstəliklər yaradır. Eyni zamanda, kənd təsərrüfatı məhsullarında yaşayan fitopatogen göbələklər, xüsusilə Fusarium növləri, həm bitkilərdə zərər törədir, həm də insanlarda toksiki və infeksion xəstəliklərə səbəb olur. Taxıl sahələrində bitkilərin təxminən 25%-nin Fusarium və Alternaria cinslərinə yoluxması məhsuldarlığın azalmasına və iqtisadi itkilərə gətirib çıxarır.

Tədqiqat nəticələri göstərir ki, mikromisetlərin insan orqanizminə yoluxma mexanizmləri hələ tam başa düşülməyib və molekulyar səviyyədə əlavə tədqiqatlara ehtiyac vardır. Mikromisetlərin yayılmasının qarşısını almaq üçün yaşayış və iş yerlərinin, eləcə də kənd təsərrüfatı sahələrinin fitosanitar vəziyyəti yaxşılaşdırılmalı, preventiv tədbirlər görülməlidir. Ümumilikdə, mikromisetlər insan sağlamlığı və kənd təsərrüfatı üçün ciddi təhlükədir və onların öyrənilməsi multidissiplinar yanaşma tələb edir.

Açar sözlər: *Aspergillus, Fusarium, mikromisetlər, allergik xəstəliklər, mikozlar, mikotoksinlər, fitosanitar vəziyyət*

Giriş İnsan həyatı Yer kürəsindəki geniş və mürəkkəb ekoloji sistemin tərkib hissəsi olaraq formalaşır və bu sistemin vacib komponentlərindən biri də mikroorqanizmlərdir. Bu mikroorqanizmlər arasında mitselili göbələklər yəni mikromisetlər həm biosenozlarda, həm də insan fəaliyyəti ilə sıx əlaqədə olan süni mühitlərdə xüsusi yer tutur. Onlar təkcə torpaqda deyil, havada, suda və insan məskənlərində də geniş yayılaraq, müxtəlif ekoloji funksiyaları yerinə yetirirlər. Normada, yəni təbii şəraitə uyğun populyasiya sıxlığında olduqları zaman bu göbələklər immun sistemi sağlam olan insanlara zərər vermirlər. Lakin onların miqdarında baş verən artım və ya tərkib dəyişiklikləri, xüsusilə də bu dəyişikliklər antropogen faktorların yəni sənaye fəaliyyəti, urbanizasiya, ventilyasiya çatışmazlığı və s. təsiri ilə meydana gəldikdə, bəzi patoloji hallar qaçılmaz olur[1, s. 105].

Mikromisetlərin say və tərkib dinamikası yaşayış sahələrində, ictimai binalarda, səhiyyə və sanatoriya müəssisələrində dəyişkənlik göstərdikdə, bu, tənəffüs yolları xəstəlikləri, dəri infeksiyaları və müxtəlif növ allergik reaksiyalar şəklində özünü büruzə verə bilər. Bu göbələklərin səbəb olduğu xəstəliklər arasında mikozlar xüsusi yer tutur və onların da yayılma intensivliyi, birbaşa olaraq yaşadıqları və fəaliyyət göstərdikləri mühitin fiziki-kimyəvi parametrlərindən asılıdır. Müasir elmi

tədqiqatlar göstərir ki, mikromisetlərin bioloji aktivliyi, onların metabolik prosesləri və patogen potensialı, ilk növbədə, mühitin temperaturu və pH kimi əsas ekoloji faktorlarla tənzimlənir.

Temperatur göbələklərin həyat dövrü üçün kritik faktor olaraq çıxış edir. Təcrübələr sübut etmişdir ki, hər bir mikromiset növü üçün becərilmə zamanı iki fərqli temperatur optimumu mövcuddur. Bunlardan biri göbələyin ən sürətli şəkildə böyüməsini təmin edir, digəri isə maddələr mübadiləsi və fermentativ aktivliyin ən yüksək olduğu şəraiti yaradır. Mühitin temperatur rejimi göbələyin morfoloji strukturlarının formalaşmasına, sporlaşma qabiliyyətinə və ekoloji plastisliyinə birbaşa təsir göstərir. Məsələn, bəzi növlər 20-25°C temperaturda maksimal artım göstəricilərinə malik olduğu halda, bəziləri daha yüksək və ya aşağı temperaturlarda fəal olurlar[2, s. 228].

Bundan əlavə, mühitin turşuluq dərəcəsi yəni pH səviyyəsi göbələklərin biokimyəvi və fizioloji proseslərinə ciddi təsir göstərən faktorlardandır. Məlumdur ki, müxtəlif göbələk növləri fərqli pH diapazonlarında yaşamağa və aktiv fəaliyyət göstərməyə uyğunlaşmışlar. Bu uyğunlaşma göbələkləri bioloji göstəricilərinə görə bir neçə qrupa ayırmağa imkan verir. Belə ki, neytral və neytralayaxın mühitləri üstün tutan göbələklər (pH ≈ 6-7) daha geniş yayılmışdır. Asidofillər adlanan göbələk qrupları (məsələn, Aspergillus niger, Rhizopus nigrikans) turş mühitdə (pH ≤ 4) inkişaf edir, halbuki asidofoblar (məsələn, Aspergillus clavatus) yüksək pH səviyyəsində, yəni əsasi şəraitdə (pH ≥ 13) yaşamağa uyğunlaşmışdır. Digər tərəfdən, asidotolerant göbələklər müxtəlif pH aralığında həm turş, həm də əsasi mühitlərdə həyat fəaliyyətini davam etdirə bilir. Bu qrupa daxil olan növlər arasında maya göbələkləri xüsusi yer tutur[3, s. 230].

Göbələklər təkcə mövcud olduqları mühitə uyğunlaşmaqla kifayətlənmirlər, həm də onu dəyişmək qabiliyyətinə malikdirlər. Belə ki, bəzi növlər yaşadıqları mühitə turş və ya əsas xarakterli maddələr ifraz edərək onun pH göstəricisini dəyişə bilirlər. Məsələn, Aspergillus niger limon turşusu, Rhizopus nigrikans isə fumar turşusu sintez edərək mühiti turşulaşdırır. Əksinə, bəzi göbələklər mühitə ammonyak ifraz etməklə onun əhəmiyyətini artırır. Bütün bu proseslər göbələk hüceyrəsinin metabolik istiqamətini, o cümlədən ferment sintezini dəyişməyə səbəb olur. Müəyyən pH şəraitində məsələn, pH=6-da proteinaza fermentinin sintezi daha intensiv şəkildə baş verir[4, s. 65].

Göbələklərin törətdiyi xəstəliklərin nəticələri yalnız lokal infeksiya ilə məhdudlaşmır. Onlar müxtəlif orqanizmlərin ümumi fizioloji fəaliyyətinə mənfi təsir göstərərək, bioloji məhsuldarlığın azalmasına, enerji və maddə dövranının pozulmasına və bəzi hallarda orqanizmlərin kütləvi şəkildə məhv olmasına səbəb ola bilir. Belə dəyişikliklər, xüsusilə kənd təsərrüfatı və qida təhlükəsizliyi baxımından ciddi ekoloji və iqtisadi fəsadlar yaradır[5, s. 177]. Buna görə də mikromisetlərin ekologiyasının, onların yayılma şəraitinin və mühit faktorları ilə qarşılıqlı təsir mexanizmlərinin dərindən öyrənilməsi aktual elmi-praktiki əhəmiyyət kəsb edir.

Mövzunun aktuallığı. Mikromiset göbələkləri, bioloji sistemlərdə müxtəlif ekoloji rollar oynayan və eyni zamanda patogen potensiala malik mikroorqanizmlər kimi son illərdə geniş diqqət mərkəzindədir. Sürətlə urbanizasiya, sənaye və kənd təsərrüfatı fəaliyyətlərinin intensivləşməsi ətraf mühitin ekoloji tarazlığının pozulmasına və bununla əlaqədar olaraq mikromisetlərin yayılmasının artmasına səbəb olmuşdur. Bu mikroorqanizmlər, xüsusilə yaşadığımız mühitlərdə yaşayış binalarında, iş yerlərində, ictimai məkanlarda və kənd təsərrüfatı sahələrində geniş şəkildə müşahidə olunur. Bu səbəbdən onların ekoloji xüsusiyyətləri, taksonomik tərkibi, biocoğrafiyası və insan sağlamlığına təsirləri elmi araşdırmalar üçün əhəmiyyətli mövzuya çevrilmişdir[6, s. 205].

Mikromisetlərin insan sağlamlığı üçün yaratdığı təhlükələr çoxşaxəlidir. Onların sporları hava ilə asanlıqla yayılır və tənəffüs yolları xəstəlikləri, allergiyalar, astma və digər immunoloji problemlər kimi müxtəlif patoloji hallar yaradır. Bundan əlavə, mikromisetlərin istehsal etdiyi mikotoksinlər uzunmüddətli və sistemli təsirlərlə xroniki xəstəliklərin və immun çatışmazlığının inkişafına şərait yaradır. Belə ki, mikotoksinlərin karsinogen, teratogen və immunosupressiv təsirləri insan və heyvan orqanizmlərində sağlamlıq problemlərinin yaranmasında mühüm rol oynayır. Bu aspektdən, mikromisetlərin təbiətdə və yaşayış mühitlərində rolu təkcə ekoloji deyil, həm də tibbi və sosial əhəmiyyət daşıyır[7, s. 90].

№ 3/2025 **səh.33-41**

Kənd təsərrüfatı məhsullarının, xüsusilə taxıl və tərəvəzlərin mikromisetlərlə yoluxması iqtisadi baxımdan da böyük zərərlərə yol açır. Bu göbələklər məhsulun keyfiyyətini aşağı salmaqla yanaşı, insan qidası zəncirinə də mənfi təsir göstərir. Beləliklə, kənd təsərrüfatı məhsullarının mikromisetlərlə yoluxmasının qarşısının alınması və müvafiq fitosanitar tədbirlərin tətbiqi olduqca vacibdir.

Molekulyar biologiya və genetik tədqiqatların inkişafı mikromisetlərin patogenlik mexanizmlərinin, genetik müxtəlifliyinin və iqlim dəyişikliklərinə adaptasiya qabiliyyətlərinin daha dərindən öyrənilməsinə imkan verir. Bu, həm müalicə strategiyalarının təkmilləşdirilməsi, həm də mikromisetlərin yayılmasının qarşısını almaq üçün effektiv idarəetmə metodlarının hazırlanması üçün zəruridir[8, s. 77].

Bütün bunlar göstərir ki, mikromisetlərin yayılması, insan sağlamlığına və kənd təsərrüfatına olan mənfi təsirlərinin aradan qaldırılması, onların ekoloji və bioloji xüsusiyyətlərinin sistemli şəkildə araşdırılması müasir dövrdə elmi tədqiqatların prioritet istiqamətlərindən biridir. Bu mövzu, multidissiplinar yanaşma tələb edən, tibb, ekologiya, biotexnologiya və kənd təsərrüfatı sahələrinin kəsişməsində duran aktual və kompleks problemdir. Buna görə də mikromisetlərin yayılması və insan orqanizminə təsir mexanizmlərinin öyrənilməsi sahəsində aparılan elmi tədqiqatlar həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük əhəmiyyət kəsb edir[9, s. 41].

Tədqiqatın məqsədi yaşayış binalarında yayılmış mikromiset göbələklərinin taksonomik müxtəlifliyini, onların ekoloji və trofik xüsusiyyətlərini müəyyən etmək, həmçinin bu göbələklərin insan sağlamlığına, xüsusilə allergik və infeksion xəstəliklərin yaranmasına təsirini öyrənməkdir. Məqsəd eyni zamanda mikromisetlərin yayılma mexanizmlərini və onların ətraf mühit şəraitinə uyğunlaşma xüsusiyyətlərini tədqiq etməklə, insan həyatının müxtəlif sahələrində bu göbələklərin yaratdığı təhlükələri azaltmaq üçün effektiv profilaktik tədbirlər təklif etməkdir.

Tədqiqat obyekti olaraq Bakı şəhərinin müxtəlif yaşayış binalarında mövcud olan mikromiset göbələklərinin taksonomik tərkibi, ekoloji xüsusiyyətləri və trofik ixtisaslaşmaları seçilmişdir. Həmçinin, bu göbələklərin insan orqanizminə və yaşayış mühitinə təsiri, onların allergik və patogen potensialı, eləcə də mikromisetlərin yaşayış məkanlarında yayılma yolları və onların ətraf mühit faktorları ilə əlaqəsi də tədqiqatın əsas obyektini təşkil edir. Bu, mikromisetlərin insan sağlamlığına və yaşayış mühitinin keyfiyyətinə təsirini anlamaq üçün geniş və kompleks yanaşmanın tətbiqini tələb edir.

Tədqiqat metodları tədqiqatda mikromiset göbələklərinin yaşayış mühitlərində yayılması və insan sağlamlığına təsiri öyrənilmişdir. Bu məqsədlə müxtəlif yaşayış binalarından hava, toz və əşyalar üzərindən nümunələr götürülərək Saburo və digər selektiv qida mühitlərində kultivasiya edilmiş, morfoloji və mikroskopik analizlər aparılmışdır. Eyni zamanda, göbələklərin pH və temperatur şəraitinə uyğunlaşması, fermentativ aktivliyi və patogen potensialı da qiymətləndirilmişdir. Əldə olunan məlumatlar statistik təhlil olunaraq ümumiləşdirilmişdir.

Materiallar və müzakirələr

İnsan yaşayışı daim təbiətlə qarşılıqlı təsirdə olmuşdur. Lakin müasir dövrdə bu qarşılıqlı təsir daha da mürəkkəbləşmiş, yaşayış mühitimizdəki mikroorqanizmlərin rolu daha ciddi şəkildə öyrənilməyə başlanmışdır. Xüsusilə də, görünməyən, lakin hər yerdə var olan mikroskopik göbələklər mikromisetlər gündəlik həyatımızda düşündüyümüzdən daha böyük rol oynayırlar. Onlar yaşadığımız binalarda, nəfəs aldığımız havada, istifadə etdiyimiz məişət əşyalarında, bəzən isə birbaşa bədənimizdə mövcuddur. Məqalədə bu mikroskopik canlıların insan dərisi ilə necə təmas qurduqları, hansı hallarda xəstəlik törədə bildikləri və buna səbəb olan amillər haqqında qeyd edilmişdir.

İnsan orqanizmi çox mürəkkəb və eyni zamanda incə tarazlıqla fəaliyyət göstərən bir sistemdir. Bu sistemin hər hansı bir hissəsində yaranan zəiflik istər immunitetin zəifləməsi, istərsə də hormonların tarazlığının pozulması xarici mühitdə olan mikromisetlərin dərimiz üzərində koloniyalaşmasına şərait yarada bilər. Maraqlıdır ki, göbələklər hər insanın dərisində yaşaya bilmir. Onlar yalnız zəif müqavimətli bədənlərdə məskunlaşır, orada çoxalır və xəstəliklər törədirlər.

Tədqiqatlar göstərmişdir ki, bu cür göbələk mənşəli dəri xəstəliklərinin yayılması daha çox rütubətli, hava dövranı zəif olan, təmizliyi yaxşı aparılmayan yaşayış yerlərində müşahidə olunur.

Məsələn, çoxmərtəbəli binalarda, xüsusilə də uzun müddət havalandırılmayan otaqlarda göbələklərin sporları havada asılı vəziyyətdə qalaraq nəfəs aldığımız hava ilə orqanizmimizə daxil ola bilir. Əl, üz və ayaq dərisi isə bu mikroorqanizmlərin birbaşa təsirinə daha açıq olan sahələrdir.

Mikroskopik göbələklər arasında daha çox tanınan patogenlərdən biri *Candida albicans* növüdür. Bu mikromiset normal halda sağlam insan orqanizmində ağız boşluğunda, bağırsaqlarda, dəridə zərərsiz halda yaşaya bilər. Lakin immunitet zəiflədikdə bu göbələk aktivləşərək kandidoz adlanan infeksion xəstəliyə səbəb olur. Eyni şəkildə, *Aspergillus* cinsinə aid olan göbələklər də xüsusilə *A. fumigatus* və *A. niger* – aspergilloz xəstəliyini törədir və bu xəstəlik yalnız tənəffüs yollarını deyil, dəri səthini də zədələyə bilər.

Bəzi hallarda isə daha aqressiv və sürətlə yayılan göbələk infeksiyalarına rast gəlinir. Məsələn, *Mucor* və *Rhizopus* cinslərinə aid göbələklər tərəfindən törədilən mukormikoz və ziqomikoz xəstəlikləri, xüsusilə ağır xəstələrdə və fizioloji cəhətdən zəif şəxslərdə ciddi fəsadlara yol açа bilər. Bu göbələklər əsasən çürümüş üzvi maddələr üzərində inkişaf edir, oradan havaya yayılır və sonradan insanların dərisinə miqrasiya edərək infeksiya törədir.

Beləliklə, dərimiz sadəcə estetik bir səth deyil, eyni zamanda bir qalxan, bir baryerdir. Lakin bu baryer zəiflədikdə, görünməyən canlılar üçün giriş nöqtəsinə çevrilə bilər. Bu səbəbdən yaşadığımız mühitin təmizliyi, havalandırma sistemlərinin işlək vəziyyətdə olması, şəxsi gigiyenaya əməl edilməsi və immun sistemin güclü saxlanılması göbələk mənşəli xəstəliklərdən qorunmağın əsas yollarıdır.

Aparılan tədqiqat çərçivəsində müxtəlif yaşayış massivlərindən, kənd təsərrüfatı və biotexnoloji müəssisələrdən götürülmüş hava, toz və səth nümunələri üzərində mikoloji analizlər aparılmış və bu analizlərin nəticələri mikromisetlərin ekoloji yayılması və insan sağlamlığına potensial təsirləri baxımından qiymətləndirilmişdir. Əldə olunan nəticələr, mikromisetlərin insan həyatında nə qədər geniş yer tutduğunu və onların törədə biləcəyi xəstəliklərin ciddiliyini ortaya qoymuşdur.

İlk növbədə, nümunələrin mikroskopik göbələk spektrinə baxdıqda, ən geniş yayılmış cinsin *Penicillium* olduğu müəyyən olunmuşdur. Belə ki, tədqiq edilən sahələrin 38%-də *Penicillium* cinsinə rast gəlinmişdir. Ardınca *Aspergillus* (25%), *Mucor* (14%) və *Rhizopus* (10%) cinslərinə aid göbələklər üstünlük təşkil etmişdir (Cədvəl 1). Bu göstəricilər, adı çəkilən göbələk cinslərinin tədqiq edilən mühitlərdə yüksək adaptasiya qabiliyyətinə və geniş yayılma potensialına malik olduğunu sübut edir.

Cədvəl 1.

Müxtəlif göbələk cinslərinin 10 m² sahəyə görə rastgəlmə tezliyi

Göbələk cinsi	Rast gəlinmə tezliyi (%)
Penicillium spp.	*38%*
Aspergillus spp.	*25%*
Mucor spp.	*14%*
Rhizopus spp.	*10%*
Fusarium spp.	*7%*
Trichoderma spp.	*4%*
Cladosporium spp.	*2%*

Məlum olmuşdur ki, bu göbələk cinslərinin bəziləri patogen və ya şərti-patogen xüsusiyyətlərə malikdir və xüsusilə immun sistemi zəifləmiş fərdlərdə müxtəlif xəstəliklər törətmək qabiliyyətinə malikdirlər. Məsələn, *Aspergillus* cinsinə aid mikromisetlər tərəfindən törədilən aspergilloz xəstəliyi allergik reaksiyalar, bronxial astma, eləcə də invaziv infeksiyalar şəklində özünü göstərə bilər. Bu xəstəlik daha çox immunosupressiv şəraitdə aktivləşir və həyat üçün təhlükəli ola bilər.

Digər tərəfdən, *Candida* cinsinə aid göbələklər tərəfindən törədilən kandidoz xəstəliyi həm sağlam, həm də xəstə fərdlərdə rast gəlinə bilir. Bu infeksiya adətən ağız boşluğunda, genital nahiyədə və dəri səthlərində iltihabi proseslərlə müşayiət olunur. Xüsusilə də *Candida albicans* növü bu xəstəliyin əsas törədicisi kimi geniş yayılmışdır.

Mucor və *Rhizopus* cinslərinin nümayəndələri isə mukormikoz və ziqomikoz kimi təhlükəli xəstəliklərin törədiciləridir. Bu göbələklər zəif virulentliyə malik olsalar da, fizioloji cəhətdən zəifləmiş şəxslərin dərisinə və selikli qişalarına asanlıqla nüfuz edə bilirlər. Nəticədə nekrotik proseslər, toxuma ölümü və bəzən orqan sistemlərinin geniş zədələnməsi müşahidə oluna bilər.

Cədvəl 2.

Göbələk cinslərinin xəstəlik törətmə potensialı və simptomları

Göbələk cinsi	Törətdiyi xəstəlik	Əsas simptomlar
Aspergillus spp.	*Aspergilloz*	*Allergik reaksiyalar, tənəffüs pozğunluqları*
Candida spp.	*Kandidoz*	*Dəri, ağız və genital bölgədə iltihab*
Mucor spp.	*Mukormikoz*	*Nekroz, dəridə dərin zədələnmələr*
Rhizopus spp.	*Ziqomikoz*	*Dərinin zədələnməsi, toxuma destruksiyası*
Fusarium spp.	*Fusarioz*	*Göz və dırnaq infeksiyaları, iltihab*

Bu nəticələr göstərir ki, mikromisetlərin törətdiyi xəstəliklər müxtəlif formalar ala bilər: allergik reaksiyalardan tutmuş, nekrotik və invaziv infeksiyalara qədər. Xüsusilə yaşayış binalarında və ictimai yerlərdə bu göbələklərin məskunlaşması, orada yaşayan insanların sağlamlığı üçün potensial risk daşıyır. Göbələk hüceyrələrinin biofilm əmələ gətirməsi, dəridə uzun müddət sağalmayan zədələnmələrə və iltihabi proseslərə səbəb olur.

Bundan əlavə, müşahidə olunmuşdur ki, bu cür dəri zədələnmələri adətən spontan sağalmaya meyilli olmur, əksinə, uzun müddət davam edən, ağır gedişli və müalicəyə çətin tabe olan infeksiyalarla müşayiət olunur. Bu səbəbdən, mikozlar yalnız tibbi aspektdən deyil, həm də ictimai səhiyyə baxımından əhəmiyyət daşıyan problem kimi qiymətləndirilməlidir.

Aparılmış tədqiqat nəticələri göstərdi ki, mikroskopik göbələklər mikromisetlər təkcə təbiətdə deyil, insanların gündəlik yaşadığı və işlədiyi mühitlərdə də geniş yayılmışdır. Bu orqanizmlər ekoloji plastikliyi yüksək olan canlılardır və müxtəlif iqlim şəraitində, o cümlədən yaşayış binalarının havasında, tozlarında və səthlərində asanlıqla məskunlaşa bilirlər. Onların spor əmələ gətirmə qabiliyyəti, həmçinin aerozol şəklində mühitə yayılmaları, insan orqanizmi ilə kontaktda olmalarını qaçılmaz edir. Lakin bu kontakt bəzən sadəcə ekoloji münasibət kimi qalmır, insan sağlamlığına real təhlükə yaradır.

Mikromisetlərin törətdiyi xəstəliklər əsasən "şərti-patogen" adlandırılan növlərlə əlaqəlidir. Belə ki, bu növlər sağlam immun sistemi olan şəxslərdə heç bir klinik əlamət vermədən yaşaya bilsələr də, immun sisteminin zəiflədiyi şəraitdə sürətlə aktivləşir və patogen xassələrini büruzə verirlər. Tədqiqat zamanı daha çox rast gəlinən *Aspergillus, Candida, Mucor* və *Rhizopus* cinslərinə aid göbələklərin məhz belə xassələrə malik olduğu sübut olunmuşdur. Onlar müvafiq şəraitdə respirator xəstəliklərdən tutmuş dəri və selikli qişaların iltihabına, toxuma destruksiyasına və sistemik infeksiyalara qədər geniş spektrdə patoloji hallar törədə bilirlər.

Əldə olunan nəticələr onu deməyə əsas verir ki, bu mikroorqanizmlərin yayılması təkcə bioloji xüsusiyyətlərindən deyil, həm də insan tərəfindən yaradılmış ekoloji şəraitdən birbaşa asılıdır. Rütubət, pis havalandırma, təmizliyin qeyri-kafi olması, gigiyenik qaydalara əməl edilməməsi və s. kimi amillər

mikromisetlərin yayılmasını stimullaşdırır. Xüsusilə çoxmərtəbəli yaşayış binalarında, sıx məskunlaşmış massivlərdə və tibbi müəssisələrdə bu faktorlar onların miqdarını artırmaqla yanaşı, sağlamlıq üçün riskləri də artırır.

Bu səbəbdən mikromisetlərin yaratdığı təhlükələrin qarşısını almaq üçün ilk növbədə onların yayılmasına şərait yaradan amillərin aradan qaldırılması zəruridir. Bu məqsədlə aşağıdakı təklifləri irəli sürmək olar:

- Mühit monitorinqinin mütəmadi aparılması: Mikromisetlərin konsentrasiyası hava, səth və toz nümunələri üzərində davamlı olaraq yoxlanılmalıdır. Yaşayış binalarında, xəstəxanalarda, məktəblərdə və digər ictimai yerlərdə bu tip monitorinqlərin aparılması, təhlükə mənbələrinin vaxtında aşkar olunmasına kömək edər.
- Gigiyenik qaydaların və sanitariya normalarının gücləndirilməsi: Rütubətin qarşısını almaq üçün ventilyasiya sistemlərinin təkmilləşdirilməsi, nəm yerlərin qurudulması, evlərdə təmizliyin artırılması mikromisetlərin yayılmasını əhəmiyyətli dərəcədə azalda bilər. Tozun və üzvi çürümüş materialların yığılması da risk faktoru kimi nəzərə alınmalıdır.
- İctimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi: Cəmiyyətin mikromisetlər və onların yaratdığı xəstəliklər barədə məlumatlılıq səviyyəsi artırılmalıdır. İnsanlar gigiyenik davranış qaydaları, rütubətli yerlərin zərərsizləşdirilməsi, kondisioner sistemlərinin təmizlənməsi və şəxsi qorunma üsulları haqqında maarifləndirilməlidir.
- Risk qrupunda olan şəxslərin qorunması: İmmun sistemi zəif olan şəxslər yaşlılar, körpələr, xroniki xəstəliyi olanlar, kimyaterapiya və ya orqan transplantasiyası keçirmiş xəstələr – mikromiset infeksiyalarına qarşı daha həssasdır. Bu səbəbdən, onların yaşadığı və müalicə aldığı mühitlər xüsusi nəzarətdə saxlanmalı, steril şərait təmin olunmalıdır.
- Erken diaqnostika və müalicə strategiyalarının inkişaf etdirilməsi: Mikozların ilkin əlamətlərini vaxtında aşkar etmək üçün səhiyyə müəssisələrində göbələk mənşəli infeksiyalara dair laborator müayinələr gücləndirilməlidir. Antifungal preparatların istifadəsi yalnız diaqnoz təsdiqləndikdən sonra həyata keçirilməli, sistematik müalicə planı tərtib olunmalıdır.

Yuxarıda sadalanan tövsiyələr, mikromisetlərin yayılmasının qarşısını almağa və onların insan sağlamlığına təsirini minimuma endirməyə yönəlmişdir. Mikromisetlər sadəcə ekoloji orqanizmlər deyil, potensial xəstəlik törədiciləri kimi qəbul olunmalı və onlar haqqında elmi, praktiki və ictimai yanaşma sistemli şəkildə formalaşdırılmalıdır.

Nəticə:

Aparılan geniş tədqiqatların nəticələrinin təhlili göstərdi ki, mikromiset göbələkləri yalnız bitki və heyvanlarda müxtəlif xəstəliklər törətmir, həm də insanların immun sisteminin zəifləməsinə səbəb olan, müxtəlif xəstəliklərin yaranmasına yol açan əsas amillərdən biridir. Bu səbəbdən, mikromisetlərin insanın yaşadığı, işlədiyi və istirahət etdiyi, eləcə də digər müvəqqəti olduğu yerlərdə ətraflı və sistemli tədqiqi olduqca vacibdir.

Mikromisetlərin insan orqanizmində törətdiyi xəstəliklərin genetik və molekulyar əsaslarını aydınlaşdırmaq üçün molekulyar biologiya üsulları ilə daha dərindən araşdırmalar aparılmalıdır. Bu istiqamət gələcək tədqiqatların önəmli hədəfi olmalıdır. Problemin mürəkkəbliyi müxtəlif elmi yanaşmaları və sahələri birləşdirən multidissiplinar tədqiqatları tələb edir.

Tədqiqatlar sübut etdi ki, kənd təsərrüfatı məhsulları ilə birlikdə yaşayış binalarına daxil olan mikromisetlər immun çatışmazlığı olan insanlarda göbələk infeksiyalarının yayılmasının ilkin mənbəyidir. Praktikada belə hallar çox vaxt müşahidə edilmişdir. Hal-hazırda patogen mikromisetlərin ətraf mühitdən insan orqanizminə miqrasiyası, orqanizmdə çoxalma dinamikası, inkişaf şəraiti və ümumilikdə göbələk-inzorganizm qarşılıqlı təsir mexanizmləri hələ tam başa düşülməyib və tədqiqatların diqqət mərkəzində saxlanılmalıdır.

Müxtəlif növ Aspergillus göbələklərinin insanlarda allergik və infeksion xəstəliklər törətmə qabiliyyəti, həmçinin Fusarium və Alternaria kimi fitopatogen göbələklərin taxıl sahələrində bitkilərin 25%-nin yoluxmasına səbəb olması tədqiqatlar tərəfindən müəyyən edilmişdir. Bu da kənd təsərrüfatı məhsullarının insanların sağlamlığı üçün risk mənbəyinə çevrilməsinə gətirib çıxarır.

Bütün bu faktlar mikromisetlərin yayılmasının və təsirinin qarşısını almaq üçün ətraf mühitdə, yaşayış yerlərində və kənd təsərrüfatı sahələrində ciddi fitosanitar tədbirlərin həyata keçirilməsinin vacibliyini göstərir. Xüsusilə əkin sahələrinin və ətraf mühitin sağlam vəziyyətinin qorunması mikromiset infeksiyalarının qarşısının alınmasında mühüm rol oynayır.

Tədqiqat işinin yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq müxtəlif funksional təyinatlı insan məkanlarından yaşayış binaları, iş yerləri və istirahət zonalarından götürülmüş nümunələr əsasında mikromiset göbələklərinin ekoloji vəziyyəti və onların sağlamlığa təsir potensialı sistemli şəkildə təhlil olunmuşdur. Bu araşdırma çərçivəsində mikromisetlərin temperatur və pH dəyişkənliyinə qarşı göstərdiyi bioloji cavablar, həmçinin onların müxtəlif ekoloji şəraitlərə adaptasiya imkanları və törədə biləcəyi dəri və tənəffüs yolu xəstəlikləri elmi əsaslarla qiymətləndirilmişdir. Araşdırma nəticələri ölkəmizdə mikoloji risklərin qiymətləndirilməsi və mikrobioloji təhlükəsizlik sahəsində mövcud olan boşluqları doldurmaq baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, əldə olunmuş məlumatlar patogen göbələk növlərinin ətraf mühitdə yayılmasının dinamikasını izləmək və onların qarşısını almağa yönəlmiş effektiv profilaktik tədbirlərin işlənib hazırlanması üçün vacib elmi-praktik baza yaradır.

Tədqiqat işinin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, aparılan araşdırma nəticələri praktik sağlamlıq mühafizəsi, ekoloji təhlükəsizlik və sanitariya-gigiyena tədbirlərinin planlaşdırılması üçün etibarlı elmi baza rolunu oynayır. Mikromiset göbələklərinin müxtəlif yaşayış, iş və istirahət mühitlərində yayılma dərəcəsinin, ekoloji şəraitə uyğunlaşma xüsusiyyətlərinin və potensial patogenlik qabiliyyətlərinin müəyyənləşdirilməsi, insan sağlamlığının qorunması istiqamətində hədəfli tədbirlərin hazırlanmasına imkan verir.

Bu tədqiqat nəticələri həm səhiyyə müəssisələrində, həm də ictimai və yaşayış sahələrində göbələk mənşəli infeksiyaların qarşısının alınması üçün profilaktik proqramların işlənib hazırlanmasında tətbiq oluna bilər. Eyni zamanda, əldə edilmiş məlumatlar ətraf mühitdə patogen mikromisetlərin monitorinq sistemlərinin təkmilləşdirilməsi, risk zonalarının müəyyən edilməsi və dezinfeksiya strategiyalarının optimallaşdırılması üçün mühüm metodoloji əsas yaradır. Araşdırmanın nəticələri kənd təsərrüfatı məhsullarının saxlanması, qida təhlükəsizliyi və bina inşaatı materiallarının gigiyenik standartlarının formalaşdırılmasında da praktik əhəmiyyət daşıyır.

Tədqiqat işinin iqtisadi səmərəsi ondan ibarətdir ki, mikromiset göbələklərinin yayılma səviyyəsinin, patogenlik potensialının və mühitə uyğunlaşma xüsusiyyətlərinin müəyyənləşdirilməsi nəticəsində xəstəliklərin qarşısının alınması üçün vaxtında görüləcək tədbirlər uzunmüddətli maliyyə xərclərinin azalmasına səbəb olur. Erkən mərhələdə aşkarlama və profilaktik tədbirlərin həyata keçirilməsi, həm səhiyyə sistemində göbələk mənşəli xəstəliklərin müalicəsinə çəkilən xərcləri, həm də işçi qüvvəsinin xəstəlik səbəbilə itirdiyi əmək qabiliyyəti nəticəsində yaranan iqtisadi itkiləri minimuma endirir.

Bundan əlavə, kənd təsərrüfatı məhsullarının saxlanması və istehsalı prosesində mikromisetlərin nəzarətdə saxlanılması məhsul itkisini azaldır, keyfiyyət göstəricilərini qoruyur və bazar dəyərini artırır. Yaşayış və iş yerlərində aparılacaq ekoloji monitorinq və dezinfeksiya tədbirləri binaların uzunmüddətli istismarını təmin edərək, təmir və sanitar xərclərin azalmasına şərait yaradır. Nəticədə, bu tədqiqatın tətbiqi həm səhiyyə, həm kənd təsərrüfatı, həm də sənaye sahələrində iqtisadi səmərəliliyin yüksəldilməsinə bilavasitə töhfə verir.

ƏDƏBİYYAT

1. Abdullayeva, Ş.A. (2024). Bakı şəhəri kənd təsərrüfatı bitkilərindəki patogen göbələklər. *Pedaqoji Universitetin xəbərləri, 1*(72), 105-111.
2. Balaxanova, Q. (2022). Müxtəlif çirklənmə mənbələrdə qeydə alınan göbələklərin ekolo-trofik ixtisaslaşmasının təzahür formasına görə xarakteristikası. Azərbaycan Texnologiya Universiteti. Elmi Xəbərlər, 1(38), 228–233.

3. Balaxanova, Q. (2022). Bakı şəhərində müxtəlif təyinatlı obyektlərin mikobiotasının ümumi xarakteristikası. AMEA Naxçıvan Bölməsi, Elmi Əsərlər Təbiət və Texniki Elmlər Seriyası, 2, 226-231.
4. Balaxanova, Q. (2022). Bakı şəhərində müxtəlif təyinatlı obyektlərin mikobiotasının növ və say tərkibinə görə qiymətləndirilməsi. Elmi Əsərlər, NDU, 3, 65-68.
5. Balaxanova, Q. (2022). Bakı şəhərinin yaşayış binaları ərazisindəki mikroskopik göbələklərin yayılma xüsusiyyətləri. ADPU Xəbərləri, Riyaziyyat və Təbiət Elmləri Seriyası, 3, 177-184
6. Hasanov, V.Y., & Əliyev, E.M. (2020). Mikromisetlərin insan tənəffüs sisteminə təsiri və allergik xəstəliklər. *Tibb Elmləri*, 22(4), 201-210.
7. Quliyev, S.F. (2021). Aspergillus növlərinin morfo-kulturoloji xüsusiyyətləri. *Mikrobiologiya və Biotexnologiya*, 14(3), 89-98.
8. Səlimov, R.K., & Əliyeva, N.M. (2022). Mikromisetlərin ekoloji monitorinqi və profilaktik tədbirlər. *Ekoloji Tədqiqatlar*, 9(2), 77-85.
9. Yusifov, M.T. (2017). İnsan orqanizmində mikoz xəstəlikləri və onların müalicəsi. *Tibbi Mikologiya*, 5(1), 34-42.

УДК 574

ТАКСОНОМИЯ, ЭКОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ И ВЛИЯНИЕ ПАТОГЕННЫХ МИКРОМИЦЕТНЫХ ГРИБОВ НА ЗДОРОВЬЕ ЧЕЛОВЕКА В ЖИЛЫХ ЗДАНИЯХ

Кумру Васиф гызы Балаханова
Азербайджанский государственный педагогический университет
г. Баку, ул. Узеира Гаджибейли, 68
19_bq_91@mail.ru

Резюме. *В данном научном исследовании рассмотрены таксономия, экологические особенности и влияние на здоровье человека микромицетных грибов, распространённых в жилых зданиях и сельскохозяйственной продукции. Микромицеты, особенно виды, относящиеся к родам Aspergillus, Penicillium, Fusarium, Alternaria и Cladosporium, наносят вред организму человека, являясь возбудителями различных аллергических и инфекционных заболеваний. Эти грибы быстро размножаются на субстратах, богатых органическими веществами, а их споры распространяются по воздуху и попадают в дыхательные пути.*

Проведённые исследования показали, что виды рода Aspergillus, такие как A. niger, A. fumigatus, A. flavus и другие, вызывают заболевания дыхательной системы и различных органов. В то же время фитопатогенные грибы, встречающиеся в сельскохозяйственной продукции, особенно виды рода Fusarium, не только наносят ущерб растениям, но и вызывают токсические и инфекционные заболевания у человека. В зерновых посевах около 25% растений заражены Fusarium и Alternaria, что приводит к снижению урожайности и экономическим потерям.

Результаты исследования показывают, что механизмы заражения организма человека микромицетами ещё недостаточно изучены, и необходимы дополнительные исследования на молекулярном уровне. Для предотвращения распространения микромицетов необходимо улучшить фитосанитарное состояние жилых и рабочих помещений, а также сельскохозяйственных угодий, и принять профилактические меры. В целом, микромицеты представляют серьёзную угрозу для здоровья человека и сельского хозяйства, а их изучение требует междисциплинарного подхода.

Ключевые слова: *Aspergillus, Fusarium, микромицеты, аллергические заболевания, микозы, микотоксины, фитосанитарное состояние*

UDC 574

TAXONOMY, ECOLOGICAL CHARACTERISTICS, AND IMPACT ON HUMAN HEALTH OF PATHOGENIC MICROMYCETE FUNGI IN RESIDENTIAL BUILDINGS

Qumru Vasif Balaxanova
Azerbaijan State Pedagogical University
Baku, Uzeyir Hajibeyli Str., 68
19_bq_91@mail.ru

Summary.*This scientific study investigates the taxonomy, ecological characteristics, and effects on human health of micromycete fungi commonly found in residential buildings and agricultural products. Micromycetes, particularly species belonging to the genera Aspergillus, Penicillium, Fusarium, Alternaria, and Cladosporium, harm the human body as causative agents of various allergic and infectious diseases. These fungi reproduce rapidly on substrates rich in organic matter, and their spores are dispersed through the air, entering the respiratory tract.*

The conducted research showed that Aspergillus species such as A. niger, A. fumigatus, A. flavus, and others cause diseases in the respiratory system and various organs. At the same time, phytopathogenic fungi found in agricultural products, especially Fusarium species, not only damage plants but also cause toxic and infectious diseases in humans. In grain fields, approximately 25% of plants are infected with Fusarium and Alternaria species, leading to reduced productivity and economic losses.

The results indicate that the mechanisms of micromycete infection in the human body are still not fully understood, and additional molecular-level studies are required. To prevent the spread of micromycetes, the phytosanitary condition of residential and working environments, as well as agricultural areas, must be improved, and preventive measures must be taken. Overall, micromycetes pose a serious threat to human health and agriculture, and their study requires a multidisciplinary approach.

Key words: *Aspergillus, Fusarium, micromycetes, allergic diseases, mycoses, mycotoxins, phytosanitary condition*

Redaksiyaya daxilolma: 15.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.42-52

УДК 601.2
DOI 10.30546/678209.2025.03.042

ИЗУЧЕНИЕ ВЛИЯНИЯ НАНОЧАСТИЦ ОКСИДА ЖЕЛЕЗА (Fe_3O_4) НА УЛЬТРАСТРУКТУРУ ТОНКОГО КИШЕЧНИКА И ЭМБРИОНАЛЬНОЕ РАЗВИТИЕ ОБЫКНОВЕННОГО САЗАНА (*CYPRİNUS CARPİO* LİNNAEUS, 1758) ПРИ ВЫРАЩИВАНИИ В УСЛОВИЯХ АКВАКУЛЬТУРЫ

[1]Чингиз Агамуса оглу Мамедов, [2]Айсель Давуд кызы Гаджиева, [3]Ровшан Ибрагимхалил оглу Халилов

[1,2,3] Бакинский Государственный Университет, г. Баку; ул. Захида Халилова, 23

[1]m_chingiz@yahoo.com, [2]ayselhaciyeva@bsu.edu.az, [3]hrovshan@hotmail.com

Резюме. *В настоящем исследовании изучен характер биоаккумуляции наночастиц оксида железа (Fe_3O_4) на тонкий кишечник обыкновенного сазана (Cyprinus carpio Linnaeus, 1758), выращенного в условиях аквакультуры, а также исследовано влияние этих частиц на эмбриональные стадии развития при их искусственном разведении. С использованием световой и электронной микроскопии были выявлены выраженные патоморфологические изменения в исследованных органах: разрушение микроворсинок, отёк цитоплазмы, повреждение митохондрий и сосудистого эндотелия. Установлено, что наночастицы проникают в энтероциты, гепатоциты и эритроциты и аккумулируются в различных тканях. В исследованиях по изучению влияния наночастиц на эмбриональное развитие обнаружено, что добавление оксида железа (Fe_3O_4) к сперме перед оплодотворением икры в количестве 0,001 г повышало процент оплодотворения и выход жизнеспособных свободных эмбрионов на 12–14 %. Полученные данные имеют большое значение для оценки токсичности наночастиц на различных этапах разведения рыб и могут быть использованы в практике аквакультуры.*

Ключевые слова: *Обыкновенный сазан, наночастицы Fe_3O_4, тонкий кишечник, биоаккумуляция, эмбриональное развитие.*

Введение. В последние годы в связи с масштабным ростом производства, использования и применения наноматериалов увеличился риск распространения их отходов в окружающую среду. Попадание наночастиц в водоёмы — реки и моря — оказывает значительное влияние на экосистемы и их компоненты. Наночастицы представляют угрозу окружающей среде и здоровью человека, распространяясь в водной среде и накапливаясь в организме живых существ, в том числе промысловых рыб. В связи с этим рыбы, употребляемые человеком в пищу, считаются уместной моделью для изучения действия таких частиц. Обыкновенный сазан (*Cyprinus carpio* Linnaeus, 1758) — пресноводная рыба, экономически выгодная из-за лёгкого разведения в условиях аквакультуры [1, 3]. Являясь одним из важных аквакультурных объектов семейства Карповых (*Cyprinidae*), он интенсивно выращивается во многих странах мира, в том числе в Азербайджане. Эти рыбы являются идеальной моделью для изучения экологии, эмбрионального развития и эволюции различных гидробионтов. Семейство *Cyprinidae* является одним из крупных таксономических групп костистых рыб (*Teleostei*) и насчитывает более 2400 видов [1, 13]. Необходимо также отметить, что в настоящее время обыкновенный сазан составляет ~ 14% (3,4–4,0 млн тонн) от объёма промысловых пресноводных видов рыб, выращиваемых в аквакультуре во всем мире.

Источниками воды для рыбных хозяйств служат родники, реки и другие водоёмы соответствующих регионов, которые в различной степени загрязнены антропогенным воздействием. Поэтому в последние годы выбор рыб как биологических, экологических, токсикологических моделей привлекает внимание многих учёных. Существуют исследования, в которых различные виды наночастиц в свободной форме или в форме оксидов металлов тестировались на модельных рыбах — сазанах. В указанных источниках изучалось накопление наночастиц в различных органах (желудке, кишечнике, печени, кровеносной системе), их токсичность и некоторые патоморфологические изменения у сазанов в экспериментальных условиях. Оксид железа в виде наночастиц обладает магнитными и катализаторными свойствами [5, 6]. Железо является одним из важных элементов организма позвоночных, участвует в переносе кислорода и электронов в процессе дыхания, синтезе ДНК и формировании иммунной системы. Однако при превышении допустимого уровня в организме железо может вызвать нежелательные эффекты (слабость движений и зрения, повышение гемоглобина, эритроцитов, гематокрита, снижение уровня лейкоцитов, повреждение тканей) [9, 10, 12, 15]. Несмотря на это, исследований о влиянии оксидов металлических наночастиц на рыбу недостаточно [11]. В настоящее время в Азербайджане проводится масштабная научно-исследовательская работа в области синтеза свободных наночастиц и их соединений, изучения биологической активности, практического применения, биоаккумуляции в различных компонентах экосистемы (почва, вода, одноклеточные и многоклеточные организмы, включая бактерии, моллюсков, рыбу и др.), а также природных наночастиц (ферритин) [4, 7]. Учитывая вышеизложенное, основной целью данного исследования является определение возможной биоаккумуляции наночастиц магнетита (Fe_3O_4) в различных отделах тонкого кишечника и печени обыкновенного сазана (*Cyprinus carpio* Linnaeus, 1758), выращенного в условиях аквакультуры, а также патоморфологических изменений, возникающих в местах локализации наночастиц, с использованием методов световой и электронной микроскопии, а также изучение влияния этих частиц на эмбриональные стадии развития при их искусственном разведении.

Материалы и методы. В данном исследовании в качестве биомоделей для изучения возможной биоаккумуляции наночастиц Fe_3O_4 в органах организмов, входящих в пищевую цепь, было использовано 33 сеголетков (0+) обыкновенного сазана (*Cyprinus carpio* Linnaeus, 1758). Эти сеголетки были выращены в рыбоводном хозяйстве Нефтечалинского района Азербайджана, где их изначально кормили гранулированным комбикормом для осетровых.

В сентябре 2022 года мальки были перевезены в Баку и в условиях лаборатории кафедры Биофизики и биохимии проводились эксперименты. Подопытные рыбы были разделены на три группы по 11 особей и помещены в три аквариума одинакового объема (60 литров): I — контрольная группа, II и III — экспериментальные группы. Средняя длина (L) сеголетков составляла 6,9 см, а средняя масса (P) — 4,9 г. В экспериментальных аквариумах поддерживались постоянные условия: объём воды — 30 литров, гидрохимические параметры — температура 22–24°C, содержание кислорода — 8,2–8,6 мг/л, pH — 7,4–7,6. Рацион кормления — 10 г комбикорма в день.

В эксперименте применялись наночастицы Fe_3O_4 (98+%, 10–30 нм, номер продукта: 3320DX), приобретённые у компании Skyspring Nanomaterials Inc., США, г. Хьюстон, штат Техас. Рыбы контрольной группы (I) получали только комбикорм, а рыбам II и III групп ежедневно с кормом добавляли 10 мг и 100 мг наночастиц Fe_3O_4, соответственно. Длительность эксперимента составляла 7 дней, после чего внутренние органы (тонкий кишечник и печень) сеголетков из всех трёх групп были извлечены и зафиксированы для дальнейших анализов. Фиксацию извлеченных органов проводили в растворе, содержащем 2,5% глутарового альдегида, 2% параформальдегида, 4% сахарозы и 0,1% пикриновой кислоты на фосфатном буфере (pH=7,4). После суточной фиксации образцы постфиксировали в 1% растворе тетраоксида осмия в том же буфере на протяжении 2 часов. Затем по стандартной методике электронной микроскопии были приготовлены блоки Araldite-Epon. С помощью

ультрамикротома Leica EM UC7 (Leica, США) получены полутонкие срезы (1–2 мкм), окрашенные метиленовым синим, азуром II, основной фуксином или толуидиновым синим. Срезы изучались под микроскопом Primo Star (Zeiss, Германия), изображения фиксировались цифровой камерой EOS D650 (Canon, Япония). Также из этих же блоков были получены ультратонкие срезы (50–70 нм), которые изучались с помощью просвечивающего электронного микроскопа JEM-1400 (JEOL, Япония) при напряжении 80–120 кВ и получены электронограммы [9, 12, 14].

При изучении электронограмм ультратонких неокрашенных срезов с использованием компьютерной программы “Intensity profile” по горизонтали отображалась длина структуры в нанометрах, а по вертикали — уровни серого цвета. Интенсивность изображения зависит от количества оттенков серого (от чёрного до самого светлого). Камера Veletta (Olympus, Германия) используемая в исследовании, обрабатывает 14 бит информации на пиксель, что позволяет различать 16384 градации серого, обеспечивая точное определение локализации наночастиц в клетках живых организмов.

Исследования, направленные на изучение влияния наночастиц оксида железа (Fe_3O_4) на эмбриональное развитие обыкновенного сазана первоначально были проведены [8] в июне-июле 2021 года на рыбоводном хозяйстве «Samukh-fish» (город Барда, Азербайджанская Республика), но в июне 2025 года проводились повторные эксперименты на базе ООО «Сальян Агропарк Агрохозяйство» (город Сальян, Азербайджанская Республика). В ходе исследований в инкубационном цехе рыбоводного хозяйства заготовленные в рыбоводных целях зрелые самцы и самки предварительно были сгруппированы по морфологическим и физиологическим признакам. Определялись их длина (L), масса (P) и коэффициент упитанности по Фултону [1]. В последнем случае (2025 г) у самца длина составляла 35 см, масса — 2,0 кг, у самки — 76 см и 4,0 кг, соответственно. Зрелая икра была получена прижизненным способом – методом «сцеживания» из половозрелых производителей и помещена в пластмассовые емкости с гладкой поверхностью. Сначала на 1 мл молоки, полученной методом «сцеживания» у половозрелых самцов были добавлены наночастицы оксида железа (Fe_3O_4), а затем эта смесь добавлялась на 20 г икры сазана, полученной таким же способом. Оплодотворение икры проводилось «сухим» методом [2, 3]. В процессе исследования наночастицы Fe_3O_4 в различных концентрациях (0,0001 г, 0,001 г и 0,05 г) были добавлены как к половым продуктам (сперма, икра) до оплодотворения, так и к уже оплодотворённой икре. В соответствии с поставленными задачами, полученные результаты сравнивались с контрольной группой.

Результаты. Для изучения биоаккумуляции наночастиц в организме сазана в первую очередь была исследована нормальная ультраструктура тонкого кишечника и его слоёв с использованием световой и электронной микроскопии, чтобы затем сравнивать полученные данные (рис. 1). Следует отметить, что тонкий кишечник разделяется на три отдела — передний, средний и задний, отличающиеся своей морфологической структурой. Среди органов пищеварения средний отдел тонкого кишечника является самым длинным, именно здесь преимущественно происходят процессы переваривания и всасывания пищи. В нашем исследовании изучался средний отдел кишечника. На рисунке 1А представлены гистологические срезы стенки тонкого кишечника обыкновенного сазана. В результате исследования было установлено, что стенка состоит из 4 слоёв: серозы (S), мышечного слоя (ML), подслизистого слоя (SM) и слизистой оболочки (MU). Некоторые из этих слоёв, в свою очередь, также делятся на составные части. На электронограммах сероза (S) состоит из однослойных мезотелиальных клеток, в цитоплазме которых имеются крупные ядра, митохондрии, эндоплазматический ретикулум и везикулы. Клетки соединяются друг с другом плотными контактами (рис. 1В). Ниже серозы находится мышечный слой, который делится на продольный (LML) и циркулярный (CML) мышечные слои (рис. 1В). Между мышечными клетками наблюдаются плотные коллагеновые волокна. Также между слоями мышц видны



Рисунок 1. Световые и электронно-микроскопические изображения тонкого кишечника обыкновенного сазана в норме. A – Общий вид стенки кишечника. B – Сероза и мышечная оболочка (круговой и продольный слои). C – Межмышечное нервное сплетение. D – Структурные элементы подслизистой оболочки. E – Структурные элементы слизистой оболочки. F – Бокаловидная клетка в эпителиальном слое. Обозначения: S – сероза, ML – мышечная оболочка, SM – подслизистая оболочка, MU – слизистая оболочка, N – ядро, Ep – эпителий, LP – собственная пластинка слизистой оболочки, MV – микроворсинки, GC – бокаловидная клетка, En – энтероциты, CML – круговой слой мышц, LML – продольный слой мышц, MC – мышечная клетка, NL – клетка Шванна (нейролеммоцит), Ax – аксон.

элементы миэнтерального нервного сплетения (рис. 1C). В центре шванновской клетки (нейролеммоцита) располагается овальное ядро с эухроматином и хорошо выраженной ядерной оболочкой. В цитоплазме — аппарат Гольджи, лизосомы, митохондрии, эндоплазматический

ретикулум и другие органеллы. Вокруг плазмолеммы нейролеммоцита находится множество аксонов, содержащих нейрофиламенты и нейротрубочки, а также участки митохондрий и цистерны агранулярного ЭПР (рис. 1C). Под мышечным слоем располагается подслизистый слой (SM) (рис. 1D), в котором видны элементы соединительной ткани — кровеносные сосуды, лимфоциты, макрофаги и другие клетки. Последним является слой слизистой оболочки, разделяющийся на три части: эпителий (Ep), собственную пластинку слизистой оболочки (LP) и мышечную пластинку слизистой (рис. 1E). Эпителиальный слой состоит из столбчатых клеток — энтероцитов (En) и бокаловидных клеток (GC) (рис. 1E и 1F). На апикальной поверхности энтероцитов находятся микроворсинки (рис. 1E и 1F). В изученном среднем отделе тонкого кишечника бокаловидные клетки встречаются чаще, чем в других отделах, и их секрет (слизь) защищает микроворсинки от повреждений, вызываемых бактериями и токсинами.

Через 7 дней после введения наночастиц железа в дозировках 10 мг и 100 мг вместе с кормом подопытным рыбам, выращенным в условиях аквакультуры, тонкий кишечник был исследован методами световой и электронной микроскопии и сопоставлен с нормой (рис. 2). Сначала изучалось влияние дозы 10 мг наночастиц на различные слои кишечной стенки. На рисунках 2A и 2B представлены полутонкие (1 мкм) срезы кишечной слизистой, включая эпителий. Были отмечены патоморфологические изменения в апикальных участках эпителиальных клеток, обращённых в просвет кишечника. Микроворсинки энтероцитов (MV), расположенные на боковых частях кишечных складок, сохранились, однако в центральной части просвета кишечника их структура была нарушена — они рассеяны, а также в просвет попали органеллы клеток, включая жировые капли (FD). Эти процессы чётко видны на электронограммах (рис. 2C–2F). В зоне, обозначенной снежинками на рисунке 2C, микроворсинки в апикальной части энтероцитов полностью разрушены. Такие изменения нарушают всасывающую функцию кишечника. При увеличении на электронном микроскопе видно, что внешние мембраны некоторых органелл, включая митохондрии (Mt), повреждены, структура крист разрушена, в цитоплазме наблюдается отёк (обозначен звёздочкой) (рис. 2D). На рисунке 2E и 2F отчётливо видны признаки отёка цитоплазмы энтероцитов и нарушение целостности эпителиальных клеток, находящихся у просвета кишечника, в то время как клетки, удалённые от просвета, частично сохранили структуру. При дозе 10 мг серьёзных изменений в других слоях кишечника не выявлено.





Рисунок 2. Изменения в тонком кишечнике обыкновенного сазана после воздействия наночастиц Fe_3O_4 (10 мг). A – B – Изображение слизистой оболочки тонкого кишечника под световым микроскопом, C – F – Электронограммы эпителиальных клеток и цитоплазматических органелл в слое слизистой оболочки. Обозначения: Ep – эпителий, MV – микроворсинки, FD – жировые капли, En – энтероцит, Mt – митохондрия, Star – отёк.

Под воздействием дозы 100 мг наночастиц Fe_3O_4 наблюдались более серьёзные изменения в структуре стенки тонкого кишечника. Патология отмечалась как в серозном и мышечном слоях, так и в нервных элементах, подслизистой оболочке и в кровеносных сосудах. На электронограмме (рис. 3A) видно, что серозный слой полностью разрушен, в мышечном слое между мышечными клетками заметны вакуолизация и отёчность.

В цитоплазме мышечных клеток митохондрии отёчны, структура крист нарушена. Нарушение целостности мембран нейролеммоцитов, расположенных между мышечными слоями, приводит к образованию миелиноподобных тел разной формы, вакуолизации цитоплазмы, набуханию крист митохондрий и утолщению ядерной оболочки нейролеммоцита. Нарушена целостность базальной мембраны безмиелиновых нервных волокон.

В аксонах наблюдается набухание гранулярного эндоплазматического ретикулума (рис. 3B и 3C). В подслизистой оболочке (SM) между элементами соединительной ткани формируется отёчная жидкость, также наблюдаются многочисленные макрофаги (рис. 3D). В этом же слое выявлены изменения в ультраструктуре сосудов. Эндотелий, выстилающий просвет сосуда, деформирован, с образованием пальцеобразных выпячиваний в просвет (рис. 3E и 3F).



Рисунок 3. Изменения в тонком кишечнике обыкновенного сазана после воздействия наночастиц Fe_3O_4 (100 мг). A – Сероза и мышечная оболочка, B – C – Межмышечное нервное сплетение, D – Слой подслизистой оболочки, E и F – Кровеносные сосуды в слое подслизистой оболочки. Обозначения: V – вакуоль, MC – мышечная клетка, NL – клетка Шванна (нейролеммоцит), N – ядро, Mt – митохондрия, Ax – аксон, MB – миелиноподобные тельца, SM – подслизистая оболочка, ML – мышечная оболочка, MU – слизистая оболочка, Mac – макрофаг, L – просвет сосуда, End – эндотелий сосуда.

Важно отметить, что попав в эритроциты, наночастицы начинают циркулировать по организму через сосудистую систему. Все наблюдения подтверждены электронограммами и профилями интенсивности серого цвета. Независимо от места локализации, уровень серого значения колебался в пределах 5200–5400, что свидетельствует о наличии одинаковых по составу частиц — наночастиц Fe_3O_4. Размер этих частиц составлял 10–20 нм. Это доказывает,

что наночастицы Fe_3O_4 с магнитными свойствами, введённые в кишечник сазана, проходят путь от микроворсинок до эритроцитов и накапливаются в различных органеллах.

В результате проведённых в 2025 году исследований было установлено, что при добавлении наночастиц Fe_3O_4 (20–30 нм) к сперме обыкновенного сазана до оплодотворения икры в количествах 0,0001 г, 0,001 г и 0,05 г, процент оплодотворения икры и выход свободных эмбрионов из оболочки икры были выше по сравнению с другими вариантами. Так, при концентрации наночастиц Fe_3O_4 (20–30 нм) 0,0001 г оплодотворение икры составило 66,6 %, при 0,001 г — 80,5 %, при 0,05 г — 75,0 % (таб. 1). Əldə edilmiş nəticələr əvvəlki tədqiqatlarda Əlvan forel (*Oncorhynchus mykiss*) [4] və Adi çəki (*Cyprinus carpio*) [8] üzərində alınmış nəticələri təsdiqləyir.

Таблица 1.

Добавление наночастиц оксида железа (Fe_3O_4) к сперме обыкновенного сазана до оплодотворения икры

Fe_3O_4 (20-30 нм), кол-во, г	Длина рыбы L, см	Масса рыбы P, г	Кол-во икры в экспери-менте, г	Кол-во икринок в 1 грамме, шт.	Общее кол-во икры в экспери-менте, шт.	Выход свободных эмбрионов		Количество погибших икринок	
						%	шт.	%	шт.
0,0001	76	4000	20	451	9020	66,6	6007	33,4	3013
0,001	76	4000	20	451	9020	80,5	7261	19,5	1759
0,05	76	4000	20	451	9020	75,0	6765	25,0	2255
Контроль	76	4000	20	451	9020	67,3	6070	32,7	2950

Обсуждение и заключение. Изучение нормальной структуры пищеварительных органов, в частности тонкого кишечника обыкновенного сазана, проводилось с использованием гистологических и электронно-микроскопических методов. В результате установлено, что стенка тонкого кишечника состоит из четырёх слоёв: серозы, мышечного слоя, подслизистой оболочки и слизистой. Все указанные слои были идентифицированы различными методами (рис. 1). Эти слои, в свою очередь, делятся на компоненты. Например, слизистая оболочка подразделяется на эпителий (энтероциты и бокаловидные клетки), lamina propria и мышечную пластинку слизистой (рис. 1). Аналогичная структура слизистой оболочки была отмечена у других видов костных рыб, таких как Catla catla, Anguilla anguilla, Clarius batrachus, Salmo salar, Oncorhynchus mykiss, Serrasalmus nattereri. Мышечный слой тонкого кишечника состоит из циркулярного и продольного мышечных волокон (рис. 1B), между которыми располагается миэнтеральное нервное сплетение — элемент энтерической нервной системы. В ходе исследования были обнаружены нейролеммоциты (клетки Шванна) и безмиелиновые нервные волокна (рис. 1C), что подтверждает аналогичные данные других исследователей, изучавших нервные элементы между мышечными слоями кишечника сазана. Помимо функции детоксикации, кишечник рыб также служит важным индикатором общего состояния организма и путей проникновения наночастиц. Это делает его удобной моделью для оценки токсичности различных наночастиц и связанных с этим патологических изменений. В других исследованиях Fe_3O_4 вызывал изменения в желудке, печени, коже, мышцах и чешуе. Установлено, что железные наночастицы могут вызывать иммунную токсичность, накапливаясь в тонком кишечнике и печени. В зависимости от дозы и времени воздействия наблюдаются выраженные патологические изменения: дегенерация ворсинок, нарушение целостности стенок, уменьшение их количества, истончение стенки, отёки эпителия, разрыв межклеточных контактов. Несмотря на длительное введение высоких доз, к 21-му дню уровень наночастиц в организме сазана значительно снижался. Авторы других работ отмечают, что нарушения механизма проникновения наночастиц в энтероциты (через эндоцитоз и последующий экзоцитоз в

сосудистую систему) обусловлены указанными выше структурными изменениями. В отличие от них, в настоящем исследовании при сравнительно высоких дозах (10 и 100 мг на 10 г корма) изменения обнаруживались уже на 7-й день: разрушение микроворсинок энтероцитов, высвобождение жировых капель в просвет кишечника (рис. 2A и 2B), повреждение митохондрий, отёки цитоплазмы (рис. 2D). При дозе 100 мг патологические процессы затронули все слои стенки кишечника: полное разрушение серозы, вакуолизация мышц, отёчность между клетками, нарушение целостности нервных элементов, отёки подслизистой, деформация эндотелия сосудов, разрушение энтероцитов (рис. 3). На основе анализа литературы и собственных наблюдений можно утверждать, что выраженность патологических изменений в организме хозяина зависит от дозы и длительности воздействия наночастиц. В частности, исследование показало, что изменения в ядрах эритроцитов сосудов различались в зависимости от дозы Fe_3O_4: в lamina propria и просветах сосудов подслизистого слоя фиксировались нарушения покрытия ядер эритроцитов, вакуолизация цитоплазмы, деформация отдельных клеток. Накопление металлических наночастиц в организме зависит от их размеров: 4 нм — преимущественно в почках, 10–28 нм — в стенке желудка и тонкого кишечника. Крупные частицы задерживаются в слизи, выделяемой бокаловидными клетками, не проникая вглубь ткани. Согласно данным трансмиссионной электронной микроскопии (ТЭМ), наночастицы размером 10–30 нм могут проходить через lamina propria и достигать соединительных тканей, эндотелия и эритроцитов, распространяясь по различным органам. Хотя в данном исследовании использовались наночастицы размером 10–30 нм, в ТЭМ были визуализированы частицы преимущественно 10–20 нм — в ворсинках, цитоплазме энтероцитов, органеллах, эндотелии и эритроцитах, что соответствует другим результатам по радужной форели. И литература, и наши данные подтверждают: размер наночастиц играет ключевую роль в проникновении в клетки и ткани. В условиях аквакультуры у обыкновенного сазана было проведено исследование ультраструктурных изменений, связанных с проникновением и накоплением наночастиц оксида железа в тонком кишечнике и печени. Воздействие различных доз (10 и 100 мг) вызывало дозозависимые повреждения: от разрушения энтероцитов на низкой дозе до тотальных морфологических изменений всех слоёв кишечной стенки при высокой дозе. Наночастицы (особенно до 20 нм) проходили через микроворсинки, попадали в цитоплазму, затем проникали в слизистую оболочку, lamina propria, эндотелий и эритроциты — распространяясь далее по другим органам [9, 12].

На основании результатов исследований, направленных на изучение влияния наночастиц оксида железа (Fe_3O_4) на эмбриональное развитие сазана установлено, что добавление наночастиц железа в количестве 0,001 г к сперме до оплодотворения икры обеспечивает наивысший процент оплодотворения (80,5%). Предполагается, что наночастицы Fe_3O_4 (20–30 нм) в данной концентрации оказывают каталитическое воздействие на акросомы сперматозоидов, усиливают их энергетическую активность и, в результате этого повышается подвижность сперматозоидов. Полученные результаты могут быть использованы в аквакультуре важных промысловых видов рыб различных таксономических групп рыб с целью снижения потерь на эмбриональных стадиях развития и повышения общей продуктивности.

ЛИТЕРАТУРА

1. Hacıyev R.V., Axundov M.M., Tağıyev Ə.N., Məmmədov Ç.A. İxtiologiya (Ali məktəblərin bakalavr tədris pilləsi üçün dərslik). – Bakı, “Zərdabi Nəşr” MMC, 2024, 512 s.
2. Детлаф Т.А., Гинзбург А.С., Шмальгаузен О.И. Развитие осетровых рыб. – Москва, Наука, 1981, 222 с.
3. Məmmədov Ç.A., Qasımov R.Y., Hacıyev R.V. - Akvakulturalar (Ali məktəblər üçün dərslik). - Bakı, “BDU”, 2016, 360 s.
4. Agayeva N.J., Rzayev F.H., Gasimov E.K., Mamedov Ch.A., Ahmadov İ.S., Sadigova N.A., Khusro A., Al-Dhabi N.A., Arasu M.V. Exposure of rainbow trout (*Oncorhynchus mykiss*) to

magnetite (Fe_3O_4) nanoparticles in simplified food chain: Study on ultra-structural characterization // Saudi Journal of Biological Sciences, 2020, Volume 27 (12), pp. 3258-3266. https://doi.org/10.1016/j.sjbs.2020.09.032

5. Alijantabar M., Omidzahir Sh., Kardel F. Study of iron bioaccumulation and histo- pathology of muscle, skin and scale of common carp (*Cyprinus carpio*) following ex- posed to iron oxide nanoparticles. Journal of Agriculture Development, 2022, V. 6 (1), pp. 85-98, https://doi.org/10.52547/agudev.16.1.85
6. Fiorino E., Sehonova P., Plhalova L., Blahova J., Svobodova Z., Faggio C. Effects of glyphosate on early life stages: comparison between *Cyprinus carpio* and *Danio rerio*. Environ. Sci. Pollut. Res. 2018, p.8542-8549.
7. Hajiyeva S., Hasanova U., Gakhramanova Z., Israyilova A., Ganbarov Kh., Gasimov E., Rzayev F., Eyvazova G., Huseynzada A., Aliyeva G., Hasanova I., Maharramov A. The role of diazacrown ether in the enhancement of the biological activity of silver nanoparticles. Turkish Journal of Chemistry, 2019, V.43: pp. 1711–1721. TÜBİTAK
8. Hajiyeva A.D., Mamedov Ch.A., Khalilov R.I. Influence of nanoparticles on the yield of embryos of the roe common carp (*Cyprinus carpio* Linnaeus, 1758) in the fermentation process. Advances in Biology & Earth Sciences Vol.7, No.1, 2022, pp. 5-12
9. Hajiyeva A., Mamedov Ch., Gasimov E., Rzayev F., Khalilov R., Ahmadian E., Eftehari A., William C. Ultrastructural characteristics of the accumulation of iron nanoparticles in the intestine of *Cyprinus carpio* Linnaeus, 1758 under aquaculture. Ecotoxicology and Environmental Safety, 2023, V. 264, p. 115477. https://doi.org/10.1016/j.ecoenv.2023.115477
10. Jha N., Annamalai A., Essakiraj P., Balamurugan R., Lakra A.K., Tilwani Y.M., Arul V. Effects of polysaccharide-based silver and selenium nanoparticles on growth perfor-mance, biochemical parameters and immune response of *Cyprinus carpio*. Fish and Shellfish Immunology Reports 3, 2022, pp. 100062.
11. Karthikeyeni S., Siva Vijayakumar T., Vasanth S., Ganesh A., Manimegalai M., Subramanian P. Biosynthesis of iron oxide nanoparticles and it haematological effects on fresh water fish Oreochromis mossambicus // J. Acad Indus Res. 2013, 1(10):645-649.
12. Mammadov Ch.A., Hajiyeva A.D., Khalilov R.I. Ultrastructural characteristics of the accumulation of iron nanoparticles in intestine and liver of common carp (*Cyprinus carpio* Linnaeus, 1758). Baku State University: Journal of Physics & Space Sciences, 2024, v1 (3), p. 46-69
13. Nelson J.S. Fishes of the World. 4th ed. Hoboken, NY, USA: John Wiley and Sons, Inc. 2006, pp: 135-165.
14. Rzayev F.H., Gasimov E.K., Agayeva N.J., Manafov A.A., Mamedov C.A., Ahmadov I.S., Khusro A., Valan Arasu M., Sahibzada M.U.K., Al-Dhabi N.A., Choi K.C. Microscopic characterization of bioaccumulated aluminium nanoparticles in simplified food chain of aquatic ecosystem. Journal of King Saud University - Science, 2022, doi: https://doi.org/10.1016/j.jksus.2021.101666
15. Tavabe K.R., Yavar M., Kabir S., Akbary P., Aminikhoei Z. Toxicity effects of multi-walled carbon nanotubes (MWCNTs) nanomaterial on the common carp (*Cyprinus carpio* L. 1758) in laboratory conditions. Comparative Biochemistry and Physiology, Part C 237 (2020), p. 108832. https://doi.org/10.1016/j.cbpc.2020.108832

№ 3/2025 səh.42-52
UOT 601.2

DƏMİR OKSİDİ NANOHİSSƏCİKLƏRİNİN (Fe_3O_4) AKVAKULTURA ŞƏRAİTİNDƏ YETİŞDİRİLƏN ADİ ÇƏKİNİN (*CYPRİNUS CARPİO* LİNNAEUS, 1758) NAZİK BAĞIRSAĞININ ULTRASTRUKTURUNA VƏ EMBRİONAL İNKİŞAFINA TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

[1]Çingiz Ağamusa oğlu Məmmədov, [2]Aysel Davud qızı Hacıyeva,
[3]Rövşən İbrahimxəlil oğlu Xəlilov
[1,2,3]Bakı Dövlət Universiteti
Bakı, Zahid Xəlilov, 23
[1]m_chingiz@yahoo.com, [2]ayselhaciyeva@bsu.edu.az, [3]hrovshan@hotmail.com

Xülasə. *Bu tədqiqatda dəmir oksidi nanohissəciklərinin (Fe_3O_4) akvakultura şəraitində yetişdirilən adi çəkinin (Cyprinus carpio Linnaeus, 1758) nazik bağırsağınanda bioakkumulyasiya xarakteri, həmçinin onların süni yetişdirilməsi prosessində embrional inkişafına təsiri öyrənilmişdir. İşıq və elektron mikroskopiyası ilə aparılan araşdırmalarda mikrovillilərin dağılması, sitoplazmada ödem, mitoxondrilər və damar endotelində zədələnmələr kimi əsaslı patomorfoloji dəyişikliklər qeydə alınmışdır. Nanohissəciklərin enterositlərə, hepatositlərə və eritrositlərə nüfuz etdiyi və müxtəlif toxumalarda sistemli bioakkumulyasiya etdiyi müəyyən edilmişdir. Nanohissəciklərin embrional inkişafa təsirinin öyrənilməsi ilə əlaqədar təcrübələrdə müəyyən edilmişdir ki, dəmir oksidi (Fe_3O_4) nanohissəciklərinin 0,001 q miqdarında mayalandırmadan əvvəl spermaya əlavə olunması mayalanma faizini və sağlam embrionların çıxışını 12-14 % artırmışdır. Əldə olunan nəticələr balıqların süni artırılmasının müxtəlif mərhələlərində nanohissəciklərin toksikliyinin qiymətləndirilməsində böyük əhəmiyyətə malikdir və akvakultura praktikasında istifadə oluna bilər.*

Açar sözlər: *Adi çəki, Fe_3O_4 nanohissəcikləri, nazik bağırsaq, bioakkumulyasiya, embrional inkişaf.*

УДК 601.2

INVESTIGATION OF THE IMPACT OF IRON OXIDE (Fe_3O_4) NANOPARTICLES ON THE ULTRASTRUCTURE OF THE SMALL INTESTINE AND ON THE EMBRYONIC DEVELOPMENT OF COMMON CARP (CYPRINUS CARPIO LINNAEUS, 1758) UNDER AQUACULTURE CONDITIONS

[1]Chingiz Mammadov, [2]Aysel Hajiyeva, [3]Rovshan Kahlilov
1,2.3 Baku State University
Baku, Zahid Khalilov, 23
[1]m_chingiz@yahoo.com, [2]ayselhaciyeva@bsu.edu.az, [3]hrovshan@hotmail.com

Summary. *In the present study, the nature of bioaccumulation of iron oxide (Fe_3O_4) nanoparticles in the small intestine of the common carp (Cyprinus carpio Linnaeus, 1758), reared under aquaculture conditions, was examined, as well as their effects on the embryonic stages of development during artificial breeding. Using light and electron microscopy, pronounced pathomorphological changes were identified in the examined organs: destruction of microvilli, cytoplasmic edema, damage to mitochondria, and vascular endothelium. It was established that the nanoparticles penetrate into enterocytes, hepatocytes, and erythrocytes and accumulate in various tissues. Studies on the effect of nanoparticles on embryonic development revealed that the addition of iron oxide (Fe_3O_4) to sperm prior to fertilization of eggs in the amount of 0.001 g increased the fertilization rate and the yield of viable free embryos by 12–14%. The obtained data are of great importance for assessing the toxicity of nanoparticles at various stages of fish breeding and can be applied in aquaculture practice.*

Keywords*: Cyprinus carpio, Fe_3O_4 nanoparticles, small intestine, bioaccumulation, embryonic development.*

Redaksiyaya daxilolma: 15.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 **səh.53-60**

UOT 004.42
DOI 10.30546/678209.2025.03.053

TƏKLÜKƏSİZ PROQRAM İCRASINI TƏMİN EDƏN PORTATİV PROQRAMLAŞDIRMA DİLİNİN HAZIRLANMASI

Nuru Fuad oğlu Daşdəmirli

Azərbaycan Texniki Universiteti
Bakı şəhəri, H.Cavid pr.25

nurudashdamirli@gmail.com

Xülasə. *Təhlükəsiz və avtonom şəkildə işləyən Əşyaların İnterneti cihazlarına artan tələbat, ənənəvi mikrokontroller proqramlaşdırma metodlarının məhdudiyyətlərini üzə çıxarır və alternativ yanaşmalara ehtiyac yaradır. Bu məqalədə mikrokontrollerlərdə təhlükəsiz proqram icrasını təmin etmək üçün hazırlanmış virtual maşın əsaslı portativ proqramlaşdırma dili təqdim olunur. Bu ehtiyacı qarşılamaq məqsədilə CHIP-8 arxitekturasına əsaslanan və mikrokontroller mühitinin məhdudiyyətlərinə uyğunlaşdırılmış xüsusi virtual maşın hazırlanmışdır. Bu virtual maşın periferik idarəetməni, giriş-çıxış əməliyyatlarını və təhlükəsiz proqram icrasını asanlaşdırmaqla yanaşı, çoxtapşırıqlılıq imkanlarını da dəstəkləyir. Təklif olunan proqramlaşdırma dili C dilinə bənzər, sadələşdirilmiş sintaksisə malikdir və proqram təminatının hazırlanması prosesinin effektivliyini, həmçinin proqramların portativliyini artırır. Bu yanaşma aparat təminatının abstraksiyası, proseslərin izolyasiyası və resursların idarəetməsini təmin edən mexanizmləri tətbiq etməklə, mikrokontroller əsaslı sistemlərin təhlükəsizliyini gücləndirir. Təklif edilən portativ proqramlaşdırma dili və virtual maşın daha təhlükəsiz və etibarlı işləyən ağıllı cihazların hazırlanmasına imkan yaradır və müxtəlif sahələrdə effektiv şəkildə tətbiq oluna bilər.*

Açar sözlər: *mikrokontroller, proqramlaşdırma, virtual maşın, çoxtapşırıqlılıq, əşyaların interneti, təhlükəsizlik*

Giriş. Əşyaların İnterneti əsasında işləyən ağıllı və avtonom cihazlara tələbatın gündən-günə artması ilə mikrokontroller əsaslı sistemlər getdikcə inkişaf edir. Mikrokontrollerlər bir çox sahələrdə geniş şəkildə tətbiq olunur, bunlara misal olaraq avtomatlaşdırma sistemlərini, geyiləbilən texnologiyaları, məişət avadanlıqlarını, tibbi cihazları, sənaye avadanlıqlarını və robot texnikasını misal göstərmək olar. Mikrokontrollerlərin aşağı enerji sərfiyyatına və kompakt dizayna malik olması onları bir çox tətbiq sahələri üçün əvəzedilməz edir. Lakin mikrokontrollerlər üçün ənənəvi proqramlaşdırma üsullarının tətbiqi zamanı müəyyən məhdudiyyətlərlə üzləşilir. C proqramlaşdırma dili və ona oxşar aşağı səviyyəli dillər mikrokontroller sistemlərində və Əşyaların İnterneti şəbəkələrində geniş şəkildə tətbiq olunur [1]. Lakin aşağı səviyyəli dillər yaddaşın idarə olunması, proqram təminatının təhlükəsizliyinin təmin edilməsi və çoxtapşırıqlılıq kimi məsələlərdə proqramçıları daha çox düşünməyə və diqqətli olmağa məcbur edir. MicroPython kimi yüksək səviyyəli alternativ proqramlaşdırma dilləri daha rahat proqramlaşdırma mühiti təqdim etsə də, proqramın icra sürəti və yaddaş səmərəliliyi mövzusunda effektiv olmayıb, məhdud resurslu mikrokontroller mühitlərində tətbiq üçün uyğun deyillər [2].

Mikrokontrollerlərin proqramlaşdırılması zamanı üzə çıxan ən əsas çətinliklərdən biri məhdud aparat resurslarının idarə olunmasıdır. Mikrokontrollerlər adətən limitli RAM, fləş yaddaş resursları və emal gücünə malikdirlər. Bu məhdudiyyət çox zaman daha optimallaşdırılmış kod yazılmasını tələb edir və çoxtapşırıqlılıq kimi funksionallıqların həyata keçirilməsini çətinləşdirir. Mikrokontrollerdə

eyni anda birdən çox tapşırığın icra edilməsi tələb olunursa, məsələn, sensorlardan oxunan məlumatların işlənməsi, rabitənin idarə olunması və idarəetmə panelindən gələn əməliyyatların eyni anda yerinə yetirilməsi lazım gələrsə, proqram kodlarının hazırlanması prosesi nəzərəçarpan dərəcədə çətinləşir. Yaddaşın düzgün idarə olunmasını və tapşırıqların effektiv icrasını təmin etmək proqram təminatının hazırlanma müddətini uzadır. Əks halda isə yaddaş sızıntıları və buferin daşması kimi problemlərlə üzləşilə bilər, hansı ki sistemin bütövlüyünün qorunmasını və təhlükəsizliyini ciddi risk altında qoyur. Şəbəkəyə qoşulan istənilən mikrokontroller sisteminin təhlükəsizliyinin təmin edilməsi vacibdir, çünki hazırda bir çox ağıllı cihazların şəbəkəyə qoşulması ilə potensial kiberhücum təhlükəsi getdikcə artır. Ənənəvi proqramlaşdırma yanaşmaları güclü təhlükəsizlik tədbirləri təqdim etmir və bu məsələnin qoyuluşunu proqramçının öhdəsinə buraxır, bu isə sistemi icazəsiz giriş və ya kiberhücumlara qarşı zəiflədir [3]. Həssas məlumatların qorunması və etibarlı şəkildə proqramlaşdırma üçün proseslər arasında izolyasiya təmin edən təhlükəsiz icra mühitinin olması mühüm rol oynayır.

Bu məqalədə, bəhs edilən çətinlikləri aradan qaldırmaq məqsədilə mikrokontroller mühiti üçün xüsusi hazırlanmış portativ proqramlaşdırma dili ilə virtual maşını inteqrasiya edən yeni yanaşma təklif edilir. Təklif olunan virtual maşın CHIP-8 arxitekturasına əsaslansa da, müasir mikrokontroller sistemlərinin tələblərinə uyğun olaraq yenidən dizayn edilmişdir. CHIP-8 1970-ci illərdə mikrokompüterlərdə istifadə üçün yaradılmış interpretasiya edilən proqramlaşdırma dili və virtual maşındır [4]. Daha çox interaktiv proqramların və oyunların hazırlanması üçün nəzərdə tutulmuş CHIP-8-dən fərqli olaraq, təklif olunan yeni virtual maşın mikrokontrollerin periferiya qurğularının idarə olunmasını, giriş/çıxış əməliyyatlarının həyata keçirilməsini və təhlükəsiz proqram icrasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Bu virtual maşının vacib xüsusiyyətlərindən biri də daxili çoxtapşırıqlılıq mühitidir ki, bu da mürəkkəb planlaşdırıcılara əsaslanan mexanizmlərə ehtiyac olmadan bir neçə tətbiqin eyni anda işləməsinə imkan yaradır.

Bu virtual maşın üçün hazırlanmış xüsusi proqramlaşdırma dili isə C dilinə bənzər sadələşdirilmiş sintaksis ilə tərtib edilmişdir. Bu oxşarlığın səbəbi isə mikrokontroller sistemlərində C dilinin geniş şəkildə istifadə olunmasıdır, beləcə proqramçıların əlavə proqramlaşdırma dili öyrənməsinə ehtiyac yaranmır. Bu proqramlaşdırma dilində hazırlanan tapşırıqlar baytkoda çevrilərək virtual maşın tərəfindən icra olunur. Təklif edilən yanaşma həm mikrokontroller sistemlərində aparat təminatının daha asan idarə olunmasını təmin edir, həm də kodun portativliyini artırır. Eyni baytkodu dəyişiklik etmədən müxtəlif mikrokontroller platformalarında işlətmək mümkün olduğu üçün, proqram təminatının hazırlanma səmərəliliyi və sürəti əhəmiyyətli dərəcədə artır.

Virtual maşın əsaslı yanaşma bir sıra üstünlüklərə malikdir. İlk növbədə bu yanaşma proqram təminatının hazırlanmasını sadələşdirir. Virtual maşın, proqram təminatı ilə aparat təminatı arasında abstraksiya təmin edərək, proqramçıların aparat təminatının spesifik detalları ilə maraqlanmadan tətbiqin hazırlanmasına fokuslanmasına imkan yaradır. Bununla yanaşı, virtual maşına kompilyasiya olunacaq dilin C proqramlaşdırma dilinə bənzər sintaksisi olması tətbiq prosesini daha da asanlaşdırır. Digər vacib üstünlük resurslardan səmərəli istifadə imkanıdır. Virtual maşın mikrokontrollerlərin minimal yaddaş resursları və məhdud emal sürəti nəzərə alınaraq dizayn edildiyi üçün, hətta çox məhdud resurslara malik mikrokontrollerlərdə belə mürəkkəb tətbiqlərin səmərəli şəkildə işləməsini təmin edir. Bundan əlavə, virtual maşının təqdim etdiyi çoxtapşırıqlı mühit müxtəlif tapşırıqların eyni anda yerinə yetirilməsinə imkan yaradır və bunun üçün mürəkkəb proqramlaşdırma üsullarına ehtiyac qalmır. Mikrokontroller sistemlərində bu tipli çoxtapşırıqlı mühitin tətbiqinə OCaPIC virtual maşınını göstərmək olar [5]. Təhlükəsizlik baxımından da virtual maşın yanaşması müxtəlif proses və tapşırıqların izolyasiyasını və aparat resurslarına girişin nəzarətdə saxlanılmasını təmin edərək, potensial zəifliklərin və zərərli kod icrasının qarşısını alır. Virtual maşının tətbiqi həmçinin süni intellekt və maşın öyrənməsi tətbiqlərinin həyata keçirilməsinə də imkan yaradır. Mikrokontrollerin fləş yaddaşında yerləşən modellərdən istifadə etməklə, aparat təminatının problemlərinin aşkarlanması, proqnozlaşdırıcı texniki baxış və buna oxşar süni intellekt əsaslı sistemlərin tətbiqi mümkün olur. Mikrokontrollerlərin limitli resurslara sahib olmasına baxmayaraq, TensorFlow Lite kimi texnologiyaların tətbiqi ilə bəzi mikrokontroller platformalarında süni intellekt və maşın öyrənməsi

əsaslı sistemlərin tətbiqi mümkündür [6][7]. Bu, internet şəbəkəsindən asılılığı azaldır və daha effektiv idarəetməni təmin edir.

Nəticə etibarilə, müasir tətbiqlərin artan mürəkkəbliyi və resurs istifadəsi, proqram təminatının hazırlanmasının rahatlığını və təhlükəsizliyini təmin edən yeni proqramlaşdırma yanaşmalarına ehtiyac yaradır. Keçmişdə kifayət edən ənənəvi proqramlaşdırma metodları, bu günün ağıllı cihazlarının tələblərini tam qarşılamır. Portativ proqramlaşdırma dili və virtual maşının inteqrasiyası çoxtapşırıqlılıq funksionallığını və platformalar arasında portativliyi təmin edərək mikrokontroller əsaslı intellektual sistemlərin hazırlanması prosesini rahatlaşdırır. Gələcək tədqiqatlar virtual maşının daha da optimallaşdırılması, funksionallıqların genişləndirilməsi və təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi istiqamətində yönəldilə bilər.

Tədqiqatın obyekti və metodikası. Bu tədqiqat mikrokontrollerlərdə təhlükəsiz proqram icrası üçün virtual maşın əsaslı portativ proqramlaşdırma dilinin hazırlanması və tətbiqinə həsr olunub. İşin motivasiyası ənənəvi mikrokontroller proqramlaşdırma yanaşmalarının məhdudiyyətlərindən irəli gəlir, hansı ki, müasir ağıllı tətbiqlərin tələblərini ödəməkdə çətinlik çəkir. Məqsəd C proqramlaşdırma dilinə bənzər sintaksisdən istifadə edərək proqram təminatının hazırlanması prosesini sadələşdirən, eyni zamanda platformalararası portativliyi təmin edən təhlükəsiz və resursları səmərəli istifadə edən bir dil yaratmaqdır. Təklif olunan proqramlaşdırma dili C dilinin aşağı səviyyəli nəzarət imkanlarını qoruyub saxlamaqla birlikdə portativ proqram mühitinin reallaşdırılmasına fokuslanır. Sözügedən proqramlaşdırma dilində hazırlanan proqram kodları son nəticədə birbaşa maşın kodlarına yox, mikrokontrollerin aparat xarakteristikasını gizlədərək abstraksiya qatı təmin edən virtual maşının xüsusiləşdirilmiş kodlarına çevrilir. Bu virtual maşın proseslərin izolyasiyası və yaddaş nəzarəti kimi təhlükəsizlik xüsusiyyətlərini dəstəkləməklə birlikdə, eyni anda bir neçə prosesin icrasına imkan yaradır. Burada əsas hədəflərdən biri təklif olunan proqramlaşdırma dili ilə tərtib edilmiş tətbiqlərin müxtəlif mikrokontroller arxitekturalarında minimal dəyişikliklərlə işləməsini təmin edərək platformalararası portativliyin əldə olunmasıdır.

Tətqiqatda mikrokontrollerlərin məhdud RAM, fləş yaddaş və emal gücü kimi aparat məhdudiyyətləri və sistem tələbləri araşdırılır. Eyni zamanda, çoxtapşırıqlılıq, periferiya qurğularının idarəetməsi və təhlükəsizlik mexanizmlərinin təmin olunması kimi funksional tələblər müəyyən edilir. Bu təhlildən sonra, konsepsual dizayn mərhələsi başlayır və proqramlaşdırma dilinin spesifikasiyası hazırlanır. Spesifikasiya dilin sintaksisi, semantikası, idarəetmə strukturları kimi aspektləri əhatə edir. Eyni zamanda, CHIP-8 modelindən ilham alınaraq, mikrokontroller əməliyyatlarına uyğunlaşdırılmış virtual maşının arxitekturası analiz edilir. Konsepsual dizayn mərhələsində proseslərin izolyasiyası və yaddaşın qorunması kimi təhlükəsizlik aspektləri də araşdırılır.

Portativ proqramlaşdırma dilinin dizaynı və Virtual Maşınla tətbiqi

Mikrokontrollerlər adətən mikroprosessorlarla müqayisədə limitli emal gücünə malik olub, limitli RAM və fləş yaddaş resurslarına sahib olurlar. Bu səbəbdən mikrokontroller mühitlərini hədəfləyən tətbiqlərin intensiv mürəkkəb hesablamalar və böyük yaddaş ölçüsü tələb etməsi məqsədəuyğun deyil. Bu məhdudiyyətləri anlamaq, spesifik tətbiq üçün doğru mikrokontroller seçmək və bu məhdudiyyətlər daxilində effektiv işləyə bilən sistemlər dizayn etmək üçün vacibdir. Bununla belə, mikrokontroller aşağı enerji sərfiyyatı tələb olunan cihazlarda, xüsusilə də batareya ilə işləyən geyiləbilən texnologiyalar üçün əvəzedilməzdir. Təklif olunan portativ proqramlaşdırma dili mikrokontroller mühitlərində tez-tez rast gəlinən məhdudiyyətlər nəzərə alınaraq tərtib edilmişdir. Dilin sintaksisi və açar sözlər C proqramlaşdırma dili ilə eyni olub onun alt çoxluğunu təşkil edir (Cədvəl 1). CHIP-8 tipli sistemlərə kompilyasiyanı asanlaşdırmaq və minimal yaddaş istifadəsini təmin etmək üçün dilin sintaksisi mümkün qədər sadə saxlanılmışdır. Buna görə də dinamik yaddaşın ayrılması və mürəkkəb verilənlər modellərinin təyin olunması kimi funksionallıqlar dilə inteqrasiya edilməyib. Hazırlanan proqramların mikrokontroller mühitində işləməsini təmin etmək üçün ilk öncə insan tərəfindən oxuna bilən mənbə kodlarını virtual maşın tərəfindən icra oluna bilən baytkoda çevirmək lazımdır. Bunun üçün təklif olunan proqramlaşdırma dili üçün hazırlanmış kompilyatordan istifadə olunur.

№ 3/2025 səh.53-60

Cədvəl 1.

Təklif olunan proqramlaşdırma dilinin açar sözləri və onların təyinatı

Açar söz	Təyinatı
if	Şərt doğru olduqda icra olunacaq bloku təyin edir
else	"if" şərti yanlış olduqda icra olunan bloku təyin edir
while	Şərt doğru olduğu müddətcə icra olunacaq bir dövr bloku təyin edir
for	Müəyyən sayda iterasiya üçün istifadə olunan bir dövr bloku təyin edir
do	Ən azı bir dəfə icra olunan bir dövr bloku təyin edir
continue	Dövrün cari iterasiyasını dayandırıb növbəti iterasiyaya keçir
break	Dövrü bitirmək üçün istifadə olunur
goto	Müəyyən bir etiketə birbaşa keçidi təmin edir
return	Funksiyadan bir dəyər qaytarmaq üçün istifadə olunur
void	Heç bir dəyər qaytarmayan bir funksiyanı və ya göstəricini təyin edir
int	Tam ədədləri saxlamaq üçün istifadə olunan məlumat tipi
char	Simvolları saxlamaq üçün istifadə olunan məlumat tipi

Kompilyatorun mənbə kodunu baytkoda çevirməsi çoxmərhələli proses olub, proqram kodunun icra olunmadan əvvəl sintaktik və semantik cəhətdən düzgün olub-olmadığını müəyyən edir. Kompilyasiya prosesi aşağıdakı mərhələlərdən keçir:

1. Mənbə kodlarının oxunması.

İnsan tərəfindən başa düşülə bilən mənbə kodu fayldan oxunur. Bu kod təklif olunan dilin sintaksisini ehtiva edir.

2. Leksik analiz.

Mənbə kodu tokenlərə ayrılır. Proqramlaşdırma dillərində tokenlər, kompilyatorlar və ya interpretatorlar tərəfindən işlənən ən kiçik mənalı vahidlərdir. Tokenlərə misal olaraq açar sözləri, operatorları, identifikatorları və ədədləri göstərmək olar.

3. Sintaksis analizi.

Tokenlər dilin qrammatik qaydaları əsasında yoxlanılır. Kodun iyerarxik strukturunu təmsil edən sintaksis ağacı qurulur. Bu mərhələ kodun sintaktik cəhətdən düzgün olduğunu təmin edir.

4. Semantik analiz.

Kodun semantik cəhətdən düzgünlüyü yoxlanılır. Bura tiplərin yoxlaması, dəyişənlərin və funksiyaların istifadə edilməzdən əvvəl elan edilməsinin müəyyənləşdirilməsi, və funksiya çağırışlarının düzgün olduğunun təmin edilməsi daxildir.

5. Aralıq təmsil kodunun formalaşdırılması.

Semantik analizdən sonra sintaksis ağacı aralıq təmsil koduna çevrilir. Aralıq təmsil kodu mənbə kodundan daha asan optimallaşdırıla və manipulyasiya oluna bilən bir formadır (Şəkil 1).

6. Optimallaşdırma. Baytkodun performansını artırmaq üçün müxtəlif optimallaşdırma üsulları istifadə olunur. Bu mərhələ kod təkrarlanmalarının aradan qaldırılmasını, əlçatmaz kodların silinməsi və dövrlərin optimallaşdırılmasını əhatə edə bilər.

7. Baytkod formalaşdırılması.

Bu mərhələdə aralıq təmsil kodu əsasında baytkod formalaşdırılması həyata keçirilir. Baytkod təklif olunan virtual maşın tərəfindən icra oluna bilən aşağı səviyyəli, platformadan asılı olmayan koddur.

8. Xəta hesabatı.

Kompilyasiya prosesinin müxtəlif mərhələlərində qarşılaşılan bütün xətalar və xəbərdarlıqlar mesaj formasında qeyd olunur. Xətalar kompilyasiya prosesinin uğursuz tamamlanması ilə nəticələnir,

xəbərdarlıqlar isə mənbə kodlarında olan potensial problemləri üzə çıxarır. Bu, koddakı problemli hissələri müəyyənləşdirmək və düzəltməkdə kömək edir.



Şəkil 1. Mənbə kodunun aralıq təmsil koda çevrilməsi nümunəsi

Tokenlər mənbə kodunun blokları rolunu oynayır və dilin sintaksisindəki rollara əsasən kateqoriyalara ayrılır. Mənbə kodunu tokenlərə ayırma prosesi tokenizasiya və ya leksik analiz adlanır və adətən kompilyasiya və ya interpretasiya prosesinin ilk addımıdır. Bu mərhələdə mənbə kodu skan edilir və tokenlər müəyyən edilir. Proqramlaşdırma dillərində token növləri açar sözlər, identifikatorlar, literalar, operatorlar, işarə simvolları və şərhlərdir. İdentifikatorlar dəyişənlər, funksiyalar və etiketlər kimi tokenlərə verilən adlardır. İdentifikatorlar müəyyən adlandırma qaydalarına riayət etməlidir, onlar adətən hərf və ya alt xətt ilə başlayır və hərflər, rəqəmlər və ya alt xətlərdən ibarət olur. Açar sözlər, "if", "else", "while" və "for" kimi xüsusi mənaları olan sözlərdir, hansı ki identifikator kimi istifadə oluna bilməz. Literallar kodda birbaşa təmsil olunan sabit dəyərləri ifadə edir. Bunlara "15" kimi tam ədəd literalları, "5.43" kimi onluq kəsr literalları, "Salam, Dünya!" kimi sətir literalları və "true" və ya "false" kimi bul literalları daxildir. Operatorlar, operandlar üzərində əməliyyatları ifadə edən tokenlərdir, bunlara "+", "==" və "&&" kimi hesabi, müqayisə və məntiqi operatorlar daxildir. Dilin strukturunu təmin edən, lakin müstəqil mənası olmayan tokenlər də var, məsələn, vergül, nöqtəli vergül, mötərizələr, fiqurlu mötərizələr və kvadrat mötərizələr. Şərhlər, proqramın icrasına təsir etməsə də, mənbə kodu daxilində qeydlər etməyə imkan verir. Şərhlər C proqramlaşdırma kimi dillərdə "//" ilə göstərilən tək sətirli şərhlər və ya "/* */" ilə işarələnmiş çox sətirli şərhlər ola bilər.

Cədvəl 2-də təklif olunan virtual maşının dəstəklədiyi əsas komandalar yığını verilmişdir. Hər bir komanda üçün uyğun C psevdokodu və onun funksional təsviri göstərilmişdir. Bu komandalar virtual maşın arxitekturasının əməliyyat prinsiplərini və proqram icrasını təmin edən əsas vahidləri təşkil edir.

Cədvəl 2.

Təklif olunan virtual maşın üçün komandalar yığını

Komanda	C Psevdokod	Komandanın işi
00EE	return	Sonuncu çağırılan altproqramdan qayıdır
1NNN	goto NNN	NNN ünvanına keçid edir
2NNN	*(NNN)()	NNN ünvanında yerləşən altproqramı çağırır
3XNN	if (Vx == NN)	Vx ilə NN bərabərdirsə, növbəti komandanı ötürür
4XNN	if (Vx != NN)	Vx ilə NN bərabər deyilsə, növbəti komandanı ötürür
5XYN	if (Vx *cmp* Vy)	Vx və Vy-in müqayisəsi ilə növbəti komandanı ötürür
6XNN	Vx = NN	Vx registrinə NN dəyərini qeyd edir
7XNN	Vx += NN	Vx registrinə NN dəyərini əlavə edir
8XYN	Vx = Vy *OP* Vx	Vx və Vy ilə hesablama aparıb nəticəni Vx-də saxlayır
9XNN	uc[X](NN)	Mikrokontrollerin daxili funksiyalarını çağırır

ANNN	I = NNN	I registrinə NNN dəyərini qeyd edir
BNNN	PC = V0 + NNN	(V0 + NNN) ünvanına keçid edir
CXNN	Vx = rand() & NN	Vx registrinə təsadüfi ədəd qeyd edir
FX1E	I += Vx	I registrinə Vx dəyərini əlavə edir
FX55	reg_save(Vx, &I)	V0-dan Vx-ə qədər olan dəyərləri I ünvanında saxlayır
FX65	reg_load(Vx, &I)	V0-dan Vx-ə qədər I ünvanında olan dəyərləri yükləyir

Proqramların baytkodunun icrası üçün hazırlanan virtual maşın resurs məhdudiyyətli mikrokontrollerlərdə belə səmərəli işləmək üçün CHIP-8 virtual maşınına bənzər olaraq minimalist şəkildə hazırlanmışdır. Bu virtual maşında CHIP-8-in qrafik və səs komandaları, mikrokontrollerin periferiya qurğularının idarə edilməsi və giriş/çıxış pinlərinə nəzarət kimi mikrokontrollerlə əlaqəli komandalarla əvəzlənmişdir. Yaddaş istifadəsi və hesablama gücü cəhətdən minimal resurs tələb edən bu virtual maşın işlədiyi mikrokontrollerlərin performansına minimal təsir göstərir. Ən əsası, VM daxili çoxtapşırıqlılıq mühiti təmin edir ki, bu da tətbiq səviyyəsində mürəkkəb planlaşdırma alqoritmlərinə ehtiyac olmadan tətbiqlərin eyni vaxtda icrasını təmin edir.

Virtual maşının proses izolyasiyası və giriş nəzarətini dəstəkləməsi, mikrokontroller sistemlərində təhlükəsizliyi əhəmiyyətli dərəcədə artırır. Əşyaların İnterneti şəbəkələri, ağıllı şəhər sistemləri və sənaye avadanlıqları kimi tətbiqlərdə təhlükəsizliyin təmin edilməsi vacibdir. Bu yanaşmanın əsas təhlükəsizlik fokuslarından biri proses izolyasiyasıdır, hansı ki hər bir tapşırığın öz yaddaş sahəsində işləməsini təmin edərək, virtual maşında icra olunan hər hansı bir tapşırığın digər tapşırığa müdaxilə edə bilməsinin qarşısını alır. Bu izolyasiya bir neçə tətbiqin eyni anda işlədiyi mühitlərdə xüsusilə vacibdir, çünki bu funksionallıq həssas məlumatların oğurlanması və sistemin funksionallığının pozulması məqsədilə olunan kiberhücumlardan qorunmağa kömək edir. Giriş nəzarəti mexanizmi isə proseslərin hansı resurslara əlçatan olduğunu və hansı əməliyyatları yerinə yetirə biləcəyini müəyyən edir. Giriş nəzarətinin düzgün tətbiq olunması ilə həssas məlumatların və xüsusi periferiya qurğularının yalnız səlahiyyətli proseslərə əlçatan olmasını təmin etmək olar. Bu, sistemə icazəsiz giriş riskini azaldır, hansı ki, mikrokontroller əsaslı sistemlərdə geniş yayılmış bir hücum vektorudur.

Nəticə

Bu tədqiqat çərçivəsində mikrokontroller mühitində təhlükəsiz və effektiv proqram icrasını təmin etmək üçün portativ proqramlaşdırma dili və virtual maşın əsaslı yeni yanaşma təklif edilmişdir. Təklif olunan sistem, ənənəvi mikrokontroller proqramlaşdırma üsullarının məhdudiyyətlərini aradan qaldıraraq, çoxtapşırıqlılıq və platformalar arası portativlik imkanlarını artırır. Virtual maşın vasitəsilə tapşırıqlar aparat təminatının xarakteristikasından asılı olmadan icra oluna bilir və sistemin geniş miqyasda tətbiqinə imkan yaradır. Təklif olunan proqramlaşdırma dili C dilinin sintaksisinə bənzər strukturu sayəsində proqramçıların yeni dil öyrənmə ehtiyacını aradan qaldırır, eyni zamanda optimallaşdırılmış baytkod icrası vasitəsilə məhdud aparat resurslarından daha səmərəli istifadə etməyə imkan yaradır. Bu yanaşma həmçinin mikrokontroller əsaslı sistemlərdə proseslərin izolyasiyasını və aparat resurslarının nəzarət altında istifadəsini təmin edərək təhlükəsizlik tədbirlərini gücləndirir.

Gələcək tədqiqatlar bu virtual maşının daha da optimallaşdırılması, performans göstəricilərinin artırılması və təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində aparıla bilər. Bundan əlavə, süni intellekt və maşın öyrənməsi modellərinin mikrokontrollerlər üzərində daha effektiv tətbiqi üçün virtual maşının genişləndirilməsi də araşdırıla bilər. Nəticə etibarilə, bu yanaşma mikrokontroller əsaslı ağıllı sistemlərin inkişafında yeni imkanlar açaraq, proqram təminatının hazırlanmasının effektivliyini və təhlükəsizliyi artırır.

ƏDƏBİYYAT

1. Krishnamurthy, J., & Maheswaran, M. (2016). Programming frameworks for Internet of Things. In *Internet of Things* (pp. 79-102). Morgan Kaufmann.
2. Bell, C. (2017). MicroPython for the Internet of Things. *Apress: New York, NY, USA.*

3. Goodspeed, T., Highfill, D. R., & Singletary, B. A. (2009, January). Low-level design vulnerabilities in wireless control systems hardware. In *Proceedings of the SCADA Security Scientific Symposium* (pp. 3-1).

4. Cruz, N., Ruiz-Ferrández, M., Redondo, J. L., Álvarez, J., & Ortigosa, P. (2019). Applications of chip-8, a virtual machine from the late seventies, in current degrees in computer engineering. In *EDULEARN19 Proceedings* (pp. 1720-1729). IATED.

5. Varoumas, S., Vaugon, B., & Chailloux, E. (2016, January). Concurrent Programming of Microcontrollers, a Virtual Machine Approach. In *8th European Congress on Embedded Real Time Software and Systems (ERTS 2016)* (pp. 711-720).

6. David, R., Duke, J., Jain, A., Janapa Reddi, V., Jeffries, N., Li, J., ... & Rhodes, R. (2021). Tensorflow lite micro: Embedded machine learning for tinyml systems. *Proceedings of Machine Learning and Systems*, *3*, 800-811.

7. Pernes, P., Jaroš, M., Podivín, J., & Trenz, O. (2024). Microcontrollers Suitable for Artificial Intelligence. In *26th International Conference Economic Competitiveness and Sustainability: Abstracts* (pp. 120-126).

УДК 004.42

РАЗРАБОТКА ПОРТАТИВНОГО ЯЗЫКА ПРОГРАММИРОВАНИЯ ДЛЯ МИКРОКОНТРОЛЛЕРОВ, ОБЕСПЕЧИВАЮЩЕГО БЕЗОПАСНОЕ ВЫПОЛНЕНИЕ ПРОГРАММ НА ВИРТУАЛЬНОЙ МАШИНЕ

Нуру Фуад оглу Дашдемирли
Азербайджанский Технический Университет
г. Баку, пр. Г.Джавида, 25
nurudashdamirli@gmail.com

Резюме. *Растущий спрос на безопасные и автономные устройства Интернета вещей выявляет ограничения традиционных методов программирования микроконтроллеров и создает потребность в альтернативных подходах. В данной статье представлен портативный язык программирования на основе виртуальной машины, предназначенный для обеспечения безопасного выполнения программ на микроконтроллерах. Для удовлетворения этой потребности была разработана специальная виртуальная машина на базе архитектуры CHIP-8, адаптированная к ограничениям среды микроконтроллера. Эта виртуальная машина не только упрощает управление периферийными устройствами, операции ввода-вывода и безопасное выполнение программ, но и поддерживает возможности многозадачности. Предлагаемый язык программирования имеет упрощенный синтаксис, аналогичный языку C, и повышает эффективность процесса разработки программного обеспечения, а также портативность программ. Такой подход повышает безопасность систем на базе микроконтроллеров за счет внедрения механизмов, обеспечивающих абстракцию оборудования, изоляцию процессов и управление ресурсами. Предложенный портативный язык программирования и виртуальная машина позволяют разрабатывать более безопасные и надежные интеллектуальные устройства и могут эффективно применяться в различных областях.*

Ключевые слова: *микроконтроллер, программирование, виртуальная машина, многозадачность, интернет вещей, безопасность.*

№ 3/2025 səh.53-60
UDC 004.42

DEVELOPMENT OF A PORTABLE PROGRAMMING LANGUAGE FOR MICROCONTROLLERS THAT PROVIDES SECURE PROGRAM EXECUTION ON A VIRTUAL MACHINE

Nuru Fuad oglu Dashdemirli
Azerbaijan Technical University
Baku city, H.Javid pr.25
nurudashdamirli@gmail.com

Summary. *The growing demand for secure and autonomous Internet of Things devices exposes the limitations of traditional microcontroller programming methodologies, requiring an alternative approach. This paper presents the development of a portable programming language based on a virtual machine that is designed to ensure secure program execution on microcontrollers. To address this need, a custom virtual machine with the CHIP-8 architecture has been developed and adapted to the constraints of microcontroller environments. This virtual machine facilitates peripheral control, input/output operations, and inherently secure program execution while integrating multitasking capabilities. The proposed programming language features a simplified syntax similar to C, streamlining development and enhancing code portability. By abstracting the underlying hardware and incorporating mechanisms for process isolation and controlled resource access, this approach significantly strengthens the security of microcontroller-based systems. The proposed portable programming language and virtual machine enable the development of more secure, efficient, and reliable intelligent devices suitable for various applications.*

Keywords: *microcontroller, programming, virtual machine, multitasking, internet of things, security.*

Redaksiyaya daxilolma: 07.09.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.61-70

UOT 656.2.053:656.2.056.5:519.2

DOI 10.30546/678209.2025.03.061

PİYADA KEÇİDİNDƏ PİYADALARIN TƏHLÜKƏLİ DAVRANIŞLARININ RİYAZİ-STATİSTİK ANALİZİ

Məmməd Qurban oğlu Məmmədov

Azərbaycan Texniki Universiteti, Logistika və Nəqliyyat İnstitutu
Bakı şəhəri, Hüseyn Cavid pr. 25

memmed.memmedov@aztu.edu.az

Xülasə. *Piyada təhlükəsizliyi şəhər mühitində yol hərəkətinin təşkili və nəqliyyat planlaşdırmasının əsas komponentlərindən biridir. Xüsusilə mobil telefon və qulaqlıqlardan istifadə kimi diqqət yayındırıcı amillərin artması piyada keçidlərində qəza riskini artıran təhlükəli davranışların yaranmasına səbəb olur. Bu tədqiqatın məqsədi Bakı şəhərində üç fərqli piyada keçidində piyadaların mobil cihaz və qulaqlıq istifadəsinin onların təhlükəli davranışlarına təsirini riyazi-statistik üsullarla təhlil etməkdir. Müşahidələr nəticəsində toplanmış məlumatlar Chi-square testi və vasitəsilə analiz edilmişdir. Nəticələr göstərmişdir ki, mobil cihaz və qulaqlıqdan istifadə edən piyadalar təhlükəsiz keçid davranışına nisbətən daha çox riskli davranış nümayiş etdirirlər. Araşdırmanın nəticələri piyada təhlükəsizliyinin artırılması və diqqət yayındırıcı texnoloji amillərlə bağlı profilaktik tədbirlərin hazırlanması üçün əsaslı elmi baza yaradır.*

Açar sözlər: *piyada təhlükəsizliyi, təhlükəli davranış, mobil telefon, qulaqlıq, müşahidə tədqiqatı, Chi-square testi, reqressiya analizi, Bakı şəhəri.*

Giriş. Şəhər nəqliyyat sistemlərinin dayanıqlığı və təhlükəsizliyi şəhər mühitinin formalaşması prosesində prioritet istiqamətlərdən biri kimi çıxış edir. Yol hərəkətinin bütün iştirakçıları arasında ən həssas qrup olan piyadalar, nəqliyyat axınları ilə birbaşa təmasda olduqları üçün yüksək riskə məruz qalırlar. Xüsusilə piyada keçidlərində baş verən qəza halları, həm sosial, həm də iqtisadi baxımdan ciddi fəsadlar doğurur.

Son illərdə texnologiyanın gündəlik həyatın ayrılmaz tərkib hissəsinə çevrilməsi piyadaların davranış modelinə də birbaşa təsir göstərmişdir. Mobil telefon və qulaqlıqlardan intensiv istifadə, diqqətin yayınmasına, ətraf mühitlə əlaqənin zəifləməsinə və nəticədə təhlükəli davranışların artmasına səbəb olur. Dünya miqyasında aparılan müxtəlif tədqiqatlar göstərir ki, mobil cihazlardan istifadə edən piyadaların diqqət səviyyəsi azalır, situasiyalara reaksiya vermə sürəti zəifləyir və bu, onların yol hərəkəti təhlükəsizliyini ciddi şəkildə risk altına qoyur.

Bakı şəhərində sürətlə artan avtomobil sayı, sıx nəqliyyat axınları və piyadaların intensiv hərəkəti fonunda, piyada keçidlərində təhlükəli davranışların öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan, real müşahidə məlumatlarına əsaslanan riyazi-statistik analiz, təhlükəli davranışların səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsinə və onların qarşısının alınması üçün elmi əsaslı tövsiyələrin hazırlanmasına imkan yaradır.

Hazırkı tədqiqatda, mobil telefon və qulaqlıq istifadəsinin piyadaların piyada keçidlərində nümayiş etdirdiyi davranışlara təsiri araşdırılmış, əldə olunan nəticələr Chi-square testi və reqressiya analizi vasitəsilə qiymətləndirilmişdir. Bu yanaşma piyadaların təhlükəsiz hərəkət şəraitinin yaxşılaşdırılması, həmçinin diqqət yayındırıcı texnoloji amillərlə bağlı profilaktik tədbirlərin işlənib hazırlanması üçün nəzəri və praktiki baxımdan mühüm əhəmiyyət daşıyır.

№ 3/2025 səh.61-70

Bu məqalənin məqsədi Bakı şəhərində seçilmiş piyada keçidlərində mobil telefon və qulaqlıq istifadə edən piyadaların təhlükəli davranışlarını müşahidə edib, bu davranışları statistik üsullarla təhlil etmək və nəticələrə əsaslanaraq təhlükəsizlik üzrə tövsiyələr verməkdir.

Tədqiqatın obyekti və metodologiyası. Bu tədqiqat Bakı şəhərində müxtəlif növ piyada keçidlərində mobil cihaz və qulaqlıqdan istifadə edən piyadaların təhlükəli davranışlarını öyrənmək üçün aparılmış müşahidə tədqiqatıdır. Araşdırma kəmiyyət yönümlü olub, müşahidələr əsasında toplanmış məlumatlar riyazi-statistik üsullarla təhlil olunmuşdur. Bu yanaşma daha öncə oxşar tədqiqatlarda effektiv nəticə vermişdir [11], [9].

Ərazi seçimi zamanı keçid növü, piyada axını, ətraf ərazilərin funksiyası və nəqliyyat sıxlığı nəzərə alınmışdır. Bu yanaşma Hatfield və Murphy (2007) tərəfindən aparılmış araşdırmalarda da istifadə olunmuşdur və təhlükəsiz keçid davranışlarını təhlil etmək üçün uyğundur.

Məlumatlar real şəraitdə müşahidə üsulu ilə toplanmışdır. Piyadaların davranışları standart müşahidə forması əsasında qeyd olunmuşdur. Bu metodologiya Baswail və b. (2019) və Zhang və b. (2019) kimi araşdırmalarda tətbiq edilmiş və yüksək effektivliyə malik olduğu göstərilmişdir. Hər bir piyada yalnız bir dəfə qeydə alınmış və anonim kodlaşdırma istifadə olunmuşdur [4].

Təhlil üçün əsas asılı dəyişən "təhlükəli keçid davranışı" olaraq götürülmüşdür. Müstəqil dəyişənlər sırasında mobil telefon və qulaqlıq istifadəsi, cins, yaş qrupu, keçid tipi və siqnal əməli göstərilmişdir. Bu dəyişən quruluşu Wachnicka və Kulesza (2020) tərəfindən tətbiq olunmuş tədqiqat modelinə əsaslanır.

Araşdırmada davranışlar ilə dəyişənlər arasında əlaqəni qiymətləndirmək üçün Chi-square testi (χ^2) metodundan istifadə olunmuşdur [9].

Chi-square testi iki müstəqil qrupda müəyyən nəticənin payları arasında statistik əhəmiyyətli fərqin olub-olmadığını müəyyənləşdirmək üçün istifadə olunur. Ənənəvi chi-square testi, ən çox Pearson-un chi-square testi adlandırılır, ilk dəfə 1800-cü illərin sonu və 1900-cü illərin əvvəllərində Karl Pearson-un işlərində meydana çıxmışdır. Bu test həm "uyğunluq dərəcəsi testi" kimi məlumatların tək bir ölçü üzrə təsnifləndirildiyi hallarda, həm də kontingensiya cədvəlləri üçün – təsnifatın iki və ya daha çox ölçü üzrə aparıldığı hallarda istifadə olunur. Pearson test statistik göstəricisinin chi-square paylanmasına tabe olduğunu irəli sürmüş, lakin bunun sübutunu təqdim etməmişdir. Səviyyə azadlıq dərəcələrinin düzəldilməsi məsələsi isə Fisher-in 1922 və 1924-cü illərdə dərc olunmuş işlərində həll edilmişdir.

Hal-hazırda chi-square testi kateqorial məlumatların təhlili sahəsində geniş istifadə olunur. Bu test sosial elmlər, biotibbi tədqiqatlar, iqtisadiyyat, təhsil və marketinq kimi sahələrdə dəyişənlər arasındakı əlaqələri qiymətləndirmək və müşahidə edilən məlumatların gözlənilən paylanmalara uyğunluğunu yoxlamaq üçün tətbiq edilir. Bu qədər geniş yayılması, onun empirik tədqiqatlarda və statistik nəticə çıxarışında mühüm rol oynadığını göstərir. Chi-square testi, ehtimal ki, yalnız Student-in t-testindən sonra ən çox istifadə edilən statistik test olmuşdur. Lakin geniş tətbiqinə baxmayaraq, bir çox müəlliflər chi-square testinin bir sıra metodoloji məhdudiyyətlərə malik olduğunu vurğulayırlar. Bu məhdudiyyətlərə aşağı və yuxarı sərhədlərin nəzəri olaraq sübut edilməməsi, məlumatların müstəqil müşahidələrə əsaslandığı fərziyyəsi və s. daxildir [3].

Mövzuya aid ədəbiyyatların analizi. Miroslava Mikusova və başqaları, bu mövzu üzrə Slovakiyada ilk sahə tədqiqatını aparmışdırlar. Tədqiqatın zaman baxımından əhatəliliyi və müşahidə edilən piyadaların ümumi sayı, gələcəkdə digər ölkələrlə müqayisə və ya əlavə araşdırmalar aparmaq üçün əldə edilən nəticələrin etibarlılığını təmin etmişdir.

Araşdırmanın başqa bir maraqlı nəticəsi odur ki, pik saatlarda və ya zəif görünmə şəraitində (qaranlıqda və ya pis havada) belə, piyadaların telefon və qulaqlıqlardan istifadə ilə bağlı davranışı dəyişmir. Bu tendensiya bir çox şəhərlərdə müşahidə olunmuşdur [6].

Joanna Wachnicka və Karol Kulesza adlı iki tədqiqatçı Polşada ilk dəfə bu cür davranışlarla bağlı tədqiqatlar həyata keçirmişdir. Onlar əldə olunan nəticələrin mövcud ədəbiyyatda təqdim olunanlarla müqayisəsini maraqlı olduğunu qeyd edirlər. Tədqiqat zamanı məlum olmuşdur ki, oxşar tədqiqatların aparıldığı digər ölkələrlə müqayisədə Polşada bu problem xeyli dərəcədə daha az

yayılmışdır. Həmçinin onlar qeyd edirlər ki, tədqiqatın məqsədi piyadaların yol keçərkən diqqətli olub-olmadıqları, telefonda icra etdikləri fəaliyyətləri keçiddən əvvəl tamamlayıb-tamamlamadıqları, yol keçməyə başlamazdan əvvəl təhlükəsiz olub-olmadığını yoxlayıb-yoxlamadıqları və keçiddə təhlükəli vəziyyətlərin olub-olmadığını müəyyənləşdirməkdir. Bu cür tədqiqatların nəticələri, piyada keçidlərində bütün istifadəçilər üçün telefon istifadəsinin qadağan edilməsinin əsaslandırılması və bu davranışın polis tərəfindən qırmızı işıqda keçid kimi cərimələnməsi imkanının yaradılması üçün istifadə oluna bilər [9].

Frej Damian və başqaları öz tədqiqatlarında qeyd edirlər ki, 2023-cü ildə Kielce şəhərində beş piyada keçidində aparılmış tədqiqatlar, piyadaların küçəni keçərkən mobil telefon və digər elektron cihazlardan istifadə hallarının əhəmiyyətli dərəcədə artdığını göstərmişdir. Əvvəlki ITS (Intelligent Transportation Systems) tədqiqatları ilə müqayisədə, o zaman cəmi 7% piyada telefon istifadə edirdisə, indiki araşdırmalar bu göstəricinin kəskin şəkildə artdığını üzə çıxarıb. Bəzi keçidlərdə bu faiz 14%-dən 60%-ə qədər dəyişmişdir ki, bu da riskli davranışların 2-9 dəfə artdığını göstərir. Bu meyl, smartfonların və onlarla işləyən müxtəlif cihazların (məsələn, simsiz qulaqlıqların) artan populyarlığı ilə izah olunur.

Tədqiqatın yeni tərəfi isə mobil cihazlardan istifadənin növlərinə görə piyadaların dəqiq təsnifatıdır. Telefonu əlində tutan, telefonda danışan, ekrana baxaraq aktiv istifadə edən, qulaqlıqlardan istifadə edən və elektrik skuterlə keçid edən piyadalar ayrılıqda təhlil edilmişdir. Bu yanaşma müxtəlif istifadələrin təhlükəsizlik üzərindəki təsirlərini daha dərindən anlamağa imkan vermişdir. Nəticələr göstərir ki, telefon istifadə edənlər daha çox hallarda yanıb-sönən yaşıl və ya qırmızı işıqda keçmişlər. Həmçinin, bu cür piyadalar daha yavaş hərəkət etmiş və bu da onların işıq siqnalı dəyişdikdə hələ də keçiddə qalma riskini artırmışdır [2].

Zhou Zhuping və digər tədqiqatçılar qeyd edirlər ki, araşdırma dörd nizamlanan yolayrıcında mobil telefon istifadəsinin xüsusiyyətlərini təhlil edir. Məlumatlar video çəkiliş və əl ilə sayma üsullarının kombinasiyası ilə toplanmışdır. Tədqiqatda əsasən bir çox amillər araşdırılmışdır: piyadaların keçid davranışı, piyada axını, gözləmə müddəti, risk səviyyəsi və s. Əməliyyat tədqiqi (OR) və digər statistik metodlardan istifadə olunaraq müşahidə olunan məlumatlar təhlil edilmişdir. Tövsiyə olunan həll yolları gənclər arasında təhlükəsizlik şüurunun artırılması, onların mobil telefondan asılılığını azaltmağa təşviq olunması və hökumət piyadaların yolu keçərkən telefon istifadə etməsini qadağan edən qaydalar qəbul etməsidir. Xüsusilə gənclərə mobil telefondan istifadə etməyin risklərini anlatmaq üçün maarifləndirmə tədbirləri keçirilməlidir. Uzun gözləmə müddəti mobil telefon istifadəsini artırdığı üçün, işıqforların vaxtları daha səmərəli tənzimlənməlidir. Yol hərəkətinə nəzarət gücləndirilməli, telefonu istifadə edən piyadalar cərimələnməlidirlər [11].

Lichenstein Richard və digərləri araşdırmışdır ki, mobil telefonlardan və MP3 pleyerlərdən istifadə getdikcə artır. Sürücülərin bu cihazlardan istifadə etməsinin yaratdığı risklər yaxşı sənədləşdirilsə də, qulaqlıq istifadə ilə piyada xəsarətləri arasındakı əlaqə haqqında kifayət qədər məlumat yoxdur. Piyada kimi qulaqlıqdan istifadə etməyin təhlükəsi iki əsas amillə izah oluna bilər:

1. Xarici səslərin eşidilməsinin qarşısının alınması (ətraf mühitdən izolasiya) – yəni qulaqlıqlar səbəbindən yaxınlaşan nəqliyyat vasitələrini və digər təhlükələri eşitməmək;

2. Diqqət yayındırılması - yəni piyada bütün diqqətini mobil cihazına yönəldərək ətrafı müşahidə etmir [5].

O'Dell A. və digər tədqiqatçılar piyadaların diqqət yayındırıcı davranışlarını və bu davranışların piyada keçidlərində təhlükəsizlik üzərindəki təsirini araşdırıb. Tədqiqat həm universitet yaxınlığında, həm də şəhər ərazisində aparılıb. Tədqiqatda diqqəti yayındıran fərqli amillərin təsiri də araşdırılıb. Başqa biri ilə söhbət etmək ən mənfi təsir göstərən faktor olub. Bu zaman piyadalar daha yavaş hərəkət edir və ətrafda baş verənlərə daha az diqqət yetirirlər. Qulaqlıqlardan istifadə isə ən az təsir göstərən yayındırıcı faktor olub. Ola bilər ki, bu cür piyadalar eşitmə imkanları azaldığı üçün ətrafı vizual olaraq daha diqqətlə müşahidə edirlər. Araşdırma həm də fərqli keçid növlərində davranış fərqlərinə baxıb. Nəzarətsiz (svetofor və yol nişanı olmayan) piyada keçidlərində diqqətli və diqqətsiz piyadalar arasında təhlükəsizlik davranışları baxımından fərq daha az olub. Bu da belə keçidlərdə

piyadaların daha diqqətli olmağa çalışdıqlarını göstərə bilər, çünki sürücülərin burada yol vermə öhdəliyi yoxdur [8].

Amal Baswail və digər 3 tədqiqatçı öz araşdırmalarında yeniyetmələrin mobil texnologiyadan böyüklərə nisbətən daha çox istifadə etdiklərini qeyd ediblər. Məsələn, bu araşdırmada yeniyetmələrin 31.37%-i yolu keçərkən cihazdan istifadə edirdi. Əvvəlki araşdırmalarda bu göstərici ümumi piyadalar üçün 17% olub. Başqa bir tədqiqatda piyada keçidlərində "qırmızı" işıq yandığı halda, piyadaların 42%-i qulaqlıq taxır, telefonda danışır və ya telefona baxırdı. Bu araşdırmada isə bu rəqəm 35.87% olub. Maraqlısı budur ki, bir çox hallarda piyadalar "yaşıl" işıqda yolu keçiblər və bu zaman telefon istifadə etmə faktı daha çox qeydə alınıb, halbuki "qırmızı" işıqda keçənlərin çoxu telefon istifadə etməyib. Bunun səbəbi tam məlum deyil və əlavə araşdırmalar tələb olunur. Ola bilər ki, bəzi piyadalar işığın dəyişməsini gözləməyə səbr etmirlər və əllərində telefon olduqda bu gözləmə dövrünü daha asan keçirirlər. Ümumilikdə nəticə olaraq, yeniyetmələr yolu keçərkən tez-tez mobil telefon və musiqi pleyerindən istifadə edir və bu, onların ətrafa baxma davranışına mənfi təsir göstərir [1].

Mwakalonge Judith və başqaları diqqəti yayındırılmış piyadaların təhlükəsizlik problemləri ilə bağlı mövcud bilikləri və təcrübələri araşdırıblar. Diqqəti yayındırılmış piyadaların yolu keçərkən ölüm və xəsarət alması səbəbindən bu məsələ artıq geniş yayılmış problemdir. Təhlil göstərir ki, bəzi nəqliyyat qurumları və təşkilatlar bu problemə qarşı siyasətlər və proqramlar hazırlayıb və tətbiq ediblər. Bu siyasətlər arasında cərimələrin tətbiqi, ictimai maarifləndirmə tədbirləri və təhlükəsiz piyadalar üçün qaydaların təşviqi vardır. Eyni zamanda, diqqəti yayındırılmış piyadaların təhlükəsizlikdə yaratdığı riskləri daha yaxşı anlamaq və qarşısını almaq üçün qəza məlumatlarının daha geniş toplanmasına ehtiyac duyulur. Nəticədə, diqqəti yayındırılmış piyadaların təhlükəsi böyükdür və bunun qarşısını almaq üçün daha ciddi tədbirlər görülməlidir [7].

Piyada keçidlərində təhlükəli davranışlar dedikdə mobil telefonda danışmaq, mesaj yazmaq, qulaqlıq taxaraq ətrafda olan səsləri və siqnalları eşitməmək, siqnal işıqlarına məhəl qoymamaq və ya diqqətsiz şəkildə keçid etmək kimi hallar nəzərdə tutulur. Bu davranışlar piyadaların qəza riskini artırır və şəhər mühitində piyadaların təhlükəsizliyinə birbaşa təhdid yaradır [6].

Müxtəlif ölkələrdə aparılmış tədqiqatlar bu məsələni statistik metodlarla qiymətləndirmiş və mobil cihaz istifadəsinin yol keçidi zamanı piyadaların davranışlarını əhəmiyyətli dərəcədə dəyişdirdiyini ortaya qoymuşdur [11]. Məsələn, Çində aparılmış müşahidəyə əsaslanan bir tədqiqatda telefon istifadə edən piyadaların siqnal işıqlarına əməl etmə ehtimalının əhəmiyyətli dərəcədə azaldığı qeyd olunmuşdur [10].

Piyada keçidində piyadaların hərəkətinin monitorinqi. Bakı şəhəri, Azadlıq prospekti "28 May" metrostansiyasının yaxınlığında yerləşən "28 Mall" qarşısındakı nizamlanan piyada keçidində piyadaların təhlükəli davranışları ilə bağlı müşahidə aparılmışdır. Müşahidə zamanı 90 piyadanın təhlükəli davranışları ilə bağlı qeydlər aparılmışdır. Əsasən piyadaların mobil telefon, qulaqlıq istifadəsi, işıq siqnallarına əməl edib-etməmə və piyada keçidindən keçərkən ətrafı müşahidə etməsinə diqqət verilmişdir. Aparılan müşahidə zamanı piyadaların əksəriyyətinin telefona baxaraq piyada keçidindən istifadə etdiyi məlum olmuşdur.



Qrafik 1. Mobil telefon istifadəsinə görə piyadaların cinsiyyət bölgüsü (%)

Qrafikdən görünür ki, qadın piyadalar arasında mobil telefon istifadəsi ümumilikdə daha yüksəkdir, kişilər isə daha çox telefonla söhbət etməyə meyllidirlər. Bu nəticələr mobil telefon istifadəsinin cinsiyyətə görə davranış nümunələrində fərqləndiyini və bu fərqlərin yol hərəkəti təhlükəsizliyi baxımından nəzərə alınmasının vacib olduğunu göstərir. Kişilər arasında mobil telefonla danışmaq daha geniş yayılıb (35,90%), bu isə qadınlarda cəmi 21,57%-dir. Qadınlar isə daha çox ekrana baxmaq formasında telefon istifadə edirlər (49,02%) ki, bu göstərici kişilərlə müqayisədə (30,77%) əhəmiyyətli dərəcədə yüksəkdir. Telefonu sadəcə əlində tutmaq davranışı da qadınlarda kişilərlə müqayisədə iki dəfəyə yaxın daha çox müşahidə olunur (15,69% və 7,69%). Mobil telefondan ümumiyyətlə istifadə etməyən piyadalar arasında da fərq var. Belə ki, kişilərdə bu göstərici 25,64% olduğu halda qadınlarda cəmi 13,73%-dir.



Qrafik 2. Yaş qruplarına görə piyadaların mobil telefon istifadəsi formaları (%)

Yuxarıdakı qrafikdə 19–25, 26–40 və 41-dən yuxarı yaş qruplarına daxil olan piyadaların yolu keçərkən mobil telefonlardan istifadə formaları faiz nisbətində təqdim olunmuşdur. Məlumatlardan

aydın olur ki, 19–25 yaş aralığında olan piyadalar arasında mobil telefonun əlində olması (63.64%) və ekrana baxmaq (40.54%) kimi davranışlar daha geniş yayılmışdır. Bu yaş qrupu digər yaş qrupları ilə müqayisədə ən yüksək aktiv istifadəçi kimi fərqlənir. 26–40 yaşlı piyadalar arasında isə danışmaq 40.00% və ekrana baxmaq 51.35% təşkil edir. Bu qrupa daxil olan şəxslər əsasən mobil telefon istifadə etmir (64.71%) və digər qruplarla müqayisədə daha ehtiyatlı davranış nümayiş etdirirlər. Bu nəticələr göstərir ki, mobil telefon istifadəsi ilə təhlükəli keçid davranışı arasında yaş faktorunun mühüm rolu vardır. Xüsusilə gənc piyadalar texnoloji cihazlardan daha çox istifadə etdiyindən onların diqqətinin yayınma riski daha yüksək ola bilər. Bu müşahidələr, piyadaların təhlükəsizliyi üzrə maarifləndirmə tədbirlərində hədəf qrupların düzgün müəyyənləşdirilməsinin vacibliyini vurğulayır.

Aparılmış müşahidələrdən alınan məlumatlar təhlil olunaraq SPSS proqramında emal olunmuşdur. Burada, əsasən telefon istifadə edənlərin sayı (bəli, xeyr) və təhlükəli keçid edənlərin sayı qeyd olunaraq proqrama daxil edilmişdir. Proqramda alınan nəticələr aşağıdakı cədvəllərdə göstərilmişdir.

Cədvəl 1.

Telefon istifadəsi və təhlükəli keçid davranışı dəyişənləri üzrə müşahidələrin ümumi sayı (Case Processing Summary, SPSS)

Məlumatlara ümumi baxış						
Telefon istifadəsi və təhlükəli keçid davranışı	Müşahidələr					
	Keçərli (tam) məlumat		İtmiş məlumat		Cəmi	
	say	faiz	say	faiz	say	faiz
	90	100,0%	0	0,0%	90	100,0%

Təhlil üçün daxil edilmiş məlumatların keyfiyyətini qiymətləndirmək məqsədilə “Məlumatlara ümumi baxış” cədvəlindən istifadə olunmuşdur (Cədvəl 1). Cədvələ əsasən, “telefon istifadəsi” ilə “təhlükəli keçid davranışı” dəyişənləri üzrə ümumilikdə 90 müşahidə qeydə alınmışdır. Məlumatların 100%-i keçərli olmuş və itmiş məlumat müşahidə olunmamışdır. Bu isə onu göstərir ki, analiz üçün istifadə edilən məlumatlar tam və etibarlıdır.

Cədvəl 2.

Telefon istifadəsi ilə təhlükəli keçid davranışı arasındakı əlaqə cədvəli

Telefon istifadəsi ilə təhlükəli keçid davranışı arasında əlaqə					
			Təhlükəli keçid davranışı		Cəm
			Təhlükəli	Təhlükəsiz	
Telefon istifadəsi	Bəli	Müşahidə olunan	48	16	64
		Gözlənilən	44,1	19,9	64,0
	Xeyr	Müşahidə olunan	14	12	26
		Gözlənilən	17,9	8,1	26,0
Cəm		Müşahidə olunan	62	28	90
		Gözlənilən	62,0	28,0	90,0

Telefon istifadəsi ilə təhlükəli keçid davranışı arasındakı əlaqə yuxarıdakı cədvəl vasitəsilə təhlil edilmişdir. Cədvəldə piyadaların telefon istifadə edib-etməməsi və onların keçid zamanı təhlükəli və ya təhlükəsiz davranış sərgiləməsi təsvir olunmuşdur. Gözlənilən dəyərlər (expected count) nəzəri

olaraq hər bir xanada neçə iştirakçının olması lazım gəldiyini göstərir. Məsələn, telefon istifadə edənlər arasında təhlükəli keçid davranışının gözlənilən sayı 44,1 olmuşdur, lakin faktiki say 48-dir. Bu isə faktiki və nəzəri göstəricilər arasında fərqin olduğunu göstərir. Məlumatlardan göründüyü kimi, telefon istifadə edən şəxslərin böyük əksəriyyəti (48 nəfər) təhlükəli keçid davranışı göstərmişdir, bu da ümumi istifadə edənlərin 75%-ni təşkil edir. Telefon istifadə etməyən iştirakçılarda isə təhlükəli davranış nisbəti daha aşağıdır – 14 nəfər, yəni təxminən 54%. Bu nəticələr telefon istifadəsinin təhlükəli keçid davranışı ilə əlaqəli ola biləcəyini göstərir. Bu fərqin statistik olaraq əhəmiyyətli olub-olmaması üçün χ^2 (chi-square) testi tətbiq edilmişdir.

Cədvəl 3.

Chi-Square testinin nəticələri (SPSS)

Chi-Square Tests					
	Dəyər	Azadlıq dərəcəsi (df)	Əhəmiyyətlilik səviyyəsi	Dəqiq əhəmiyyətlilik səviyyəsi (ikitərəfli)	Dəqiq əhəmiyyətlilik səviyyəsi (birtərəfli)
Pearson Chi-Square (Pearsonun χ^2 testi)	3,860[a]	1	0,049		
Continuity Correction[b] (Ardıcıl düzəliş)	2,936	1	0,087		
Likelihood Ratio (Əlaqə nisbəti)	3,729	1	0,053		
Fisher's Exact Test (Fisher-in dəqiq testi)				0,077	0,045
Linear-by-Linear Association (Xətti əlaqənin testi)	3,817	1	0,051		
N of Valid Cases (Etibarlı müşahidələrin sayı)	90				
a. Heç bir xana (0.0%) üçün gözlənilən dəyər 5-dən az deyil. Ən aşağı gözlənilən dəyər 8.09-dur, yəni nəticə etibarlıdır.					
b. Yalnız 2x2 cədvəl üçün hesablanıb.					

Yuxarıdakı cədvəl iki dəyişən (telefon istifadəsi ilə piyadanın təhlükəli davranışı) arasında statistik əlaqənin olub-olmadığını yoxlamaq üçün aparılmış chi-square analizinin nəticələrini təqdim edir. Bu test ən əsas və geniş istifadə olunan chi-square testidir. Bu halda, p-nin qiyməti 0.049 < 0.05 olduğu üçün nəticə statistik olaraq əhəmiyyətlidir. Bu o deməkdir ki, dəyişənlər arasında (məsələn, telefon istifadəsi ilə keçid təhlükəsizliyi) əlaqə mövcuddur və bu əlaqə təsadüfi deyil.

Nəticələrə əsasən, Pearson Chi-Square testi üzrə p-nin qiyməti (0.049) < 0.05 olduğu üçün telefon istifadəsi ilə təhlükəli keçid davranışı arasında statistik cəhətdən əhəmiyyətli əlaqə mövcuddur. Bu da göstərir ki, telefon istifadə edən piyadalar daha çox təhlükəli davranış göstərir.

№ 3/2025 səh.61-70

Nəticə. Aparılmış statistik təhlil nəticəsində piyadaların mobil telefon istifadəsi ilə onların piyada keçidindən istifadəsi zamanı sərgilədiyi davranışlar arasında statistik cəhətdən əhəmiyyətli bir əlaqənin mövcudluğu müəyyən edilmişdir. Pearson Chi-Square testinə əsasən ($\chi^2 = 3.860$, df = 1, $p = 0.049 < 0.05$), mobil telefon istifadə edən piyadaların təhlükəli keçid davranışına meyilli olduqları müşahidə edilmişdir. Bu nəticə onu göstərir ki, mobil telefon istifadəsi piyadaların diqqət səviyyəsini azaldaraq, yol hərəkəti zamanı qərarvermə prosesinə mənfi təsir göstərə bilər.

Bundan əlavə, alternativ test metodlarından biri olan Likelihood Ratio testi ($\chi^2 = 3.729$, $p = 0.053$) və Linear-by-Linear Association ($\chi^2 = 3.817$, $p = 0.051$) testlərinin nəticələri də sərhəddə əhəmiyyətli (marginal significant) səviyyədə olmuşdur. Halbuki Continuity Correction (Yates düzəlişi) testi üzrə p-qiyməti 0.087 və Fisher's Exact Test (ikitərəfli) üçün $p = 0.077$ olmaqla, statistik əhəmiyyət həddini keçməmişdir. Lakin ikitərəfli Fisher testi üzrə $p = 0.045$ qiyməti əhəmiyyətli nəticə verərək əsas testlə paralel nəticəni təsdiqləmişdir.

Analiz zamanı cədvəl 2-də heç bir xanada gözlənilən dəyər 5-dən az olmamış və bu da Chi-square testinin tətbiqi üçün statistik şərtlərin qorunduğunu göstərmişdir. Etibarlı müşahidələrin ümumi sayı 90 olmuşdur ki, bu da analiz üçün yetərli nümunə ölçüsü hesab olunur. Beləliklə, əldə edilmiş nəticələr piyadaların mobil telefon istifadəsinin onların keçid zamanı təhlükəli davranış ehtimalını artırdığını göstərir. Bu fakt, piyada hərəkətinin təhlükəsizliyi üzrə tədbirlərin planlaşdırılmasında və maarifləndirmə işlərinin hazırlanmasında nəzərə alınmalıdır.

ƏDƏBİYYAT

1. Baswail, A., Allinson, L., Goddard, P., & Pfeffer, K. (2019). Adolescents' Mobile Phone Use While Crossing the Road. Safety, 5(2), 27. https://doi.org/10.3390/safety5020027
2. Frej, Damian & Poliak, Miloš & Krzemień, Piotr. (2025). Increasing Danger at Pedestrian Crossings: The Impact of Mobile Phones on Pedestrian Safety. The Archives of Automotive Engineering - Archiwum Motoryzacji, 108, 59-84. https://doi.org/10.14669/AM/200411
3. Gurvich, Vladimir & Naumova, Mariya. (2025). Critical issues with the Pearson's chi-square test. https://doi.org/10.48550/arXiv.2505.06318
4. Hatfield, J., & Murphy, S. (2007). The effects of mobile phone use on pedestrian crossing behaviour at signalized and unsignalized intersections. Accident Analysis and Prevention, 39(1), 197–205. https://doi.org/10.1016/j.aap.2006.07.001
5. Lichenstein, Richard & Smith, Daniel & Ambrose, Jordan & Moody, Laurel. (2012). Headphone use and pedestrian injury and death in the United States: 2004-2011. Injury Prevention, 18, 287-290. https://doi.org/10.1136/injuryprev-2011-040161
6. Mikušová, Miroslava & Wachnicka, Joanna & Zukowska, Joanna. (2021). Research on the Use of Mobile Devices and Headphones on Pedestrian Crossings—Pilot Case Study from Slovakia. Safety, 7, 17. https://doi.org/10.3390/safety7010017
7. Mwakalonge, Judith & Siuhi, Saidi & White, Jamario. (2015). Distracted walking: Examining the extent to pedestrian safety problems. Journal of Traffic and Transportation Engineering (English Edition), 2. https://doi.org/10.1016/j.jtte.2015.08.004
8. O'Dell, A., Morris, A., Filtness, A., & Barnes, J. (2023). The Impact of Pedestrian Distraction on Safety Behaviours at Controlled and Uncontrolled Crossings. Future Transportation, 3(4), 1195-1208. https://doi.org/10.3390/futuretransp3040065
9. Wachnicka, Joanna & Kulesza, Karol. (2020). Does the Use of Cell Phones and Headphones at the Signalised Pedestrian Crossings Increase the Risk of Accident?. The Baltic Journal of Road and Bridge Engineering, 15, 96-108. https://doi.org/10.7250/bjrbe.2020-15.496
10. Zhang, H., Zhang, C., Chen, F., & Wei, Y. (2019). Effects of mobile phone use on pedestrian crossing behavior and safety at unsignalized intersections. Canadian Journal of Civil Engineering, 46(5), 393–400. https://doi.org/10.1139/cjce-2017-0649

11. Zhou, Zhuping & Liu, Sixian & Xu, Wenxin & Pu, Ziyuan & Zhang, Shuichao & Zhou, Yang. (2019). Impacts of mobile phone distractions on pedestrian crossing behavior at signalized intersections: An observational study in China. Advances in Mechanical Engineering, 11. https://doi.org/10.1177/1687814019841838

УДК: 656.2.053:656.2.056.5:519.2

АНАЛИЗ ОПАСНОГО ПОВЕДЕНИЯ ПЕШЕХОДОВ НА ПЕШЕХОДНЫХ ПЕРЕХОДАХ С ИСПОЛЬЗОВАНИЕМ МАТЕМАТИКО-СТАТИСТИЧЕСКИХ МЕТОДОВ

Мамед Гурбан оглу Мамедов
Азербайджанский технический университет, Институт логистики и транспорта
г. Баку, пр. Гусейна Джавида, 25
memmed.memmedov@aztu.edu.az

Резюме. *Безопасность пешеходов является одним из ключевых компонентов организации дорожного движения и транспортного планирования в городской среде. Особенно актуальным становится рост отвлекающих факторов, таких как использование мобильных телефонов и наушников, что приводит к увеличению риска дорожно-транспортных происшествий и формированию опасных моделей поведения пешеходов на переходах. Цель данного исследования заключается в математико-статистическом анализе влияния использования мобильных устройств и наушников на рискованное поведение пешеходов на трех различных пешеходных переходах в городе Баку. Собранные в ходе наблюдений данные были проанализированы с применением критерия χ^2 (хи-квадрат) и методов регрессионного анализа. Полученные результаты показали, что пешеходы, использующие мобильные устройства и наушники, значительно чаще демонстрируют рискованное поведение по сравнению с безопасными моделями перехода. Результаты исследования создают научную основу для разработки профилактических мер, направленных на повышение безопасности пешеходов и минимизацию негативного влияния отвлекающих технологических факторов.*

Ключевые слова: *безопасность пешеходов, опасное поведение, мобильный телефон, наушники, наблюдательное исследование, критерий χ^2, регрессионный анализ, город Баку.*

UOT: 656.2.053:656.2.056.5:519.2

MATHEMATICAL AND STATISTICAL ANALYSIS OF PEDESTRIANS' RISKY BEHAVIOR AT CROSSWALKS

Mammad Gurban oglu Mammadov
Azerbaijan Technical University, Institute of Logistics and Transport
Baku city, Huseyn Javid ave. 25
memmed.memmedov@aztu.edu.az

Summary. *Pedestrian safety is a fundamental component of traffic management and transportation planning in urban environments. The increasing prevalence of distracting factors, particularly the use of mobile phones and headphones, contributes to higher accident risks and the emergence of hazardous pedestrian behaviors at crosswalks. The aim of this study is to statistically and mathematically examine the impact of mobile device and headphone usage on pedestrians' risky behaviors at three different crosswalks in Baku. Data collected through direct observation were analyzed using the Chi-square test and regression analysis. The findings revealed that pedestrians engaged with mobile devices and headphones are significantly more likely to exhibit risky behaviors compared to those demonstrating safe crossing practices. The outcomes of this research provide a*

robust scientific basis for the development of preventive measures aimed at enhancing pedestrian safety and mitigating the adverse effects of technological distractions.

Keywords: *pedestrian safety, risky behavior, mobile phone, headphones, observational study, Chi-square test, regression analysis, Baku*

Redaksiyaya daxilolma: 07.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.71-78

UOT 62 (621)
DOI 10.30546/678209.2025.03.071

ŞAMAXI-QOBUSTAN ÇÖKƏKLİYİNDƏ NEFT-QAZ SİSTEMLƏRİNİN FORMALAŞMASINDA GEODİNAMİK VƏ GEOKİMYƏVİ FAKTORLARIN ROLU

İsmət Novruz Məmmədov

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Bakı şəhəri, Azərbaycan

ismatmammadov1@gmail.com

Xülasə. *Şamaxı–Qobustan neftli-qazlı sahəsi — Azərbaycanda, Böyük Qafqazın cənub-şərq batımında neftli-qazlı hövzədir. Sahədə çoxlu palçıq vulkanları yerləşir. Azərbaycanın mühüm neft-qaz yataqlarından biri olan Şamaxı-Qobustan çökəkliyi geoloji quruluşuna və geodinamikanın təsirinə görə xüsusi əhəmiyyət kəsb edir.*

Geoloji quruluşunda Orta Yuradan (Mezozoy) Üst Pliosenədək (Kaynozoy) olan çöküntü kompleksi öyrənilmişdir. Sahə eyniadlı sinklinoriumu əhatə edir. Beş böyük tektonik zonaya ayrılır: Şimal, Mərkəz, Cənub-Qərb, Cənub-Şərq və ya Ceyrankeçməz depressiyası və Ələt-Ləngəbiz. Bu zonaların, xüsusilə Şimal tektonik zonasının quruluşu olduqca mürəkkəbdir. Şimal zonası böyük ölçülü uzununa, eninə qırılmalarla, üstəgəlmələrlə mürəkkəbləşmişdir. (10)

Açar sözlər: *Şamaxı-Qobustan çökəkliyi, neft-qaz sistemi, geodinamika, geokimya, tektonika, üzvi maddə, çökəklik.*

Giriş. Şamaxı-Qobustan çökəkliyi Azərbaycanın mərkəzi hissəsində, Böyük Qafqazın cənub yamacında yerləşən geoloji-fiziki bölgələrdən biridir. Bu çökəklik Qobustan və Şamaxı rayonlarını əhatə edir və həm geoloji, həm də geomorfoloji baxımdan ölkənin mühüm ərazilərindən sayılır. Çökəklik qərbdən Acınohur ön dağlığı, şimaldan Böyük Qafqaz silsiləsinin cənub yamacları, cənubdan isə Ceyrancöl və Abşeron yarımadası ilə sərhədlənir. Bu regionda neft-qaz sistemlərinin formalaşmasında geoloji və geokimyəvi proseslərin qarşılıqlı təsiri böyük rol oynayır. Struktur-mühit xüsusiyyətləri, termal inkişaf, çökmə sürətləri və üzvi maddənin geokimyəvi tərkibi çökəkliyin hidrokarbon potensialını müəyyənləşdirir.

Tədqiqatın obyekti. Obyekti-Şamaxı-Qobustan çökəkliyində yerləşən neft-qaz yataqlarının geoloji-struktur quruluşu, çökmə kompleksləri, geodinamik inkişaf prosesi və geokimyəvi şəraitidir.

Nəticə və müzakirələr. Şamaxı–Qobustan neftli-qazlı sahəsinin geoloji quruluşunda Orta Yuradan (Mezozoy) Üst Pliosenədək (Kaynozoy) olan çöküntü kompleksi öyrənilmişdir. Sahə eyniadlı sinklinoriumu əhatə edir. Beş böyük tektonik zonaya ayrılır: Şimal, Mərkəz, Cənub-Qərb, Cənub-Şərq və ya Ceyrankeçməz depressiyası və Ələt–Ləngəbiz. Bu zonaların, xüsusilə Şimal tektonik zonasının quruluşu olduqca mürəkkəbdir. Şimal zonası böyük ölçülü uzununa, eninə qırılmalarla, üstəgəlmələrlə mürəkkəbləşmişdir. (9)

Ələt–Ləngəbiz tektonik zonasında uzununa istiqamətdə 100 kilometr məsafədən izlənən böyük qırılma müşahidə edilmişdir. Bu qırılma nəticəsində Üst Pliosen çöküntülərinin Orta Pliosen və Miosen çöküntüləri ilə kontaktı yaranmışdır. Neft-qazlılığı güman edilən sahələrin çox olmasına baxmayaraq tektonik quruluşun mürəkkəbliyindən yalnız iki yataq aşkar edilmişdir: Umbakı neft yatağı və Duvannı qaz-kondensat yatağı. Sahənin neft-qazlılıq perspektivi Üçüncü sistem və Təbaşir çöküntüləri ilə əlaqədardır. (9)



Şəkil 1. «Şamaxı-Qobustan» neft sahəsi. (11)



Şəkil 2. Şamaxı-Qobustan neftli-qazlı rayonu. İzomorf xəritələr. (5)

Bu çökəklik dəniz səviyyəsindən təxminən 300–700 metr yüksəklikdə yerləşir. Relyef əsasən dalğalı düzənlik və alçaq dağlıq formaları ilə xarakterizə olunur. Ərazidə çoxsaylı dərələr, maili yamaclar və quru çay yataqları vardır. Sıx parçalanmışlıq səbəbindən burada erozion-akkumulyativ proseslər geniş yayılmışdır.

Şamaxı-Qobustan çökəkliyi Neogen və Antropogen dövrlərinə aid çökmə süxurlardan ibarətdir. Ərazidə gil, qumdaşı, mergel, əhəngdaşı və tuf layları geniş yayılmışdır. Çökəklikdə yeraltı neft və qaz yataqları da vardır. Qobustan ərazisi xüsusilə neftlə zəngindir və burada müxtəlif yaşıllıqda təbii asfalt və bitum təzahürləri müşahidə olunur. Bununla yanaşı, bölgədə gil vulkanları da geniş yayılıb. Gil vulkanları həm geoloji, həm də turistik baxımdan əhəmiyyətlidir. Dünyada ən çox palçıq vulkanı olan regionlardan biri məhz bu ərazidir.

Orta Yuranın Bayos və Bat mərtəbələri qalın (700-800 m) bərk qumdaşı, alevrolit, əhəngdaşı, gil və gilli şist laylarının növbələşməsindən ibarətdir. Orta Yuranın Aalen, Bayos və Bat çöküntüləri ancaq qonşu Xəzəryanı-Quba neftli-qazlı rayonunun Afurca, Keşçay, Bəyimdağ-Təkçay və b. sahələrində qazılmış quyularda açılmışdır. Kəsilişdə qalın (50-60m) qumlu horizontların iştirak etdiyi

və onların bu və ya digər dərəcədə neftli və qazlı olduğu müəyyən edilmişdir. Orta Yuranın açılmış qalınlığı göstərilən qonşu sahələrdə 1000-1700 m-dən çoxdur. Ümumiyyətlə, Orta Yuranın qalınlığı böyük diapazonda (1500-3500 m) dəyişir. (1)

Güman edildiyinə görə, Şamaxı-Qobustan çökəkliyində Təbaşir sisteminin kəsilişində bütün mərtəbələrin çöküntüləri iştirak edir. Çöküntülərin ümumi qalınlığı 5,0 min metrə çatır.Onun 2-2,5 min metri Alt Təbaşirə aiddir. (1)



Şəkil 10. Şamaxı-Qobustan NQR. (A) Qızmeydan-Xilmili-Tuva-Cəngi-B.Boyanata və (B) Ləngəbiz-Məlikçobanlı-Təklə-Əngixaran-Qarayazı istiqamətlərində, C) Şeytanud-Şıxzəyirli, D) Qızmeydanı sahələrində geoloji profillər.

Şəkil 3. Şamaxı-Qobustan neft-qaz regionu. (1)

Bu çöküntülər Şimali Qobustanda Santon, bəzən isə Konyak mərtəbələrinə qədər yer sərhinə çıxırlar. Şimali və Mərkəzi Qobustanın bəzi sahələrində onlar qazılmış struktur-axtarış quyuları ilə açılmışlar (Şəkil 3). Cənubi Qobustanda bu çöküntülərin yatım dərinlikləri 6-7 km-dən artıqdır və onlar burada quyularla açılmamışlar. (1)

Şamaxı-Qobustan çökəkliyində yarımsəhra və quru çöl iqlimi hökm sürür. Yay ayları isti və quraq, qışlar isə mülayim və az yağıntılı keçir. Orta illik temperatur 13–15°C arasında dəyişir. Yağıntının miqdarı ildə 250–400 mm-dir ki, bu da əsasən payız və yaz aylarına təsadüf edir.

Ərazi əsasən bozqır və yarımsəhra tipli bitki örtüyü ilə örtülüdür. Burada şoran torpaqlar daha geniş yayılıb. Torpaq örtüyü əsasən boz və açıq-boz torpaqlardan ibarətdir.

Şamaxı-Qobustan çökəkliyi Azərbaycanın cənub-şərq hissəsində yerləşən, geoloji və neft-qaz baxımından olduqca əhəmiyyətli bir ərazidir. Bu çökəklik Kiçik Qafqazın cənub-şərq kənarında yerləşərək, Qobustan və Şamaxı rayonlarını əhatə edir. Çökəkliyin geoloji quruluşu və geodinamik şəraiti burada neft-qaz sistemlərinin formalaşması üçün əlverişli şərtlər yaratmışdır.

Çökəkliyin geodinamik inkişafı Neogen dövründə intensiv aktivliklə xarakterizə olunmuşdur. Alp tektonik fazasının təsiri nəticəsində yaranmış sıxılma zonaları, qırılma sistemləri və örtülü strukturlar neft və qazın miqrasiyası və toplanması üçün əlverişli şərait yaratmışdır. Qafqazın qabarma-tipli tektonik rejimi çökəkliyə istiqamətli kompressiya və tektonik yüksəlmələrə səbəb olmuşdur ki, bu da süxurların deformasiyasına və neft yataqlarının tələyə düşməsinə imkan yaratmışdır.

№ 3/2025 səh.71-78

Çökəklikdə paleotemperaturun dəyişməsi orqanik maddənin piqenizasiya və katagenez mərhələlərini keçməsi üçün əlverişli olub. Termal gradientin yüksək olması (xüsusilə antiklinal zonalarda) üzvi maddələrin neft və qaza çevrilməsini sürətləndirmişdir.

Şamaxı-Qobustan çökəkliyində neftin mənbə süxurları əsasən Paleogen və Neogen yaşlı gil süxurları ilə təmsil olunur. Bu süxurların tərkibindəki orqanik maddə, xüsusilə II və III tip kerogen, neft və qaz generasiyası üçün potensiala malikdir. Piroliz və izotop analizləri göstərir ki, termal yüksəklik səviyyəsi orta və yüksək fazalar arasında dəyişir. Süxurların mineraloji tərkibi, məsafəlik dərəcəsi və geokimyəvi parametrləri neftin miqrasiyasına və toplanmasına bilavasitə təsir göstərir.

Bu regionda tam formalaşmış neft-qaz sistemlərinə rast gəlinir. Bunlara mənbə süxurlar (neft generasiya edən), rezervuar süxurlar (qumdaşları və karbonatlı laylar), örtük süxurlar (gil süxurlar), miqrasiya yolları (fay və çat sistemləri) və tələlər (strukturlu və litoloji) daxildir. Bu elementlərin qarşılıqlı fəaliyyəti nəticəsində çökəklikdə kommersiya əhəmiyyətli yataqlar formalaşmışdır. Aşağıda bu proseslərin əsas aspektlərini geniş şəkildə izahını verək:

Geoloji quruluş və tektonika:

Şamaxı-Qobustan çökəkliyi Kür çökəkliyinin qərb hissəsində yerləşir. Burada Paleogen və Neogen yaşlı çöküntü süxurları üstünlük təşkil edir. Çökəklik müxtəlif yaşı olan layların sıralandığı mürəkkəb geoloji quruluşa malikdir, buraya gil, qumdaşı, mergel və karbonatlı süxurlar daxildir.

Stratigrafik kəsim:

Ərazidə əsasən Mezozoy və Kaynozoy erasına aid olan süxurlar müşahidə olunur. Oligosen-Miosen dövrünə aid çöküntülər neft-qaz kollektorlarının formalaşmasında mühüm rol oynayır.

Tektonik quruluş:

Ərazi çoxsaylı qırılmalar və fay zonaları ilə xarakterizə olunur. Bu tektonik elementlər neft və qazın miqrasiyası və toplanması üçün yollar yaradır.

Tektonik inkişaf mərhələləri:

Mezozoy dövrü: Regionda dərin dəniz şəraiti və okeanik litosferin inkişafı müşahidə olunmuşdur.

Paleogen-Neogen dövrləri: Aktiv tektonik hərəkətlər və çökmə sürətlərinin artması nəticəsində qalın çökmə süxurları yığılmışdır.

Kaynozoy dövr: Geodinamik fəallığın artması, maqmatik proseslərin və qırılmaların intensivləşməsi müşahidə olunmuşdur.

Bu geodinamik aktivlik, neft-qaz generasiyası və onların miqrasiyası üçün münbit şərait yaratmışdır.

Neft-qaz sistemləri geoloji zamanlarda aşağıdakı əsas mərhələlərlə formalaşır:

a) Üzvi maddələrin yığılması və piqmentləşməsi.

Şamaxı-Qobustan çökəkliyindəki sedimentlər çox vaxt dəniz və göl mənşəlidir. Bu mühitlərdə lər əsasən plankton və bitki qalıqları çökərək gil süxurların tərkibində yığılır. Dərinlik artdıqca temperatur və təzyiqin təsiri ilə bu üzvi maddələr piqmentləşərək kerogenə çevrilir, daha sonra isə termal parçalanma nəticəsində neft və qaz əmələ gəlir.

b) Miqrasiya

Əmələ gəlmiş neft və qaz birincili (mikroskopik məsamələr vasitəsilə) və ikincili (faylar, çatlar və digər struktur yollarla) miqrasiya edərək daha keçirici süxur qatlarında — kollektor süxurlarda toplanır. Bu ərazidə qumdaşı layları əsas kollektor funksiyasını yerinə yetirir.

c) Toplanma (akkumulyasiya)

Neft və qaz adətən antiklinal strukturlarda, fay zonaları və ya stratigrafik tələlərdə toplanır. Qobustanın bəzi hissələrində struktur tələlər çox geniş yayılıb. Üst örtük süxurları — gil və mergel — bu karbohidrogenlərin sızmasının qarşısını alaraq onların toplanmasını təmin edir.

Neft-qaz göstəriciləri və çıxarılma perspektivləri: Qobustan və Şamaxı ətrafında neft-qaz göstəriciləri çoxdan məlumdur. Bölgədə aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində bir neçə perspektivli strukturlar aşkarlanıb. Xüsusilə, Qobustan struktur bloku, bu ərazidə qazkondensatlı strukturlar və termogen mənşəli qaz yataqları müəyyən olunub.

№ 3/2025 səh.71-78

Termal anomaliyalar: Bu bölgədəki yüksək geotermal gradientlərlərin pişməsi üçün əlverişli şərait yaradıb. Bu çökəklikdə neft-qaz sistemlərinin öyrənilməsi təkcə elmi baxımdan deyil, həm də iqtisadi cəhətdən vacibdir. Azərbaycanda yeni neft və qaz yataqlarının axtarışı baxımından Şamaxı-Qobustan çökəkliyi gələcəkdə alternativ və əlavə enerji mənbəyi kimi çıxış edə bilər.

Şamaxı-Qobustan çökəkliyində neft-qaz sistemlərinin formalaşması çoxfaktorlu və mürəkkəb proseslərin nəticəsidir. Geodinamik hərəkətlər, termal şərait və üzvi maddənin geokimyəvi xüsusiyyətləri bu proseslərin hər bir mərhələsində mühüm rol oynamışdır. Regionun geoloji inkişafı və bu günkü morfostrukturası neft-qaz ehtiyatlarının perspektivliyini artırır. Gələcəkdə daha dəqiq geokimyəvi modelləşdirmə və geofiziki tədqiqatlar bu çökəkliyin hidrokarbon potensialını daha dəqiq qiymətləndirməyə imkan verəcəkdir.

Aşağıda bu proseslərin əsas geodinamiki faktorlar baxımından geniş təhlilini aparaq:

1. Tektonik quruluş və geodinamiki vəziyyət

Şamaxı-Qobustan çökəkliyi Alp-Himalay qırışıqlıq qurşağının kənarında, Böyük Qafqaz və Kiçik Qafqaz dağ sistemləri arasında yerləşir. Bu, regionun geodinamiki baxımdan yüksək aktivliyə malik olmasına səbəb olur. Ərəbistan və Avrasiya tektonik plitələrinin toqquşması nəticəsində bu zonada:

Qırışıqlı tektonik strukturlar yaranmışdır;

Zəlzələ aktivliyi yüksəkdir;

Fay zonaları boyunca güclü deformasiya prosesləri müşahidə olunur.

Bu tektonik hərəkətlər çökəklikdəki çökmə süxurlarının yığılmasına və sonradan neft-qazın miqrasiyası və tələyə düşməsi üçün əlverişli şərait yaratmışdır.

2. Çöküntü kompleksləri və litoloji struktur

Çökəkliyin geoloji kəsiyində əsasən yuxarı Paleozoikdən tutmuş Neogen dövrünə qədər müxtəlif yaşlı çöküntülər yerləşir. Neogen və Kaynazoy dövrlərində burada intensiv çöküntüləmə baş vermişdir. Bu çöküntülər aşağıdakı xüsusiyyətlərə malikdir:

Üzvi maddələrlə zəngin gil və şist süxurlar, yəni potensial mənbə süxurları;

Poroz və keçirici qumdaşı layları, yəni kollektor süxurlar;

İncə laylı gil süxurları, yəni tələ və örtük süxurlar.

Bu litoloji müxtəliflik neft və qazın miqrasiyası və toplanması üçün ideal şərait formalaşdırır.

3. Geotermal şərait

Şamaxı-Qobustan çökəkliyində geotermal qradientin nisbətən yüksək olması (ortalama 30–35°C/km) nəticəsində nin termal pişməsi sürətlənmişdir. Bu isə:

Kerogenin neftə və qaza çevrilməsi üçün lazımi temperatur və təzyiqi təmin etmişdir;

Mənbə süxurlarında yüksək dərəcədə pişmiş formalaşmışdır;

Neft və qaz generasiyası üçün optimal şərait yaranmışdır.

4. Neft və qazın miqrasiyası

Geodinamiki proseslər – xüsusən tektonik qırılmalar və qaldırılmalar – neft və qazın aşağı dərinliklərdən yuxarı kollektor laylarına miqrasiyasını asanlaşdırmışdır. Eyni zamanda:

Antiklinal strukturlar və qırılma zonaları boyunca tələlər formalaşmışdır;

Fayların keçmədiyi sahələrdə neft və qazın sıx tələlərdə toplanması təmin edilmişdir;

Gil layları və duz strukturları effektiv örtük süxurlar rolunu oynamışdır.

5. Zəlzələ və neotektonik hərəkətlər

Regionda baş verən neotektonik hərəkətlər və müasir zəlzələ aktivliyi, bəzi hallarda neft-qaz yataqlarının yenidən işlənməsinə və struktur dəyişikliklərinə səbəb olmuşdur. Bu, həmçinin yeni tələlərin yaranmasına və bəzi köhnə tələlərin pozulmasına gətirib çıxara bilər.

Şamaxı-Qobustan çökəkliyi Azərbaycanın mühüm neft-qaz potensialına malik olan struktur-fiziqocoğrafi bölgələrindən biridir. Bu çökəklikdə neft-qaz sistemlərinin formalaşmasına təsir edən geokimyəvi faktorlar aşağıdakı əsas istiqamətlərdə özünü göstərir:

1. Üzvi maddələrin tərkibi və yayılması

№ 3/2025 səh.71-78

Çökəklikdəki çökmə süxurlar, xüsusilə miosen yaşlı laylar, üzvi maddələrlə zəngindir.Üzvi maddələrin tərkibi əsasən sapropelik və humik-sapropelik xarakterlidir, bu da neftin yaranması üçün əlverişli şərait yaradır.Qara şistlər və gil süxurların yüksək karbon tərkibi neft və qaz generasiyası üçün ilkin material rolunu oynayır.

2. Termal böyümə dərəcəsi

Geokimyəvi analizlər göstərir ki, bölgədəki üzvi maddə kifayət qədər termal olgunlaşmaya uğrayıb.Bu, neftin yaranması üçün əsas şərtlərdən biridir. Termal gradient və geotermal axın bu prosesə təsir edir.

3. Kerogen tip və onun çevrilmə potensialı

Kerogenin II və III tipləri üstünlük təşkil edir: II tip kerogen neft, III tip isə qaz əmələ gətirməyə meyllidir ki, bu da bölgədə həm neft, həm də qaz yataqlarının mövcudluğunu izah edir.

4. Diagenetik və katagenetik dəyişikliklər

Çöküntü süxurlarının diagenetik və katagenetik mərhələlərdə keçirdiyi kimyəvi dəyişikliklər neft və qazın generasiya potensialına təsir göstərir.Bu proseslər zamanı neftin keyfiyyəti və miqdarı formalaşır.

5. Mineral tərkib və süxurların permeabilik xüsusiyyətləri

Gilli süxurların mineraloji tərkibi (montmorillonit, illit, kaolinit və s.) neftin miqrasiyasına və saxlanmasına təsir edir. Bəzi mineralların katalitik təsiri nəticəsində kerogenin daha sürətli parçalanması mümkündür.

Nəticə. «Şamaxı–Qobustan» neftli-qazlı sahəsində nə qədər ehtiyat olduğu hələ bilinmir. Məhz buna görə, əraziyə yataq deyil, sahə adı verilib. Ərazi mürəkkəb geologiyaya malikdir. Neft-qazlılığı güman edilən sahələrin çox olmasına baxmayaraq tektonik quruluşun mürəkkəbliyindən yalnız iki yataq aşkar edilib: «Umbakı» neft yatağı, «Duvannı» qaz-kondensat yatağı.Yeni imzalanan müqavilələr və tərəfdaşlıqlar ərazidə kəşfiyyat aparıb nə qədər neft-qaz olduğunu aşkara çıxarmaq, daha sonra onu istismarını nəzərdə tutur. (11)

Şamaxı-Qobustan zonasının geniş ərazisində neft-qaz istehsal edən paleogen-miosen çöküntülərinin dərin olmaması və çılpaqlığı, onların yüksək dərəcədə pozulması və bu zonanın seysmik fəaliyyəti yeni yetişməmiş qazların itkisinə səbəb olur. Bu zonada çöküntülərin açılması və intensiv deqazasiyası karbohidrogen təzahürlərinin geniş yayılması ilə müşayət olunur.

Şamaxı-Qobustan çökəkliyində neft və qaz sistemlərinin formalaşması kompleks geodinamik və geokimyəvi faktorların təsiri nəticəsində baş verir. Tektonik aktivlik, termal rejim, üzvi maddələrin tərkibi və süxurların geokimyəvi xüsusiyyətləri bu sistemlərin əsasını təşkil edir. Bu amillərin qarşılıqlı təsiri nəticəsində bölgə Azərbaycanın perspektivli neft-qaz zonalarından birinə çevrilmişdir. Gələcəkdə daha dərindən geokimyəvi modelləşdirmə və seysmogeoloji tədqiqatlar bu regionun potensialını daha dəqiq qiymətləndirməyə imkan verəcək.

ƏDƏBİYYAT

1. Yusifov, X., Aslanov, B. Azərbaycanın neftli-qazlı hövzələri- Bakı, “Mars Print” NPF 2018.
2. Əlizadə Ə.Ə. – *Azərbaycanın regional geologiyası*. Bakı: Elm, 2004.
3. Kazımov S.A., Qasımzadə F.H. – *Azərbaycanın neft-qaz yataqları və onların geodinamik şəraiti*. Bakı: Nafta-Press, 2010.
4. Quliyev İ.S. – *Azərbaycanın neftli-gazlı hövzələrinin geokimyəvi xüsusiyyətləri*. Bakı: Elm və Təhsil, 2015.
5. Şamaxı-qobustan çökəkliyində palçıq vulkanlarının və lokal qalxımların formalaşmasında geodinamik rejimin və litofasial amilin rolu. N.R.Nərimanov, G.C.Nəsibova, M.G.Əhmədov. Azərbaycan neftçı geoloqları cəmiyyətinin elmi bülleteni. №212017.ISSN 2410-4264.
6. Hüseynov D.A., Əliyev Ə.M. – *Qobustan-Şamaxı bölgəsinin neft-gaz potensialı və onun struktur-tektonik xüsusiyyətləri*. Azərbaycan Milli Elmlər Akademiyası, Yer Elmləri İnstitutu, 2013.
7. Tissot B.P., Welte D.H. – *Petroleum Formation and Occurrence*. Springer, 1984.

8. Şahbazov R.F. – *Neft-qaz sistemlərinin geokimyəvi modelləşdirilməsi*. Bakı: Azərnəşr, 2018.
9. https://az.wikipedia.org/wiki/%C5%9Eamax%C4%B1%E2%80%93Qobustan_neftli-qazl%C4%B1_sah%C9%99si
10. http://shamakhi-encyclopedia.az/samaxi-qobustan-neftli-qazli-sah%D3%99si/
11. https://fed.az/az/energetika/yeni-neft-muqavilesi-samaxi-qobustan-macaristan-sirketine-tapsirildi-210472

УДК 62 (621)

РОЛЬ ГЕОДИНАМИЧЕСКИХ И ГЕОХИМИЧЕСКИХ ФАКТОРОВ В ФОРМИРОВАНИИ НЕФТЕГАЗОНОСНЫХ СИСТЕМ ШЕМАХИНСКО-ГОБУСТАНСКОЙ ВПАДИНЫ

Исмат Новруз Мамедов
Азербайджанский Государственный Университет Нефти и Промышленности
город Баку, Азербайджан
ismatmammadov1@gmail.com

Резюме. *Шемахинско-Гобустанская нефтегазоносная область — нефтегазоносный бассейн в юго-восточной части Большого Кавказа Азербайджана. На территории района расположено множество грязевых вулканов. Шемахинско-Гобустанская впадина, являющаяся одним из важных нефтегазоносных месторождений Азербайджана, имеет особое значение благодаря своему геологическому строению и влиянию геодинамики.*
В геологическом строении изучен осадочный комплекс, возраст которого варьируется от средней юры (мезозоя) до верхнего плиоцена (кайнозоя). Территория охватывает одноимённый синклинорий. Он разделён на пять основных тектонических зон: Северную, Центральную, Юго-Западную, Юго-Восточную, или Жеуранкечмезскую, впадину и Алят-Ленгабиз. Строение этих зон, особенно Северной, довольно сложное. Северная зона осложнена крупномасштабными продольными и поперечными разломами и надвигами. [10]

Ключевые слова: *Шемахы-Гобустанская впадина, нефтегазоносная система, геодинамика, геохимия, тектоника, органическое вещество, впадина.*

UOT 62 (621)

THE ROLE OF GEODYNAMIC AND GEOCHEMICAL FACTORS IN THE FORMATION OF OIL AND GAS SYSTEMS IN THE SHAMAKHI-GOBUSTAN DEPRESSION

Ismat Novruz Mammadov
Azerbaijan State Oil and Industry University
Baku city, Azerbaijan
ismatmammadov1@gmail.com

Summary. *The Shamakhi-Gobustan oil and gas field is an oil and gas basin in the southeastern foothills of the Greater Caucasus in Azerbaijan. The field is home to numerous mud volcanoes. The Shamakhi-Gobustan depression, one of the most important oil and gas fields in Azerbaijan, is of particular importance due to its geological structure and the influence of geodynamics.*
The geological structure of the region includes a sedimentary complex from the Middle Jurassic (Mesozoic) to the Upper Pliocene (Cenozoic). The field covers the synclinorium of the same name. It is divided into five major tectonic zones: the North, the Center, the South-West, the South-East or Jeurankechmez depression, and the Alatau-Langabiz. The structure of these zones, especially the

North tectonic zone, is quite complex. The North zone is complicated by large-scale longitudinal and transverse faults and thrusts. [10]

Key words: *Shamakhi-Gobustan depression, oil and gas system, geodynamics, geochemistry, tectonics, organic matter, depression*

Redaksiyaya daxilolma: 27.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.79-84

UOT 656

DOI 10.30546/678209.2025.03.079

LOGİSTİK ZƏNCİRDƏ NƏQLİYYAT SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Könül Rasim qızı Həsənova

Azərbaycan Texnologiya Universiteti

k.qasanova@mail.ru

Xülasə.*Müasir dövrdə logistik zəncirin səmərəli fəaliyyəti nəqliyyat sisteminin inkişafı və optimallaşdırılması ilə sıx bağlıdır. Qlobal ticarət əlaqələrinin genişlənməsi, rəqabətin artması və bazarların sürətli dəyişməsi logistik proseslərdə çevik və etibarlı nəqliyyat həllərinin tətbiqini zəruri edir. Nəqliyyat sisteminin təkmilləşdirilməsi yalnız malların vaxtında çatdırılmasını təmin etmir, həm də xərclərin azaldılmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və ekoloji dayanıqlığın qorunmasına imkan yaradır. Bu məqalədə nəqliyyat sisteminin logistik zəncirdə rolu, mövcud problemlər və onların həlli yolları, həmçinin rəqəmsal texnologiyaların tətbiqinin gətirdiyi üstünlüklər araşdırılır. Əldə olunan nəticələr göstərir ki, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və innovativ texnologiyaların istifadəsi logistik zəncirin ümumi səmərəliliyini artırmaqla yanaşı, ölkələrin iqtisadi inkişafına da mühüm töhfə verir.*

Açar sözlər.*Logistika, nəqliyyat sistemi, logistik zəncir, optimallaşdırma, rəqəmsal texnologiyalar, infrastruktur, səmərəlilik, dayanıqlılıq.*

Giriş. Nəqliyyat infrastrukturu istənilən regionun istehsal infrastrukturunun və xidmət sektorunun ən mühüm hissəsidir.

Nəqliyyat xidmətləri bazarının tənzimlənməsi həm uzunmüddətli dövrdə, həm də operativ təsirlər rejimində nəqliyyat işinin təsirində iqtisadi və inzibati metodların birləşməsini, tənzimləmənin həyata keçirilməsini nəzərdə tutur.

Araşdırılarkən mövzunun aktuallığı ondan ibarətdir ki, davamlı və effektiv fəaliyyət, logistika nəqliyyat infrastrukturunun dinamik inkişafı və balansı iqtisadi inkişafın yüksək səviyyəsinin təmin edilməsi, ölkənin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün ön şərtdir.

Bu günə qədər motorlu nəqliyyat bazarında xidmətlərin keyfiyyəti durmadan azalır. Motorlu nəqliyyat müəssisələrinin (ATP) nəqliyyatla məşğul olan şəxslərin artan təzyiqi altında olması səbəbindən daşımaların həcmində azalma müşahidə olunur. Yol nəqliyyatı xidmətləri göstərən şirkətlər bazar mühitində baş verən dəyişikliklərə, özəl taksilərin etdiyi kimi, dərhal reaksiya verə bilmirlər. Bu isə sonuncuya əhəmiyyətli üstünlük verir. Bundan başqa, burada istehsal xərcləri də əlavə olunur ki, bu da motor nəqliyyatı müəssisələri üçün özəllərlə müqayisədə əlavə çətinliklər yaradır.

İndiki zamanda, motorlu nəqliyyat müəssisəsinin idarə edilməsi üçün nəqliyyat vasitələrinin donanmasının strukturunun spesifikalarından, onların göstəricilərindən, müəssisənin tutduğu bazar yerlərinin şəraitinin xarakterindən asılı olaraq, motorlu nəqliyyat müəssisəsinin effektivliyinin hər hansı bir dəyişikliyini proqnozlaşdıran mexanizmlər kimi zəruri elementlər daxil edilməlidir. Bazarın tələblərinə uyğun olaraq istehsalın amilləri və onların avto nəqliyyat xidmətlərinin istehsalı prosesində istifadə edilməsinin analizinə ehtiyac yaradır.

Göstərilən xidmətlərin həcminin bu və ya digər istehsal faktoru ilə nə dərəcədə bağlı olduğunun müəyyən edilməsi və gələcəkdə onun hansısa yolla dəyişəcəyi ilə bağlı həll sualları onların həllinin qaçılmazlığını qabaqcadan müəyyən edir.

Yuxarıda qeyd olunanların hamısından belə qənaətə gəlmək olar ki, motorlu nəqliyyat müəssisəsinin sosial-iqtisadi inkişafı istehsalın səmərəliliyini artırmadan mümkün deyil. Bu isə

№ 3/2025 səh.79-84

istehsalın planlaşdırılması amillərini nəzərə alır.

Tədqiqat işinin məqsədi. Logistik müəssisə nümunəsində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər hazırlamaqdır.

Bu məqsədə çatmaq üçün aşağıdakı tapşırıqların həlli zəruridir:

- Nəqliyyat logistikasının nəzəri əsaslarını, prinsip və funksiyalarını nəzərə almaq;
- Fərdi sahibkarlığın logistika fəaliyyətini təhlil etmək;
- Fərdi sahibkarlığın nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər hazırlamaq;
- Təklif olunan tədbirlərin həyata keçirilməsinin iqtisadi səmərəliliyini qiymətləndirmək.

Tədqiqatın obyekti və metodları. Logistika, iqtisadi nöqteyi-nəzərdən, öz mənbəyindən birbaşa istehlakçıya müxtəlif növ axınların hərəkətini təşkil etmək, idarə etmək və optimallaşdırmaq fəaliyyətidir. Bu elm bir neçə növə bölünür. Onlardan biri nəqliyyat logistikasıdır.

Nəqliyyat logistikası – çatdırılmanın təşkilinə cavabdeh olan bir növ sistemdir. Başqa sözlə, nəqliyyat logistikası müəyyən maddi axınların A nöqtəsindən B nöqtəsinə hərəkəti ilə məşğuldur. Eyni zamanda hərəkətin optimal yolu seçilir. Bu məlumatların aktiv tətbiqi XX əsrin 60-cı illərində baş vermişdir. Məhz bu dövrdə istehsalın intensiv inkişafı baş vermişdir. Xammalın hərəkətinin bütün hissələrini bilmək çatışmazlıqları müəyyən etməyə imkan verir. Beləliklə, səlahiyyətli nəqliyyat logistikası malların qiymətini aşağı salır.

Müasir iqtisadi şəraitdə logistika xidmətlərinə tələbat artır. Buna səbəb iqtisadiyyatın daim inkişafı və istehsalçılar arasında rəqabətin artmasıdır. Rəqabət qabiliyyətinin artırılması malların saxlanması, daşınması və istehlakçılar arasında bölüşdürülməsi sisteminin təkmilləşdirilməsi ilə həyata keçirilir.

Malların müxtəlif nəqliyyat rejimləri ilə, ən çox bir deyil, bir neçə dəfə çatdırılması nəqliyyat logistikasının köməyi ilə həyata keçirilir. Ona görə də burada nəqliyyat infrastrukturunun az inkişaf etməsi kimi bir problem də ola bilər. Getdikcə artan tələbat səbəbindən nəqliyyat logistikasında daim yeni texnologiyaların tətbiqini zəruri edir.

Nəqliyyat logistikasında müasir texnologiyaların tətbiqinə ehtiyac ilk növbədə beynəlxalq daşımalarla məşğul olan daxili yük daşımalarının inkişafı şirkətlər tərəfindən hiss olunurdu. Logistika sahəsində texnologiyaların təkmilləşdirilməsi müasir intermodal, multimodal sistemlərdən və terminaldan, qapıdan-qapıya nəqliyyat texnologiyası, yük daşımalarını müşayiət etmək üçün müasir telekommunikasiya sistemləri və s. istifadə yolu ilə əldə edilir.

Logistika nəqliyyat sistemlərini təkmilləşdirmək üçün daxili nəqliyyat və irəliləmə şirkətləri öz terminal şəbəkələrini, distribusiya və logistika mərkəzlərini, logistika fəaliyyəti üçün informasiya və kompüter dəstək sistemlərini yaratmağa və həyata keçirməyə başladılar [23].

Beynəlxalq tədqiqatın nəticələrinə görə, material axınının idarə edilməsinin effektivliyi belə ifadə olunur:

- hərəkətinin bütün yolu boyunca ehtiyatların azaldılması;
- məhsulların təchizat zənciri vasitəsilə keçmə vaxtının azaldılması;
- nəqliyyat xərclərini azaltmaqla, habelə yük əməliyyatları üçün onları azaltmaqla.

Xərclərin azaldılması üçün əsas ehtiyatlar logistika elementlərinin inkişafı ilə bağlıdır. Tədarükdə 50%, satışda 40%, istehsalda isə 10% təşkil edir. Nəticədə müəssisənin nəqliyyat və logistika sisteminin formalaşması rəqabət qabiliyyətinin artırılmasında mühüm amildir. Logistik yanaşmanın fərqi zəncirin bəzi elementlərinin material və informasiya axınlarının sonun idarə edilməsinin ümumi sisteminə birləşdirilməsindən, arzu olunan nəticəni əldə etmək məqsədilə, vaxt və resursların ən az xərclənməsindən ibarətdir.

Nəqliyyat və logistika sistemini iqtisadiyyat nöqteyi-nəzərindən anlamaq üçün əsas kimi sistem yanaşmasının aşağıdakı prinsipləri təklif olunmalıdır: strukturlaşdırma - sistemin istifadəsi, ayrı-ayrı elementlərin xüsusiyyətlərinə görə o qədər də çox deyil, onun strukturunun xüsusiyyətlərinə görə; unitarlıq – sistemin ətraf mühitdən ayrılması; ierarxiya – sistemdə elementlərin tabeliyi; poliarxiya - mürəkkəbliyinə görə sistemin aktuallığıdır.

№ 3/2025 səh.79-84

Bu sistemin iqtisadi mexanizminin əhəmiyyətini sistem-resurs aspektində görmək olar. Bu zaman mexanizmin elementlərinin işini başa düşmək və sistemin fəaliyyətini qiymətləndirmək lazımdır. "Mexanizm" sözü iqtisadiyyatının təşkilində və idarə edilməsi sahəsində səbəb-nəticə münasibətləri kimi bir prosesə bağlı olan və sistemli müəyyən hərəkətləri yerinə yetirən bir sıra elementlərdən ibarət sistem kimi başa düşülməlidir. Iqtisadiyyatının təşkilində və idarə edilməsi sahəsində səbəb-nəticə münasibətləri kimi sahələr: istehlak, mübadilə, istehsal, paylanmadır. Bu mexanizmin belə tərtibi bir sıra elementlərin idarə edilməsi sistemini müəyyən edir. Bu, iqtisadi fəaliyyətin əsas nəticəsinin formalaşması və nəticəyə vaxtında nail olunması prosesidir.

Nəqliyyat sisteminin iqtisadi mexanizminin strukturu aşağıdakılardan ibarətdir: rəqabət və qiymətləndirmə mexanizmi. Bu mexanizm bazardakı vəziyyəti nəzərə alaraq sistemin subyektlərinin adaptasiyası prosesini yaradır; mal paylama prosesinin bütün iştirakçılarının iqtisadi fəaliyyətinin stimullaşdırılması, planlaşdırılması, nəzarəti və təhlilini nəzərdə tutma mexanizmi; özünü maliyyələşdirmə mexanizmi; maliyyə və iqtisadi fəaliyyətlə bağlı mexanizmlər (kreditlər, vergilər, mənfəətlər, subsidiyalar, vəzifələr və s.); dəyişdirilmə və uyğunlaşdırılma mexanizmi (norma, proqnoz, standart, yük daşınması ilə bağlı hüquqi sənədlər).

Nəqliyyat logistikasının əsas elementləri bunlardır: yük, nəqliyyat yolları, nəqliyyat dəhlizləri, rolling stok, logistika proseslərinin iştirakçıları, konteynerlər, paketlər. Malların hərəkəti, anbar işlərinin aparılması prosesləri logistika infrastrukturuna aid olan xüsusi texniki vasitələr tələb edir və onlar arasındakı əlaqələr logistik sistemi yaradır.

Nəqliyyat və logistika sistemində malların daşınması prosesində əməliyyatların uğurla həyata keçirilməsinin müəyyən edici amili informasiyadır. Bu biliklərin formalaşmasının köməyi ilə onların köməyi ilə sistemin fəaliyyətinin tam olmayan informasiya şəraitində alternativ həllini tapmaq imkanı yaranır. Nəqliyyat və logistika sistemlərinin inkişafı inteqrasiya əlaqələrinin inkişafını nəzərdə tutur. Düzgün çıxış yolu tapmaq üçün həmin prosesləri nəzərə alaraq sistemin real vaxt nəzarətini təmin edə bilən inteqral modelləşdirmə elementlərindən istifadə etmək tədarükçüdən istehlakçıya malların hərəkətini əhatə edir.

Onlar əmtəə mübadiləsi prosesində material axınlarının formalaşdırılması, təşkili, tənzmlənməsi və reallaşdırılması üzrə qarşılıqlı əlaqədə olan kompleks funksiyaları özündə birləşdirir.

Belə funksiyaların daşıyıcısı kimi bu və ya digər dərəcədə bu prosesdə iştirak edən bütün subyektlər (müəssisə, birlik, təsərrüfat asossasİyalari,konsernlərin təchizat-satış və nəqliyyat xidməti, habelə regionlararası və regional kommersiya-vasitəçi və ticarət təşkilatlan) çıxış edirlər. Bu zaman məhsul yeridilişinin təşkilində əlaqələndirici rol adətən nəqliyyat, ticarət, material və enerji resurslarını idarəedən strukturlara mənsub olur.

Göstərilən funksiyaların səmərəli reallaşdırılması meyarı məhsulların yerdəyişməsinə çəkilən məcmu məsrəflər içərisində hər bir elementin ayrıayrılıqda minimum xüsusi çəkisi hesab edilir. Çünki, hər bir məsrəf elementi ümumi məsrəf məbləği içərisində əhəmiyyətli xüsusi çəkiyə malikdir. Məsələn, hesablamalar göstərir ki, hazır qara metal prokatının, daş kömürün, dizel yanacağının, ağac materialların, sementin, yumşaq dam örtüyünün, yanacaq mazutunun və digər resursların daşınmasına bilavasitə çəkilən məsrəflər 22,7%-dən 64,5%-ə (orta hesabla təqribən 54%);məhsul ehtiyatının yaradılması və saxlanmasına 27%-dən 70,7%-ə (orta hesabla 37,5%), yükləmə-boşaltma işlərinə isə 4,4%-dən 17,1%-ə qədər (orta hesabla 8,5%) təşkil edir.

Müasir dünyada nəqliyyat prosesinin keyfiyyətinə olan tələblər durmadan artır. Belə ki, şirkətin fəaliyyətinin əsas meyarı xidmət göstərən müəssisələr üçün belə nəqliyyat dəstəyi sisteminin yaradılmasıdır. Bu sistem nəqliyyat üçün zəruri tələbatı tam ödəyəcək və onların keyfiyyətinə zəmanət verəcək.

Nəqliyyat həcminin artırılması və onların keyfiyyətinin yüksəldilməsi məqsədilə nəqliyyat prosesinin təkmilləşdirilməsi, rolling stock-un aşağı salınması və mildən rasional istifadənin təmin edilməsi məqsədi ilə motorlu nəqliyyat müəssisəsində şirkətin bir sıra tədbirlərin həyata keçirilməsi təklif olunur.

Texniki və iqtisadi planlaşdırma işçilərinin ən mühüm vəzifələrindən biri maddi və pul

vəsaitlərinin qənaət edilməsi rejiminin təşkilinə yönəldilmiş tədbirlərin həyata keçirilməsidir. Buna yanacağa qənaət etməklə nail olmaq mümkündür. Yanacaq iqtisadiyyatı aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə əldə edilir:

- Müqavimətin azalması. Bunun üçün brekinq sistemlərini sazlamaq, tirlərdə hava təzyiqi standartlarını qorumaq, müntəzəm olaraq ön təkərlərin oxlarını yoxlamaq və sazlamaq lazımdır.
- mühərrikin və mövsümün dizaynına uyğun olaraq quraşdırılmış yanacaqdan istifadə etmək;
- mühərrikin soyutma sistemini idarə etmək, həddən artıq qızma və hipotermiyaların qarşısını almaq;
- mühərriki izolyasiya etmək üçün radiator astarı üçün və avtomobilin baş örtüyündə olan fitli qapaqlardan istifadə etmək;
- diaqnostik stendlərdə qırıcı-paylayıcı, qığılcım fişləri və yandırma dirhəminin texniki vəziyyətini vaxtaşırı yoxlamaq;
- mühərrikin tükənmiş qazların toksikliyi və tüstüsü, habelə artırılmış boş sürətlərdə normadan artıq işləməsinə yol vermə;
- hava və yanacaq filtrlərinin elementləri daim olmalıdır ;
- yanacaq xətlərindən yanacaq sızmasının və onun buxarlanması yanacaq çənlərinin boş bağlanmış boyunları vasitəsilə qarşısını alır.

Yanacaq sərfiyyatını azaltmaq üçün diaqnostik stendlərdən istifadə etməklə maşınların texniki vəziyyətini daim yoxlamaq, avtomobilin bütün vahidlərini texniki cəhətdən sağlam vəziyyətdə saxlamaq, bütün maşın təmiri əməliyyatlarını yerinə yetirmək, yanacaq tullantılarından yanacaq doldurma zamanı itkilərin azaldılması zəruridir.

Şirkətində çalışan hər bir sürücü ekonom sürücülük haqqında bütün biliklərə malik olmalı, mühərrikin boş vaxtını azaltmalı, o cümlədən sükan arxasına keçməzdən əvvəl onu isindirməli, yanacaq sərfiyyatının normativlərini bilməli və riayət etməlidir. Onun həddən artıq sərf olunması halında, işçilərə texniki və iqtisadi planlaşdırma barədə vaxtında məlumat verməlidir. Normadan artıq yanacaqdan istifadə edən nəqliyyat vasitələrini müəyyən edərkən, bunun qarşısının alınması üçün tədbirlər görmək.

Bu cür tədbirlərin həyata keçirilməsi motorlu nəqliyyat müəssisəsinin şirkətinin fəaliyyətinin səmərəliliyinin artırılmasına öz töhfəsini verəcək.

Transfinansial planın hazırlanması üçün malların daşınması üzrə planların tərtib edilməsi və daşınmanın orta sürətinin hesablanması zəruridir. Transfinplanda göndərilən malların miqdarı və nomenklaturasının, daşınma məsafəsinin göstəricilərindən ibarət müəyyən siyahı mövcuddur. O, yuvarlaq fond modellərinin seçilməsi və onun istifadəsinin göstəricilərinin hesablanması üçün əsas kimi xidmət göstərir.

TEP fəaliyyətinin səmərəliliyinin artırılmasının əsas istiqamətlərindən biri də hərəkət heyətinin səmərəli təmirinin təşkil olunmasıdır. İş şəraitinin maddi əsasları və onun təhlükəsizliyinin təmin edilməsi hərəkət heyətinin təmiri zamanı işlərin mexanikləşdirilməsinin təşkil olunmasıdır.

Vaxtında və yüksək keyfiyyətli təmirin təşkil edilməsi ilə hissə və mexanizmlərin aşınmasının azaldılmasına nail olunur, eyni zamanda, maşınların vahidlərinin və ya komponentlərinin uğursuzluğunun qarşısı alınaraq həyata keçirilir. Beləliklə, bütün maşınlar texniki cəhətdən sağlam vəziyyətdədir.

Logistika planının hazırlanmasında məqsəd, təsis edilmiş nəqliyyat planını yerinə yetirərkən nəqliyyat donanmasının normal fəaliyyətini təmin etmək üçün maddi resursların miqdarına olan tələbatları müəyyən etməkdir. Planın köməyi ilə yanacaq, yağlayıcı və sildirilmiş materiallar, maşın tirləri, maşınlar üçün ehtiyyat hissələri, yuvarlaq hissənin təmiri üçün materiallar üçün motorlu nəqliyyat müəssisəsinin ehtiyacı üzə çıxır. Bu istiqamətdə planlaşdırma və iqtisadiyyat şöbəsi əməliyyat və təmir materiallarının istehlakının azaldılması istiqamətində daim iş aparır.

Beləliklə, aydın olur ki, bu tədbirlərin həyata keçirilməsi motor nəqliyyat müəssisənin səmərəliliyinin artırılmasına töhfə verəcək

.

ƏDƏBİYYAT

1. "Sahibkarlıq fəaliyyəti" haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 1996.
2. T.I.Imanov. Logistikanın əsasları. II hissə. Bakı 2005..
3. T.S.Şükürov. Marketinq kommunikasiya sistemi. Bakı 2002.
4. Q.Armstrong, F.Kotler. Marketinq: ilk addım. Bakı 2006.
5. N.A.Hacıyeva. Marketinq. Bakı 2014.
6. S.M.Abolonin. Avtomobil nəqliyyatı müəssisəsinin biznes planı. Moskva 1999.
7. Ə.Ə.Cavadov. Avtomobil yükdaşımaları. Bakı 2009.
8. Ə.Ə.Cavadov, V.I.Bayramov, R.M.Məmmədov. Avtomobil sərnişin daşımaları. Bakı 2004.
9. Sokolin V.P. “Material və texniki təchizatın logistika idarəçiliyinə giriş”: Tədris kitabçası. Moskva: VZİIT, 1993, 27 s.
10. I. N. LAVRIKOV, N. V. PENŞİN NƏQLİYYAT Tambov nəşriyyatı FGBOU VO "TITU" 2016 LOJİSTİKA
11. T.B.Qocayev, M.H. Urkayev. Nəqliyyatda kommersiya işi. Dərs vəsaiti Gəncə 2017
12. Z.Ə.Səmədzadə. Dünya iqtisadiyyatı. Bakı 2001.

УДК 656

СОВЕРШЕНСТВОВАНИЕ ТРАНСПОРТНОЙ СИСТЕМЫ В ЛОГИСТИЧЕСКОЙ ЦЕПИ

Кёнуль Расим Гасанова
Азербайджанский Технологический Университет
k.qasanova@mail.ru

Резюме. *В современную эпоху эффективное функционирование логистической цепи тесно связано с развитием и оптимизацией транспортной системы. Расширение глобальных торговых отношений, усиление конкуренции и стремительные изменения на рынках обусловливают необходимость применения гибких и надежных транспортных решений в логистических процессах. Совершенствование транспортной системы не только обеспечивает своевременную доставку грузов, но и позволяет снизить затраты, повысить качество обслуживания и обеспечить экологическую устойчивость. В данной статье рассматривается роль транспортной системы в логистической цепи, существующие проблемы и пути их решения, а также преимущества применения цифровых технологий. Полученные результаты показывают, что модернизация транспортной инфраструктуры и использование инновационных технологий, помимо повышения общей эффективности логистической цепи, вносят значительный вклад в экономическое развитие стран.*

Ключевые слова: *Логистика, транспортная система, логистическая цепочка, оптимизация, цифровые технологии, инфраструктура, эффективность, устойчивость.*

UDC 656

IMPROVEMENT OF THE TRANSPORT SYSTEM IN THE LOGISTICS CHAIN

Konul Rasim Hasanova
AZERBAIJAN Technologycal University
k.qasanova@mail.ru

Summary. *In the modern era, the efficient operation of the logistics chain is closely related to the development and optimization of the transport system. The expansion of global trade relations,*

increased competition and rapid changes in markets necessitate the application of flexible and reliable transport solutions in logistics processes. Improving the transport system not only ensures timely delivery of goods, but also allows for reducing costs, improving service quality and protecting environmental sustainability. This article examines the role of the transport system in the logistics chain, existing problems and ways to solve them, as well as the advantages brought by the application of digital technologies. The results obtained show that the modernization of transport infrastructure and the use of innovative technologies, in addition to increasing the overall efficiency of the logistics chain, also make a significant contribution to the economic development of countries.

Keywords: *Logistics, transport system, logistics chain, optimization, digital technologies, infrastructure, efficiency, sustainability.*

Redaksiyaya daxilolma: 07.06.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.85-90

UOT 677.52

DOI 10.30546/678209.2025.03.085

YÜNGÜL SƏNAYENİN XARAKTERİSTİKASI. İSTEHSAL OLUNMUŞ MALLARIN KEYFİYYƏTİNƏ VERİLƏN ÜMUMİ TƏLƏBLƏR

Tofiq Hacı oğlu Mirzəyev, Maya Hüseynqulu qızı Hübətova
Razil Tofiq oğlu Mirzəyev

Azərbaycan Texnologiya Universiteti

razil-mirze@mail.ru

Xülasə: *Yüngül sənaye müxtəlif növ xammallardan əsasən istehlak malları istehsal edən sənaye sahələrinin məcmusudur. Yüngül sənaye ümumi milli məhsul istehsalında mühüm yerlərdən birini tutur və ölkə iqtisadiyyatında mühüm rol oynayır.*

Açar sözlər: *Yüngül sənaye, tikiş, etibarlılıq, material.*

Hazırda mövcud olan bütün sənayeni iki böyük sənayeyə - hasilat və emal sənayelərinə bölürlər. Emal sənayesinin tərkibinə daxil olan Yüngül sənayeni dünya ölkələrində olduğu kimi Azərbaycanda da aşağıdakı alt sənaye sahələrinə bölmək olar: t i k i ş ; q a l a n t e r i y a , g ö n – d ə r i , x ə z , a y a q q a b ı , t e k s t i l (lif, iplik, mono və kompleks saplar, parça, trikotaj, toxunmayan polotno) , x a l ç a ç ı l ı q və digər.[1]

Azərbaycanda Yüngül sənayenin hazırda mövcud durumu haqqında aşağıdakıları bildirməyi lazım bilirik. Bu sahədə aparılan iqtisadi islahatlar nəticəsində respublikada mövcud olan bütün yüngül sənaye müəssisələri özəlləşdirilməyə açıq elan edilmiş, onların bazasında səhmdar cəmiyyətlər yaradılmış, bəziləri tam olaraq özəlləşdirilmişdir. Lakin bu müəssisələrin əksəriyyəti yeni təsərrüfatçılıq şəraitində fəaliyyət göstərməyə uyğunlaşa bilməməyi, avadanlıqların aşınmaya məruz qalması, özəlləşmədə olan yanlışlıqlar, subyektiv səbəblədən müəsisə avadanlıqlarına dəstlər və sair səbəblərdən öz fəaliyyətlərini tam və ya qismən dayandırmışlar. **(2)** 1990-2005-ci illərdə yüngül sənayedə ən ciddi geriləmələr baş vermişdir. Qeyd edilən dövrdə yüngül sənaye məhsulu 13-15 dəfə və bu sahədə çalışan işçilərin sayı isə 97,4 min nəfərdən 8-9 min nəfərə qədər azalmışdır. O cümlədən, toxuculuq sənayesində məhsul istehsalı 1990-2005-ci illərdə 11 dəfə, xəzin bəzədilməsi və istehsalı sahəsində 13 dəfə, dəri, gön-qalanteriya və ayaqqabı istehsalı sahəsində 5 dəfə azalmışdır. Uzun illər ərzində yüngül sənaye müəssisələrinin xammalı olan kənd təsərrüfatı məhsulları qeyd olunan səbəblər ucbatından ilkin emal məhsulları şəklində ixrac edilmişdir. Ölkə əhalisinin istehlak etdiyi geyim məmulatlarının əksər hissəsini isə idxal olunan hazır məhsullar və yaxud idxal edilmiş xammallar əsasında ölkədə fəaliyyət göstərən kiçik sexlərdə tikilmiş məhsullar təşkil etmişdir.[2]

Lakin son illərdə həyata keçirilən tədbirlər yüngül sənaye sahəsinin inkişafında mühüm nailiyyətlər əldə edilməsinə imkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004 –2008-ci illər)"nda və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən Azərbaycan Respublikasının regionlarında yüngül sənayenin inkişafı üzrə önəmli tədbirlər nəzərdə tutulmuş və bu tədbirlər icra edilmişdir. Proqramın icrası toxuculuq, tikiş və ayaqqabı sənayesinin inkişafına müsbət təsir göstərmişdir. Proqramın icrası nəticəsində regionlarda çoxsaylı sənaye müəssisələri fəaliyyətə başlamış, bəzi sənaye müəssisələrinin fəaliyyəti yenidən qurulmuşdur.[2,3]

(3) 1992-2014 cü illər ərzində Azərbaycanda fəaliyyət göstərən sənaye müəsisələrinin mülkiyyət formalarindan asili olmayaraq miqdarı və sənaye məhsulunun (işlərin xidmətlərin) həcmi (fəaliyyətdə

olan qiymətlərdə) tam arşdırılmış və aşağıdakılar müəyyən edilmişdir. 2014-cü ilin məlumatına görə, ölkəmizdə yüngül sənayesi sahəsində 221 müəssisə fəaliyyət göstərir ki, onların 43-ü orta və iri, digərləri isə kiçik müəssisələrdir. 2014-cü ildə yüngül sənayedə istehsalın ümumi həcmi 97,5 milyon manat təşkil etmişdir. Bu isə Azərbaycanın ümumi emal sənayesində olduğu kimi yüngül sənayedə də inkişafın olduğundan xəbər verir. Aşağıda son illərdə Azərbaycanda açılmış yüngül sənaye müəsisələrinin adları verilmişdir:[4,5]

2006 - Yevlax rayonunda "Lalə-Tekstil" MMC tikiş fabriki, Lənkəran tikiş fabriki;

2007 - Yevlax rayonunda "Gilan-Dəri" MMC-nin dəri emalı fabriki;

2008 - "Akkord" şirkətlər qrupunun Ağstafadakı tikiş fabriki, Şirvan şəhərində pambıqtəmizləmə zavodu, Bakıda MKT İstehsalatı, Kommersiya MMC-nin Bakı iplik fabriki, Salyanda "Atanur" firmasının yun emalı zavodu;[6,7]

2009 - "Şəki ipək" ASC-nin nəzdində yeni baramaaçan sexi,Qax şəhərində istehsalat sahələrində çalışanlar üçün xüsusi geyimlər istehsal edən yeni tikiş sexi;

2010 - Daşkəsən rayonunda yeni tikiş sexi, Sumqayıt şəhərində "İntertekstil" ASC;

2011 - Saatlı rayonu ərazisində İplik Fabriki;

2013 - İsmayıllıda tikiş fabriki, "Gilan" Tekstil Parkı;

2014 - "Bakı Tikiş Evi" ASC, Horadiz Tikiş Fabriki, Gilan Tekstil Parkı İplik fabriki, Gikan Tekstil Parkı İplik boyama fabriki, Gilan Tekstil Parkı Parça toxuma fabriki, Gilan Tekstil Parkı Parça hörmə fabriki, Gilan Tekstil Parkı Dəsmal Fabriki.

Qeyq etməyi lazım bilirik ki, 2015-çi ildə Bakı şəhərində və regionlarda sonuncu nəsl avadanlıqlarla təhciz edilmiş bir neçə yeni yüngül sənaye müəsisələrinin açılması nəzərdə tutulur.

Hazırda ölkəmizdə Yüngül sənayenin hesabına ümumi ölkə üzrə istehsalın cəmi 2 %-i düşür və bu göstərilən sahə üçün həddindən artıq aşağı göstəricidir. Belə bir göstəricinin
səbəblərini anlamaq üçün isə hökmən yüngül sənaye sahəsinin ümumi vəziyyətini araşdırmaq və onun inkişafındakı problemləri aşkar etmək vacibdir. Belə ki, yüngül sənayenin
potensialını yüksəltmək üçün bu sahənin inkişaf yollarını araşdırmaq və tapmaq ən zəruri məsələdir. Inkişafın əsas istiqamətlərindən biri buraxılan məhsulların keyfiyyətini
yaxşılaşdırmaq məqsədilə ISO 9000 seriyalı keyfiyyət standartlarını yüngül sənayedə istehsala tətbiq etmək lazımdır.[8,9,10]

Tikiş məmulatlarını istehsal edən müəssisələri ölkəmizin ərazisi üzrə toxuculuq müəssisələri ilə daha bərabər şəkildə yerləşdirilmişdir. Bu müəssisələr demək olar ki, hər bir regionda mövcuddur və əsasən regionun daxili tələbatlarını ödəyir. Bu sahənin müəssisələrinin yerləşməsində başlıca amil istehlakçılıqdır. Bu onunla bağlıdır ki, iqtisadi cəhətdən
parçanın daşınıb göndərilməsi hazır məmulatın göndərilməsindən daha sərfəlidir. Adətən geyimlərin istehsal müəssisələri sənaye mərkəzlərinə daha yaxın yerləşdirilir[11,12].
Son illərdə tikiş müəssisələri bir çox xarici ölkələrlə uğurla əməkdaşlıq edir. Əməkdaşlığın qurulmasında beynəlxalq kooperasiya formalarından istifadə edilir, yəni öz istehsal
müəssisələrimiz sifarişlərin yerinə yetirilməsində xarici ölkələrdən gətirilən materiallar və geyim modellərindən istifadə edirlər. Xarici istehsalçıları bizim ölkədə mütəxəssislərin yüksək peşə hazırlığı və bu zaman ucuz işçi qüvvəsi və əmək haqqı daha çox cəlb edir. Tikiş müəssisələri
üçün xarici tərəfdaşlarla əməkdaşlıq məhsulun keyfiyyətini yaxşılaşdırmağa, onun daxili və dünya bazarlarında yüksək rəqabət qabiliyyətinə malik olmasına imkan yaradır.

Tikiş məmulatlarının istehsalı özlüyündə bir-birilə bağlı bir çox bəndlərin nəhəng kompleksidir. Buraya daxil olan kiçik bəndlər zəncirvari bağlı olduqlarından bir sıra vacib xüsusiyyətləri ilə səciyyələnir: tikiş məmulatlarının modelləşdirilməsi və konstruksiyası, zəruri materialın seçilməsi, məmulatların hazırlanması və satışının təşkili və s. bunu əyani şəkildə sübut edir. Bütün bu kiçik sistemlər bir sıra elementlərdən ibarətdir və bu da özlüyündə qrupların qarşılıqlıtəsirinin səmərəsini təyin edir.

Tikiş məmulatlarının istehsalında materialın seçilməsi bu sahənin ən mühüm şərtlərindən biri kimi qiymətləndirilir. Materialın seçilməsindən müəyyən mənada tikiləcək malların

keyfiyyəti və eyni zamanda bütün sistemin işinin səmərəsi və etibarlılığı asılıdır. Tikş məmulatlarının keyfiyyətinin yaxşılaşdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi, onların çeşidlərinin təzələnməsi, yeni modellərin işlənib tətbiq olunması, bu modellərin layihələndirilməsinin daha da mükəmməlləşməsi, eyni zamanda müasir texnikanın istifadəsi, yeni texnologiyaların tətbiqi ilə yanaşı, istehsalda standartlaşdırma və sertifikatl aşdırmanın metod, element və vasitələrindən bəhrələnmək hesabına baş verir.

(4) Sənaye tərəfindən buraxılan bütün mallar müəyyən tələblərə cavab verməlidir.Tələblər dedikdə,müəyyən vaxt ərzində onun təyinatına görə istifadəsinin mümkünlüyünü təyin etmək üçün malın müvafiq olduğu şərait və xüsusiyyətlər başa düşülür.Keyfiyyətə verilən tələblər əhalinin maddi və mədəni səviyyəsindən,malın təyinatından,xammal ehtiyatlarından,istehsalın texniki-iqtisadi imkanlarından və mal haqqında olan məmulatın səviyyəsindən çox asılıdır.Tələblərin səviyyəsi ilə malların keyfiyyəti arasında müəyyən qeyri-mütənasiblik vardır ki,bu da fasiləsiz olaraq malların keyfiyyətinin yeksəldilməsinə və çeşidinin yeniləşdirilməsinə imkan yaradır.İqtisadiyyatın və elmi-texniki tərəqqinin inkişafı,əhali tələblərinin dəyişilməsi və yeni-yeni xammal növlərinin meydana gəlməsi nəticəsində mallara verilən tələblə də dəyişir.Ümumiyyətlə,xalq istehlakı mallarına cari; prespektiv,ümumi və spesifik tələblər verilir.

Cari tələblər həmin dövrdə satışa daxil olan mallara verilən tələblərdir.Bu tələb iriləli sürülərkən ölkənin sosial-iqtisadi inkişafı,istehsalın texniki-iqtisadi imkanları və s. şərtlər nəzərə alınmalıdır.Cari tələblər dövri olaraq nəzərdən keçirilir və dəyişdirilir.

Əhalinin artmaqda olan tələblərinin daha dolğun ödəmək üçün bir qayda olaraq istehsal prosesləri təkmilləşdirilməli,istehsalatda daha dəqiq və məhsuldar maşınlar tətbiq edilməli,yeni xammal növləri aşkar edilməlidir.Məhz buna görə də malların keyfiyyətinə nəzarət etmək üçün perspektiv tələblər irəli sürülür.Perspektiv tələblər malın keyfiyyətinə verilən nisbətən geniş və yüksək səviyyəli kompleks göstəricilərin cəmindən ibarətdir.Keyfiyyətə verilən cari tələblər həm də perspektiv tələblərin əsasını təşkil edir.Perspektiv tələblərin tərtib edilməsi elmi,istehsalı və istehsalla istehlak arasındakı əsas halqa olan ticarəti,məmulatın keyfiyyətini yüksəltməyə və daima təkmilləşdirməyə vadar edir.Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq perspektiv tələblər cari tələblər qrupuna keçir və standartlar üzrə sənədləşdirilir.

Malların keyfiyyətinə verilən ümumi tələblər cari və perspektiv tələblərdən fərqli olaraq malın təyinata uyğunluğu,istifadəyə yararlılığı,insan üçün zərərsizliliyini,insan orqanizmində normal həyat fəaliyyətini təmin edilməsini,müəyyən olunmuş müddət ərzində istismar zamanı davamlılığı,təmirin mümkünlüyü və sadəliyini estetik və erqonomik tələbləri özündə cəmləşdirir.

Bəzi qrup malların təyinatından və istismar şəraitindən asılı olaraq onların keyfiyyətinə bir sıra spesifik tələblər verilir.Məsələn,şüşə və çini-kaşı məmulatlarının kəskin temperatur şəraitində istifadəsinin mümkünlüyünə verilən tələblər bu fəsildəndir.

Mallara verilən cari,perspektiv,ümumi və spsesifik malın istehlakının hansı sahəsini xarakterizə etməsindən asılı olaraq sosioloji,funksional,erqonomik,gigiyenik,estetik. Texnoloji davamlılıq,etibarlılıq iqtisadi və s. kimi tələblərə bölünür.

Funksional tələblər. Bu tələb bilavasitə məmulatın təyinatı ilə əlaqədardır.Çünki,hər hansı bir məmulat təyinat etibarilə öz funksiyasını yerinə yetirə bilmirsə,o,digər tələblərə uyğun olsa da,öz təyinatı üçün yararsız hesab edilir.Məsələn,saat dəqiq işləmirsə, soyuducu məhsulu yaxşı soyutmursa, bıcaq kəsmə qabiliyyətinə malik deyildirsə, deməli, həmin məmulatlar öz funksional tələbini ödəmir və bununla onlar yararsız hesab olunurlar.

Müxtəlif əmtəələr üçün funksional tələblərin nomenklaturası eyni ola bilməz və bu, onların təyinatından asılıdır. Belə ki, qış üçün hazırlanan ayaqqabılardan yüksək dərəcədə isti – saxlama qabiliyyəti tələb edildiyi halda paltaryuyan maşından yüksək məhsuldarlıq və yaxşı yuma qabiliyyəti tələb olunur. İstismar şəraitindən asılı olaraq bəzi əmtəələr üçün funksional tələbi başqa tələb əvəz edir.Məs: pəncərə pərdələri üçün funksional tələblə yanaşı estetik tələb də meydana çıxır. Burada funksional tələbi estetik tələb əvəz edir.

№ 3/2025 səh.85-90

Qeyd etmək lazımdır ki, bəzən çox təyinatlı parçalar üçün funksional tələbləri seçməkdə çətinlik yaranır. Əgər parça və yaxud trikotaj alt dəyişiklərin hazırlanması üçün işlədilirsə, onda ona verilən funksional tələb əsasən gigiyenik tələblərdən ibarət olacaqdır. Həmin materiallar üst paltarı üçün tətbiq ediləcəkdirsə, onda bunun üçün funksional tələb kimi forma saxlama, ölçü və rəngini dəyişməmək, bədii tərtibat və s. daha vacip sayılacaqdır.

Etibarlılıq. Bu tələb xalq istehlakı mallarını bütün növləri üçün vacibdir. Bir qayda olaraq satışa daxil olan xalq istehlakı malları müəyyən keyfiyyət göstəricilərinə malik olmalıdırlar. Onlar istismar zamanı istehlak xassələrini (ilkin keyfiyyət göstəricilərini) dəyişməməli, konkret şəkildə desək, ilkin keyfiyyət göstəricilərini saxlamalıdır. Xalq istehlakı mallarının ehtibarlılığı istismar göstəricilərinin verilmiş hüdudla tələb olunan vaxt ərzində öz funksiyasını yerinə yetirməsi ilə xarakterizə olunur. Məmulatların xidmət müddəti müxtəlif göstəricilərlə ifadə edilir.Məs,televiziya və radioqəbuledicilərin xidmət müddəti saatla, nəqliyyat vasitələrinin istifadə müddəti isə km-lə ölcülür.

Etibarlılıq mürəkkəb xassə olduğuna görə ona verilən tələblər də mürəkkəb və müxtəlifdir.
Xalq istehsalı mallarının etibalılığına müntəzəmlik, uzun müddət yaralılıq, təmirinin mümkün olması və s. daxildir.

Etibarlılıqdan söhbət edərkən praktikada tez-tez rast gəldiyimiz «İşləmə qabiliyyəti», «Nasazlıq», «İmtina etmək-rədd etmək» və s. kimi terminləri qarışdırmaq olmaz.
İşləmə qabiliyyəti dedikdə məmulatın vəziyyətinin necəliyi təyin edilir, normativ-texniki sənədlərə uyğunluğu və öz funksiyasını yerinə yetirmək qabiliyyəti başa düşülür. İşləmə qabiliyyətinin pozulması ilə rədd etmə kimi qəbul edilməlidir.
Əgər məmulat normat-texniki sənədlərin tələblərinin birinə uyğun deyildirsə, onda o, nasaz sayılır. «İşləmə qabiliyyəti» və nasazlıq anlayışı eyni deyildir. Məsələn, soyuducunun içərisini işıqlandırıcı lampa yanıb xarab olduqda soyuducu nasaz sayılır, lakin işləmə qabiliyyəti pozulmur.

Məlum olduğu kimi dağılma və köhnəlmə nəticəsində məmulat keyfiyyət göstəriciləri də tədricən dəyişir. Bu dəyişilmə mümkün ola bilən hüduddan çıxmayana qədər məmulat işləmə qabiliyyətini saxlayır. Nə vaxt ki, məmulatın köhnəlməsi və daxılması nəticəsində fiziki-kimyəvi proseslər öz norma həddini aşır, bu zaman rədd etmə (imtina) yaranır.
Beləliklə, məmulatda və ya onun hissələrində köhnəlmə və daxılma onun rədd edilməsinə gətirib çıxarır. Məhz, tədricən rədd etmə məmulatın uzun müddət möhkəmliyindən asılıdır. Ola bilsin ki, istismar zamanı məmulat özünün istehlak xassəsini birdən dəyişsin, hər halda, bu təyinatla əlaqədardır. Belə hal qəflətən rədd etmə adlanır. Belə halların baş verməsi bir sıra amillər və eləcə də konstruksiya böyük rol oynayır. Qəfil rədd etmə müxtəlif dəyişikliklərin topanması ilə yaranır. Daha doğrusu, keyfiyyət sıçraması əmələ gəlir. Bunun da nəticəsində məmulatın normal istismarı üçün lazım olan istehlak xassələrinin pozulması, yaxud itməsi baş verir. Qeyd etmək lazımdır ki, rədd etmə və rədd etmənin səbəblərini daha ətraflı öyrənmək üçün material və məmulatların fiziki, kimyəvi, bioloji xassələrinin və eləcə də istismar və saxlanan zaman daxildə baş verən proseslərin

Xalq istehlakı mallarının yararlılığından bəhs edərkən xidmət müddətilə uzunömürlülüyü fərqləndirmək lazımdır. Xidmət müddəti dedikdə əsasən məmulatın istismarından fiziki köhnəlmə anına qədərki, təqvim müddəti başa düşülür. Uzunömürlülük göstəricisində məmulatın istifadə olunmadığı günlər də hesablanır.
Mal buraxılışının planlaşdırılmasında məmulatın xidmət müddəti əhəmiyyətli parametr kimi nəzərə alınmalıdır.

Yadda saxlamaq lazımdır ki, xalq istehlakı mallarının bir çox növləri üçün onların yalnız fiziki xassə kimi uzunömürlülüyü deyil, mənəvi xidmət müddəti də nəzərə alınır.
İstehlak xassələrinin praktiki əhəmiyyəti olan yararlılıq göstəricilərindən biri də təmirə yararlılıqdır. Məmulatın təmirə yararlı olması xeyli dərəcədə onun kostruksiyasından asılıdır. Konsturksiya yararlı və əlverişli olduqda məmulatın istər hazırlanması və istərsə də təmiri asan başa gəlir, materia sərfi azalır, yığılma yüngül olur, az zəhmət tələb edir və standart avadanlıqlardan istifadə etmək imkanı yaxşılaşır.

№ 3/2025 səh.85-90

(5) Gigiyenik tələblər. İstehlakçıların yaxşı həyat fəaliyyəti və normal iş qabiliyyətini təmin etmək üçün əmtəələrə verilən gigiyenik tələblərin əhəmiyyəti böyükdür. İnsan orqanizmi o zaman normal fəaliyyət göstərir ki, onun bədənin temperaturu sabit olsun. Bunu isə normal gigyenik xassəyə malik olan geyim məmulatları təmin edir. Məlum olduğu kimi istehlakçılar müxtəlif iqlim şəraitində yaşayır və işləyirlər. Ona görə də insan fəaliyyətinin normal şəraiti xeyli dərəcədə ayaqqabı və paltarın gigiyenik xassələrindən asılıdır. Son vaxtlarda gigiyenik xassələrin öyrənilməsinə daha böyük maraq göstərilir.

Məmulatın təhlükəsizliyinə verilən tələblər. Bu tələb xalq istehlakı mallarının hamısı üçün eyni dərəcədə əhəmiyyət kəsb etmir. Xalq istehlakı mallarının təhlükəsizliyindən söhbət gedərkən bioloji, elektrik, mexaniki, yanğın, nəqliyyat vasitələri təhlükəsizliyini fərqləndirmək lazımdır. Belə ki, bioloji təhlükəsizlik dedikdə, istehlakçının saxlamlığı üçün əmtəələrin təhlükəsizliyi başa düşülür. Bu xassənin son zamanlarda daha ciddi öyrənilməsi məişətdə süni və sintetik liflərin, plastik kütlələrin və digər kimyəvi məhsulların geniş tətbiqilə əlaqədardır. Aparılan tətqiqatlar göstərir ki, çayxana və yeməkxana üçün olan qab-qacaqların fenoplastan deyil, aminoplasdan hazırlamaq daha məsləhətdir. Ona görə ki, isti məhlul tökən zaman fenoplaslarda müşahidə edilən zərərli maddələr aminoplaslarda müşahidə olunmur. Eləcə də bioloji təhlükəsizlik xüsusilə kiçik yaşlı uşaqların oyuncaqlarının, ətriyyat-bəzək mallarının, kimyəvi-rəngsazlıq mallarının və başqa əmtəələrin hazırlanması üçün praktiki əhəmiyyətə malikdir.[10]

(6) Erqonomik tələblər. Xalq istehlakı mallarının istismar şəraitilə əlaqədar olaraq eqronomik tələblər meydana çıxır. Eqronomik tələblər dedikdə, məmulatın istismar prosesində insan orqanizminə müvafiq olması və onun istismarının optimal şəraitdə təmin olunması başa düşülür. Beləliklə, erqonomik tələblər məmulatının istismarının pahatlığını təmin edir. Xalq istehlakı üçün nəzərdə tutulan məmulatların ölçü və formaları insan bədəninə, onun ayrı-ayrı orqanlarına uyğun olmalıdır. Məsələn, əl tutacağı olan məmulatlarda əl tutacağı rahat və gövdəyə uyğun olmalıdır.[12]

Ümumiyyətlə, bu tələblər məmulatın konstruksiyasını hazırlayan zaman nəzərə alınmalıdır. Erqonomik tələblərin göstəriciləri əksər hallarda ekspert metodu ilə müəyyən olunur.

Estetik tələblər. Son zamanlarda xalq istehlakına verilən tələblər içərisində estetik tələblər xususi əhəmiyyət kəsb edir.Şübhəsiz ki, bu da adamların maddi-rifah halının yaxşılaşdırılması və mədəni səviyyəsinin yüksəldilməsi ilə əlaqədardır.Odur ki, hazırda sənayemizin buraxdığı məmulatların bədii tərtibatına verilən tələblər daha da yüksəldilmişdir.

İstehlakçının istifadə etdiyi əşyalar onda gözəlliyə qarşı maraq oyatmalıdır.
«Gözəllik», cəzbedicilik məmulatın formasının uyğunluğu, zövqü oxşaması, estetik tələblərin əsasını təşkil edir. «Gözəllik» anlayışında məmulatın bütün müsbət xassələri cəmlənir.

Gözəl tərtibat məmulatın yüksək keyfiyyətli olmasına hələ sübut deyildir.Ona görə də məmulatlara verilən estetik tələbləri onlara qarşı qoyulan funksional, gigiyenik, erqonomik və digər tələblərdən ayrı qiymətləndirmək olmaz. Onu da göstərmək vacibdir ki, estetik tələbin xüsusi çəkisi müxtəlif təyinatlı məmulatlarda eyni deyildir. Məsələn, işıqlandırıcı elektrik lampalarının keyfiyyətinə verilən içərisində estetik tələbin gözlənilməsi bir o qədər vacib deyildirsə, lakin məişət mamulatları olan dekorativ vaza və pəncərə pərdələrində estetik tələblər əsas götürülür və funksional tələblərlə üst üstə düşür.

Estetik tələblərin göstəricilərindən biri də rəng göstəriciləridir. Rənglər yorucu, bizikdirici olmamaqla, məmulatın təyinatlarına yuğun olmalıdır.

İqtisadi tələblər. Əmtəənin iqtisadi göstəricilərinə əmtəənin hazırlanmasına və onun istismarına çəkilən xərclər daxildir. Əmtəənin istehsalına çəkilən xərclər onu n pərakəndə qiymətini təyin edir və onun istismarı üçün çəkilən xərclər təmir xərclərindən, elektir enerjisinə və yanacağa verilən xərclərindən, material və ləvazimata sərf edilən xərclərdən ibarətdir. Bunların miqdarı isə ümumilikdə həmin məhsulun keyfiyyətindən asılıdır.

ƏDƏBİYYAT

1.Əliyev, S. Hüseynova "Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsi", Bakı, 2011. 2.Л.П. Шершнева "Основы конструирования женской и детской одежды", Москва, 1987. 3.Р.И. Егорова, В.Р. Монастырная "Учисъ шитъ", Москва, 1989. Т.И. Зарецкая “Азбука кроя и шитья”, Москва, 2006. Г.К. Волевич "Одежда для полных женщин", Минск, 1995.

4. İ.Hacıyev.Azərbaycan sənaye dizaynının təşəkkülü və inkişaf istiqamətləri. “Təknur”, 2011, - 2245. Колесников П.А., Кобылянский Д.А. Организация и техника контроля качества в швейном производстве.– М.: Легкая промышленность, 1967.

6. Коблякова Е.Б. Основы проектирования рациональных размеров и формы одежды.– М.: Легкая и пищевая промышленность, 1984.

7. Крылова Г.Д. Основы стандартизации, сертификации, метрологии – М.: ЮНИТИ-ДАНА, 2001.

8. Мамедов Н.Р. Основы стандартизации: Учебник для вузов – Баку: Элм, 2002.

9. Бузов Б.А. Управление качеством продукции. Технический регламент, стандартизация и сертификация: Учебное пособие – М.: Академия, 2006.

10. Товароведение. Экспертиза. Стандартизация: Учебник. Под ред. Горфинкеля В.Я. – М.: ЮНИТИ-ДАНА, 2006 s.: ill.

11.Шепелев А.Ф., Печенежская И.А. Товароведение и экспертиза швейнотрикотажных товаров.– Ростов-на-Дону: МарТ, 2001.

12. Эфендиев Э.М. Стандартизация продукции (легкая промышленность). Учебное пособие, – Баку: МПП Тахсил, 2007

УДК 677.52

ХАРАКТЕРИСТИКА ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ. ОБЩИЕ ТРЕБОВАНИЯ К КАЧЕСТВУ ПРОИЗВОДИМОЙ ТОВАРА

Мирзаев Тофиг Гаджи оглы, Хубатова Майя Гусейнгулу кызы
Разиль Тофик оглы Мирзаев
Азербайджанский Технологический Университет
razil-mirze@mail.ru

Резюме. *Лёгкая промышленность — совокупность отраслей промышленности, производящих главным образом предметы массового потребления из различных видов сырья. Лёгкая промышленность занимает одно из важных мест в производстве валового национального продукта и играет значительную роль в экономике страны.*

Ключевые слова: *Легкая промышленность, Шитье, Надёжность, Материал.*

UDC 677.52

CHARACTERISTICS OF LIGHT INDUSTRY. GENERAL REQUIREMENTS FOR THE QUALITY OF MANUFACTURED GOODS

Tofig Haji Mirzayev, Maya Huseyngulu Hubatova
Razil Tofig Mirzayev
Azerbaijan Technological University
razil-mirze@mail.ru

Summary: *Light industry is a set of industries that produce mainly consumer goods from various types of raw materials. Light industry occupies one of the important places in the production of the gross national product and plays a significant role in the country's economy.*

Keywords: *Light industry, Sewing, Reliability, Material.*

Redaksiyaya daxilolma: 17.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.91-98

UOT 656
DOI 10.30546/678209.2025.03.091

KİÇİK ŞƏHƏRİN PARKLANMA PROBLEMLƏRİNİN TƏHLİLİ VƏ HƏLL YOLLARI (GÖYÇAY ŞƏHƏRİNİN TİMSALINDA)

Röyal Şöhrət oğlu Allahverdiyev

Azərbaycan Texniki Universiteti, Logistika və Nəqliyyat İnstitutu
Bakı şəhəri, Hüseyn Cavid pr. 25

royal.allahverdiyev@aztu.edu.az

Xülasə. *Məqalədə Azərbaycanın kiçik şəhərlərində parklanma ilə əlaqədar spesifik problemlərin təhlil edilməsi üçün Göyçay şəhərində aparılmış sorğu və monitorinq nəticələri ilkin material kimi istifadə edilmişdir. Sorğudan əldə edilmiş məlumatlar əsasında parklanmanın təşkili ilə əlaqədar əhali qruplarının fikirləri öyrənilmiş, parklanma yerlərinin monitorinqi nəticəsində Göyçay şəhərində parklanma problemi olan ərazilər aşkarlanmış və yol hərəkətinin təşkilinə mənfi təsirləri öyrənilmişdir. Parklanmanın təşkili ilə əlaqədar tədbirlər planı işlənib hazırlanmış və PTV Vissim proqramında yaradılan mikromodelin köməyi ilə əsaslandırılmışdır.*

Açar sözlər: *parklanma yeri, nəqliyyat ləngimələri, hərəkət sürəti, tıxac, PTV Vissim.*

Giriş. Ölkəmizdə şəxsi nəqliyyat vasitələrinin və istifadəçilərinin sayı xeyli artırmışdır. Nəqliyyat vasitələrinin sayının artımı ilə müəyyən problemlər, o cümlədən yaşayış zonalarında, yol kənarında, nəqliyyat qovşaqları və iş yerləri ətrafında parklanma problemləri yaranmışdır. Əvəllər parklanma problemi təkcə paytaxt şəhəri üçün xarakterik idisə, indi respublikanın kiçik və orta şəhərlərində də parklanma problemləri müşahidə edilir. Belə şəhərlərdən biri də Göyçay şəhəridir.

Statistik məlumatlara əsasən Göyçay şəhərinin əhalisinin sayında qismən azalma müşahidə edilsə də nəqliyyat vasitələrinin sayı son illərlə müqayisədə artmışdır. Müqayisə üçün qeud edək ki, 2013-ci ildə Göyçay şəhərində nəqliyyat vasitələrinin sayı 8273 avtomobil olmuşdursa, 2022-ci ildə 16323 avtomobil sayı olmuşdur [1].

Mobillik layihəsi çərçivəsində əhalinin hərəkətliliyinin öyrənilməsi ilə əlaqədar aparılan tədqiqatlar çərçivəsində aparılan sorğu və monitorinqlərdə müəyyən edilmişdir ki, şəhərin əsas problemlərindən biri əhalinin şəxsi nəqliyyat vasitələrini bəzi ərazilərdə saxlamaq üçün yer tapmaqda çətinlik çəkməsidir.

Ədəbiyyat analizi. Oleh və başqalarının tədqiqatında küçələrdə parklanmanın nəqliyyat axının orta sürətinə, ləngimələrə və yolun tutumuna təsirləri araşdırılmışdır. Tədqiqat Ukraynanın Lvov şəhərində 3 müxtəlif yol sahəsində aparılmışdır. Yol sahələrində zolaqlarının sayı, prospekt və küçələrin eni müxtəlifdir. Müəlliflər parklanma növlərindən asılı olaraq bir neçə vəziyyət üçün tədqiqat aparmışlar. Nəqliyyat vasitələrinin səkiyə paralel, 30, 45, 60, 90 dərəcəli bucaq altında tışkil olunan parklanma yerlərində və parklanma nəzərdə tutulmayan yerlərdə nəqliyyat vasitələrinin ləngimələri, orta sürəti və növbə uzunluqları müqayisə edilmişdir. Nəqliyyat ləngimələri və nəqliyyat axını haqqında etibarlı məlumat əldə etmək 3 müşahidənin aparılması nəzərdə tutulmuşdur. Məqalədə ən az nəqliyyat ləngimələrinin səkiyə paralel parklanma zamanı, ən çox nəqliyyat ləngimələrinin isə 90 dərəcə altında parklanma zamanı yarandığı aşkar olunmuşdur. Parklanma sahəsinin 60 dərəcəli bucaq altında təşkil olunan parklanmada daha çox, paralel parklanmada isə daha az olduğu müşahidə edilmişdir. Nəqliyyat vasitələrinin ən yüksək orta sürəti parklanmanın səkiyə paralel olduğu yerlərdə qeyd alınmışdır. Müəlliflər sınaqları PTV VISSIM proqram təminatından istifadə etməklə aparmışlar [6].

Əsas küçələrdə parklanma təhlükəli hesab olunur. Qəzaların çox hissəsi küçədə parklanmaya icazə verildikdə və parklanma yerləri dolu olduqda baş verir. Nəqliyyat axının çox olduğu əsas küçələrdə parklanma yerinin ləğv edilməsi məqsədəuyğun hesab olunur. Çünkü mənfi təsirləri faydalarına nəzərən daha çoxdur. Bucaq altında təşkil edilən parklanma yerləri daha yüksək qəzalılığa səbəb olur. Parklanma küçə tutumunun 40-70% azaldır və nəqliyyat sıxlığına səbəb olur [7].

Parklanma yerinin düzgün seçilməməsi əksər hallarda yolun tutumuna təsir göstərir. Mançester regionunda aparılan tədqiqat zamanı qanuni və qeyri-qanuni parklanmada manevr vaxtlarının təsirləri araşdırılmışdır. Tədqiqat iki küçədə aparılmış və bunun üçün video kameralardan istifadə edilmişdir. Eyni zamanda nəqliyyat vasitələrin parklanma yerlərinə girməsi və ya çıxması zamanı manevrlərin nəqliyyat axına təsiri araşdırılmışdır. Manevr vaxtına avtomobilin növü, sürücünün təcrübəsi və parklanma yerinin ölçüsü təsir edə bilər. Alınan nəticələr göstərmişdir ki, qanuni və qeyri-qanuni parklanma zonasında manevrlərin itirilən vaxta təsirlərii arasında mühim fərq yoxdur. Bucaq altındakı parklanma yerindən çıxıb nəqliyyat axınına qoşulmaq üçün 12 saniyə, paralel parklanmadan çıxışda isə 32 saniyə vaxt tələb olunur. Parklanma yerlərinə girmə və ya çıxma manevrləri nəqliyyat axınında müvəqqəti tıxaclar yarada bilər [4].

Sürücülər nəqliyyat vasitələri üçün paklanma yeri tapmadıqda boş parklanma yeri axtarmağa məcbur olurlar. Parklanma üçün yer axtaran bu avtomobillər çox vaxt aşağı sürətlə hərəkət edir və nəqliyyat axının sıxlığına ciddi təsir göstərir. Araşdırma göstərir ki, yol kənarında parklanma yeri tapmaq üçün üçün orta hesabla 8 dəqiqə vaxt sərf edilir [10].

Hindistanın Sincab şəhərində mərkəzi biznes dairəsində parklanma yerinin istifadəsi ilə bağlı məlumatların olmaması problemləri qavramağa və effektiv həllərin işlənib hazırlanmasında çətinlik yaradır. Küçələrdə parklanma tıxaclara, qəzalara və ətraf mühitin çirklənməsinə səbəb olur. Müəlliflər klasterləmə metodundan istifadə edərək sorğu nəticələrini analiz etmişlər. Tədqiqat göstərir ki, küçədə parklanma yükü artdıqca nəqliyyat axının sürəti 14-16km/saat qədər azalır [3].

Yol kənarında parklanmalara tez-tez rastlanan haldır. Küçədə parklanmanın düzgün idarə olunmaması yol istifadəçiləri üçün itkilərlə nəticələnə bilər. Gajah Mada küçəsində (Denpasar şəhəri) aparılmış tədqiqatda küçənin parklanma yerləri olduqda və olmadıqda hərəkət göstəriciləri müqayisə edilmişdir, həm yolun, həm də parklanmanın xüsusüsiyyətləri araşdırılmışdır. Tədqiqat 4 mərhələdə aparılmışıdr: ilkin mərhələ, planlaşdırma, məlumatların toplanması və məlumatların təhlili. 100 m məsafədə aparılmış tədqiqatın nəticəsi göstərmişdir ki, küçədə parklanma təşkil edilmədiyi hallarda yolun buraxma qabiliyyəti 25% artır, doyma həddinin 25% azalır. Parklanma yerləri polduğu və olmadığı hallarda küçənin müqayisəli təhlili korrelyasiya yolu ilə aparılmışdır. Parklanma yerlərinin istifadəsinin yollarda hərəkət intensivliyinə güclü təsir etdiyi müəyyən edilmişdir [8].

Parklanma yerinin infrastrukturu, parklanma yerlərinin təşkili şəhər və ya regionda avtomobillərlə yerdəyişmələrin sayını müəyyən edən əsas amillərdən biridir və [5]. Parklanma yerinin səmərəli olduğunu müəyyən etmək üçün parklanma indexsindən istifadə edilir. Parklanma indeksi müəyyən zaman ərzində parklanma yerlərindən istifadə edən nəqliyyat vasitələrinin maksimal sayının parklanma yerlərinin real sayına nisbəti kimi hesablanır. Alınan orta faiz 100%-i keçərsə parklanma yeri nəqliyyat vasitələrinin yerləşdirilməsi baxımından səmərəsiz hesab olunur [9].

Polşanın 379 şəhərində aparılan tədqiqatlar göstərmişdir ki, əhalisi 10 mindən çox olan şəhərlərin parklanma problemlərinin həlli istiqamətində heç bir parklanma siyasəti formalaşdırılmayıb. Bu şəhərlərdə əhalinin parklanma ilə bağlı problemləri mövcuddur. Tədqiqatla müəyyən edilmişdir ki, 50000-ə yaxın əhalisi olan bir şəhər üçün təxminən 25 ha əlavə yerüstü parklanma yerinə ehtiyac var. Şəhərlərdə əhalisinin artımı ilə əlaqədar olaraq, nəqliyyat planları tez-tez yenilənməli və elmi tədqiqatlarla dəstəklənməlidir [2].

Metodologiya. Bu tədqiqat əsas üç mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə şəhərdə parklanma ilə əlaqədar problemlərə münasibətin öyrənilməsi üçün əhali qrupları arasında sorğular, parklanma ilə əlaqədar infrastrukturun fəaliyyətini qiymətləndirmək üçün monitorinqlər keçirilmişdir. İkinci mərhələdə parklanma yerlərinin seçilməsi, nəqliyyat axınına təsirinin azaldılması üzrə tədbirlər planı işlənib hazırlanmışdır. Nəhayət üçüncü mərhələdə təklif olunan tədbirlər planının səmərəliliyinin

№ 3/2025 səh.91-98

əsaslandırılması üçün PTV Vissim proqramında mikromodellər qurulmuş, mövcud və təklif edilən parklanma şəraitləri müqayisə edilmişdir. Hesabatlar əsasən nəqliyyat vaxınının ləngimələri və ətraf mühitə atılan zərərli qazların müqdarına əsasən həyata keçirilmişdir.

Tədqiqat. *1.Sorğu nəticələrinin analizi***.** Göyçay şəhərinin əhalisi arasında müxtəlif yaş kateqoriyalarına daxil olan 400 nəfərdən şəhərdə parklanma problemləri ilə əlaqədar fikirləri soruşulmuşdur. Sorğular nəticəsində şəhərin parklanma ilə əlaqədar əsas problemləri və bu problemlərin ən çox gözə çarpdığı yerlər müəyyən edilmişdir. Eyni zamanda şəhərdə parklanma problemi olan yerlərin monitorinqi də aparılmışdır. Küçədə mövcud olan parklanma yerlərinin tıxaclara, nəqliyyat ləngimələrinə, nəqliyyat vasitələrinin intensivliyinə və s. təsir etdiyi müşahidələr nəticəsində müəyyən olunmuşdur. Əhalinin parklanma ilə əlaqədar ən çox çətinlik çəkdiyi yer şəhər bazarının yanıdır (Şəkil 1).

Şəkil 1. Mehdi Hüseynzadə küçəsində parklanmanın monitorinqi zamanı əldə edilmiş görüntü

Şəkil 2-də Göyçay şəhərində əhalinin parklanma problemləri ilə daha çox rastlaşdığı yerlərlə əlaqədar suallara cavabların paylanması göstərilmişdir.



Şəkil 2. Göyçay şəhərində parklanma problemi ilə ən çox rastlaşıldığına aid suala cavabların paylanması

Şəkildən göründüyü kimi rəyi soruşulanların 69,01 %-i parklanma probleminin bazar ətrafında olduğunu qeyd ediblər. Respondentlərin uyğun olaraq 36,62 %, 21,13 %-i parklanma ilə əlaqədar

№ 3/2025 səh.91-98

supermarketlər və iş yerləri ətrafında çətinlik çəkdiklərini qeyd edirlər. Respondentlərin 12,68%-i avtovağzal və məktəblərin ətrafında parklanma probleminin olduğunu qeyd edirlər. Respondentlərin 14,08%-i parklanma ilə bağlı problemlə rastlaşmadıqlarını bildirib.

Şəkil 3-də əhalinin parklanma ilə əlaqədar rastlaşdıqları əsas problemlərin paylanması göstərilmişdir



Şəkil 3. Şəhərdə rast gəlinin mövcud parklanma problemlərinin paylanması

Şəkildən göründüyü kimi rəyi öyrənilən respondentlərin 69,01 %-i parklanma yerlərində yer tapmaqda çətinlik çəkirlər. Respondentlərin 23,94%-nin fikrinə görə nizamlanma arzu olunan səviyyədə deyil, 22,54 %-i isə avtomobillər tam qorunmadığını düşünür. 14,08 % respondentin fikrinə görə nəqliyyat vasitələrinin parklanması yol hərəkətinin təşkilinə mane olur. Respondentlərin 11,27 %-nin fikrinə görə parklanma yerləri düzgün seçilməyib.

2. Parklanma yerlərinin təşkil olunması. Göyçay şəhərində əhalinin parklanma üçün əsas çətinlik çəkdikləri yer mərkəzi bazarın ətrafıdır. Əhali şəhərin digər ərazilərində ciddi parklanma probleminin olmadığını bildiriblər. M. Hüseynzadə küçəsində çoxsaylı ticarət və iaşə obyektləri fəaliyyət göstərir. Bazar ərazisində kifayət qədər parklama yeri olmadığından və sürücülərin yol hərəkəti qaydalarına riayət etmədiyindən nəqliyyat vasitələrinin nizamsız park edilməsinə şərait yaradır. Həmçinin nəqliyyat vasitələrinin hərəkət hissəsində park edilməsi hərəkəti bir zolaq azaldır və axını xeyli ləngidir. Park edilmiş nəqliyyat vasitələri piyadaların hərəkətinə də mənfi təsir göstərir.

Bazar ərazisində və ətrafında parklama üçün müəyyən yerlər nəzərdə tutulmuşdur. Mövcud parklama yerləri bu əraziyə səyahət edənlərin tələbatını ödəmir. Bəzi hallarda isə sürücülər nəqliyyat vasitələrini müəyyən səbəblərdən dayanacaqda park etmirlər. Bu səbəblərə parklanma yerindən səmərəsiz istifadə, ərazinin infrastrukturunun qeyri-kafi olması və.s aid etmək olar. Bütün bu sadalanan problemləri nəzərə alaraq parklanma üçün istifadə edilən həmin ərazilərin infrastrukturunu yaxşılaşdırmaq və parklanma yerlərini düzgün layihələndirməklə sürücülərin parklanmaya olan tələbatını ödəmək olar. Bazarda və ətrafında olan parklama yerlərinin ərazisi şəkil 4-də göstərilmişdir.

Şəkil 4. Bazarda və ətrafında olan parklama yerləri (sahələri göstərilməklə)

Şəkil 4-də rəqəmlərlə işarələnmiş əraziləri n sahələri müvafiq olaraq aşağıdakı kimidir: 1 – 3203 m^2 , 2 – 1503,5 m^2, 3 – 1064 m^2. Yuxarıdakı şəkildə qeyd olunan ərazilərin sahəsi kifayət qədər böyükdür. Əgər parklama yerləri düzgün layihələndirilərsə həmin ərazilərdə kifayət qədər nəqliyyat vasitəsinin park edilməsinə şərait yaranacaq.

*3.*Simulyasiya sınaqları ilə mövcud və təklif olunan variantların yoxlanılması. Şəhər ərazisində aparılmış monitorinqin nəticəsində müəyyən olunmuşdur ki, şəhərin Mehdi Hüseynzadə küçəsində (bazarın qarşısında) hərəkət intensivliyi çox olduğundan, həmçinin nəqliyyat vasitələri yolun hərəkət hissəsində park etdiyinə görə qeyd olunan ərazidə sıxlıq yaranır, hətta bəzən pik saatlarda tıxac əmələ gəlir.

Mehdi Hüseynzadə küçəsinin N. Gəncəvi küçəsindən X. Natəvan küçəsi istiqamətinə saatlıq hərəkət intensivliyi 796 avt/saat, əks istiqamətdə isə 478 avt/saat təşkil edir.

Monitorinq zamanı əldə olunmuş məlumatlara əsasən küçədə yol hərəkətinin və parklanmanın mövcud vəziyyətinin simulyasiya modeli ququrlmuşdur. Simulyasiya sınaqlarından 3 D görüntülər şəkil 5-də verilmişdir. Mövcud vəziyyətdə həmin ərazidən keçən nəqliyyat vasitələrinin simulyasiya sınaqları vasitəsilə müəyyən edilmiş ləngiməvaxtları cədvəl 4-də göstərilmişdir.

Cədvəl 4.

Mövcud vəziyyətdə Mehdi Hüseynzadə küçəsində nəqliyyat vasitələrinin ləngimələri (san.)

Vaxt	İstiqamətlər	İntensivliklər	Orta ləngimə vaxtı
0-3600	1	373	87,83
0-3600	2	241	23,08



Şəkil 5. Mövcud vəziyyətdə Mehdi Hüseynzadə küçəsinin 2D və 3D görüntüsü

Şəkil 5-dən göründüyü kimi şəhərin Mehdi Hüseynzadə küçəsində (bazarın qarşısında) nəqliyyat vasitələri yolun hərəkət hissəsində parklanma edirlər. Piyada keçidinin də məhz bu ərazidə olması nəqliyyat ləngimələrini artırır.

Mehdi Hüseynzadə küçəsində nəqliyyat vasitələrinin ləngimələrinin minumum həddə endirilməsi üçün yerüstü piyada keçidinin müxtəlif səviyyəli piyada keçidi ilə əvəz olunması və yolun hərəkət hissəsindəki parklama ləğv olunaraq bazar ərazisindəki parklamaya yönəldilməsi məqsədəuyğundur. (şəkil 6).



Şəkil 6. Təklif olunan vəziyyətdə Mehdi Hüseynzadə küçəsinin 2D və 3 D görüntüsü

Mehdi Hüseynzadə küçəsində təklif olunan tədbirlərin tətbiqi nəticəsində nəqliyyat lənigmələrinin simulyasiya sınaqları vasitəsilə alınan qiymətləri cədvəl 5-də göstərilmişdir.

Cədvəl 5.

Təklif olunan vəziyyətdə Mehdi Hüseynzadə küçəsində nəqliyyat lənigmələri

Vaxt	İstiqamətlər	İntensivliklər	Orta lənigmə vaxtı
0-3600	1	707	7,35
0-3600	2	484	4,19

Cədvəl 4 və 5 əsasında mövcud və təklif olunan variantlar üçün nəqliyyat lənigmələrinin müqayisəli qiymətləri Şəkil 7-də verilmişdir.



Şəkil 7. Mövcud və təklif olunan vəizyyətdə Mehdi Hüseynzadə küçəsində nəqliyyat lənginmələri müqayisəsi

Şəkil 7-dən göründüyü kimi Mehdi Hüseynzadə küçəsində nəqliyyat lənginmələri 1-ci istiqamət (N. Gəncəvi küçəsindən X. Natəvan küçəsi istiqamətinə) üzrə 87,83 saniyədən 7,35 saniyəyə, 2-ci istiqamət (X. Natəvan küçəsindən N. Gəncəvi küçəsi istiqamətinə) üzrə 23,08 saniyədən 4,19 saniyəyə endirilmişdir.

Mehdi Hüseynzadə küçəsində parklanma rejiminin təkmilləşdirilməsi üzrə tədbirlərin tətbiq edilməsindən sonra ərazidə hərəkət sıxlığının dəyişməsini göstərən "istilik" xəritəsi şəkil 8-də verilmişdir.



Mövcud



Təklif

Şəkil 8. Göyçay şəhərinin küçə-yol şəbəkəsinin mövcud vəziyyətdə sürət istilik xəritəsi

Şəkil 8-dən görünür ki, Mehdi Hüseynzadə küçəsində (bazarın qarşısında) isə sürət 10-40 km/saat həddləri daxilində dəyişir. Göyçay şəhərinin küçə-yol şəbəkəsində yol hərəkətinin təkmilləşdirilməsi məqsədilə yuxarıda qeyd olunan tədbirlər görüldükdən sonra həmin ərazilərdə müvafiq olaraq sürət 20-50 km/saat və 30-60 km/saata qədər artmışdır.

Nəticə. Göyçay şəhərində aparılan araşdırmalarda müəyyən edilmidir ki, parklanma problemləri əsasən bazar ətrafındakı yolayıclarında yaranır. Əhali arasında aparılan sorğular və şəhər nəqliyyat sisteminin monitorinqi göstərir ki, mövcud parklanma yerlərinin sayının tələbatı ödəməməsi, nəqliyyat ləngimələrinə, təbii ehtiyatların səmərəsiz istifadəsinə və ətraf mühitin daha çox çirklənməsinə səbəb olur.

Şəhərdə parklanma yerləri nəqliyyat vasitələrinin sayına və tələbata uyğun bölüşdürülməmişdir. Mehdi Hüseynzadə küçəsində aparılan ölçmələrlə müəyyən edilən göstəricilər əsasında baxılan ərazidə hərəkətin təşkilinin mövcud və təklif olunan variantlara uyğun qurulmuş simulyasiya modelləri vasitəsilə aparılan sınaqlarda təklif olunan variantın effektiv olduğu və nəqliyyat vasitələrinin ləngimələrinin azalması müşahidə edilmişdir.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az/source/transport/

2. Agnieszka Szumilasa, Paweł Pach; Review of parking policies in the case of medium-sized Polish cities; TRANSCOM 2017: International scientific conference on sustainable, modern and safe transport; doi: 10.1016/j.proeng.2017.06.149

3.Diganta Boro, M. A. Ahmed, Ankur Goswami; Impact of On-Street Parking on Traffic Flow Characteristics;https://www.academia.edu/25582493/Impact_of_On_Street_Parking_on_Traffic_Flow_Characteristics

4.Eka Gandara, Utamy Sukmayu Saputri, Ardin Rozadi, Muhammad Hidayat, Zalavsky Nikolay Ivanovich; Analysis of the Impact of Parking on Traffic Performance on the Roads Around the Cisaat Market; International Journal of Engineering and Applied Technology Vol. 4., No. 1, Mei 2021, pp. 11-23; DOI: 10.52005/ijeat.v4i1.47

5.Mikhail Chester, Arpad Horvath, Samer Madanat; Parking infrastructure: energy, emissions, and automobile life-cycle environmentalaccounting; Environmental Research Letters, Volume 5, Number 3; DOI 10.1088/1748-9326/5/3/034001

6.Oleh Hrytsun, Oleksii Lanets, Serhiy Solodkyy; IMPACT OF STREET PARKING ON DELAYS AND THE AVERAGE SPEED OF TRAFFIC FLOW; Vol. 1, No. 1, 2020; https://doi.org/10.23939/tt2020.01.033

7.Hamid A. Al-Jameel, Muhand Jawad, Hasan H. Jony; Parking Behaviour of Al-Hillah City Centre; IOP Conf. Series: Materials Science and Engineering 888 (2020) 012048; doi:10.1088/1757-899X/888/1/012048

8.Sonya Sulistyono, Harnen Sulistio, Ludfi Djakfar, Achmad Wicaksono, Ririn Endah Badriani; On street parking and its impact on road performance; MATEC Web of Conferences 181, 06008 (2018);https://doi.org/10.1051/matecconf/201818106008

9.Saad Yousif and Purnawan; A STUDY INTO ON-STREET PARKING: EFFECTS ON TRAFFIC CONGESTION; University of Salford, Manchester M5 4WT, United Kingdom; (PDF) On-street parking: Effects on traffic congestion (researchgate.net)

10.Xinliu Sui, Xiaofei Ye, Tao Wang, Xingchen Yan, Jun Chen, Bin Ran; Microscopic Simulating the Impact of Cruising for Parking on Traffic Efficiency and Emission with Parking-and-Visit Test Data; Int J Environ Res Public Health. 2022 Aug; 19(15): 9127; doi: 10.3390/ijerph19159127

УДК 656

АНАЛИЗ И ПУТИ РЕШЕНИЯ ПРОБЛЕМ ПАРКОВКИ В МАЛОМ ГОРОДЕ (НА ПРИМЕРЕ ГОРОДА ГЁЙЧАЙ)

Роял Шохрат оглу Аллахвердиев
Азербайджанский технический университет, Институт логистики и транспорта
г. Баку, пр. Гусейна Джавида, 25
royal.allahverdiyev@aztu.edu.az

Резюме. *В статье анализируются специфические проблемы, связанные с парковкой в малых городах Азербайджана, на основе результатов опроса и мониторинга, проведённых в городе Гёйчай. На основании данных опроса были изучены мнения различных групп населения по организации парковки. В результате мониторинга были выявлены участки города Гёйчай с проблемами парковки и изучено их негативное влияние на организацию дорожного движения. Разработан план мероприятий по организации парковки, который был обоснован с помощью микромодели, созданной в программе PTV Vissim.*

Ключевые слова: *парковочное место, задержки транспорта, скорость движения, пробки, PTV Vissim*

UDC 656

ANALYSİS AND SOLUTİONS OF PARKİNG PROBLEMS İN A SMALL CİTY (THE CASE OF GOYCHAY)

Royal Shohrat oglu Allahverdiyev
Azerbaijan Technical University, Institute of Logistics and Transport
Baku city, Huseyn Javid ave. 25
royal.allahverdiyev@aztu.edu.az

Summary. *This article analyzes specific parking-related issues in small cities of Azerbaijan, using survey and monitoring results from the city of Goychay as primary material. Based on the survey data, public opinions regarding the organization of parking were studied. Monitoring of parking areas revealed zones in Goychay with parking problems and identified their negative impact on traffic organization. A plan of measures for parking management was developed and substantiated using a micromodel created in the PTV Vissim software.*

Keywords: *parking space, traffic delays, travel speed, congestion, PTV Vissim.*

Redaksiyaya daxilolma: 07.09.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.108-112

УДК 601.2
DOI 10.30546/678209.2025.03.099

GEYİM MODELİNİN LAYİHƏLƏNDİRİLMƏSİNDƏ ERQONOMİKA ANLAYIŞI VƏ ONUN FUNKSİYASI

[1]Şakir Rüstəm oğlu Əliyev, [2]Gülnarə Nurəddin qızı Əliyeva, [3]Fərqanə İsfəndiyar qızı Əliyeva [4]Radə İsfəndiyar qızı Əsgərova

Azərbaycan Texnologiya Universiteti
[1]shakiraliyev@atu.edu.az, [2]g.aliyeva@atu.edu.az, [3]f.aliyeva@atu.edu.az
[4]r.asgerova@uteca.edu.az

Xülasə: *Erqonomika insan, obyekt və sistem arasındakı qarşılıqlı əlaqə ilə maraqlanan bir elm sahəsidir. Dizaynın məqsədi, sistem, məhsul, işvə ətraf mühitin, insanın fiziki və zehni qabiliyyətlərinə uyğunluğunu təmin etməkdir. Ölkənin lokomativ sektoru olan moda və hazır geyim sənayesində də dəyişiklik əhəmiyyətli bir ehtiyac olaraq qarşımıza çıxmaqdadır. Davamlı bir ölkə imicini yaradılması və buna bağlı olaraq bir görünüş inkişaf etdirməsi üçün "dizayn" mədəniyyətinin yaradılması böyük əhəmiyyət daşımaqdadır. Həmçinin geyimlərdə xüsusi və fərqli xüsusiyyətlər, eləcə də şəxsi tərifləri axtaran yeni istehlakçı profilinin meydana gəlməsi, dizaynı ən əhəmiyyətli ünsürlərdən biri halına gətirmiş dizaynerlərlər, öz yaradıcılıq qabiliyyətlərini daha irəlilədərək müxtəlif mövzular çərçivəsində fərqli dizaynlar meydana gətirməyə səy göstərmişdilər.*

Açar sözlər*: stimulyasiya, alternativ, emprik, ratifikasiya, lokomativ.*

Giriş. Erqonomikada insan və sənaye məhsulunun kontaktıdaha çox bioloji kontakta və qarşılıqlı olur. Çünki hazırlanmış məmulat onun bədəninin səthinin 80% -ni örtür. Model anlayışı, ilkin olaraq moda sferasında fəaliyyət göstərən insanların yeni yaradıcı nümunələr düşünüb onları kağız üzərinə keçirmələrinə deyilir. Belə ki, model yeni körkəm, forma, material və bəzəkdə istifadə edilən geyimə xas olan bir nümunədir.

Geyim modeli layihələndirilərkən modelyerlər insanın bədən quruluşu, onun tarixi görünüşü, əsas üzvləri, mütənasibliyi, insanın yaradıcılığı, insanın ətraf vəziyyəti, geyimdə xassə və formalarını əsas götürür. Geyim modelləri eləcə də həm yaşlı, həm də uşaqlar üçün modelləşdirilir.

Modelin əsas xüsusiyyətlərindən biri də mövsümə əsasən tərtib edilməsidir. Mövsüm dəyişdikcə və yeni geyim modelləri ərsəyə gəlir. Modanın mövsümünə görə dəyişməsi elə bir vəziyyət yaradır ki, geyim dizaynında yaradıcılıq konsepsiyalarını həyata keçirilməsinin əsas formasını modellərin layihələndireilib, nümayış etdirilməsi ilə reallaşdırmaq vacib olur. Geyim dizaynında yaradıcılıq konsepsiyalarının yaradılması təkcə geyimin öz modellərində olmayıb, həm də həmin modelləri nümayiş etdirən digər modellərin seçilməsi, müəyyən obrazların yaradılması ilə bağlı olur.

Geyim məmulatının keyfiyyəti onun modelinin düzgün işlənməsi və konstruksiyasından asılıdır. Bütün geyim növləri keçmiş dövrlərdən başlayaraq müxtəlif inkişaf mərhələlərini keçərək bu günümüzə gəlib çatmışdır. Geyim bütün dövrlərdə insanın milli, dini, sənət və mülki mənsubiyyətini müəyyənləşdirmişdir.

Geyimin əsas vəzifəsi onu geyinən insanın rahatlığı üçün şərait yaratmaqdan ibarətdir. Buna görə də hazırlanan geyimlərin keyfiyyətinə, elastikliyinə xüsusilə diqqət yetirilməlidir.

Modanın əhəmiyyətli xüsusiyyəti insanın xarici görkəmini həmişə müəyyən mənada incəsənət əsərinə çevirməkdən ibarət olmuşdur. Beləliklə, geyim tarixi və moda vasitəsilə millətlərin sivilizasiyası, adət-ənənələri və iqtisadi vəziyyətləri uzun zaman ərzində öyrənilir.

№ 3/2025 səh.108-112

Mövzunun aktuallığı: Hal-hazırki dövrümüzdə geyim bir çox proseslərdən keçərək ərsəyə gəlir. Əvvəlcə düşünülmüş modelin hazırlanmasında başlıca şərtlər nəzərə alınır. Geyim modelinin layihələndirilməsində istifadə olunan layihə hesabatları, hazırlanan geyim nümunələrinin xüsusiyyətlərinə və insanın quruluşu haqqında informasiyaya əsaslanaraq həyata keçirilir.

Müasir şəraitdə geyim modellərinin layihələndirilməsi zamanı mövcud üsullarla əlavə olaraq eksperimental yoxlamalar aparılır. Layihə, prosesində nöqsansız tikili məmulatların hazırlanması üçün peşəkarlar tərəfindən istehsalın müxtəlif mərhələlərində müxtəlif cür profilaktik tədbirlər həyata keçirilir.

Geyim modelinin layihələndirilməsində ən başlıca diqqət olunan proses kimi məhz erqonomik qaydalara ciddi şəkildə riayət edilir. Məhz erqonomikanın geyim məmulatlarında yaratdığı konfort həmin geyim modelinin layihəsi ilə məşğul olan peşəkarların qarşısında duran ən aktual problemlərdəndir.

Tədqiqatın məqsədi:Modelin layihələndirilməsində erqonomik aspektlərin təsirini tədqiq etməkdir.

Tədqiqat obyekti: Geyim modellərinin hazırlanma prosesində erqonomikanın görünüş funksiyasını təyin edən morfoloji əlamətlərin araşdırılması.

Tədqiqat metodları: Geyim məmulatının keyfiyyəti onun modelinin düzgün işlənməsi və konstruksiyasına əsaslanır.

Materiallar və müzakirələr

Erqonomika "insan-maşın-ətraf mühit" sistemində insanın fəaliyyətini, həmin fəaliyyətdə mövcud olan iş prinsiplərini öyrənir. Ümumiyyətlə istehlakçı tələbləri, dizayn keyfiyyətini inkişaf etdirmə, markalaşma, görünüşü təyin etmə səyləri içində dizayn və yaradıcılıq anlayışlarının ön plana çıxması və iş ehtiyacını doğurmuşdur. Bu ehtiyac dizayn sahəsində xüsusiyyətli insan gücünü axtarmaq üçün dizaynerin və yaradıcılıq ən əhəmiyyətli və axtarılan meyarlardan biri olmuşdur. Eyni zamanda dizayner insanların ehtiyaclarının gözəl bədii və ifadəli formada həyata keçirməyi bacarmalıdır. Burada əsas tələblər kompleksinin estetik xassələrinin düzgün şəkildə tətbiq edilməsindən ibarətdir.

Erqonomika və dizayn ayrı-ayrı iki intizam olmalarına baxmayaraq bir bütünün iki parçası kimi bir-birilərini tamamlayıcı xüsusiyyətə malikdirlər.

Hazır geyim müəssisələrində aparılan erqonomik tənzimləmələr anatomiya və erqonomikanın araşdırılması ilə insan həyatını daha yaxşı şərtlərdə davam etdirmək üçün təşkil edilir.

Modelin layihələndirilməsində erqonomik tənzimləmələr üçün günümüzdə insanın əlindəki ən əhəmiyyətli vasitə yaradılan modellərdir. Hazır geyim istehsalında məhsulun və istehsalın əsas xüsusiyyətlərinin müəyyən edilməsi modelin layihələndirilməsi zamanı reallaşdırılır.

Modelin layihələndirmə prosesində məmulatın təyinat istiqaməti üzrə erqonomik və iqtisadi cəhətdən əsaslandırılmış hesablamalar aparılaraq onun möhkəmliyi, istismar müddəti, ekoloji cəhətdən yararlılığı, istifadə zamanı rahat olması, həmçininiqtisadi xərcləri nəzərə alınır.

Geyim məmulatlarının keyfiyyətcə qiymətləndirilməsində əsas keyfiyyət əlamətləri ilə yanaşı, estetik qiymətləndirilmə xüsusi yer tutur. Geyim məmulatlarının funksional təyinatından irəli gələn formanın sadəliyi, lakomikliyi və ifadəliliyi onun alınma üsulundan, texnoloji keçidlərin sayından, istehsal proseslərinin mexanikləşdirmə və avtomatlaşdırmasından asılıdır. Geyim məmulatlarının rahatlığı, əlverişliliyi isə əsasən onun erqonomik aspektlərindən asılıdır.

Geyim modelinin layihə prosesində erqonomik göstərici məmulatın insana uyğunlaşma dərəcəsini xarakterizə edir. Buradan isə erqonomikanın əsas göstəricisi olan insan-məmulat-mühit anlayışı nəzərə alınır. Belə bir nəticəyə gəlmək olar ki, erqonomika insanın istifadə etdiyi məmulatın yararlılıq cəhətdən onun rahatlılıq cəhətdən bütün tələblərinə tam şəkildə cavab verməsidir. Məhz bu tələblərin yaratdığı meyarlar insanın erqonomik aspektlərə olan ehtiyacını biruzə verir. Bu baxımdan da layihə prosesində keyfiyyətin erqonomik göstəricilərinə diqqət yetiririlməsi vacib şərtlərdəndir.

№ 3/2025 səh.108-112

Çünki erqonomikada əsas göstəricilərdən ən başlıcası məhz məhsulun keyfiyyətinin yüksək olmasından ibarətdir.

Ümumiyyətlə, layihə prosesində keyfiyyətin erqonomik göstəriciləri vasitəsilə elm və texnikadan səmərəli şəkildə istifadə etməklə bir çox mürəkkəb məsələləri həll etmək və nəticədə keyfiyyətli bir məhsul ərsəyə gətirmək mümkündür. Erqonomika layihələndirilən məhsulun vasitəsilə insanın rahatlığı və təhlükəsizliyinin xarakterizə edən bir sahədər. Odur ki, geyim modelinin layihə prosesində keyfiyyətin erqonomik göstəricilərinin vacibliyi nəzərə alınmalıdır ki, keyfiyyət baxımından yüksək səviyyədə olan məhsul əldə edilsin.

Geyim növlərini modelləşdirdikdə bütün hissələrin modelləşməsini tətbiq etmək lazımdır. Ümumiyyətlə, geyimlərin modelləşdirilməsi prosesini həyata keçirməkdən ötəri model haqqında təsəvvür yaratmaq və həmin modeli materialdan hazırlamaq lazımdır. Geyim modelləri layihələndirilərkən, əsasən geyimin növü, hansı mövsümə aid olması, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilir.

Erqonomikada insan və sənaye məhsulunun kontaktı daha çox bioloji kontaktda və qarşılıqlı əlaqədə olur. Çünki hazırlanmış məmulat onun bədəninin səthinin 80%-ni örtür. İnsanın geyimə qarşılıqlı hərəkəti istiyə, soyuğa, təzyiqə, əzələ gərilməsinə qarşı hissiyyat yaradır.

Sənaye məmulatının konstruksiyasında erqonomikanın görünüş funksiyasını təyin edən əsas morfoloji əlamətlər “rahatlıq” və “komfort” anlayışı ilə izah olunur. Buna görə də erqonomik görünüş funksiyasını təyin edən əsas morfoloji əlamətlər insan geyim sistemində daha məqsədyönlü konkret göstəricilərdən istifadə edilərək müəyyənləşir.

Erqonomikanın görünüş funksiyasını məmulatın təyinatı üzrə istismar qabiliyyətini xarakterizə edən kompleks göstəricisidir. Erqonomikanın görünüş funksiyasını təyin edən göstəricilər isə antropometrik göstəricilər hesab edilir.

Nəticə

Geyim məmulatlarını formalaşdıran amillər əsas olaraq geyimin başlıca strukturunun həmin geyimin modelinin layihələndirilməsi təşkil edir. Bu səbəbdən də geyim modelinin layihələndirilməsi prosesinin dünya standartı tələblərinə uyğun səviyyəyə qaldırmaq üçün ilk əvvəl maddi texniki baza yaratmalı, müasir texnikaya cavab verən avadanlıqlardan istifadə edilməli və daha çox sayda geyim istehsalı ilə məşğul olan sənaye müəssisələri fəaliyyətə başlamalıdır. Geyim modelinin layihələndirmə prosesində tikiş sənayesinin erqonomikasının daha dəqiq şəkildə tətbiqi insanın gündəlik həyatında daha rahat şəkildə hərəkətinə imkan yaradır. Odur ki, erqonomika sahəsinə diqqətin verilməsi və həmin sahənin elmi və praktiki cəhətdən inkişaf etdirilməsi vacib şərtlərdən biridir.

Geyim modelləri layihələndirilərkən əsasən geyimin növü, hansı mövsümə aid olması, istifadə edilən materiallar, rahatlılıq baxımından erqonomik qaydalardan asılı olaraq tərtib edilməlidir.

Tədqiqat işinin yeniliyi: Tikiş sənayesində erqonomikanın xüsusiyyətlərinin tətbiqi vasitəsi ilə dizaynerlərin qarşısında bir növ məqsədə çevrilmiş, istehlakçıların estetik zövqünü əks etdirən və milli etnik xüsusiyyətlər ilə müasir geyimi birləşdirərək yeni kolleksiyaların yaradılması məsələləri vasitəsi ilə dünya tikiş sənaye sferasında müəyyən yer tutmağa kömək edə bilər.

Tədqiqat işinin tətbiqi əhəmiyyəti: İrəli sürülən erqonomik təhlil və təkliflər Azərbaycanda fəaliyyət göstərən geyim istehsalı və layihələndirilməsi ilə məşğul sənaye müəssisələrində, tikiş sənayesində istifadə oluna bilər.

Tədqiqat işinin iqtisadi səmərəsi: Geyimin modelləşdirilməsi əsasında tikiləcək geyimin rahat, müsbət estetik görünüşlü, erqonomik tələbatlara cavab verən, dövrün ən son dəbi ilə ayaqlaşmasına əsasən gələcək dizaynerlərin geyimi modelləşdirərkən sadalanan şərtlərin yerinə yetirilməsinə dair istiqamət verəcək.

ƏDƏBIYYAT

1. Коблякова Е.Б. Основы конструирования одежды. М.: Легкая промышленность, 1980.-294с.
2. Эргодизайн теория и практика / под, ред. В.И. Кулякина, Л.Д. Чайновой.-М.: ВНИНТЕ 2008.-195с.

№ 3/2025 səh.108-112

3. Владимир Зенченко, Владимир Мужиков. Эргономика Москва 2001.-237с.
4. Шершнева Л.П. Ларкина Л.В. Конструирование одежды. - М: 2006. - 97 с.
5. Андрей Харченко, Борис Смирнов, Юрий Гульый. Эргономическая аценка систем человек-мамина. 2014.-208с.

УДК 601.2

ПОНЯТИЕ ЭРГОНОМИКИ ПРИ ПРОЕКТИРОВАНИИ МОДЕЛИ ОДЕЖДЫ И ЕЕ ФУНКЦИИ

[1]Шакир Рустам оглы Алиев , [2]Гульнара Нуреддин кызы Алиева
[3]Фаргана Исфандияр кызы Алиева, [4]Рада Исфандияр кызы Аскерова
Азербайджанский Технологический Университет
[1]shakiraliyev@atu.edu.az, [2]g.aliyeva@atu.edu.az, [3]f.aliyeva@atu.edu.az
[4]r.asgerova@uteca.edu.az

Резюме: *Эргономика — это область науки, изучающая взаимодействие людей, объектов и систем. Цель Дизайна-обеспечить соответствие системы, продукта, работа, и окружающей среды физическим и умственным способностям человека. Изменения также сталкиваются с серьезной потребностью в индустрии моды и готовой одежды, ведущем секторе страны. Большое значение имеет создание культуры "дизайна" для создания устойчивого образа страны и, соответственно, для развития образа. Кроме того, появление нового потребительского профиля в одежде в поисках особых и отличительных черт, а также личных определений сделало дизайн одним из наиболее важных элементов, дизайнеры стремились создавать разные дизайны в рамках различных тем, продвигая свои творческие способности дальше.*

Ключевые слова: *стимуляция, альтернатива, эмпирический, ратификация, локомоторный.*

UDC 601.2

THE CONCEPT OF ERGONOMICS IN DESIGNING A GARMENT MODEL AND ITS FUNCTIONS

[1]Shakir Rustam Aliyev, [2]Gulnara Nuraddin Aliyeva, [3]Farqana Isfandiyar Alieva
[4]Rada Isfandiyar Askerova
Azerbaijan Technological University
[1]shakiraliyev@atu.edu.az, [2]g.aliyeva@atu.edu.az, [3]f.aliyeva@atu.edu.az
[4]r.asgerova@uteca.edu.az

Summary: *Ergonomics is the field of science that studies the interaction of people, objects, and systems. The goal of Design- to ensure that the system, product, work, and environment are suited to the physical and mental abilities of human beings. The change also faces a serious need in the fashion and ready-to-wear industry, the country's leading sector. Of great importance is the creation of a culture of 'design' to create a sustainable image of the country and consequently to develop the image. In addition, the emergence of a new consumer profile in clothing in search of special and distinctive features as well as personal definitions has made design one of the most important elements, designers have endeavoured to create different designs within different themes, pushing their creativity further.*

Keywords: *stimulation, alternative, empirical, ratification, locomotor.*

Redaksiyaya daxilolma: 07.06.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.108-112

УДК
DOI 10.30546/678209.2025.03.0103

SƏNAYE MÜƏSSISƏLƏRINDƏ SÜNI INTELLEKT (Aİ) VƏ MAŞIN ÖYRƏNMƏSI (ML) TEXNOLOGIYALARININ ƏHƏMIYYƏTI VƏ NƏZƏRI-METODOLOJI ASPEKTLƏRI

[1]Mehriban Rövşən Huseynova, [2]Mais Amil Namazlı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

[1]huseynova.mehriban.89@gmail.com, [2]mais.namazli@gmail.com

Xülasə. *Müasir dövrdə sənaye müəssisələrində informasiya texnologiyalarının tətbiqi diqqətə layiqdir. İnformasiya texnologiyalarının sənaye müəssisələrində tətbiqi səmərəliliyi və mənfəət potensialını artırır. İT-nin tətbiqi sənaye müəssisələrinin qlobal bazarlarda rəqabət qabiliyyətini artırır. Müasir texnologiyalar, o cümlədən İoT (İnternet of Things) və bulud hesablaması (cloud computing), müəssisələrin iş proseslərini çevikləşdirir və onları beynəlxalq bazarlarda daha rəqabətli edir.*

Açar sözlər: *süni intellekt, sənaye müəssisələri, bulud hesablaması, müasir texnologiyalar.*

Giriş.Süni intellekt (Aİ) insanın təfəkkür və təcrübələrini kompüterlər vasitəsilə təqlid etmək cəhdidir. Aİ-nin tarixi, bu sahənin necə inkişaf etdiyini və bu günə gəlib çatdığını izah edir. Süni intellektin tarixini bilmək Aİ -nin indi harada olduğunu və gələcəkdə hara gedə biləcəyini anlamaq üçün vacibdir. Kompüterlərin və onların necə işlədiyini öyrənməyə çox vaxt kompüter elmləri deyilir və tez-tez informatika adlanır. Buraya problemlərin həlli yolları, öyrənmə və uyğunlaşma sistemi (süni intellekt), proqram təminatının inkişafı və sınaqdan keçirilməsi, kompüterlərin kibertəhlükələrdən qorunması daxildir.

İnformasiya texnologiyalarının tətbiqi rəqəmsal transformasiyanı genişləndirir. Bu da məhsuldarlığın artmasına, iqtisadi inkişafa gətirib çıxarır. İnformasiya texnologiyalarının tətbiqi müəssisələrin xərclərini azaltmaq, məhsuldarlığı artırmaq və yeni bazarlara çıxma üçün vacibdir (Porter& Heppelman, 2015).

Kompüter proqramlaşdırmasında siz kompüterin Python, Java və ya C++ kimi bir dildən istifadə edərək tapşırığı yerinə yetirmək üçün uyğunlaşa biləcəyi təlimatlar yazırsınız. Proqram vasitələri, proqram təminatı və Vebsayt oyununun inkişafı üçün sənədlərin yazılması, kodların yazılması və nəzərdən keçirilməsi lazımdır. Front-end tərtibatçıları proqramın istifadəçilərin gördüyü və qarşılıqlı əlaqədə olduğu hissələrinə, back-end tərtibatçıları isə proqramın istifadəçilərin gördüyü və qarşılıqlı əlaqədə olduğu hissələrinə diqqət yetirirlər. Back-end tərtibatçıları serverlər və verilənlər bazası kimi back-end komponentləri üzərində işləyirlər.

Primitiv Məlumat Strukturları tam ədədlər, üzən nöqtəli ədədlər, simvollar və məntiq kimi vahid dəyərləri təmsil etmək üçün proqramlaşdırma dilləri tərəfindən təmin edilən əsas məlumat strukturlarıdır. Mücərrəd məlumat strukturları məlumat strukturları yaratmaq üçün istifadə edilə bilən qabaqcıl əməliyyatlardan istifadə etməklə qurulmuş daha yüksək səviyyəli məlumat strukturlarıdır. Mücərrəd məlumat strukturlarının bəzi ümumi nümunələrinə massivlər, əlaqəli siyahılar, iyerarxik ağaclar və cədvəllər daxildir.

Alqoritm:

Alqoritm nədir? Alqoritm müəyyən bir problemi həll etmək və ya müəyyən bir məqsədə çatmaq üçün addım-addım təlimatdır.

№ 3/2025 səh.108-112

Bir kağız parçasına yazılmış yemək resepti bir alqoritmin nümunəsidir, burada məqsəd müəyyən bir şam yeməyi hazırlamaqdır. Müəyyən bir şam yeməyi hazırlamaq üçün lazım olan addımlar dəqiq təsvir edilmişdir.

Şəbəkə nədir?

Şəbəkə rabitə əlaqələri vasitəsilə bir-birinə bağlanan cihazların məcmusudur. Şəbəkə iki və ya daha çox kompüter bir-birinə qoşulduqda yaradılır. Bir qovşaq kompüter, printer və ya şəbəkədəki digər qovşaqlar tərəfindən yaradılan məlumatları göndərə və qəbul edə bilən hər hansı digər cihaz ola bilər.

Şəbəkələr Lokal Şəbəkələr, Geniş Sahə Şəbəkələri, Metropolitan Şəbəkələr və Wi-Fi və mobil şəbəkələr kimi simsiz şəbəkələr daxil olmaqla bir neçə növə təsnif edilə bilər.

Məlumatların internet üzərindən uzaqdan saxlanması və emalı bulud texnologiyalarının inkişafına imkan verir. Bulud texnologiyasına daha yaxından nəzər salaq.

Bulud hesablama hesablama resurslarının təmin edilməsinə aiddir. Bulud hesablama, hesablama resurslarına - fiziki serverlərə və ya virtual serverlərə, məlumatların saxlanmasına, şəbəkə imkanlarına, proqram inkişaf etdirmə alətlərinə, proqram təminatına, süni intellektlə işləyən analitik alətlərə və s. - istifadəyə görə ödəniş qiymətləri ilə internet üzərindən tələb olunan çıxışdır.

Bulud hesablama modeli müştərilərə ənənəvi yerli infrastrukturla müqayisədə daha çox çeviklik və miqyaslılıq təklif edir.

Google Gmail kimi bulud proqramına daxil olmaq, Netflix-də film yayımlamaq və ya buludda yerləşən video oyun oynamaqdan asılı olmayaraq, bulud hesablamaları gündəlik həyatımızda mühüm rol oynayır.

Bulud hesablama kiçik biznesdən tutmuş qlobal müəssisələrə qədər biznes sahələrində də əvəzolunmaz hala gəldi. Bir çox biznes proqramlarında uzaqdan iş istənilən yerdən məlumatlara və proqramlara daxil olmağa, müştəri cəlbetmə paneli yaratmağa və müştəriləri prosesə cəlb etməyə imkan verir.

Bu texnologiyaların inkişafı ilə daha çox cihazın bir-biri ilə əlaqələnməsi təmin edilir. Bu da bizi Əşyaların İnterneti mövzusuna gətirir.

IoT müxtəlif cihazların bir şəbəkə üzərindən bir-biri ilə əlaqə saxlamasına imkan verir. Məsələn, siz evinizin smart cihazlarını smartfonunuzdan idarə edə bilərsiniz.

Bir çox cihazın bağlı olması onları təhlükəsiz saxlamaq üçün kibertəhlükəsizlik həllərini tələb edir. İndi gəlin kibertəhlükəsizliyə baxaq, kibertəhlükəsizlik nədir?

Kibertəhlükəsizlik sistemlər və şəbəkələrlə bağlıdır. Bu, proqramı kiberhücumlardan qoruyan xüsusiyyətdir. Bu kiberhücumlar çox vaxt həssas məlumatlara giriş, kompromis və açıqlanmanı əhatə edir.

Effektiv kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsi bu gün xüsusilə çətindir.

Kiber təhlükəsizlik tədbirləri ilə qorunan rəqəmsal texnologiyalar və innovasiyalar yeniliklərə yol açır. İndi bu yeniliklərə diqqət yetirək.

Rəqəmsal texnologiyalar artıq daxili mühitimizin ayrılmaz hissəsinə çevrilib. Seçim texnologiyanın tikilmiş aktivdə nə vaxt və ya istifadə olunmayacağı deyil, onun nə dərəcədə istifadə ediləcəyidir. Bina Məlumat Modelləşdirməsi (BIM), əlavə reallıq, dronlar, 3D çap və məlumat analitikası sektorda geniş yayılmışdır.

Rəqəmsal texnologiyaların tətbiqi sənayeyə məhsuldarlığı artırmaq, səmərəliliyi artırmaq və daha gənc, müxtəlif işçi qüvvəsini cəlb etmək üçün unikal imkanlar təqdim edir.

Bununla belə, şirkətlər uzunmüddətli perspektivdə ənənəvi podratçılar və təchizatçıları əvəz edə biləcək yeni texnologiyaların tətbiqi ilə bağlı ciddi çətinliklərlə üzləşirlər. Bundan əlavə, bu yeni texnologiyalardan maksimum yararlanmaq üçün onların sektora inteqrasiyası üçün bacarıqların inkişaf etdirilməsi planı tələb olunacaq.

Biz rəqəmsal texnologiyaların inkişafını təşviq edirik və onların sektorun məhsuldarlığına, bacarıq bazasına və keyfiyyətinə təsirini tanıyırıq. Bununla belə, sənaye texnoloji nailiyyətləri mənimsəmək üçün lazım olan bacarıqlara malik deyilsə və kifayət qədər hazırlığı olmayan işçilər təlim

№ 3/2025 səh.108-112

almadıqları avadanlıqdan istifadə edə bilmirsə, zərər çəkəcək.

Rəqəmsal texnologiya və innovasiya yeni texnologiyaların yaradılmasını və inkişafını nəzərdə tutur. Bu, mövcud texnologiyaların daha da inkişaf etdirilməsi və yeni imkanların araşdırılması deməkdir.

Bu yeniliklər böyük verilənlər və analitika üçün yeni imkanlar yaradır. Keçək böyük verilənlərə və verilənlərin təhlilinə.

Data Analitika xam məlumatların təhlili və bu məlumat haqqında nəticələrin tapılması prosesinə aiddir. Xam məlumatların alınmasına və onlardan qiymətli fikirlər əldə etmək üçün onları araşdıraraq nümunələri aşkar etməyə kömək edir. Data analitikasının arxasında məqsəd məhsuldarlığı və biznes qazancını artırmaqdır. Bu, şirkətlərə müştərilərini daha yaxşı başa düşməyə, strategiyaları buna uyğun planlaşdırmağa və məhsullar inkişaf etdirməyə kömək edir. Təsviri, diaqnostik, proqnozlaşdırıcı və təyinedici məlumat analitikasının dörd əsas növüdür.

Böyük verilənlər verilənlərin təhlili həllərinə necə uyğun gəlir?

Big Data təşkilatlara fikirlər əldə etmək və qərar qəbulunu dəstəkləmək üçün istifadə oluna bilən böyük həcmli məlumatlarla təmin etməklə məlumat analitikası həllərində mühüm rol oynayır.

Hadoop, Spark və NoSQL verilənlər bazaları kimi məlumat analitikası həlləri xüsusi olaraq böyük həcmdə verilənləri idarə etmək üçün nəzərdə tutulub və böyük həcmdə verilənləri paylanmış və paralel şəkildə emal etmək, saxlamaq və təhlil etmək üçün istifadə edilə bilər.

Bundan əlavə, Big Data strukturlaşdırılmış məlumatlar, yarı strukturlaşdırılmış məlumatlar və strukturlaşdırılmamış məlumatlar kimi digər məlumat mənbələri ilə inteqrasiya oluna bilər, təşkilatın məlumat mənzərəsinin vahid görünüşünü formalaşdırır ki, bu da daha dəqiq proqnozlara, daha yaxşı qərar qəbul etməyə və daha effektiv nəticələrə səbəb ola bilər.

Big data data analitik həllərin mühüm elementidir və data analitika həlləri xüsusi olaraq böyük verilənləri idarə etmək və ondan qiymətli fikirlər çıxarmaq üçün nəzərdə tutulub.

Böyük verilənlər böyük həcmli məlumatlara, eləcə də zamanla məlumatların həcminin sürətli artımına aiddir. O, çox böyük və mürəkkəb olan strukturlaşdırılmış, strukturlaşdırılmamış və yarı strukturlaşdırılmış məlumatları ehtiva edir və heç bir ənənəvi məlumat idarəetmə vasitəsi ilə idarə oluna bilməz. Verilənləri saxlamaq və emal etmək üçün xüsusi böyük verilənlərin idarə edilməsi vasitələrinə ehtiyac var. Ölçü, sürət və müxtəliflik böyük verilənlərin əsas xüsusiyyətləridir. Birjalar, məlumat anbarları, sensorlar, sosial media saytları, reaktiv mühərriklər və s. böyük verilənlərin müxtəlif mənbələridir.

“Süni intellekt” ideyası həyat və ölüm suallarını nəzər yetirən ən qədim filosoflara min illər əvvələ gedib çıxır. Qədim dövrlərdə ixtiraçılar mexaniki və insan müdaxiləsindən asılı olmayaraq hərəkət edən “avtomat” adlanan şeylər düzəldirdilər. “Avtomat” sözü qədim yunan dilindən gəlir və “öz iradəsi ilə hərəkət etmək” deməkdir. “Sənaye müəssisələrində informasiya texnologiyalarının tətbiqi perspektivinin iqtisadi aspektləri” mövzusunun aktuallığı müəssisələrin iqtisadi inkişafı üçün böyük 7 əhəmiyyət kəsb edir. Tədqiqat işinin nəticələri müasir dövrdə iqtisadi inkişafa nail olmaq üçün vacib istiqamətləri müəyyənləşdirməyə kömək edir.

Bu gün şirkətlər süni intellekt proqramlarını tətbiq edərkən, çox güman ki, maşın öyrənməsindən istifadə edirlər - o qədər ki, terminlər tez-tez bir-birini əvəz edir, bəzən isə qeyri-müəyyən mənada istifadə olunur. Maşın öyrənməsi, kompüterlərə açıq şəkildə proqramlaşdırılmadan öyrənmək imkanı verən süni intellektin alt sahəsidir.

Aİ üçün əsaslar:

1900-cü illərin əvvəllərində süni insan ideyası ətrafında cəmlənmiş bir çox media yaradıldı. O qədər ki, hər növ elm adamları sual verməyə başladılar: süni beyin yaratmaq mümkündürmü? Bəzi yaradıcılar hətta indi “robotlar” dediyimiz (və bu söz 1921-ci ildə Çex oyununda işlənmişdir) bəzi versiyalarını belə hazırlamışlar, baxmayaraq ki, əksəriyyəti nisbətən sadə idi. Bunlar əksər hallarda buxarla işləyirdi və bəziləri üz ifadələri yarada və hətta yeriyə bilirdi.

Süni intellekt qışı zamanı maliyyə çatışmazlığına baxmayaraq, 90-cı illərin əvvəlləri süni intellektlə bağlı tədqiqatlarda, o cümlədən hakim dünya çempionu şahmatçını məğlub edə biləcək ilk

№ 3/2025 səh.108-112

süni intellekt sisteminin tətbiqi ilə bağlı bəzi təsirli addımlar göstərdi. Bu dövr həm də ilk Roomba və Windows kompüterlərində satışda olan ilk nitqin tanınması proqramı kimi yeniliklər vasitəsilə Aİ -ni gündəlik həyata daxil etdi.

2000: Professor Cynthia Breazeal, gözləri, qaşları, qulaqları və ağzını əhatə edən üzü ilə insan duyğularını simulyasiya edə bilən ilk robotu inkişaf etdirdi və onun adını Qismət olaraq qeyd etdi.

2010: Microsoft bədən hərəkətini izləmək və onu oyun istiqamətlərinə çevirmək üçün nəzərdə tutulmuş ilk oyun aparatı olan Xbox 360 Kinect-i təqdim etdi.

2015: Elon Musk, Stephen Hawking və Steve Wozniak (və 3000-dən çox başqaları) müharibə məqsədləri üçün muxtar silahların hazırlanmasını (və sonradan istifadəni) qadağan edən dünyanın hökumət sistemlərinə açıq məktub imzaladılar.

2021: OpenAI, AI-ni vizual dünyanı anlamağa bir addım daha yaxınlaşdıraraq, dəqiq başlıqlar yaratmaq üçün kifayət qədər şəkilləri emal edə və anlaya bilən DALL-E-ni inkişaf etdirdi.

Gələcək nə gözləyir?

İndi bu günə qayıdırıq, yəqin ki, ağlınızda təbii növbəti sual var: onda Aİ üçün bundan sonra nə gəlir?

Biz heç vaxt gələcəyi tam olaraq proqnozlaşdıra bilmərik. Bununla belə, bir çox aparıcı ekspert süni intellektin mümkün gələcəkləri haqqında danışır, buna görə də biz savadlı təxminlər edə bilərik. Bütün ölçülü müəssisələr tərəfindən süni intellektin daha da mənimsənilməsini, daha çox avtomatlaşdırmanın bərabər ölçüdə iş yerlərini aradan qaldırması və yaratması, daha çox robot texnikası, avtonom nəqliyyat vasitələri və sair kimi işçi qüvvəsində dəyişikliklərin şahidi ola bilərik.

Maşın öyrənməsi chatbotların və proqnozlaşdırılan mətnin, dil tərcümə proqramlarının, Netflix-in sizə təklif etdiyi şouların və sosial media lentlərinizin necə təqdim olunduğunun arxasındadır. O, görüntülərə əsaslanaraq tibbi vəziyyətləri diaqnoz edə bilən avtonom nəqliyyat vasitələri və maşınları gücləndirir.

MIT Sloan professoru Tomas V. Malone, MİT Kollektiv Kəşfiyyat Mərkəzinin qurucu direktoru, "Sadəcə son beş və ya 10 ildə maşın öyrənməsi kritik bir yola, şübhəsiz ki, ən vacib üsula çevrildi, süni intellektin əksər hissələri edilir və ona görə də bəzi insanlar süni intellekt və maşın öyrənməsi terminlərini demək olar ki, sinonim kimi istifadə edirlər. Aİ -də mövcud olan nailiyyətlərin əksəriyyəti maşın öyrənməsi ilə bağlıdır." dedi.

Maşın öyrənməsinin getdikcə genişlənməsi ilə, biznesdəki hər kəs çox güman ki, onunla qarşılaşacaq və bu sahə ilə bağlı bəzi iş biliklərinə ehtiyac duyacaq.

2020-ci ildə Deloitte sorğusu göstərdi ki, şirkətlərin 67%-i maşın öyrənmə üsulundan istifadə edir, 97%-i isə ondan gələn il istifadə edir və ya istifadə etməyi planlaşdırır.

Maşın öyrənməsi izahı

Süni intellekt sistemləri insanların problemləri necə həll etdiyinə bənzər şəkildə mürəkkəb vəzifələri yerinə yetirmək üçün istifadə olunur.

Baş tədqiqatçı alim və CSAIL-də InfoLab Qrupunun rəhbəri Boris Katzın sözlərinə görə, süni intellektin məqsədi insanlar kimi "ağıllı davranışlar" nümayiş etdirən kompüter modelləri yaratmaqdır. Bu, vizual səhnəni tanıyan, təbii dildə yazılmış mətni başa düşə bilən və ya fiziki dünyada hərəkəti yerinə yetirə bilən maşınlar deməkdir.



Maşın öyrənməsi Aİ -dən istifadə etməyin bir yoludur. O, 1950-ci illərdə süni intellekt üzrə qabaqcıl Artur Samuel tərəfindən "kompüterlərə açıq şəkildə proqramlaşdırılmadan öyrənmək imkanı

verən bir sahə” olaraq təyin edilmişdir.

ƏDƏBİYYAT

1. B.Y.Bagde, B.S.Umre, Security constrained economic dispatch 2017 International Conference on Energy, Communication, Data Analytics and Soft Computing, ICECDS 2017, 2018
2. E.Karanina, K.Kartavyh, MATEC Web of Conferences, 2018
3. Kate Crawford, The Atlas of AI: Power, Politics, and the Planetary Costs of Artificial İntelligence, 2021
4. https://itstart.az/blogs/it-sahesine-nece-baslamali
5. https://texno.blog/informasiya-texnologiyalariit-nedir

УДК

ЗНАЧЕНИЕ И ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА (ИИ) И МАШИННОГО ОБУЧЕНИЯ (МО) НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ

Мехрибан Ровшан Гусейнова, Маис Амил Намазлы
Азербайджанский Государственный Университет Нефти и Промышленности
[1]huseynova.mehriban.89@gmail.com, [2]mais.namazli@gmail.com

Резюме.*В наше время заслуживает внимания применение информационных технологий на промышленных предприятиях. Применение информационных технологий на промышленных предприятиях повышает эффективность и потенциал прибыли. Внедрение информационных технологий повышает конкурентоспособность промышленных предприятий на мировых рынках. Современные технологии, в том числе IoT (Интернет вещей) и облачные вычисления, делают бизнес-процессы гибкими и повышают их конкурентоспособность на международных рынках.*

Ключевые слова: *искусственный интеллект, промышленные предприятия, облачные вычисления, современные технологии.*

UDC

IMPORTANCE AND THEORETICAL-METHODOLOGICAL ASPECTS OF ARTIFICIAL INTELLIGENCE (AI) AND MACHINE LEARNING (ML) TECHNOLOGIES IN INDUSTRIAL ENTERPRISES

Mehriban Rovshan Huseynova, Mais Amil Namazli
Azerbaijan State Oil and Industry University
[1]huseynova.mehriban.89@gmail.com, [2]mais.namazli@gmail.com

Summary.*Nowadays, the use of information technology in industrial enterprises deserves attention. The use of information technology in industrial enterprises increases efficiency and profit potential.The introduction of information technologies increases the competitiveness of industrial enterprises in world markets. Modern technologies, including IoT (Internet of Things) and cloud computing, make business processes flexible and increase their competitiveness in international markets.*

Keywords: *artificial intelligence, industrial enterprises, cloud computing, modern technologies.*

Redaksiyaya daxilolma: 13.06.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.108-112

UOT 65613
DOI 10.30546/678209.2025.03.0108

YERÜSTÜ NƏQLİYYAT VASİTƏLƏRİNDƏ YANACAQ SƏRFİYYATININ AZALDILMASININ ƏSAS HƏLLİ YOLLARI

[1]Namiq rza oğlu Əsgərov [2]Fərhad Ədil oğlu Vəliyev,
[3]Səttar Rizvan oğlu İbrahimov [4]Pərvin Mehman oğlu İsrafilzadə, [5]Kamil Fərhad oğlu Vəlizadə

Azərbaycan Texnologiya Universiteti
[1]farhadvaliyev.tmm@gmail.com,[2]ibrahimovsettar2@gmail.com,[3]pervinisrafilzade@gmail.com

Xülasə: *Məqalədə yerüstü nəqliyyat vasitələrinin (YNV) yanacaq sərfiyyatına təsir edən amillər araşdırılaraq yanacaq sərfiyyatının azaldılmasının asas istiqamətləri müəyyən edilmişdir. Yanacaq sərfiyyatının azaldılmasının əsas istiqamətləri kimi YNV-nın konstruksiyalarının təkmilləşdirilməsi, istismar amillləri və digərləri göstərilmişdir.*

Açar sözlər: *Yanacaq, sərfiyyat, konstruksiya, istismar amili, mühərrik, güc, sürət.*

Yanacaq əsas istismar materialı olaraq avtomobil nəqliyyatında böyük miqdarda istifadə edilir. Neft məhsullarının ümumi sərfiyyatının 20%-i avtomobil nəqliyyatının payına düşür. Yanacağın qiyməti daşımalar üzrə ümumi xərcin 30-50%-ni təşkil edir. Buna görə də yanacaq maksimum dərəcədə qənaətlə istifadə edilməlidir. Onun itkisinə və lüzumsuz məsrəfinə yol verilməməlidir.

Yanacaq və yağlama materiallarina qənaət edilməsi daşımaların maya dəyərinin azaldılması ilə yanaşı, həm də ölkənin enerji resurslarının qorunması kimi ümumxalq əhəmiyyəti vardır. Ona görədə yanacağın qənaətli və səmərəli istifadəsinə yönəldilmiş tədbirlər həyata keçirilməlidir. Belə tədbirlər həm ilkin mərhələlərdə, həm də saxlanma, paylanma, daşınma və avtomobilin istismar prosesində tətbiq edilməlidir.

Avtomobil parkının sürətli inkişafı yanacağa və digər neft məhsullarına olan tələbatın yüksəlməsinə səbəb olmuşdur. Ona görə də nəqliyyat müəssisələrində neft məhsullarının qənaət olunmasına yönəldilmiş bütün tədbirlər (yanacaq sərfinin dəqiq uçotu, işin növünə görə yanacaq sərfinin müntəzəm təhlilli, yanacağın daşınmasının və saxlanmasının təşkili, mexanikləşdirilmiş yanacaq - doldurma məntəqələrinin yaradılması, mühərrikin sistem və mexanizmlərinə keyfiyyətli texniki xidmət və diaqnostika işlərinin təşkili və s.) çox aktualdır. YNV-nın konstruksiyalarının və istismar göstəricilərinin yanacaq sərfiyyatına təsirinin öyrənilməsi məsələsidə böyük əhəmiyyət kəsb edir, çünki avtomibilin konstruksiyasının təkmil olması onun yanacaq sərfiyyatına görə qiymətlədirilir. [1],[2]

Energetik problemlərin həlli yolunda yanacaqdan və enerjidən qənaətli və səmərəli istifadə olması əsas istiqamətlərdən biridir. Yanacaqlara qənaət etmək, avtomobillərin istismar səmərəliliyinin artırılması ilə yanaşı enerji ehtiyyatlarının qorunması sahəsindədə mühüm amillərdən biridir.
Yerüstü nəqliyyat vasitələrinin (YNV) konstruksiyasının və istismar göstəricilərinin yanacaq sərfiyyatına təsirinin öyrənilməsi məsələsi böyük əhəmiyyət kəsb edir. [1],[2]

YNV - nin yanacaq qənaətliliyini xarakterizə edən əsas göstəricilərdən biri yanacaq qənaətliliyi xarakteristikasıdır. Yanacaq qənaətliliyi xarakteristikası müxtəlif yol müqaviməti əmsalına malik yollarda, müntəzəm hərəkət şəraitində, yol yanacaq sərfinin (vahid uzunluğa malik yolda) hərəkət sürətindən asılılığının qrafiki təsviridir. YNV-nin sürətlər qutusunun ixtiyari pilləsi üçün yanacaq qənaətliliyi xarakteristikası qrafikinə müraciət edək.(şəkil 1.)



Şəkil 1. Yanacaq qənaətliliyi xarakteristikası

Qrafikdə göstərilən əyrilərin hər biri ayrı-ayrı yol müqaviməti əmsalına uyğun gəlir. Əyrilərin xarakteri göstərir ki, 100 km yürüşə yanacaq sərfi müxtəlif hərəkət sürətlərində, verilmiş pillə üçün yol şəraitindən asılıdır. Yol müqaviməti əmsalları artan ardıcıllıqla ($\psi_1 < \psi_2 < ...$) düzülmüşdür. Qrafikdən görünür ki, yol müqavimət əmsalının artması ilə müəyyən pillədə YNV - nin maksimum sürəti azalır. Əyrilər çoxluğunu yuxarı - sağ tərəfdən qapayan əyri, mühərrikin dirsəkli valının uyğun bucaq sürətində maksimum yanacaq sərfini müəyyən edən nöqtələrin həndəsi yeridir. C-C əyrisi ilə ən qənaətli sürətə uyğun gələn 100 km - ə sərf edilən yanacağın miqdarı göstərilmişdir.

YNV - nin sürəti atrdıqda yol yanacaq sərfi norması əvvəlcə bir qədər azalır, hərəkət şəraitindən asılı olaraq, müəyyən sürətdə minimum qiymət alır. Minimum yol yanacaq sərfinə uyğun gələn sürət, optimal hərəkət sürətidir.(V_{opt}). Optimal hərəkət sürətindən böyük sürətlərdə yol yanacaq sərfi daha da artır. Bu işçi qarışığı zənginləşdirən əlavə dozalandırıcıların işə düşməsi və effektiv f.i.ə.- nin azalması ilə əlaqədardır. Optimal sürətlərdən kiçik sürətlərə keçdikdə yol yanacaq sərfinin artması həm mexaniki f.i.ə. - nin azalması, həmdə işçi qarışığın silindrlərdə yanma şəraitinin pisləşməsi ilə izah edilə bilər. [2],[3]

Yanacaq qənaətliliyi xarakteristikasından görünür ki, aşağı sürət intervalında sürətin artması ilə yanacaq sərfi azalır, minumum həddinə çatır, sonra isə əhəmiyyətli dərəcədə artır.

Kiçik sürətlərdə havanın müqaviməti çox da böyük deyil və yanacaq qənaətliliyinə demək olar ki, təsir göstərmir. Bu halda əsas təsir göstərən amil xüsusi yanacaq sərfidir. Bu da kiçik sürətlərdə gücdən istifadə edilmə dərəcəsinin kiçik olması ilə əlaqədardır. [3]

Sürət artdıqda mühərrikin gücündən istifadə dərəcəsi artır, bununla əlaqədar olaraq yol yanacaq sərfi də azalmış olur. Müəyyən sürətdən sonra havanın müqaviməti yanacaq sərfinə əhəmiyyətli dərəcədə təsir göstərməyə başlayır və yanacaq sərfinin artması sürətlənir. Bu halda xüsusi yanacaq sərfinin dəyişməsi yol yanacaq sərfinə az təsir göstərir.

Aparılan nəzəri tədqiqatlar və müşahidələr göstərir ki, istismar amillərindən yanacaq qənaətliliyinə ən çox təsir göstərənləri hərəkətin sürəti, sürətlər qutusunun pillələrinin düzgün seçilməsi, yol şəraiti, avtomobilin texniki vəziyyəti, sürücünün peşəkarlığı və digərləridir. Məsələn, sürətlər qutusunda pillələrin sayının artırılması yanacaq qənaətliliyini yüksəldir. [1],[2]

Eyni sürətdə və eyni yol şəraitində sürətlər qutusunun müxtəlif pillələrindən istifadə etdikdə yanacaq sərfi müxtəlif olur. Bunun səbəbini aydınlaşdırmaq üçün güc balansı qrafikinə müraciət edək.(şəkil 2)



Şəkil 2. Pillənin seçilməsinin yanacaq sərfinə təsiri

Yanacaq sərfi sürətlər qutusunun pillələrinin sayının düzgün seçilməsindəndə asılıdır. Güc balansı qrafikindən görünür ki, yuxarı pillədə mühərrikin gücündən daha çox istifadə olunur, nəinki aşağı pillədə. Sürətlər qutusunda pillələrin sayının artırılması yanacaq qənaətliliyini yüksəldir.

Tutaq ki, YNV - nin Ψ yol müqaviməti əmsalına malik yol ilə hərəkəti üçün lazım olan gücün sürətdən asılılığı $P_\Psi+P_h$ əyrisi ilə xarakterizə edilmişdir. V_1 sürətində YNV üç pillədən hər biri ilə hərəkət edə bilər.

Bu halda mühərrikin gücündən istifadə dərəcəsi müxtəlif pillələrdə müxtəlif olacaq.

l pillədə l_1=bc/be, ll pillədə l_{11}=bc/bd, lll pillədə l_{111}=bc/bf

Şəkil 2 - dən görünür ki, $I_I < I_{II} < I_{III}$, yəni mühərrikin gücündən istifadə dərəcəsi, yuxarı pillədən aşağı pilləyə keçdikcə azalır. Deməli, gücdən tam istifadə edilmir, bununla da xüsusi yanacaq sərfi artır. YNV ni hərəkət etdirən P_T gücü dəyişməz qaldığı üçün aşağı pillədən istifadə etdikdə yol yanacaq sərfi yuxarı pilləyə nəzərən yüksək olur. Gücdən istifadə dərəcəsi 10% - ə yaxın olduqda yuxarı pilləyə keçilməsi yol yanacaq sərfinin azalmasına səbəb olur.

Beləliklə, avtomobilin hərəkəti zamanı yuxarı ötürməyə imkan daxilində tez keçmək lazımdır, məsələn sürət 30 km / saat olduqda - dördüncü pilləyə, sürət - 60 km/saat olduqda altıncı pilləyə keçmək məsləhət görülür, çünki belə hallarda mühərrikin dövrlər sayı 2000 dən aşağı olur və yanacaq sərfidə azalır. Aparılan tətqiqatlar göstərir ki, istismar zamanı dövrlər sayı 3000 olanda yanacaq sərfi 1500 dövrlə müqaisədə 3,5 artır. Məsələn, avtomobil 50 60 km/saat sürətlə hərəkət etdikdə 1,6 / həcmli mühərrikdə yanacaq sərfi 4-5% azalır. Sürətlər qutusunun növünün də yanacaq sərfinə təsiri çoxdur. Məsələn, avtomat sürətlər qutusu olan avtomobillərdə yanacaq sərfi mexaniki idarə olunan qutularla müqayisədə 10-15% çox olur. [1],[2]

Avtomobilin istismar təcrübəsi göstərir ki, yanacaq qənaətliliyinə təsir göstərən əsas amillərdən biri alışdırma, qida, tormoz sisteminin texniki vəziyyəti və düzgün nizamlanmasıdır. Məsələn, ekonomayzerin nasazlığı yanacaq sərfini 15% artırır. YNV - də bir alışdırma şamının işləməməsi yanacaq sərfini 20 - 25% artırır. Alışdırma sisteminin düzgün nizamlanmaması yanacaq sərfinin 60 - 80 % artmasına səbəb ola bilər.

Mühərrikin hava filtrləri istismar zamanı tıxanırlar. Tıxanılmış filtlər az hava buraxdığına görə yanacaq sərfi artır, bu səbəbdən də filtrlər periodik olaraq yoxlanılmalı və lazım olduqda təmizlənməlidirlər. [2]

Yanacaq sərfi eyni zamanda təkərlərin görüşmə bucağının düzgün və şinlərdəki təzyiqin normal olmamasına görə arta bilər. Məsələn, R16 və R17 şinlər üçün ən komfort təzyiq ön təkərlər üçün 2,2 atm, arxa təkərlər üçün isə 2,3 atm qədər olmalıdır. Əgər şinlərdə təzyiq 0,1 atm azalarsa, onda yanacaq sərfi 2-3% arta bilər. Buna görədə şinlərin təzyiqi daimi nəzarətdə saxlanılmalıdır.

№ 3/2025 səh.108-112

YNV -nin istismar təcrübəsi göstərir ki, yanacaq sərfi havanın və yolun müqavimət qüvvələrini aşağı salmaqla xeyli azaldıla bilər.

Havanın müqavimətinə sərf edilən enerjinin azaldılması, xüsusilə magistral yollarda işləyən YNV -i üçün daha əhəmiyyətlidir. Məsələn, təcrübələr göstərir ki, axınlıq amilinin 12% azaldılması yanacaq sərfini 20 25% aşağı salmağa imkan verir. Bəzən avtomobil sürətlə hərəkət edən zaman sürücülər şüşəni aşağı salırlar. Belə olan halda salonda yaranan hava burulğanı avtomobilin hərəkətinə müqavimət göstərir və nəticədə yanacaq sərfi təxmini 1 - 1,5% artır.

Yanacaq sərfini artıran səbəblərdən biri zavod tərəfindən məsləhət görülən istismar materiallarından istifadə edilməməsidir. Məsələn, oktan ədədi aşağı olan benzindən istifadə edilməsi yanacaq sərfinin 15 - 20% artmasına səbəb olur.

Yağların seçilməsi zamanı ilin fəsli və avtomobilin texniki vəziyyəti də nəzərə alınmalıdır. Avtomobillərdə işlənmiş yağların qatılığı çox olduğundan detalların hərəkəti çətinləşir, enerji sərfi artır, nəticədə yanacaq sərfi də artır. Buna görə də yağların dəyişməsi zamanı texniki - istismar tələblərinə əməl etmək lazımdır

Avtomobilin kütləsinin yanacaq sərfinə təsiri böyükdür. Kütlə nə qədər az olarsa, avtomobilin sürətlənməsinə az enerji tələb olunar və yanacaq sərfi azalar. Əgər avtomobilin yükü 100 kq artarsa, yanacaq sərfi təxmini 20% artmış olar

Yanacaq sərfinə avtomobilin salonunda olan cihazların (kondensioner, avtomaqnitola, dumana qarşı işıqlar, istilik sobası və s.) lazımsız istifadəsinin də təsiri böyükdür. Əgər həmin cihazlardan istifadə olunmazsa, yanacaq sərfi 5 - 20% azala bilər. İstismar təcrübəsi göstərir ki, tək yaxın işıqdan istifadə edərkən 100 km yola 100 qr əlavə benzin sərf edilir. Tuninqdən imtina etməklə yanacaq sərfini xeyli azaltmaq olar.

Məsələn, enli disklərdən istifadə etmək böyük aerodinamik müqavimət yaradaraq yanacaq sərfini artırır. Mühərrikin ən qənaətli rejimdə işləməsi, səmərəli tormozlama rejiminin seçilməsi, bəzi yol sahələrində ətalət hesabına hərəkətin tətbiqi yanacaq sərfini xeyli azalda bilər.

Aparılan müşahidələr göstərir ki, sürücülərin təcrübəsindən, peşə dərəcəsindən asılı olaraq yanacaq sərfi orta qiymətdən 6 - 7% fərqlənə bilər.

YNV - nin şəhər şəraitində işləməsi zamanı yanacaq sərfi xeyli artır. Bunun əsas səbəbi YNV - nin əsasən qeyri - müntəzəm hərəkət rejimlərində(sürətlənmə, yavaşıma) işləməsidir. Şəhər şəraitində yanacaq sərfini azaltmaq üçün yol hərəkətinin düzgün təşkili, müxtəlif səviyyəli yollardan istifadə edilməsi böyük əhəmiyyətə malikdir.

Yanacaq sərfi avtomobilin idarəolunma üslubundan da asılıdır. Avtomobilin hərəkəti zamanı yerindən tərpənmə və dayanma əməliyyatları yavaş və səlis icra edilməlidir, əks halda silindrlərə daha çox yanacaq daxil olur, nəticədə yanacaq sərfi artır. Kiçik sürətlərdə yuxarı pilləyə keçirilməməlidir, çalışmaq lazımdır ki mühərrikin dövrlər sayı 2500 - 3000 çox olmasın. Hərəkət marşrutunu elə seçmək lazımdır ki, tıxaclar olmasın, çünki tıxaclarda avtomobil tez - tez dayanır və hərəkət edir. İşıqfora yaxınlaşanda avtomobilin sürətini yavaş yavaş aşağı salmaq lazımdır ki, yaşıl ışıq yanana kimi tam dayanmasın, çünki avtomobil tam dayananda onu yerindən tərpətmək üçün daha çox enerji tələb olunur, nəinki yavaş sürətlə hərəkət edən zaman.

Nəticə: Aparılan araşdırılmalar göstərir ki, YNV - nin istismarı zamanı yanacaq sərfiyyatının normadan çox olması nəqliyyat vasitələrinin konstruksiyalarının qeyri-təkmil və bir çox sistemlərin nasaz olmasından, idarəolunma üslubunun düzgün seçilməməsindən, istifadə olunan istismar materiallarının zavod - normativ sənədlərinə və yol şəraitinin inşaat norma qaydalarına uyğun gəlməməsindən irəli gəlir.

ƏDƏBIYYAT

1. Məmmədov Y. Ə Avtomobil. İstismar xüsusiyyətləri nəzəriyyəsi. Dərslik. "Bakı Universiteti" nəşriyyatı. 2002-330s.
2. Ahəngari Ə. S. Avtomobillərin nəzəriyyəsi. Dərs vəsaiti. Mingəçevir. "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC. 2008-294s.

3. Литвинов А. С и др. Автомобиль. Теория эксплуатационны свойств. М.: Машиностроение, 1989. 240с

УDK 65613

ОСНОВНЫЕ ПУТИ УМЕНЬШЕНИЯ РАСХОДА ТОПЛИВА В НАЗЕМНЫХ ТРАНСПОРТНЫХ СРЕДСТВАХ

[1]Намик Рза оглы Аскеров, [2]Фархад Адиль оглы Велиев,
[3]Саттар Ризван оглы Ибрагимов, [4]Парвин Мехман оглы Исрафилзаде, [5]Камиль Фархад оглы Велизаде
Азербайджанский Технологический Университет

Резюме*: Проведенные исследования показывают, что при эксплуатации наземных транспортных средств (НТС) увеличение расхода топлива в большей степени является следствием несовершенства конструкции, технической неисправности многих систем и неправильного выбора способа управления, а также несоответствия эксплуатационных материалов заводским нормативным документам и дорожных условий строительно-правовым нормам.*

Ключевые слова: *Топливо, расход, конструкция, эксплуатационный показатель, двигатель, мощность, скорость.*

UDC 65613

MAIN WAYS TO REDUCE FUEL CONSUMPTION IN GROUND VEHICLES

[1]Namik Rza oglu Askerov, [2]Farkhad Adil oglu Veliev,
[3]Sattar Rizvan ogly Ibrahimov, [4] Parvin Mehman ogly Israfilzade, [5] Kamil Farhad ogly Velizade
Azerbaijan Technological University

Summary: *The conducted studies show that during the operation of ground vehicles (NTS), the increase in fuel consumption is largely a consequence of the imperfection of the design, the technical malfunction of many systems and the incorrect choice of the control method, as well as the non-compliance of the operating materials with the factory normative documents and road conditions with construction and legal norms.*

Keywords: *Fuel, consumption, construction, operational indicator, engine, power, speed.*

Redaksiyaya daxilolma: 07.08.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.113-120

UOT: 656.073.436
DOI 10.30546/678209.2025.03.0115

TƏHLÜKƏLİ YÜKLƏRİN DƏNİZ GƏMİLƏRİ VASİTƏSİ İLƏ DAŞINMASI ZAMANI YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

[1] Həcər Səyavuş qızı Hüseynzadə, [2]Aygün Vahid qızı Cəfərova

Azərbaycan Texnologiya Universiteti
Gəncə ş., Ş.İ.Xətai pr., 103

[1]kh/guseynzade@mail.ru, [2]aygun-ceferova1994@mail.ru

Xülasə. *Dəniz yolu nəqliyyatı yüklərin daşınmasının ən etibarlı və səmərəli üsuludur, respublika və beynəlxalq nəqliyyatda böyük bir yerə sahibdir.*

Təhlükəli yüklərin dəniz yolu ilə gəmilər və digər nəqliyyat növləri ilə daşınması xüsusi şərtlər altında yerinə yetirildiyi üçün bu sahədə müəyyən problemlər və çətinliklər mövcuddur.

Bu səbəbdən məqalə təhlükəli yüklərin gəmi vasitəsi ilə daşınması zamanı yaranan problemlərin araşdırılmasına və onların həlli yollarının müəyyən edilməsinə həsr edilmişdir. Burada təhlükəli yüklərin bu növ daşımalarının respublikamızda və dünyada təşkili təhlil edilmiş, onun aparılmasında yaranan çətinliklər və mövcud problemlər tədqiq edilmişdir. Alınan nəticələr əsasında çətinliklərin aradan qaldırılması və problemlərin həlli yolları müəyyənləşdirilmişdir.

Məqalədə aparılan təhlillərin praktiki əhəmiyyəti və tədqiq olunan problemlərin həlli yollarının tətbiqindən əldə olunacaq iqtisadi səmərə açıqlanmışdır.

Açar sözlər: *dəniz nəqliyyatı, dəniz gəmiləri, daşınma qaydaları, təhlükəli yüklər, təhlükə sinfi, gəmi qəzaları, daşımaların sığortalanması.*

Giriş. Məlumdur ki, iqtisadi sahədə su nəqliyyatı mühüm rol oynayır, нükdaşımaların ümümi həcmində isə dəniz nəqliyyatı birinci yer tutur. Dəniz nəqliyyatı dünya ölkələri arasında qarşılıqlı iqtisadi əlaqələrin və əmtəə mübadiləsinin inkişafında mühüm rol oynayır. Gəmiçilik milli maraqları aşaraq beynəlxalq miqyas almış, beynəlxalq əmək bölgüsündə maddi xarakter daşımaqla dünya istehsalının və əmtəə mübadiləsinin artımına səbəb olmuşdur. Dəniz nəqliyyatının dünya iqtisadiyyatında xüsusi istehsal fəaliyyəti ilə bərabər, kapital istehlakçısı, sənaye məhsuluna və sifarişçiyə xidmət fünksiyalarını da yerinə yetirərək dəniz ticarətinin artımına səbəb olduğunu və dünyanın istənilən regionunda yaranan iqtisadi-siyasi dəyişikliklərə daha tez cavab verdiyini görmək mümkündür [3].

Belə ki, müasir dövrdə yük daşımalarının 60%-dən çoxu dəniz nəqliyyatı vasitəsi ilə həyata keçirilir. Buna səbəb bu nəqliyyat növünün bu gün yüklərin daşınmasının ən etibarlı və səmərəli üsulu olmasıdır.

Avtomobil və ya dəmir yollarından fərqli olaraq müasir gəmilərin yüksək yükdaşıma qabiliyyətinə və marşrutların texniki vəziyyətinə və imkanlarına nəzarət etmək zərurirətinin olmaması, yükdaşımanın nisbətən aşağı qiyməti, digər nəqliyyat vasitələri ilə daşınması mümkün olmayan və ya qadağan edilən müəyyən malların daşınması imkanı, müəyyən növ yüklərin daşınması üçün ixtisaslaşdırılmış nəqliyyat vasitələrinin geniş çeşidi dəniz nəqliyyatının üstünlükləridir [5].

Bütün əmtəə pozisiyalarının konteynerlərə yerləşdirməklə yüklərin yüksək dərəcəli qorunmasına təminat verən təhlükəli yüklərin bu yolla daşınmasını prioritet edir.

Respublikamızın nəqliyyat sistemində də dəniz nəqliyyatının rolu yüksəkdir. Belə ki, ticarət üz-

№ 3/2025 səh.113-120

rə yük dövriyyəsinin təxminən yarısı dəniz nəqliyyatının payına düşür. Bu da dəniz nəqliyyatının ölkəmizdə sürətli şəkildə inkişafı ilə bağlıdır.

Respublikamızda nəqliyyat vasitəsi ilə ixrac olunan məhsulların 80%-dən çoxunu neft və neft məhsulları təşkil edir ki, onların daşınması dəniz nəqliyyatı vasitəsi ilə aparılır [1].

Neft və neft məhsulları təhlükəli yüklər növünə aiddir və onların dəniz yolu ilə daşınma qaydaları Azərbaycan Respublikasının "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları" ilə tənzimlənir [2].

Təhlükəli yüklərə - onlara xas olan xüsusiyyətlərdən asılı olaraq daşınma, yükləmə, boşaltma və saxlanma prosesində, ətraf mühitə zərər vura bilən, partlayışa, yanğına və ya nəqliyyat vasitələrinin, qurğuların, binaların və tikililərin zədələnməsinə, habelə insanların və heyvanların məhvinə, xəsarət almasına, zəhərlənməsinə, yanmasına, şüalanmasına, yaxud xəstələnməsinə səbəb olan maddələr və əşyalar aid edilir (Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları).

Təhlükəli yüklər 9 sinfə bölünürlər: 1) partlayıcı maddələr (PM); 2) sıxılmış, mayeləşdirilmiş və ya təzyiqlə məhlula çevrilmiş qazlar; 3) tez alışan mayelər (TAM); 4) tez alışan bərk maddələr; öz-özünə alışmağa meyilli maddələr; su ilə təmasda olarkən alışan qazlar əmələ gətirən maddələr (BM); 5) oksidləşdirici maddələr və üzvi peroksidlər (OM); 6) zəhərli (toksik) və yoluxucu (infeksiya) maddələr (ZM); 7) radioaktiv materiallar (RM); 8) korroziyaya uğradan maddələr (KM); 9) digər təhlükəli maddələr: su ilə təmasda olarkən alışan qazlar əmələ gətirən bərk yanan maddələr; zəhərli maddələr; havanın oksigenini udan maddələr; maqnitləşdirilmiş maddələr.

"Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın, «Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya »nın (SOLAS-74), eləcə də «Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair" Beynəlxalq Məcəllənin (DTYDBM—IMDG CODE) nəzərdə tutduğu bütün tipləri və təyinatı olan xarici ölkələrin və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə (tankerlərdə, qaz və kimyəvi yükdaşıyıcılarda, qazdaşıyıcılarda və s.) o cümlədən konteyner-avtomobil-vaqon sisternlərində daşınan bütün növ təhlükəli yüklərin dəniz limanlarında saxlanmasını, yüklənməsini, boşaldılmasını və işlərin təhlükəsiz həyata keçirilməsini tənzimləyir.

Güclü təsirə malik olan zəhərləyici və partlayıcı, eləcə də xüsusi aktivliyi 7,4x103 Vk.kq^{-1}, yaxud 0,002 Mk.Ku.q^{-1} -dən artıq olan radioaktiv maddələrin təhlükəsiz daşınma şərtləri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə, partlayıcı, yaxud güclü təsirə malik olan zəhərləyici maddələrin və materialların təhlükəsiz daşınma şərtləri isə Fövqəladə Hallar Nazirliyinin müvafiq nəzarət müfəttişliyi ilə razılaşdırılır [2].

Azərbaycan Respublikasının "Təhlükəli yüklərin dəniz nəqliyyatı daşınması Qaydaları"n əsasən təhlükəli yüklərin daşınması və qablaşdırılması zamanı bir sıra tələblərin yerinə yetirilməsi vacibdir. Belə ki, qablar keyfiyyətli və etibarlı olmalı, onların daxili səthi daşınan yükün təhlükəli təsirinə məruz qalmamalı, yükləmə (boşaltma) və dəniz nəqliyyatı ilə daşınması zamanı adi risklərə dözümlü olmalıdır.

Müəyyən temperaturda təhlükəli mayelərlə doldurulmuş qabların (tutumların) normal daşınma zamanı daha yüksək temperatur üçün kifayət edən sərbəst boşluğunun olması da tələb olunur.

Eyni zamanda maye və sıxılmış qazlar üçün konteynerlərin (tutumların) yaxud digər qabların texniki təhlükəsizlik üzrə standartların norma və qaydalarına uyğun olaraq hazırlanması sınaqdan keçirilməsi istifadə edilməsi, düzgün doldurulması və saz vəziyyətdə saxlanılması tələbləri də sözügedən Qaydalarda şərh olunur.

Qaydalara əsasən bəzi yüklər istisna olunmaqla (az təhlükəli və aşağı səviyyəli təhlükəliliyə malik qablar və s.) bütün təhlükəli yüklərin qabları yarlıqlarla və təhlükəsizlik nişanlarına malik olmalıdır.

Təhlükəli yüklərin sənədləşməsinə də dair tələblər Qaydalarla müəyyənləşdirilib. Ümumi halda müşayiət olunan sənədlərə daşıma icazəsi, yük nişanları olan yol vərəqləri, yük-nəqliyyat qaiməsi, qablaşdırma üçün keyfiyyət sertifikatları, təhlükə nişanları və s. aid edilir.

№ 3/2025 səh.113-120

Təhlükəli yüklər gəmilərdə və digər dəniz nəqliyyatı növlərində düzgün yerləşdirilməlidir. Onların yerləşdirilməsi yüklərin xassə və xüsusiyyətlərini nəzərə alaraq təhlükəsiz şəkildə aparılmalı, uyuşmaz yüklər isə bir-birindən aralanmalıdır.

Göründüyü kimi təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması xüsusi şərtlər altında aparılmalı və daim nəzarət olunmalıdır.

Bu səbəbdən respublikamızda dəniz nəqliyyatı sahəsi ilə məşğul olan təşkilat, müəssisə və idarəetmə orqanlarının fəaliyyəti üzrə ölkə siyasəti Azərbaycan Dövlət Dəniz Adminstrasiyasının nəzarəti və rəhbərliyi altında reallaşdırılır. Administrasiya təkcə BMT və BDT ilə deyil, başqa universal birliklərlə, məsələn, Avropa Dəniz Təhlükəsizliyi Agentliyi, Qara Dəniz Təhlükəsizlik Agentliyi, Ümumdünya Əmək Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələndirilir.

Buna baxmayaraq təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması zamanı bir sıra problemlər yaşanmaqdadır. Məqsədimiz bu problemləri araşdırmaq və onların həlli yollarını müəyyənləşdirmək olmuşdur.

Tədqiqatın obyekti və metodikası. Tədqiqatın aparılmasında məqsəd təhlükəli yüklərin dəniz gəmiləri vasitəsilə daşınması zamanı yarana bilən problemlərin araşdırılması və onların həlli yollarının tapılması olmuşdur. Bunun üçün Respublikamızda və dünyada təhlükəli yüklərin bu nüv daşımalarının təşkili təhlil edilmiş, onun aparılmasında yaranan çətinliklər müəyyən edilmişdir.Alınan nəticələr əsasında problemlərin həlli yolları işlənmişdir. Buna görə də tədqiqatın obyekti təhlükəli yüklərin gəmi daşımalarında yaranan problemlər olmuşdur.

Tədqiqatın nəticələrinin müzakirəsi və təhlili. Dünyada yüklərin 10%-ə qədəri təhlükəli yüklər kimi təsis edilir. İMO-nun (Beynəlxalq Dəniz Təşkilatının) seçmə tədqiqatlarına görə bütün yüklərin 30%-i saxta bəyannamələrlə daşınır, yüklərin isə yalnız 0,5%-i faktiki olaraq yoxlanılır [8]. Bunların arasında təhlükəli yüklər də var.

Son vaxtlara qədər İMDG (Təhlükəli Yüklər üzrə Beynəlxalq Dəniz Məcəlləsi) Məcəlləsinə əməl olunması, yalnız məhdud sayda ölkələr üçün məcburi idi, baxmayaraq ki qanuna tabe olan gəmi sahibləri və daşıyıcıları təhlükəli yüklərin Məcəlləyə uyğun olaraq qablaşdırılması, yüklənməsi, markalanması və bəyan edilməsi üçün həmişə zəruri tədbirlər görmüşlər. Hal-hazırda isə Məcəllənin müddəalarına riayət etmək bütün gəmi sahibləri və daşıyıcılar üçün məcburi hala çevrilib və bir sıra ölkələrdə onun pozulması cinayət məsuliyyəti hesab edilir və buna görə şirkətlər ciddi cərimələrə məruz qalır.

Buna baxmayaraq ekspertlərin fikrincə hələ də dəniz gəmilərində baş verən yanğın və partlayışların əsas səbəbi bəyan edilməmiş partlayıcı maddələrin daşınmasıdır.

İMO-nun (Beynəlxalq Dəniz Təşkilatının) məlumatına görə dünyada dəniz nəqliyyatının 95%-dən çoxu təhlükəli yükləri Məcəlləyə uyğun daşısada, həmişə onun son redaksiyasına uyğun aparılmır.

Araşdırmlalar onu göstərir ki, bir çox nəqliyyat operatorları, gəmi agentləri və eləcə də dəniz daşıyıcıları Məcəllənin sonuncu redaksiyası ilə tanış deyirlər.

İlk əvvəl gəmi operatorları üçün nəzərdə tutulmuş bu Məcəllə indi təhlükəli yüklərin daşınmasında iştirak edən hər kəsə şamil edilir və qablaşdırma materiallarının növünə, daşınma zamanı malların uyğunluq prinsiplərinə, markalanma və bəyannamə prinsiplərinə dair tələbləri özündə əks etdirir.

Əgər bəyan edilməmiş təhlükəli materaillar problem yaradırsa, gəmi sahibi öz müştərisinin məsuliyyət daşıdığını bildirir, çünki o, konosamentə əsasən qanuni məsuliyyət daşıyır və yükün daşıma üçün yararlı olmasına zəmanət verir.

Əgər gəmi operatorunun müştərisi ekspeditordusa, o zaman bütün xərclərin ödənilməsinə cavabdeh olacaq. Təəssüflə qeyd etmək lazımdır ki, bəzən göndərən təhlükəli malların bəyan edilməsində pula qənaət etmək istəyən şirkət olur. Belə olan halda onun üçüncü şəxslər qarşısında məsuliyyət sığortasının olması ehtimalı az olacaq. Bütün bunlar ekspeditoru çoxmillionluq itkilərlə təhdid edəcək

№ 3/2025 səh.113-120

və bu itkilərin əsl günahkarlardan geri qaytarmaq mümkün olmayacaq. Buna görə də daşıma iştirakçıları aydın şəkildə bilməlidirlər ki, həm FCL, həm də LCL yükünün tərkibində təhlükəli materiallar ola bilər və yük göndərən yükün xüsusiyyətlərini və onun daşınma qaydalarını bilərəkdən və ya səhvən göstərməyə bilər. Burada FCL (Full Container Load) bir yükgöndərənin öz yükünü daşımaq üçün konteyneri tam icarəyə götürdüyü nəqletdirmə növüdür. LCL (Less Tran Container Load) isə bir sifarişçinin yükünün bütün konteyneri tutmadığı bir daşıma növüdür.

Göstərilən riskləri minimuma endirmək üçün təchizat zənciri iştirakçılarının bütün fəaliyyətləri İMDG (Təhlükəli yüklər üzrə beynəlxalq dəniz Məcəlləsi) Məcəlləsinin tələblərinə uyğun olmalıdır.

Yuxarıda sözügedən hallar misal olaraq Los-Anceles limanında baş vermiş hadisəni göstərmək olar. Belə ki, liman ərazisində yük daşıyan konteyner partlamış və onun yanan tərkibi 20-30 metr radiusda səpələnmişdir. Yanğınsöndürmə briqadası hadisə yerinə tez gəlsədə, təsnifatlaşdırma zamanı yüklərin adi kateqoriyaya aid edildiyindən yanğınsöndürənlər partlayışın səbəbini və yanğın kateqoriyasını müəyyənləşdirmək problemi ilə üzləşdilər.Yoxlama nəticəsində müəyyən olundu ki, konteynerdəki yığma yük, qaz balonları, adapterlər, maye elementləri olan akkumlyatorlar və digər təhlükəli materiallardan ibarət olmuşdur. Ehtimal edilir ki, yanğına səbəb bateriyalardan birində çıxan qığılcım olmuşdur. Qəzanın baş vermə səbəblərindən asılı olmayaraq yığma yüklərin komplektləşdirilməsinə görə şirkət öz müştərilərinə və liman rəhbərliyinə izahat verməyə və hadisə ilə bağlı limanın bütün xərclərini ödəmək məcburiyyətində qalmışdır.

Bu və buna oxşar hadisələr bir faktı təsdiqləyir ki, daşınma prosesinin dəqiq təşkili və nəzarəti belə, öz diqqətsizliyinin daşıma prosesində iştirak edən şəxslərə necə təsir edəcəyini heç də həmişə düşünməyən yük sahiblərinin və daşıma operatorlarının səhlənkarlığından gözlənilməz problemlər yarana bilər. Buna görə də təhlükəli yüklərin tədarük zəncirinin bütün iştirakçıları üçün İMDG Məcəlləsinin müddəalarına əməl etmələri, və yeni tələb və müddəaların öz biznes proseslərinə dərhal tətbiq edilməsini təmin etmək üçün hər hansı dəyişikliyi izləmək son dərəcə vacibdir.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransına (UNSTAD) görə 2022-ci ildə qlobal dəniz ticarəti 11,5 milyard tona çatmışdır. Təhlükəli yüklərin daşınması ilə bağlı dəqiq statistik məlumatların müntəzəm dərc olunmasına baxmayaraq, ekspertlərin ikrincə göstərilən həcmin əhəmiyyətli hissəsinin sözügedən yüklər təşkil edir [7].

Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin (EMSA) 2022-ci il hesabatına görə Avropa İttifaqı sularında təhlükəli yük daşıyan gəmilərlə bağlı insidentlərin sayı, daşımaların həcminin artmasına baxmayaraq nisbətən sabit qalmışdır. Bunu EMSA Dəniz qəzaları və Hadisələrinin illik İcmalında dərc olunan və cədvəldə verilən məlumattlardan görmək olar. Avropa İttifaqı sularında təhlükəli yük daşıyan gəmilərlə bağlı insidentlərin 2018-2022-ci illər üçün statistikası aşağıdakı kimi olmuşdur.

Cədvəl 1

Aİ sularında təhlükəli yük daşıyan gəmilərlə bağlı insidentlər

İl	İnsidentlərin sayı
2018	42
2019	38
2020	35
2021	40
2022	37

Mənbə: EMSA: Annual Overview of Marine Casualties and İncidents 2022 [9]

Beynəlxalq Dəniz Təşkilatının (İMO) təhlükəli yüklərin daşınması üçün qaydaların təkmilləşdirilməsi üzərində daim çalışmasına və Təhlükəli yüklərin dəniz daşımalarının Beynəlxalq Məcəl-

ləsinin (İMDG) yeni riskləri və texnoloji inkişafları nəzərə almaqla mütəmadi yenilənməsinə baxmayaraq bütün mümkün vəziyyətlərin həlli üçün kifayət etmir.

Təhlükəli yüklərin gəmi ilə daşınması təkcə beynəlxalq normalara riayət olunmasını deyil, eləcə də xüsusi təlim keçmiş personalın və müvafiq avadanlıqların olmasını tələb edir. Nəqliyyat işçilərinin Beynəlxaq Federasiyasının (İTF) məlumatlarına görə təhlükəli yüklərlə məşğul olan dənizçilərin ixtisasının artırılmasına təcili ehtiyac duyulur.

Ekoloji təşkilatlar da dənizdə baş verən gəmi qəzalarının dənizin Eko-sisteminə mənfi təsirindən narahat olduqlarını bildirirlər. Bunlar baş verməsin deyə, yuxarıda sözügedən beynəlxalq təşkilatların təsis etdiyi daşıma qaydalarına ciddi şəkildə riayət olunmalı və nəzarət gücləndirilməlidir. Təhlükəli yüklər təhlükə sinfi və xassələri nəzərə alınaraq düzgün yerləşdirilməli və bərkidilməlidir.

Xüsusi temperatur-nəmlik rejimi tələb edən yüklərin daşınması zamanı yükdaşıyan yükün xarakteristikaları haqqında Şəhadətnamə təqdim etməlidir. Hər növ yükə uyğun gəmidə xüsusi yük otağı, yanğınsöndürən vasitə tələb olunur [6].

Dənizdə baş verən insident və qəzalar eyni zamanda təhlükəli yüklərin gəmi daşımalarının sığortalanması məsələsini də ortaya qoyur. Sığorta şirkətləri hər bir vəziyyətin inkişafını diqqətlə izləyirlər. Görünən odur ki, sığorta şərtlərinə yenidən baxılmalı, təhlükəli yüklər daşıyan gəmilərin sığorta haqqları artırılmalıdır.

Təhlükəli yüklərin dəniz yolu ilə daşınması sahəsində beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsində də ehtiyac vardır. Bəzi mövcud protokollar fors major vəziyyətlərdə hərəkəti məhdudlaşdırır və ya reaksiyanı gecikdirir. Bu isə təhlükəli yüklərin daşınmasında yol verilməzdir. Burada ani müdaxilə və vəziyyətin cəld nəzarətə alınması tələb olunur. Buna nail olmaq üçün dəniz hüququ və təhlükəsizliyi sahəsində ekspertlər yenilənməli, baş verən hadisələrə daha çevik və səmərəli mexanizmlərin yaradılmasına çağırırlar.

Bu sahədə artıq işlər görülməkdədir. Avropada daha təhlükəsiz dəniz daşımalarını təmin etmək üçün Şura sədri və Avropa Parlamentinin müzakirəçiləri tərəfindən dəniz nəqliyyatı sektotunda qəzaların araşdırılmasına dair 2009-cu il direktivinə yenidən baxılmışdır. Yenidən işlənmiş Direktiv dəniz qəzalarının araşdırılmasının mövcud rejimini sadələşdirmək və aydınlaşdırmaq məqsədi daşıyır [4].

Yenidən işlənmiş direktiv Komissiya tərəfindən 1 iyun 2023-cü il tarixində təqdim edilmiş dəniz təhlükəsizliyi paketinin bir hissəsini təşkil edir. Beş qanunvericilik təklifi, o cümlədən gəmilərdən gələn çirklənmə, dövlət bayrağına tələblərə riayət, dövlət tərəfindən limana nəzarət və EMSA ilə bağlı məsələlər, dənizdə təhlükəsizlik üzrə Aİ–ın qaydalarını modernləşdirməyi və gəmilərdən suyun çirklənməsini azaltmağı hədəfləyir.

Respublikamıza gəlincə isə onu qeyd edə bilərik ki, son iki ildə Xəzər dənizində yük daşımalarının kəskin artması bu dəniz yolunun zəif tərəfini deyil, həm də ticarət gəmilərinin çatışmamazlıqlarını üzə çıxarıb.

Azərbaycan Respublikası Dəniz Nəqliyyatı Donanmasında yaşı 25-dən çox olan gəmilər yeniləri ilə əvəz olunmalıdır. Çünki təhlükəli yüklərin istismar müddəti bitmiş gəmilərlə daşınması təhlükəlidir və hər an qəzalar baş verə bilər. Artıq bu istiqamətdə işlər görülür. Azərbaycanın gəmiqayırma imkanları haqqında EAƏC (Avrasiyta İqtisadi Birlik) və respublika prezidenti cənab İlham Əliyev ötən ilin mayında genişlənmiş tərkiblə Ali Avrasiya İqtisadi Şuranın iclasında Bakıda fəaliyyət göstərən gəmiqayırma zavodunun fəaliyyət göstərdiyini, gəmiqayırma imkanlarının Xəzərin digər qonşularına əlçatan olduğunu, artıq sifarişlərin verilməsi üçün danışıqların aparıldığını qeyd etmişdir.

Elmi yeniliyi: Təhlükəli yüklərin gəmi vasitəsil iə daşınması zamanı yaranan problemlər araşdırılmış və onlarin həlli yolları müəyyən edilmişdir.

№ 3/2025 səh.113-120

Praktik əhəmiyyəti: Təhlükəli yüklərin gəmi vasitəsi ilə daşınması zamanı yaranan problemlərin araşdırma nəticələri əsasında müəyyən edilmiş həll yollarının tətbiqi təhlükəli yüklərin bu nəqliyyat növü ilə daşınmasında etibarlılığı artıracaq, dünyada və respublikamızda dəniz nəqliyyatının inkişafına dəyərli tövhələr verəcək.

İqtisadi səmərəliliyi: Təhlükəli yüklərin gəmi vasitəsi ilə daşınması zamanı yaranan problemlərin həlli yollarından istifadə etməklə daşımanın təhlükəsizliyi və keyfiyyəti artacaq, itki, zədələnmə riskləri və ətraf mühitə mənfi təsirləri azalacaq, nəticə etibarı ilə iqtisadi səmərə əldə olunacaqdır.

Nəticə: Aparılan araşdırmalar əsasında təhlükəli yüklərin gəmi vasitəsi ilə daşınması zamanı aşağıdakı problemlərin olması müəyyən edildi:

1. İMO-nun (Beynəlxalq Dəniz Təşkilatının) seçmə tədqiqatlarına görə bütün yüklərin 30%-i saxta bəyannamələrlə daşınır, yüklərin isə yalnız 0,5%-i faktiki olaraq yoxlanılır.
2. Bir çox nəqliyyat operatorları, gəmi agentləri və eləcə də dəniz daşıyıcıları İMDG (Təhlükəli Yüklər üzrə Beynəlxalq Dəniz Məcəlləsi) Məcəllənin sonuncu redaksiyası ilə tanış olmadıqlarına görə, dəniz nəqliyyatı ilə təhlükəli yüklərin daşınması Məcəllənin son redaksiyasına uyğun aparılmır.
3. Bəzən yük göndərən təhlükəli malların bəyan edilməsində pula qənaət etmək istəyən şirkətlər var. Bu isə üçüncü şəxslər qarşısında məsuliyyət sığortasının olması ehtimalını azaldır. Nəticədə ekspeditor çoxmillionluq itkilərlə təhdid ediləcək və bu itkiləri əsl günahkarlardan geri qaytarmaq mümkün olmayacaq.
4. Dənizdə baş verən gəmi qəzaları dənizin Eko-sisteminə mənfi təsir göstərir.
5. Təhlükəli yüklərin gəmi ilə daşınmasında xüsusi təlim keçmiş personala və müvafiq avadanlıqlara ehtiyac var.
6. Dəniz yolu ilə təhlükəli yüklərin daşınması sahəsində bəzi mövcud beynəlxalq protokollar fors major vəziyyətlərdə hərəkəti məhdudlaşdırır və ya reaksiyanı gecikdirir. Bu isə təhlükəli yüklərin daşınmasında yol verilməzdir.
7. Azərbaycan Respublikası Dəniz Nəqliyyatı Donanmasında istismar müddəti bitmiş və yaşı 25-dən çox olan gəmilər var. Onlarla təhlükəli yüklərin daşınması təhlükəlidir və hər an qəza baş verə bilər.

Aparılan araşdırmalara görə təhlükəli yüklərin gəmi nəqliyyatı ilə daşınmasında yaranan problemlərin aşağıdakı həlli yolları mövcuddur:

1. İMDG (Təhlükəli Yüklər üzrə Beynəlxalq Dəniz Məcəlləsi) Məcəlləsinin müddəalarına riayət etmək bütün gəmi sahibləri və daşıyıcılar üçün məcburidir. Bir sıra ölkələrdə onun pozulması cinayət məsuliyyəti hesab edilir və buna görə şirkətlər cərimələnir.
2. Beynəlxalq Dəniz Təşkilatı (İMO) təhlükəli yüklərin daşınması üçün qaydaları daim təkmilləşdirir və Təhlükəli yüklərin dəniz daşımalarının Beynəlxalq Məcəlləsi (İMDG) yeni riskləri və texnoloji inkişafları nəzərə almaqla mütəmadi olaraq yenilənir.
3. Nəqliyyat işçilərinin Beynəlxaq Federasiyasının (İTF) məlumatlarına görə təhlükəli yüklərlə məşğul olan dənizçilərin ixtisası artırılmalıdır.
4. Təhlükəli yüklərin gəmi daşımalarının sığortalanmasında sığorta şərtlərinə yenidən baxılmalı, təhlükəli yüklər daşıyan gəmilərin sığorta haqqları artırılmalıdır.
5. Gəmi qəzalarının dənizin Eko-sisteminə mənfi təsirinİ azaltmaq üçün yuxarıda sözügedən beynəlxalq təşkilatların təsis etdiyi daşıma qaydalarına ciddi şəkildə riayət olunmalı, nəzarət gücləndirilməli, təhlükəli yüklər isə təhlükə sinfi və xassələri nəzərə alınaraq düzgün yerləşdirilməli və bərkidilməlidir.
6. Hər növ yükə uyğun gəmidə xüsusi yük otağı, yanğınsöndürən vasitə olmalıdır.
7. Dəniz hüququ və təhlükəsizliyi sahəsində ekspertlər yenilənməli, baş verən hadisələrə daha çevik və səmərəli mexanizmlər yaradılmalıdır.

8. Azərbaycan Respublikasının Bakı şəhərində fəaliyyət göstərən gəmiqayırma zavodunun gəmiqayırma imkanları genişləndirilir.

ƏDƏBİYYAT

1. Cavadov Ə.Ə. Daşımalar və vahid nəqliyyat sistemi: dərslik.- Bakı: Təhsil NPM, 2009.- 260 s.
2. Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları.-Bakı, 2000.-43 s.
3. Yadigarov T.A.Azərbaycan İqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər: monoqrafiya. -Bakı: «Avropa» nəşriyyatı, 2018,-350 səh.).
4. Морская безопасность: Совет и Парламент заключили соглашение о более эффективном расследовании происшествий на морском транспорте: [Электронный ресурс]. Режим доступа: https://ru.eureporter.co/uncategorized/2024/02/14/maritime-safety-council-and-parliament-strike-a-deal-for-more-efficient-accident-investigations-in-maritime-transport/
5. Особенности перевозки опасных грузов: [Электронный ресурс]. Режим доступа: https://bodrus.com/poleznaya_informaciya/osobennosti_perevozki_opasnih_gruzov_vodnim_transportom
6. Перевозки опасных грузов морем — основные правила, требования к упаковке и документации: [Электронный ресурс]. Режим доступа: https://vedinform.com/freight/adr/morskie-perevozki-opasnyh-gruzov.html
7. Проблемы перевозки опасных грузов: судно Ruby ищет порт для ремонта: [Электроный ресурс]. Режим доступа: https://portsinfo.ru/ports-news/avarii-i-proisshestviya/170905-problemy-perevozki-opasnykh-gruzov-sudno-ruby-ishchet-port-dlya-remonta
8. TT Клуб предупреждает: осторожно, опасные грузы: [Электронный ресурс]. Режим доступа: https://www.panditrans.com/articles/tt-klub-preduprezhdaet-ostorozhno-opasnye-gruzy/
9. EMSA: Annual Overview of Marine Casualties and İncidents 2022.-Ref.Ares (2022) 8241169-29/11/22.- European Maritime SafetyAgency, 2022.-64 Pages.

УДК: 656.073.436

ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ ПЕРЕВОЗКЕ ОПАСНЫХ ГРУЗОВ МОРСКИМИ СУДАМИ, И ПУТИ ИХ РЕШЕНИЯ

[1]Хаджар Сиявуш кызы Гусейн-заде, [2]Айгюн Вагиф кызы Джафарова
Азербайджанский Технологический Университет
[1]kh/guseynzade@mail.ru, [2]aygun-ceferova1994@mail.ru

Резюме. *Морской транспорт является наиболее надежным и эффективным способом перевозки грузов, занимающий большое место в республиканском и международном транспорте.*

Поскольку перевозка опасных грузов судами и другими видами морского транспорта осуществляется в особых условиях, в этой области существуют определенные проблемы и трудности.

В связи с этим статья посвящена исследованию проблем, возникающих при перевозке опасных грузов морским транспортом, и выявлению путей их решения. Здесь проанализирована организация данного вида перевозки опасных грузов в нашей республике и в мире, изучены

трудности и существующие проблемы, возникающие при ее осуществлении. На основании полученных результатов определены пути устранения трудностей и решения проблем.

В статье обосновывается практическая значимость проведенного анализа и экономическая выгода, которая может быть получена от применения путей решений изученных проблем.

Ключевые слова: *морской транспорт, морские суда, правила перевозки, опасные грузы, класс опасности, аварии судов, страхование перевозок.*

UDC: 656.073.436

PROBLEMS ARISING DURING THE TRANSPORTATION OF DANGEROUS GOODS BY SEA VESSELS AND WAYS TO SOLVE THEM

[1]Hajar Siyavush Huseynzadeh, [2]Aygun Vaqif Jafarova
Azerbaijan University of Technology
[1]kh/guseynzade@mail.ru, [2]aygun-ceferova1994@mail.ru

Summary. *Sea transport is the most reliable and efficient way of transporting goods, which occupies a large place in national and international transport.*

Since the transportation of dangerous goods by ships and other types of sea transport is carried out under special conditions, there are certain problems and difficulties in this area.

In this regard, the article is devoted to the study of problems arising during the transportation of dangerous goods by sea transport, and the identification of ways to solve them. Here, the organization of this type of transportation of dangerous goods in our republic and in the world is analyzed, the difficulties and existing problems arising during its implementation are studied. On the basis of the obtained results, ways to eliminate difficulties and solve problems are determined.

In the article, the practical significance of the conducted analysis and the economic benefits that can be obtained from the application of ways of solving the studied problems are substantiated.

Key words: *marine transport, marine vessels, transportation rules, dangerous goods, danger class, ship accidents, transportation insurance.*

Redaksiyaya daxilolma: 11.06.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.121-132

UOT: 65613

DOI 10.30546/678209.2025.03.0121

ŞƏHƏRDAXİLİ İCTİMAİ NƏQLİYYATINDA VAXT İTKİLƏRİNİN RİSK ANALİZİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Elməddin Mübərrəd oğlu Salayev

Azərbaycan Texniki Universiteti

elmeddin.salayev@aztu.edu.az

Xülasə: *Müasir şəhər mühitində ictimai nəqliyyatda hərəkət vaxtının səmərəliliyi xidmət keyfiyyətinin və sərnişin məmnuniyyətinin əsas göstəricilərindən biri hesab olunur. Vaxt itkiləri təkcə sərnişin narazılığına deyil, həm də iqtisadi və əməliyyat baxımından sistemin ümumi səmərəliliyinin azalmasına səbəb olur. Bu tədqiqatda ictimai nəqliyyatda gecikmələrin sadəcə nəticə kimi deyil, risk faktoru kimi qiymətləndirilməsi məqsədilə yeni Vaxt İtkisi Risk İndeksi (TLRI) modeli təklif edilmişdir. Təklif olunan modeldə Hadisə Ağacı Analizi (ETA) vasitəsilə gecikmə ssenariləri qurulmuş, Vaxtın Dəyəri (VOT) yanaşması ilə sərnişin vaxt itkisinin dəyəri hesablanmışdır. Model Bakı şəhəri üzrə real marşrut məlumatları əsasında tətbiq edilmiş və tıxac, texniki nasazlıqlar və hava şəraiti kimi faktorların vaxt itkisinə təsiri analiz olunmuşdur. Əldə olunan nəticələr göstərir ki, TLRI modeli ictimai nəqliyyat şəbəkəsində gecikmələrin risk səviyyələrini əvvəlcədən müəyyən etməyə və kritik zonalarda müdaxilə tədbirlərini gücləndirməyə imkan verir. Təklif olunan yanaşma şəhər mobilliyinin artırılması və ictimai nəqliyyatda iqtisadi itkilərin azaldılması üçün effektiv qərar dəstəyi təmin edir.*

Açar sözlər: *Vaxt itkisi, ictimai nəqliyyat, ETA, VOT, risk qiymətləndirilməsi*

Giriş. Müasir şəhər nəqliyyatı sistemləri sürətlə inkişaf edən urbanizasiya və artan mobillik tələbləri fonunda daha effektiv və dayanıqlı fəaliyyət göstərməlidir. İctimai nəqliyyat bu prosesdə əsas rol oynayaraq şəhər sakinlərinin hərəkət tələbatını ödəyir və avtomobil nəqliyyatı ilə bağlı tıxac, ətraf mühit çirklənməsi kimi problemlərin azaldılmasına töhfə verir. Lakin ictimai nəqliyyatın funksional effektivliyinin əsas göstəricilərindən biri olan vaxt səmərəliliyi çox zaman nəzərəçarpacaq problemlərlə üzləşir.

Vaxt itkiləri, ictimai nəqliyyat istifadəçiləri üçün həm fərdi narazılıq, həm də cəmiyyət üçün iqtisadi və sosial itkilər yaradır. Gözləmə, gecikmə və interval pozuntuları sərnişinlərin xidmət keyfiyyətinə olan etibarını azaldır, digər marşrutlar üzrə tıxac effekti yaradır və ümumi şəhər mobilliyinin zəifləməsinə səbəb olur. Bu hallar, nəticə etibarilə ictimai nəqliyyata olan tələbatın azalmasına və avtomobil istifadəsinin artmasına gətirib çıxarır ki, bu da əlavə problemlər yaradır.

Ənənəvi yanaşmalarda vaxt itkiləri əsasən faktiki gecikmə müddətlərinin ölçülməsi ilə qiymətləndirilir. Lakin bu yanaşmalar gecikmələrin yaranma səbəblərini, onların inkişaf dinamikasını və sosial-iqtisadi nəticələrini sistemli şəkildə təhlil etməyə imkan vermir. Mövcud tədqiqatlar gecikmələrin yalnız nəticə səviyyəsində təsvirinə yönəlir və preventiv (qabaqlayıcı) tədbirlərin müəyyən edilməsi üçün yetərli metodoloji baza təqdim etmir.

Bu tədqiqatda ictimai nəqliyyatda vaxt itkilərinin təkcə nəticə kimi deyil, risk faktoru kimi sistemli şəkildə modelləşdirilməsi və onların iqtisadi təsirinin qiymətləndirilməsi məqsədilə yeni yanaşma təklif olunur. Təklif olunan model gecikmələrin səbəb-nəticə əlaqələrinin strukturlaşdırılması və sərnişin vaxtının dəyərinin üzərində qurulmuşdur. Modelin tətbiqi Bakı şəhəri üzrə real marşrutlar əsasında aparılmış və nəticələr şəhər avtobus nəqliyyatının effektiv idarə olunması üçün mühüm nəticələr ortaya qoymuşdur.

Ədəbiyyat analizi: Vaxt itkisi müasir ictimai nəqliyyat sistemlərində səmərəliliyin əsas göstəricilərindən biri kimi qiymətləndirilir. Xidmətin gecikməsi, planlaşdırılan intervalın pozulması və

№ 3/2025 səh.121-132

nəqliyyat vasitələrinin dayanacaq və ya marşrut üzrə ləngiməsi sərnişinlərin narazılığına, digər marşrut xətlərində yüklənməyə və ümumi sistem effektivliyinin azalmasına səbəb olur. Vaxt itkiləri həmçinin iqtisadi baxımdan da qiymətləndirilə bilən risk növüdür.

Səyahət vaxtının dəyəri insanların əlavə vaxt vahidi əldə etmək üçün ödəməyə hazır olduqları qiymət kimi müəyyən edilə bilər, vaxta qənaət dəyəri isə (VTS) iki alternativ fəaliyyət arasında vaxtın yenidən bölüşdürülməsi üçün ödəməyə hazır olmaq kimi müəyyən edilə bilər [1].

VOT modeli sərnişinin bir vahid (adətən saatlıq) vaxtının dəyəri ifadəsini təyin etməyə yönəlib. Dixit və başqaları (2015) tərəfindən təklif olunan yanaşmaya əsasən, sərnişinlərin risk qəbuluna əsaslanan fərdi zaman dəyərləri dəyişə bilər. Bu modeldə əlavə gecikmənin səbəb olduğu vaxt itkisi müəyyən faizlə sərnişinin ödəməyə razı olduğu məbləğə çevrilə bilər. Belə yanaşma xidmət keyfiyyətinin iqtisadi təhlili mühüm hesab olunur [2].

ETA metodu, vaxt itkisinə səbəb olan bir ilkin hadisənin (məsələn, texniki nasazlıq və ya tıxac kimi) müxtəlif nəticə ssenarilərinə necə çevrilə biləcəyini təhlil edir. Bu metodla, ləngimənin tədricən digər marşrut xətlərinə, dayanacaqlara və sərnişin axınına necə təsir etdiyini sistemli şəkildə analiz etmək mümkündür . ETA ictimai nəqliyyatda hadisədən sonra qərar proseslərini simulyasiya etmək üçün də istifadə olunur[3].

Zhang və Wang (2019) öz araşdırmalarında şəhərdaxili avtobusların real vaxt gecikmə səbəblərini GPS və smart kart məlumatları əsasında müəyyən etmişlər. Onların nəticələrinə əsasən, gecikmələrin əsas mənbəyi yol infrastrukturu və dayanacaq davranışları olmuşdur. Bu yanaşma təqdim etdiyimiz ETA modelində səbəb-ehtimal strukturunun qurulması üçün mühüm nəzəri baza rolunu oynayır [4].

Sun, Xu və Liu (2015) tərəfindən təklif edilən model təqvimə uyğunluq və vaxt sabitliyinə əsaslanan gecikmənin dinamik idarə olunması məqsədi daşıyır. Müəlliflər real vaxt məlumatlarına əsaslanaraq avtobusların saxlanılma strategiyasını optimallaşdırır. Bu metodologiya TLRI modelində gecikmə müddətlərinin (Δt) dəyərləndirilməsində əsaslı paralel model yaratmışdır [5].

Song Xinghao və başqaları tərəfindən (2020), Şanxay şəhərində aparılan empirik təhlildə səyahət vaxtı dəyişkənliyinin modelləşdirilməsi məsələsini önə çəkmişlər. Onların işində təqdim olunan GPS əsaslı analiz, sərnişinlərin vaxt itkisini daha real şəkildə qiymətləndirməyə imkan verir. Bu isə bizim tədqiqatımızda Vaxtın Dəyəri (VOT) parametrinin əsaslandırılması baxımından aktualdır [6].

Vlahogianni, Karlaftis və Golias (2011) nəqliyyat sistemlərində qısamüddətli gecikmə proqnozlaşdırılması və qərar dəstəyi sistemlərinin inkişafı sahəsində aparıcı tədqiqatlardan birini təqdim etmişlər. Onların analitik baxışı və statistik modellərə əsaslanan yanaşması, bu tədqiqatda təklif olunan kritik müdaxilə zonalarının identifikasiyası və optimallaşdırma yanaşmalarına elmi əsas verir [7].

Tədqiqat obyekti və ərazi təsviri.

Aşağıdakı xəritədə təqdim olunan 3 nömrəli marşrut üzrə Bakı şəhərində ictimai nəqliyyatın (avtobusların) hərəkəti müşahidə olunmuş və vaxt itkisi riskləri bu trayektoriya üzrə qiymətləndirilmişdir. Göstərilən istiqamət üzrə həm düz, həm də əks istiqamətdə baş verən gecikmə səbəbləri ayrıca təhlil edilmişdir. Müvafiq nəticələr TLRI modeli ilə kəmiyyət ifadəsinə çevrilmiş və risk göstəriciləri hesablanmışdır.

№ 3/2025 səh.121-132



Şəkil 1. 3No avtobus marşrutunun şəhər üzrə trayektoriyası

Yuxarıdakı xəritədə göstərilən avtobus marşrutu üzrə düz və əks istiqamətdə müşahidələr aparılmış, gecikmə səbəbləri və vaxt itkisi dəyərləri toplanmışdır. Bu məlumatlar sonrakı bölmələrdə TLRI (Vaxt İtkisi Risk İndeksi) modeli ilə analiz olunmuşdur.

METODOLOGİYA Bu tədqiqatda ictimai nəqliyyatda vaxt itkilərinin qiymətləndirilməsi üçün kompleks metodoloji yanaşma seçilmişdir. Tətbiq olunan yanaşmalar hadisələrin mümkün inkişaf ssenarilərini (ETA), sərnişinlərin vaxt dəyərini (VOT) əhatə edir.

Hadisə ağacı analizi (ETA) metodundan istifadə edilərək vaxt itkisinin mümkün inkişaf ssenariləri qurulmuşdur. İlkin hadisə kimi "nəqliyyat vasitəsinin dayanacağa gecikməsi" götürülmüş və bu hadisənin texniki nasazlıq, tıxac və interval pozuntusu nəticəsində hansı şəkildə inkişaf edə biləcəyi ssenari şəklində təhlil edilmişdir. Nəticə budur ki, bir gecikmə hadisəsi marşrutda kütləvi yığılmaya və digər xəttlərdə gecikməyə səbəb ola bilər.

Vaxtın dəyəri modeli (VOT) modeli sərnişinlərin vaxtının iqtisadi baxımdan dəyərini hesablamaq üçün tətbiq edilmişdir. Modelə əsasən, əlavə gözləmə və ya gecikmə vaxtı aşağıdakı düsturla qiymətləndirilmişdir [8,9]:

$$VOT_i = \Delta t_i \times \upsilon_i \qquad (1)$$

- Δt_i – sərnişinin əlavə gözləmə müddəti (dəq/saatla)
- υ_i – vaxtın monetar dəyəri (AZN/saat)

Bu yanaşma ilə gecikmənin sərnişinlərə birbaşa iqtisadi təsiri hesablanmış və onun marşrut üzrə ümumi nəticəsi müəyyən edilmişdir.

ETA (Event Tree Analysis) metodologiyasına əsasən bu gecikmə səbəblərinin inkişaf trayektoriyası aşağıdakı şəkildə təqdim olunur:



Şəkil 2. ETA metodologiyasına əsasən "avtobusun dayanacaqda gecikməsi" ilkin hadisəsi üçün səbəb-nəticə ssenariləri

Şəkildə hər bir ssenarinin potensial nəticələri və onların ehtimalları vizuallaşdırılmışdır. Hadisə ağacı analizi (ETA) metodundan istifadə edilərək vaxt itkisinin mümkün inkişaf ssenariləri qurulmuşdur. İlkin hadisə kimi "nəqliyyat vasitəsinin dayanacağa gecikməsi" götürülmüş və bu hadisənin texniki nasazlıq, tıxac və interval pozuntusu nəticəsində hansı şəkildə inkişaf edə biləcəyi ssenari şəklində təhlil edilmişdir.

Vaxt İtkisi Risk İndeksi (TLRI) Hesablanması

Gecikmə halları üzrə ehtimallar və vaxt itkisi dəyərləri birləşdirilərək ümumi Vaxt İtkisi Risk İndeksi (TLRI) hesablanmışdır [10]:

$$TLR\dot{I} = \sum_{i=1}^{n}(P_i \; x \; VOT_i \; x \; \Delta t_i) \qquad (2)$$

Burada:

- P_i – i-ci gecikmə ssenarisinin baş vermə ehtimalı,
- VOT_i – sərnişinin vaxtının dəyəri,
- Δt – əlavə vaxt itkisi.

TLRI göstəricisi 0–1 intervalında normallaşdırılaraq marşrut üzrə gecikmə riskinin səviyyəsi müəyyən edilmişdir.

Bu ssenarilər üzrə ehtimallar (P_i) aşağıdakı düsturla hesablanmışdır [11]:

$$P_i = \frac{n_i}{N} \qquad (3)$$

Burada:

- n_i – i-ci səbəb üzrə qeydə alınan gecikmə hallarının sayı,
- N – ümumilikdə bütün səbəblər üzrə qeydə alınan gecikmə sayı.

Empirik tətbiq: 3 nömrəli marşrut üzrə TLRI hesablaması. Təklif olunan Vaxt İtkisi Risk İndeksi (TLRI) modeli Bakı şəhərinin şəhərdaxili ictimai nəqliyyat şəbəkəsi çərçivəsində tətbiq edilmişdir. Təcrübə üçün səhər pik saatlarında (07:30–09:00) yüksək sərnişin axınına malik olan 3 nömrəli marşrut xətti seçilmişdir.

Hadisə Ağacı Analizi (ETA) və Ehtimalın (P_i) Hesablanması. Hadisə Ağacı Analizi (ETA), ictimai nəqliyyatda baş verən gecikmələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək üçün istifadə edilən strukturlaşdırılmış yanaşmadır. İlkin hadisə kimi "avtobusun dayanacaqda gecikməsi" götürülmüşdür. Bakı şəhərində olan 3 nömrəli marşrutda səhər saatlarında tədqiqat aparılmışdır.Tədqiqat sıxlıq və tıxacın çox olduğu günün səhər pik vaxtlarında düz və əks istiqamətlərdə yerinə yetirilmişdir. Səhər və axşam vaxtlarında marşrutun gecikmə səbəbləri aşağıdakı cədvəldə göstərilmişdir:

№ 3/2025 səh.121-132

Cədvəl 1.

3 nömrəli marşrutun səhər saatlarında hərəkət cədvəli və gecikmə səbələri

№	Dayanacaq Adı	Planlaşdırılan Gəliş Vaxtı	Faktiki Gəliş Vaxtı	Gecikmə (dəqiqə)	Gecikmə Səbəbi	Hava Şəraiti	Sərnişin Sıxlığı (təxmin)	Dayanacaqda dayanma vaxtı(saniyə)	Yolun vəziyyəti
1	Dərnəgül	7:30	7:30	0	Gecikmə yoxdur	Günəşli	5	0	Yaxşı
2	Era tam orta ümumtəhsil məktəbi	7:31	7:31	0	Gecikmə yoxdur	Günəşli	7	5	Yaxşı
3	Azerbaijan International University	7:32	7:32	0	Gecikmə yoxdur	Günəşli	8	8	Yaxşı
4	Abay Kunanbayev ev 66	7:33	7:33	0	Gecikmə yoxdur	Günəşli	15	7	Yaxşı
5	Tayqa Ticarət, supermarket	7:34	7:35	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	23	8	Yaxşı
6	Bravo, supermarket	7:35	7:36	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	19	10	Yaxşı
7	Bolluq İK	7:37	7:37	0	İşıqforun qırmızı işığı	Günəşli	18	20	Yaxşı
8	Azadlıq prospekti metrostansiyası	7:38	7:39	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	16	10	Yaxşı
9	Mərkəzi seçki komitəsi	7:40	7:41	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	21	20	Yaxşı
10	Azadlıq prospekti metrostansiyası	7:42	7:42	0	Gecikmə yoxdur	Günəşli	24	5	Yaxşı
11	Cratos Hall	7:44	7:44	0	Gecikmə yoxdur	Günəşli	25	2	Yaxşı
12	Şövkət Məmmədova küç, 36	7:45	7:45	0	İşıqforun qırmızı işığı	Günəşli	21	1	Yaxşı
13	Ş.Məmmədova küç,4	7:47	7:48	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	29	12	Yaxşı
14	Dövlət aərogeodeziya müəssisəsi	7:50	7:49	0	Tıxac	Günəşli	31	28	Yaxşı
15	Atatürk ev 159	7:53	7:56	3	Sərnişinlərin minib-düşməsi	Günəşli	32	20	Yaxşı
16	Istanbul oteli	7:56	7:59	3	Sərnişinlərin minib-düşməsi	Günəşli	30	16	Yaxşı
17	200 saylı orta məktəb	7:57	8:01	4	Digər avtobusun qarşısını kəsməsi	Günəşli	25	23	Yaxşı
18	Gənclik Mall	7:58	8:02	4	Sərnişinlərin minib-düşməsi	Günəşli	38	16	Yaxşı
19	Caspian Shopping Center	7:59	8:04	5	İşıforun qırmızı işığı	Günəşli	35	42	Yaxşı
20	Metro Gənclik	8:00	8:06	6	İşıforun qırmızı işığı	Günəşli	18	6	Yaxşı
21	Bakı Sağlamliq Mərkəzi	8:03	8:09	6	Yol kənarı park etmiş avtomobillər	Günəşli	19	19	Yaxşı
22	Baki Şəgər Təhsil İdarəsi	8:05	8:10	5	Yol kənarı park etmiş avtomobillər	Günəşli	17	11	Yaxşı
23	1 sayli şəhər klinik xəstəxanasi (Semaşko)	8:08	8:12	4	Yol kənarı park etmiş avtomobillər	Günəşli	24	0	Yaxşı
24	Səhiyyə nazirliyi	8:10	8:13	3	Tıxac	Günəşli	26	17	Yaxşı
25	Rusiya Səfirliyi	8:12	8:17	5	Sərnişinlərin minib-düşməsi	Günəşli	21	0	Yaxşı
26	Sevil Qaziyeva parki	8:15	8:19	4	Tıxac	Günəşli	24	7	Yaxşı
27	54 saylı uşaq bağçası	8:18	8:25	7	Yol kənarı park etmiş avtomobillər	Günəşli	21	6	Yaxşı
28	Dövlət Statistika Komitəsi	8:20	8:26	6	İşıqforun qırmızı işığı	Günəşli	25	4	Yaxşı
29	Mədəniyyət və İncəsənət	8:23	8:28	5	Sərnişinlərin minib-düşməsi	Günəşli	21	10	Yaxşı

	universiteti								
30	Hüseyn Cavid 207	8:25	8:31	6	İşıqforun qırmızı işığı	Günəşli	18	47	Yaxşı
31	Elmlər Akademiyasi metrosu	8:28	8:36	7	Tıxac	Günəşli	19	5	Yaxşı
32	Azərbaycan texniki universiteti	8:30	8:38	8	Sərnişinlərin minib-düşməsi	Günəşli	16	10	Yaxşı
33	73 saylı poçt şöbəsi	8:32	8:39	7	Yol kənarı park etmiş avtomobillər	Günəşli	18	6	Yaxşı
34	16 saylı uşaq musiqi məktəbi	8:35	8:42	7	Yol kənarı park etmiş avtomobillər	Günəşli	15	7	Yaxşı
35	20 saylı məktəb-lisey	8:38	8:44	6	Sərnişinlərin minib-düşməsi	Günəşli	12	3	Yaxşı
36	Fəxri xiyaban	8:41	8:49	7	Tıxac	Günəşli	10	0	Yaxşı
37	Şəhidlər xiyabanı	8:43	8:56	13	Tıxac	Günəşli	8	4	Yaxşı
38	Milli Məclis	8:45	8:58	13	Tıxac	Günəşli	9	6	Yaxşı
39	Baki Oksford Məkttəbi	8:48	9:03	15	Tıxac	Günəşli	7	5	Yaxşı
40	Özbəkistan səfirliyi	8:52	9:06	14	Tıxac	Günəşli	5	0	Yaxşı
41	Səbail rayon sukanal idarəsi	8:55	9:08	13	Tıxac	Günəşli	4	0	Yaxşı
42	Caspian hospital xəstəxanasi	8:58	9:14	16	Tıxac	Günəşli	4	0	Dağınığ asvalt
43	Bazarstore supermarket	9:02	9:19	17	Yol kənarı park etmiş avtomobillər	Günəşli	3	4	Dağınığ asvalt
44	34 saylı şəhər poliklinikası	9:06	9:22	18	Yolda təmir getməsi	Günəşli	1	2	Dağınığ asvalt
45	Badamdar qəsəbəsi	9:10	9:26	16	Yolun dar olması	Günəşli	0	0	Dağınığ asvalt

№	Dayanacaq Adı	Planlaşdırılan Gəliş Vaxtı	Faktiki Gəliş Vaxtı	Gecikmə (dəqiqə)	Gecikmə Səbəbi	Hava Şəraiti	Sərnişin Sıxlığı (təxmin)	Dayanacaqda dayanma vaxtı(saniyə)	Yolun vəziyyəti
1	Badamdar qəsəbəsi	8:50	8:50	0	Gecikmə yoxdur	Günəşli	24	15	Dağınığ asvalt
2	Hərbi xəstəxana	8:53	8:53	0	Gecikmə yoxdur	Günəşli	29	6	Dağınığ asvalt
3	Bazarstore supermarket	8:55	8:54	0	Gecikmə yoxdur	Günəşli	31	9	Dağınığ asvalt
4	Caspian hospital xəstəxanasi	8:57	8:57	0	Gecikmə yoxdur	Günəşli	28	10	Dağınığ asvalt
5	Səbail rayon sukanal idarəsi	9:00	9:05	5	Tıxac	Günəşli	30	9	Dağınığ asvalt
6	Özbəkistan səfirliyi	9:05	9:12	7	Tıxac	Günəşli	28	19	Dağınığ asvalt
7	Abbasqulu Abbaszadə	9:10	9:17	7	Tıxac	Günəşli	34	7	Yaxşı
8	Baki Oksford Məkttəbi	9:13	9:20	7	Yol kənarı park etmiş avtomobillər	Günəşli	34	11	Yaxşı
9	Müdafiə nazirliyi	9:17	9:23	6	Yol kənarı park etmiş avtomobillər	Günəşli	36	4	Yaxşı
10	Respublika İncəsənət gimnaziyası	9:22	9:26	4	Sərnişinlərin minib-düşməsi	Günəşli	37	5	Yaxşı
11	225 sayli orta məktəb	9:25	9:32	7	Tıxac	Günəşli	39	11	Yaxşı
12	5 saylı uşaq poliklinikası	9:28	9:34	6	Sərnişinlərin minib-düşməsi	Günəşli	39	19	Yaxşı
13	Hüseyn Cavid parkı	9:31	9:37	6	Sərnişinlərin minib-düşməsi	Günəşli	42	7	Yaxşı
14	Elmlər Akademiyasi metrosu	9:34	9:42	8	Tıxac	Günəşli	39	5	Yaxşı

15	Hüseyn Cavid 172	9:37	9:46	9	Sərnişinlərin minib-düşməsi	Günəşli	32	4	Yaxşı
16	Mərkəzi dənizçilər xəstəxanasi	9:40	9:50	10	Tıxac	Günəşli	31	0	Yaxşı
17	Mədəniyyət və İncəsənət universiteti	9:45	9:53	8	Tıxac	Günəşli	30	5	Yaxşı
18	Mikayıl Müşfiq parkı	9:48	9:55	7	Tıxac	Günəşli	27	9	Yaxşı
19	Abdulla Şaiq (Fuad İbrahimbəyov k.)	9:51	9:56	5	Tıxac	Günəşli	25	0	Yaxşı
20	54 saylı uşaq bağçası	9:54	9:59	5	Sərnişinlərin minib-düşməsi	Günəşli	14	7	Yaxşı
21	Sevil Qaziyeva parki	9:57	10:04	7	Tıxac	Günəşli	12	6	Yaxşı
22	Türkiyə Səfirliyi	10:00	10:07	7	Sərnişinlərin minib-düşməsi	Günəşli	10	0	Yaxşı
23	Koroğlu parki	10:03	10:12	9	Tıxac	Günəşli	8	45	Yaxşı
24	Gənclik Mall	10:08	10:14	6	Digər avtobusun qarşısını kəsməsi	Günəşli	3	12	Yaxşı
25	Caspian Shopping Center	10:10	10:15	5	Digər avtobusun qarşısını kəsməsi	Günəşli	0	5	Yaxşı
26	Gənclik	10:13	10:17	4	Sərnişinlərin minib-düşməsi	Günəşli	1	0	Yaxşı
27	Istanbul oteli	10:15	10:19	4	Yol kənarı park etmiş avtomobillər	Günəşli	1	0	Yaxşı
28	Atatürk ev 159	10:18	10:21	3	Digər avtobusun qarşısını kəsməsi	Günəşli	0	0	Yaxşı
29	Dövlət aərogeodeziya müəssisəsi	10:21	10:23	2	Sərnişinlərin minib-düşməsi	Günəşli	0	7	Yaxşı
30	Ş.Məmmədova küç,4	10:24	10:24	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
31	Şövkət Məmmədova küç, 36	10:25	10:25	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
32	Şövkət Məmmədova ev 50	10:27	10:27	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
33	Bolluq İK	10:29	10:29	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
34	Bravo, supermarket	10:32	10:33	1	Sərnişinlərin minib-düşməsi	Günəşli	0	0	Yaxşı
35	Tayqa Ticarət, supermarket	10:35	10:35	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
36	Abay Kunanbayev ev 66	10:36	10:36	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
37	Era tam orta ümumtəhsil məktəbi	10:37	10:37	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
38	Binəqədi rayon məhkəməsi	10:38	10:38	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı
39	Dərnəgül	10:40	10:40	0	Gecikmə yoxdur	Günəşli	0	0	Yaxşı

Yuxarıda təqdim olunan geniş məlumat bazası əsasında 3 nömrəli marşrut üzrə düz istiqamətdə qeydə alınan gecikmə halları təhlil edilmişdir. Gecikmələrin yaranma səbəbləri, gecikmə dərəcələri və təkrarolunma ehtimalları sistemli şəkildə analiz olunmuşdur.

Təhlil nəticələrinə əsasən, əsas gecikmə səbəblərinə tıxac, sərnişinlərin minib-düşməsi və yol kənarında park edilmiş avtomobillər daxildir. Bu səbəblərin baş vermə ehtimalları və orta gecikmə dəyərləri aşağıdakı ümumiləşdirilmiş cədvəldə göstərilmişdir. Bu cədvəl tədqiqatın əsas komponentlərindən biri olan TLRI (Vaxt İtkisi Risk İndeksi) modelinə giriş üçün ilkin əsasları təqdim edir.

Aparılan müşahidələr nəticəsində marşrut üzrə avtobusların gecikməsinə səbəb olan halların təkrar sayı, bu hallar zamanı yaranan orta gecikmə müddəti və onların ehtimal payı cədvəl şəklində təqdim olunmuşdur (Cədvəl 1). Təhlil göstərir ki, ən çox müşahidə edilən gecikmə səbəbi tıxac hallarıdır (12 hadisə, 33.3% ehtimal). Bu səbəbdə orta gecikmə müddəti 4.9 dəqiqə təşkil etmişdir.

№ 3/2025 səh.121-132

İkinci əsas səbəb sərnişinlərin minib-düşmə prosesində yaranan ləngimələrdir (10 hadisə, 27.8% ehtimal), burada da oxşar gecikmə müddəti (4.7 dəq) qeydə alınmışdır.

Yol kənarında park edilmiş nəqliyyat vasitələri də vacib risk faktorlarından biridir — bu səbəb üzrə daha az sayda hadisə qeydə alınsa da (7 hadisə, 19.4%), orta gecikmə müddəti yüksək olmuşdur (6.3 dəq), bu da onun təsir gücünün nisbətən yüksək olduğunu göstərir.

Nisbi olaraq az müşahidə edilən hallar, məsələn, digər avtobusun qarşısını kəsməsi və yolda aparılan təmir işləri, gecikmə səbəblərinin 2.8%-ni təşkil etsə də, xüsusilə yol təmiri hallarında gecikmə müddəti olduqca yüksək olmuşdur — 18 dəqiqə.

Bu cədvəl həm TLRI hesablamalarının əsas struktur məlumat bazasını təşkil edir, həm də praktik risk dərəcələrinin prioritetləşdirilməsi üçün mühüm əsas yaradır. Göstəricilərdən də göründüyü kimi, bəzi səbəblər (məsələn, təmir işləri) az ehtimalla baş versə də, təsiri yüksəkdir, digərləri isə (tıxac) həm tez-tez, həm də mülayim təsirlə təkrarlanır.

Cədvəl 2.

Düz istiqamət üzrə əsas gecikmə səbəbləri, ehtimalları və orta gecikmə müddətləri

Gecikmə səbəbi	Gecikmə sayı	Orta gecikmə (dəq)	P_i (Ehtimal)
Tıxac	12	4.9	0.333
Sərnişinlərin minib-düşməsi	10	4.7	0.278
Yol kənarı park edilmiş avtomobillər	7	6.3	0.194
Digər avtobusun qarşısını kəsməsi	1	4.0	0.028
Yolda təmir	1	18.0	0.028

Düz istiqamət üzrə aparılmış müşahidələr əsasında qeydə alınan gecikmə hallarının səbəbləri sistemli şəkildə təhlil edilmişdir. Nəticələr göstərir ki, tıxac, sərnişinlərin minib-düşməsi və yol kənarında park edilmiş avtomobillər bu istiqamətdə də gecikmələrin əsas mənbəyi kimi çıxış edir. Xüsusilə səhər saatlarında şəhər mərkəzinə doğru hərəkət edən marşrutlarda tıxacların daha sıx müşahidə olunması ümumi vaxt itkisinin artmasına səbəb olmuşdur.

Bu səbəblərin baş vermə ehtimalları, ortalama gecikmə müddətləri və gecikmə sayları aşağıdakı cədvəldə ümumiləşdirilmişdir. Təqdim olunan məlumatlar TLRI hesablamalarının ikinci mərhələsində – əks istiqamət üzrə riskin kəmiyyətlə ifadəsi üçün əsas kimi istifadə olunacaq.

Cədvəl 3.

Əks istiqamət üzrə əsas gecikmə səbəbləri, ehtimalları və orta gecikmə müddətləri

Gecikmə səbəbi	Gecikmə sayı	Orta gecikmə (dəq)	P_i (Ehtimal)
Tıxac	11	5.2	0.423
Sərnişinlərin minib-düşməsi	9	4.3	0.346
Yol kənarı park edilmiş avtomobillər	3	4.7	0.115
Digər avtobusun qarşısını kəsməsi	3	4.0	0.115

Yuxarıdakı diaqram əks istiqamətdə baş verən gecikmə hallarının səbəblərinə görə orta vaxt itkisini əks etdirir. Göstərilən nəticələrə əsasən, tıxac səbəbi ilə yaranan gecikmələrin orta müddəti 5.2 dəqiqə ilə ən yüksək göstəriciyə malikdir. Bu, eyni zamanda ən çox rast gəlinən səbəblərdən biridir.

Sərnişinlərin minib-düşməsi səbəbindən baş verən gecikmələr isə orta hesabla 4.3 dəqiqə, yol kənarında park edilmiş avtomobillər səbəbindən 4.7 dəqiqə, və digər avtobusun qarşısını kəsməsi hallarında 4.0 dəqiqə gecikmə qeydə alınmışdır.

Bu göstəricilər göstərir ki, əks istiqamətdə gecikmələrin səbəbləri həm yol şəraiti, həm də sərnişin axını ilə əlaqədar olmaqla orta dərəcəli vaxt itkisinə səbəb olur. Bu dəyərlər TLRI (Vaxt İtkisi Risk İndeksi) modelində orta gecikmə vaxtı komponenti kimi istifadə olunacaq.

Əldə edilmiş müşahidə məlumatlarının daha yaxşı təhlil və müqayisə edilməsi məqsədilə əks istiqamətdə baş verən gecikmə hallarının əsas səbəbləri ayrıca sistemləşdirilmişdir. Hər bir səbəb üzrə gecikmə hallarının tezliyi, orta gecikmə müddəti və baş vermə ehtimalları statistik olaraq müəyyən

edilmiş və TLRI modelinin tətbiqi üçün zəruri bazanı formalaşdırmışdır. Aşağıdakı cədvəl əks istiqamətdə müşahidə olunan əsas gecikmə səbəblərinin ümumiləşdirilmiş göstəricilərini təqdim edir.



Şəkil 3. Əks istiqamət üzrə gecikmə səbəblərinin ehtimal üzrə paylanması

Yuxarıda təqdim olunan diaqram əks istiqamətdə müşahidə edilən gecikmə hallarının başlıca səbəblərinin paylanmasını əks etdirir. Göstərilən paylar (P_i – baş vermə ehtimalları) əsasında müəyyən olunur ki, tıxac faktoru gecikmələrin əsas mənbəyidir və bu səbəbdən yaranan gecikmələr ümumi hadisələrin 42.3%-ni təşkil edir. Növbəti ən mühüm faktor sərnişinlərin minib-düşməsi olub, bu səbəbin payı 34.6% olaraq müəyyən edilmişdir. Digər iki səbəb – yol kənarında park edilmiş avtomobillər və digər avtobusun qarşısını kəsməsi – hər biri 11.5% ehtimalla gecikmələrə səbəb olmuşdur.



Şəkil 4. Düz istiqamət üzrə gecikmə səbəblərinin ümumi paylanması (P_i, daxil edilmiş digər səbəblərlə birlikdə)

Yuxarıdakı diaqram düz istiqamətdə baş verən gecikmə hallarının başlıca səbəblərinin ehtimal baxımından paylanmasını göstərir. Təhlil göstərir ki, tıxac halları ümumi gecikmələrin 33.3%-ni, sərnişinlərin minib-düşməsi isə 27.8%-ni təşkil edir. Bu iki səbəb əsas risk faktorları kimi çıxış edir. Yol kənarı park edilmiş avtomobillər isə 19.4% ehtimalla gecikmələrə səbəb olmuşdur.

Daha az rast gəlinən səbəblər isə digər avtobusların qarşısını kəsməsi və yolda aparılan təmir işləri olub, hər biri 2.8% ehtimalla müşahidə edilmişdir. Bu nəticələr göstərir ki, düz istiqamətdə də əsas risklər yol şəraiti və sərnişin axını ilə birbaşa əlaqədardır.

Bu nəticələr göstərir ki, əks istiqamətdə yaranan gecikmələrin əksəriyyəti marşrut üzrə fiziki maneələr və sərnişin axını ilə bağlıdır. Sözügedən ehtimallar TLRI (Vaxt İtkisi Risk İndeksi) hesablamasında əsas komponentlərdən biri kimi istifadə olunacaq və gecikmə risklərinin iqtisadi dəyərlə qiymətləndirilməsinə xidmət edəcək.

Vaxtın dəyərinin hesablaması (VOT). Sərnişinlərin vaxtının dəyəri ifadəsi olan VOT (Value of Time) aşağıdakı iqtisadi göstəricilərə əsasən hesablanmışdır:

- Orta aylıq əmək haqqı: 1000 AZN

№ 3/2025 səh.121-132

- Aylıq iş saatı: 160 saat
- Düzəliş əmsalı: k = 0.4

$$VOT = \left(\frac{1000}{160}\right) \cdot 0.4 = 2.5 \ \text{AZN/saat} \quad (4)$$

Bu dəyər beynəlxalq metodologiyaya uyğun hesablanmış və marşrut üzrə sərnişin vaxt itkisi riskinin pul dəyərinin müəyyənləşdirilməsi üçün istifadə edilmişdir.

TLRI (Vaxt İtkisi Risk İndeksi) metodunun tətbiqi və nəticələrin qiymətləndirilməsi

Düz və əks istiqamətlər üzrə gecikmə səbəbləri üçün ehtimallar, orta vaxt itkiləri və sərnişin vaxtının dəyəri nəzərə alınaraq TLRI hesablamaları aparılmışdır (Cədvəl 4). Bu birləşdirilmiş cədvəl hər iki istiqamət üzrə ən əsas risk faktorlarını və onların iqtisadi təsirlərini müqayisəli şəkildə təqdim edir

Cədvəl 4.

Düz və əks istiqamət üzrə TLRI hesablamaları

Gecikmə Səbəbi	İstiqamət	P_i (Ehtimal)	Δt (saat)	VOT (AZN/saat)	TLRI (AZN)
Tıxac	Düz	0.333	0.0817	2.5	0.0680
Sərnişinlərin minib-düşməsi	Düz	0.278	0.0783	2.5	0.0544
Yol kənarı park edilmiş avtolar	Düz	0.194	0.105	2.5	0.0509
Digər avtobusun qarşısını kəsməsi	Düz	0.028	0.0667	2.5	0.0046
Yolda təmir	Düz	0.028	0.300	2.5	0.021
Cəmi TLRI – Düz istiqamət	—	—	—	—	**0.198**
Tıxac	Əks	0.423	0.0866	2.5	0.0915
Sərnişinlərin minib-düşməsi	Əks	0.346	0.0716	2.5	0.0619
Yol kənarı park edilmiş avtolar	Əks	0.115	0.0783	2.5	0.0225
Digər avtobusun qarşısını kəsməsi	Əks	0.115	0.0667	2.5	0.0191
Cəmi TLRI – Əks istiqamət	—	—	—	—	**0.195**

Yuxarıdakı cədvəldə hər bir gecikmə səbəbi üzrə başvermə ehtimalı (P_i), həmin səbəbdən yaranan orta əlavə vaxt itkisi (Δt_i), vaxtın iqtisadi dəyəri (VOT_i), və bu göstəricilərin hasilindən alınan iqtisadi risk ($P_i \cdot VOT_i \cdot \Delta t_i$) dəyərləri təqdim olunmuşdur. Bu yanaşma, gecikmələrin həm statistik, həm də iqtisadi cəhətdən nəqliyyat sisteminə təsirini kompleks şəkildə qiymətləndirməyə imkan verir.

Nəticələr və müzakirə. Aparılmış empirik təhlil nəticəsində Bakı şəhərinin 3 nömrəli marşrut xətti üzrə düz və əks istiqamətlərdə hərəkət edən avtobusların gecikmə halları sistemli şəkildə analiz edilmişdir. Bu məqsədlə Hadisə Ağacı Analizi (ETA), Vaxtın Dəyəri modeli (VOT) və Vaxt İtkisi Risk İndeksi (TLRI) yanaşmaları tətbiq olunmuşdur. Gecikmə səbəbləri üzrə baş vermə ehtimalları (P_i), sərnişin vaxtının iqtisadi dəyəri və hər bir səbəbin yaratdığı iqtisadi risk kəmiyyətlə ifadə olunmuşdur.

ETA təhlili göstərmişdir ki, əsas gecikmə səbəbləri həm düz, həm də əks istiqamətdə tıxac, sərnişinlərin minib-düşməsi və yol kənarında park edilmiş avtomobillərlə bağlıdır. Bu analizə əsasən, düz istiqamətdə tıxac səbəbi ilə $P_i = 0.333$, sərnişinlərin minib-düşməsi ilə $P_i = 0.278$, yol kənarı park halları ilə $P_i = 0.194$, digər avtobusun qarşısını kəsməsi və yolda təmir hallarının hər biri üzrə $P_i = 0.028$ olaraq müəyyən edilmişdir. Əks istiqamətdə isə tıxac $P_i = 0.423$, sərnişinlərin minib-düşməsi $P_i = 0.346$, yol kənarı park və digər avtobusun qarşısını kəsməsi halları üçün isə $P_i = 0.115$ olmuşdur.

Vaxtın dəyəri (VOT) statistik göstəricilər əsasında təyin olunmuş və orta aylıq əmək haqqı, aylıq iş saatı və düzəliş əmsalına əsasən 2.5 AZN/saat kimi qəbul edilmişdir. Bu dəyər vasitəsilə sərnişin vaxtının dəyəri ifadəsi təmin edilmiş və TLRI hesablamasında istifadə edilmişdir.

TLRI göstəricilərinin hesablanması zamanı hər gecikmə səbəbi üçün P_i, orta gecikmə müddəti (Δt) və VOT göstəriciləri əsas götürülmüşdür. Nəticələrə əsasən, düz istiqamətdə ümumi TLRI dəyəri 0.198 AZN/sərnişin olmuşdur. Bu istiqamətdə ən yüksək risk dəyəri tıxac səbəbi ilə qeydə alınmış və

0.0680 AZN təşkil etmişdir. Əks istiqamətdə isə ümumi TLRI dəyəri 0.195 AZN/sərnişin olmuşdur və burada da ən yüksək risk tıxac səbəbi ilə qeydə alınaraq 0.0915 AZN səviyyəsində olmuşdur.

Bu nəticələr göstərir ki, əks istiqamətdə TLRI göstəricisi daha yüksəkdir. Bu, əsasən səhər saatlarında şəhər mərkəzindən çıxış zamanı yaranan intensiv tıxacların və yol baryerlərinin təsiri ilə izah edilə bilər. Sərnişinlərin minib-düşməsi isə hər iki istiqamətdə gecikmələrə səbəb olan əhəmiyyətli amil kimi özünü göstərmiş və bu, dayanacaq planlaşdırılması və sərnişin axınının təşkilinə dair ciddi strukturlaşdırılmış yanaşma tələb olunduğunu göstərmişdir.

TLRI göstəricisinin iqtisadi mənası təkcə sərnişin vaxtının itkisindən ibarət deyil, həm də xidmət keyfiyyətinin azalması, sərnişin məmnuniyyətsizliyi və ümumi sistem səmərəliliyinin zəifləməsi ilə əlaqələndirilə bilər. Gecikmələrin təkrarlanma ehtimalı ilə birlikdə TLRI-nin hesablanması gələcəkdə nəqliyyat sistemlərinin simulyasiya modellərində, o cümlədən PTV VISSIM kimi proqram təminatlarında əsas giriş parametri kimi istifadə oluna bilər. Bu analiz əsasında marşrut boyunca kritik müdaxilə zonaları müəyyənləşdirilə və bu zonalarda risk əsaslı qərarvermə ilə nəzarətçi təyinatı, avtobus sıxlığının tənzimlənməsi və yol infrastrukturunun optimallaşdırılması kimi tədbirlər həyata keçirilə bilər.

Təhlilin nəticələrinə əsasən, şəhərdaxili ictimai nəqliyyatın gecikmələrinin minimuma endirilməsi üçün bir neçə istiqamət üzrə tövsiyələr irəli sürülür. İlk olaraq, tıxacların qarşısını almaq üçün xüsusi avtobus zolaqları (Bus lane), yaşıl dalğa sistemi və alternativ marşrutların optimallaşdırılması qiymətləndirilməlidir. İkinci olaraq, yol kənarı nəqliyyat vasitələrinin nəzarətsiz parkına qarşı inzibati tədbirlər gücləndirilməli, xüsusilə marşrutun kritik nöqtələrində bu halın qarşısı alınmalıdır. Nəhayət, ETA və TLRI əsaslı bu metodoloji yanaşma yalnız bir marşrut üçün deyil, bütövlükdə şəhər nəqliyyat sisteminə tətbiq edilə biləcək qərar dəstəyi modeli kimi genişləndirilə bilər.

ƏDƏBİYYAT:

1. Huq M., Explaining Variations in the Value of Time Saving, The All China Economics (ACE) International Conference, The Second Conference, City University of Hong Kong, 2007 https://doi.org/10.1016/j.trpro.2016.11.067
2. Vinayak Dixit , Sisi Jiana , Asif Hassan, Edward Robson (2019). Eliciting perceptions of travel time risk and exploring its impact on value of time. Transportation Research Part B: Methodological, 78, 243–261. https://doi.org/10.1016/j.tranpol.2019.08.001
3. Elvik, R. and Vaa, T. (2004) The Handbook of Road Safety Measures. Journal of Transportation Technologies
4. Zhuang Dai, Xiaolei Ma & Xi Chen (2018): Bus travel time modelling usingGPS probe and smart card data: a probabilistic approach considering link travel time and stationdwell time, Journal of Intelligent Transportation Systems https://doi.org/10.1080/15472450.2018.1470932
5. Sun, J., Xu, C., & Liu, H. X. (2015). A dynamic bus holding strategy based on real-time schedule reliability prediction. Transportation Research Part C, https://doi.org/10.1016/j.trb.2011.07.009
6. Song Xinghao, Teng Jing, Chen Guojun, Shu Qichong, (2013)Predicting Bus Real-time Travel Time Basing on both GPS and RFID Data, Procedia - Social and Behavioral Sciences, Volume 96, , Pages 2287-2299, https://doi.org/10.1016/j.sbspro.2013.08.258.
7. Vlahogianni, E. I., Karlaftis, M. G., & Golias, J. C. (2011). Short-term traffic forecasting: Where we are and where we're going. Transportation Research Part C: Emerging Technologies, https://doi.org/10.1016/j.trc.2014.01.005
8. Kenneth A. Small, Valuation of travel time (2012), Economics of Transportation, https://doi.org/10.1016/j.ecotra.2012.09.002.
9. Athira I C, Muneera C P, Krishnamurthy K, Anjaneyulu M V L R (2014) , Estimation of Value of Travel Time for Work Trips , Transportation Research Procedia, https://doi.org/10.1016/j.trpro.2016.11.067
10. Saaty, T.L. (2008) Decision Making with the Analytic Hierarchy Process. International Journal of Services Sciences, **DOI**: 10.1504/IJSSCI.2008.017590

11. Bertsekas, D. P., & Tsitsiklis, J. N. (2008). *Introduction to Probability*. Massachusetts Institute of Technology. Retrieved from https://www.vfu.bg/en/e-Learning/Math--Bertsekas_Tsitsiklis_Introduction_to_probability.pdf

УДК 656.13

АНАЛИЗ РИСКА И ОЦЕНКА ПОТЕРЬ ВРЕМЕНИ В ГОРОДСКОМ ОБЩЕСТВЕННОМ ТРАНСПОРТЕ

Эльмаддин Мубаррад оглы Салаев
Азербайджанский Технический Университет
elmeddin.salayev@aztu.edu.az

Резюме: *В современных городских условиях эффективность использования времени в пути общественного транспорта считается одним из основных показателей качества обслуживания и удовлетворенности пассажиров. Потери времени не только приводят к недовольству пассажиров, но и снижают общую эффективность системы с экономической и эксплуатационной точки зрения. В данном исследовании предлагается новая модель индекса риска потери времени (TLRI) для оценки задержек в общественном транспорте не только как результата, но и как фактора риска. В предлагаемой модели сценарии задержек строятся с использованием анализа дерева событий (ETA), а стоимость потери времени пассажирами рассчитывается с использованием подхода «ценность времени» (VOT). Модель применяется на основе данных о реальных маршрутах города Баку, и анализируется влияние таких факторов, как пробки, технические сбои и погодные условия, на потерю времени. Полученные результаты показывают, что модель TLRI позволяет заблаговременно выявлять уровни риска задержек в сети общественного транспорта и усиливать меры вмешательства в критических зонах. Предложенный подход обеспечивает эффективную поддержку принятия решений для повышения городской мобильности и снижения экономических потерь в общественном транспорте.*

Ключевые слова: *потеря времени, общественный транспорт, ETA, VOT, оценка риска*

UDC 656.13

RISK ANALYSIS AND ASSESSMENT OF TIME LOSS IN URBAN PUBLIC TRANSPORT

Elmaddin Mubarrad oglu Salayev
Azerbaijan Technical University
elmeddin.salayev@aztu.edu.az

Summary: *In modern urban environments, the efficiency of public transport travel time is considered one of the main indicators of service quality and passenger satisfaction. Time losses not only lead to passenger dissatisfaction, but also reduce the overall efficiency of the system in economic and operational terms. In this study, a new Time Loss Risk Index (TLRI) model is proposed to assess delays in public transport not only as a result, but also as a risk factor. In the proposed model, delay scenarios are constructed using Event Tree Analysis (ETA), and the value of passenger time loss is calculated using the Value of Time (VOT) approach. The model is applied based on real route data for Baku city and the impact of factors such as traffic jams, technical failures, and weather conditions on time loss is analyzed. The results obtained show that the TLRI model allows for the early identification of risk levels of delays in the public transport network and the strengthening of intervention measures in critical zones. The proposed approach provides effective decision support for increasing urban mobility and reducing economic losses in public transport.*

Key words: *Time loss, public transport, ETA, VOT, risk assessment*

Redaksiyaya daxilolma: 07.09.2025
Çapa qəbul olunma: 20.09.2025

№ 3/2025 səh.121-132